DAUN SINDROMLU
ŞƏXSLƏRİN ASSOSİASİYASI

DƏCƏLLƏR DSA
Daun Sindromlu Şəxslərin Assosiasiyası
Association of People with Down's Syndrome

# Daun sindromu olan uşaqlar və onların inkişafının xüsusiyyətləri.

## Valideynlər üçün vəsait







Altıncı kitab

Bakı, 2013-cü il

Pulsuz paylanır

“Daun sindromlu  uşaqlar və onların inkişaf xüsusiyyətləri”
Silsiləsindən

P. L. Jiyanova, Y. V. Pole

# DAUN SİNDROMLU KÖRPƏLƏR

## VALİDEYNLƏR ÜÇÜN VƏSAİT

Moskva - 2009-cu il

УДК 372
ББК  74.3

Müəlliflər: P. L. Jiyanova, özəl pedaqoq, "Daunsayd Ap "
Daun sindromlu uşaqlara ilkin yardım mərkəzi
Y. V. Pole, Hərəkət vərdişlərinin inkişafı üzrə mütəxəssis, ilkin yardım xidmətinin rəhbəri "Daunsayd Ap" Daun sindromlu uşaqlara ilkin yardım mərkəzi

Hazırkı vəsait ailəsində Daun sindromlu uşaq böyüyən valideynlər üçün nəzərdə tutulmuşdur. Oxucu bu kitabda Daun sindromlu uşaqların inkişafı ilə bağlı orta statistik göstəricilərlə yanaşı uşağın əsas inkişaf mərhələləri barədə məlumatlar əldə edəcək və ev şəraitində uşaqlarla məşğələlərin təşkil edilməsi ilə bağlı məsləhətlərlə, eləcə də uşağın böyüməsi və inkişafına yardım edəcək məşğələlərin metodikasının izahı ilə tanış ola biləcəklər. Kitabda konkret tövsiyələr verilir. Onları pedaqoji elmlərdən hətta çox uzaq olan valideynlər də asanlıqla yerinə yetirə bilərlər. Ümid edirik ki, bu, uşaqlarla işləyən çoxsaylı mütəxəssislər üçün də faydalı olacaq.

ISBN 5-89527-081-6
© "Daunsayd Ap" Xeyriyyə Fondu, 2007-ci il

“Daunsayd Ap” İlkin yardım mərkəzi
bu nəşrə göstərdiyi maliyyə dəstəyinə görə
“Rusiya uşaqlarına yardım” (ARC) xeyriyyə cəmiyyətinə
dərin minnətdarlığını ifadə edir.

Müəllif
Rusiya Federasiyasının Səhiyyə və Sosial İnkişaf Nazirliyinin
Ailə, ana və uşaqların tibbi-sosial problemləri departamentinin
direktor müavini
M. V. Qordeevanın
bu metodiki vəsaitin hazırlanması işinə verdiyi töhfəni yüksək
qiymətləndirir.

Resenzentlərə xüsusi minnətdarlıq:
Leonqard V. İ.
Psixologiya elmləri namizədi, A. V. Zaporojeç adına
“Məktəbəqədər uşaqlıq” Mərkəzinin aparıcı elmi işçisi

Razenkova Y. A.
Pedaqoji elmlər namizədi, “İslah pedaqogikası İnstitutunun”
aparıcı elmi işçisi,
Federal Təhsil agentliyinin “Uşaqlara xüsusi yardım və erkən
diaqnostika mərkəzinin” bölmə rəhbəri

Quroveç Q. V
Pedaqoji elmlər namizədi, MDPU-nun xüsusi məktəbəqədər
pedaqogika və psixologiya kafedrasının professoru.

Müəllif kitabın hazırlanması prosesində göstərdiyi yardım və
dəstəyə görə
“Daunsayd Ap” İlkin yardım mərkəzinin təlim proqramlarında
iştirak etmiş valideyn və uşaqlara dərin minnətdarlığını bildirir.

# GİRİŞ

Hörmətli oxucular!

Əlinizdə tutduğunuz bu kitab ailəsində Daun sindromlu körpə böyüyən valideynlər üçün yazılmışdır. İlkin yardım mərkəzinin pedaqoq və psixoloqları neçə ildir ki, uşaqla aparılan məşğələ proqramlarını tərtib etməklə belə ailələrə məsləhətlər verirlər. Bu illər ərzində Daun sindromlu uşaqların təlimi sahəsində valideynlərin və mütəxəssislərin böyük və uğurlu qarşılıqlı fəaliyyət təcrübəsi toplandı və bizə elə gəldi ki, bütün materialları ümumiləşdirmək və onları müntəzəm məsləhətlər almaq imkanı olmayanlara çatdırmaq faydalı olardı. Bu kitabda söhbət müəyyən özəlliklərə malik uşaqlardan gedəcək. Bu özəlliklər uşağın inkişafına maneə törədə bilər, düzgün yanaşma olduqda isə hər bir konkret halda optimal yardım üsullarını göstərə bilər.

Beləliklə, sizin uşağınız sizin gözlədiyiniz kimi doğulmayıb və heç də həmişə adi uşaqlar kimi inkişaf etməyəcək. Lakin, o, böyüyəcək və sizi sevindirəcək, o, daim öyrənəcək. O, çox şeyi tanımalı və hiss etməli olacaq. Sadə vərdişlər və mürəkkəb hərəkətləri, ilkin emosiyaları və dərin hissləri – bütün bunları sizin uşağınız gələcəkdə görəcək. İndi isə ən əsas odur ki, o, həyatının ilk günlərindən sizi tanıyır və sevir. Sizin sevginiz onun üçün həyati vacibdir. Onun vərdişlərini və istəklərini sizdən başqa kim daha yaxşı bilər!? Sizdən başqa kim sevincini həmişə onunla bölüşə və ya onun köməyinə gələ, ona dəstək ola və sakitləşdirə bilər!? Körpənizə əməli yardım göstərmək sizin əlinizdədir. Bu, ona istisnasız olaraq bütün insan məxluqatında gizlənən böyük potensialı üzə çıxarmağa imkan verəcək! Hər bir uşaq kimi sizin körpəniz də sizin isti və diqqətli qayğı və şəfqətinizə çox ehtiyac duyur! Siz – onun ən əzizləri və yaxın adamlarısınız. O, sizin yanınızda yaşayacaq və ona görə də sizin onun inkişafına necə təsir göstərə biləcəyinizi; yeni-yeni uğurlara doğru irəliləməyə necə həvəsləndirməyi; asan olmayan, lakin çox əyləncəli yolla onu əhatə edən ətraf aləmi dərk etməkdə ona düzgün yardım etməyi

bilməyiniz çox vacibdir.

## Bu kitab necə tərtib edilmişdir

Dövrümüzdə əminliklə sübut edilmişdir ki, körpələrin stimulyasiyasına **erkən başlanması** onların inkişafında əhəmiyyətli nəticələrin əldə edilməsinə kömək edir. Bir çox alimlər və praktiklər təlimin erkən başlanması ilə yanaşı uşaqda olan potensialın maksimum istifadə edilməsi üçün vacib olan iki əsas şərti fərqləndirirlər.

Birincisi, ən əsası, bundan əlavə sizin körpəniz üçün həyati vacib olan odur ki, o, onu sevənlərin əhatəsində – **ailədə böyüyür.**

İkincisi – **onun inkişafı üçün vacib olan şəraitin mövcudluğu.** Diqqətinizi hazırkı vəsaitə cəlb etməklə sizə bu sahədə yardım etməyə ümid edirik. Bu kitabda yerinə yetirilməsi hətta pedaqoji elmlərdən çox uzaq olan valideynlərə belə çətin olmayan konkret tövsiyələr verilir. Oxuyacağınızın bir hissəsi, əlbəttə, sizə tanışdır: Siz, böyük övladlarınızla və ya kiçik qardaşlarınız, bacılarınız, qardaş və ya bacılarınızın övladları ilə məşğul olarkən bəzilərini artıq istifadə etmişsiniz. Nəhayət, siz də uşaq olmusunuz və necə oynadığınızı və sizə nəyin maraqlı olduğunu xatırlaya bilərsiniz. Siz çox şeyi intuisiya ilə hiss edirsiniz, sizin bu və ya digər vəziyyətlərdə necə hərəkət etməli olduğunuzu anlamanız üçün kifayət qədər az köməyə ehtiyac duyulur. Daun sindromlu uşaqlara xas olan özəlliklər haqqında bilikləriniz isə çətin vəziyyətlərdə düzgün hərəkət strategiyasını daha tez seçməkdə sizə yardım edəcək.

Beləliklə, uşağa təlim şəraiti yaratmağa başladığınız vaxt bilmək vacibdir ki, Daun sindromu zamanı biz təkcə vərdişlərin daha gec müddətə formalaşdırılması ilə deyil, eləcə də xüsusi inkişaf yolu ilə məşğul olmalıyıq. Bütün məsləhətlərimizdə bu xüsusi yol nəzərə alınır Çünki, uşağın inkişafına onun özəlliklərinin əksinə deyil, bir çox hallarda onlara əsaslanaraq yardım edir. Məsələn: Daun sindromlu uşaqlar yaxşı təkrar etmək bacarığına malik olurlar və bu, yeni

bacarığı mənimsəmənin ən əsas üsullarından biri ola bilər.

**Birinci fəsil** Daun sindromlu uşaqların inkişafı haqqında orta statistik məlumatların yerləşdirildiyi özünəməxsus arayış kitabçası rolunu oynayır. Uşaqla **məşğələlərin necə təşkil edilməsi** ilə bağlı suallara elə orada cavab tapa bilərsiniz.

**İkinci fəsil Daun sindromlu körpələrin (doğumdan bir yaşa qədər) inkişafına həsr edilmişdir.**

- Hər bir mərhələnin təsviri onun qısa xarakteristikası ilə başlanır.
- Sonra uşaqla qarşılıqlı fəaliyyət və inkişaf etdirici mühitin yaradılması üzrə ümumi məsləhətlər verilir.
- Hər bir mərhələ sizin verilən tövsiyələri gerçəkləşdirməyinizə yardım edəcək xüsusi təşkil olunmuş oyun və məşqlərlə tamamlanır.

**Bir yaşından sonra** uşaqla məşğələlərin təşkili üzrə tövsiyələr **(üçüncü fəsil)** uşağın inkişafının əsas istiqamətləri üzrə məşğələlərin ətraflı metodikasından ibarətdir.

Kitabın sonunda uşaqla məşğul olarkən istifadə edə biləcəyiniz konkret materiallardan ibarət **əlavələr** yerləşdirilmişdir.

## Fəsil 1

# ERKƏN YAŞLARINDA UŞAQLARIN ÖZƏLLİKLƏRİ

## Erkən yaşlarında uşaqlar necə inkişaf edirlər?

Erkən yaşlı uşaqların inkişafı qeyri-bərabər inkişafla xarakterizə olunur. Hər bir yaş dövrü müxtəlif fəaliyyət növlərinin formalaşması üçün əlverişlidir. Beləliklə, bir yaşına qədər yaş dövrü qavrayış və emosional ünsiyyətin inkişafı üçün, birdən üç yaşa qədər dövr nitqin inkişafı üçün, ikidən dörd yaşa qədər isə əşyaların xassələrinin və keyfiyyətinin ayırd edilməsi bacarığı (əşyavi qavrayış) üçün daha hissiyyatlıdır – **senzitivdir**. Pedaqoq və psixoloqlar tərəfindən bir qayda olaraq qəbul edilmişdir ki, **uşaqda formalaşan bütün fəaliyyət növlərini əhatə edən senzitiv inkişaf mərhələləri bir-biri ilə qarşılıqlı asılı və əlaqəlidir.** Funksiyalardan birinin pozulması digərinin inkişafdan qalmasına səbəb olacaq. Məsələn, körpə ikinci yarım-ildə oturmağı öyrənməzsə, onun adətən ikinci yarım-ildə baş verən – əşyalarla oyunu mürəkkəbləşdirmə mərhələsinə keçməsi demək olar ki, mümkün olmur. Buna görə də, uşaq onun çarpayısından asılmış oyuncağa vurmaqla, ən yaxşı halda isə cilgildəyən oyuncağı tutmaq və onu silkələməklə məhdudlaşır. Belə vəziyyət və belə oyun üsulu belə yaşdakı uşaqların inkişafı üçün artıq kifayət etmir və buna görə də düşünmə qabiliyyətinin ilkin formaları və kiçik motorika vərdişlərinin formalaşdırmaqda geri qalır. İnkişafın belə pozulmaları ikinci dərəcəli adlanır və uşağa stimulyasiyanı düzgün təşkil etməklə bunlardan qaçmaq olar. Göstərilən nümunədə uşağın otura bilməsi və əşyaları oynatması üçün şərait yaratmaqla biz uşaqda kiçik hərəkətlər və əşyavi hərəkət təfəkkürünün inkişafındakı pozulmaların qarşısını alırıq.

## Erkən yaşlarında Daun sindromlu uşaqların inkişaf xüsusiyyətləri

Daun sindromlu uşaqların necə inkişaf etməsi, onların hansı inkişaf perspektivlərinə və gerçəklikdə hansı çətinliklərlə malik olduqları haqqında təsəvvürlər əksər hallarda çoxsaylı uydurmalarla təhrif edilmişdir. İndiyə qədər belə uşaqların ünsiyyət qura bilməmələri, öz yaxınlarınızı tanımamaları, uşaq bağçalarına və məktəbə gedə bilmələri kimi fikirlər qalmaqdadır. Guya, valideynləri onların tərbiyəsi ilə bacarmırlar və ona görə də yaxşı olar ki, belə uşaqlar uşaq evlərində saxlanılsınlar. Səciyyəvidir ki, belə nöqteyi-nəzərlər təkcə əhali arasında mövcud deyil. Eləcə də, analıq qayğısından məhrum olmuş uşaqların inkişafı haqqındakı məlumatlara əsaslanan və ailədə tərbiyə olunan Daun sindromlu uşaqların real potensialı barədə tam təsəvvürlərə malik olmayan bəzi mütəxəssislər – tibb işçiləri və pedaqoqlar da belə fikirdədirlər.

Yaxın adamlarının əhatəsində böyüyən Daun sindromlu uşaqların erkən inkişaf mərhələsinə diqqət yetirək və onları adi inkişafda olan yaşıdlarının göstəriciləri ilə müqayisə edək. (Cədvəl 1-ə baxın)

Cədvəl 1

**Erkən yaşlarında uşaqların inkişafı ***

| Vərdişlər | Daun sindromlu uşaqlar | | Nor göstəricilər | |
|---|---|---|---|---|
| | Vərdişlərin yaranmasının orta yaş dövrü (ayla) | Vərdişlərin yaranmasının diapazonu (ayla) | Vərdişlərin yaranmasının orta yaş dövrü (ayla) | Vərdişlərin yaranmasının diapazonu (ayla) |
| Gülümsəyir | 2 | 1,5 –dən 4-ə qədər | 1 | 0,5-dən 3-ə qədər |
| Çevrilir | 8 | 4-dən 22-yə qədər | 5 | 2-dən 10-a qədər |

| | | | | |
|---|---|---|---|---|
| Sərbəst oturur | 10 | 6-dan 28-ə qədər | 7 | 5-dən 9-a qədər |
| Üzü üstə sürünür | 12 | 7-dən 21-ə qədər | 8 | 6-dan 11-ə qədər |
| İməkləyir | 15 | 9-dan 27-yə qədər | 10 | 7-dən 13-ə qədər |
| Durur | 20 | 11-dən 42-yə qədər | 11 | 8-dən 16-ya qədər |
| Yeriyir | 24** | 12-dən 65-ə qədər | 13 | 8-dən 18-ə qədər |
| Söz deyir | 16 | 9-dan 31-ə qədər | 20 | 6-dan 14-ə qədər |
| Cümlə deyir | 28 | 18-dən 96-ya qədər | 21 | 14-dən 32-yə qədər |

* Bəzi yerli mənbələrdə körpələrin bir neçə başqa inkişaf normasını qeyd edirlər: o cümlədən, sürüşmə - yeddinci ayda, ayaq üstə dayaqsız durma bacarığı - səkkizinci ayda, sərbəst yerimə - bir yaşında.

** Daunsayd Ap mərkəzinin mütəxəssislərinin müşahidələrinə əsasən yerimə vərdişinin formalaşmasının orta göstəricisi 19 aydır. Vərdişin yaranma müddətinin diapazonu 13-48 aydır.

**Cədvəldə verilən məlumatların qısa təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir:**

- Erkən yaşlı Daun sindromlu uşaqlar inkişafında pozuntu olmayan uşaqların keçdiyi inkişaf mərhələlərini keçirlər;
- Vərdişlərin yaranmasının orta müddətləri normativlərlə müqayisədə gecikir;
- Daun sindromlu uşaqlarda vərdişlərin yaranması müddətlərində yaş fərqi adi yaşıdları ilə müqayisədə kifayət qədər böyükdür. Belə ki, məsələn, normal halda yerimənin formalaşma diapazonu 10 ay (8 aydan 18 aya qədər) təşkil

etdiyi halda Daun sindromlu uşaqlarda bu diapazon 53 aya (12 aydan 65 aya qədər) bərabərdir;

- Daun sindromlu uşaqlarda ayrı-ayrı vərdişlərin yaranması müddətləri yaş normasının diapazonuna düşür.

Yadda saxlamaq lazımdır ki, psixomotor inkişafın gecikməsi uşaqların səhhətində yaranan müxtəlif problemlərinin nəticəsində mürəkkəbləşə bilər. Əksər hallarda müvafiq müalicə üsullarını seçməklə onları həll etmək olar.
İnkişafın bütün mərhələlərini daha ətraflı nəzərdən keçirək.

## Sosial-emosional inkişaf

Körpənin və valideynlərin bir-birinə qarşılıqlı bağlılığı, ailədə uşağı əhatə edən sevgi və qayğı atmosferi onun inkişafı üçün lazım olan əsas şərtləri təmin edir. Daun sindromlu körpə, şübhəsiz ki, istisna deyil. Bundan əlavə, xüsusi inkişaf özəlliklərinə malik hər bir uşaq üçün evdə göstərilən qayğı və sevgi onun üçün həyati əhəmiyyət daşıyır.

**Körpənin davranışı.** Əksər tədqiqatçılar hesab edirlər ki, təbiət sadə, lakin son dərəcə vacib səbəbdən – yaşamaq üçün uşağa ünsiyyət mexanizmi əta etmişdir. Uşaqda başlanğıcdan, ona anası ilə yaxınlığa nail olmağa kömək edən vasitələr yaradılmışdır. Yaxın adamının yanında olmaq üçün iki imkandan istifadə etmək olar: birincisi, valideynin diqqətini özünə cəlb etməsi və ikincisi, özünün ona yaxınlaşmasıdır. Körpənin doğumunun birinci yarım-ilində uşaq yalnız birinciyə malik olur: Körpə anasının üzünə baxır, ağlayır və ya gülümsəyir, onun üzünün ifadəsi dəyişir, o, müxtəlif jestlərdən istifadə edir, səs çıxarır, əlini ona tərəf uzadıb onu götürməsini istəyir. Bütün bunlar ana üçün dərin məna kəsb edir və ona başa salır ki, uşaq onu görür, onunla şaddır və onun yanında olmasını istəyir. Körpə bir az böyüyərək bacardığı bütün vasitələrdən istifadə etməklə anasını izləməyə başlayır.

**Ananın,** adətən, “ana qayğısı” və ya “ana nəvazişi” adlanan **davranışını** hərdən “qayıdış davranışı” adlandırırlar. Bu, ana qayğısının əsas məğzini – körpəsi ilə yaxınlığı

saxlamaq səyini təyin edir. Belə davranışın əsasında ananın körpəsinə sevgisi və onu qorumaq arzusu dayanır. Hər bir anada körpəsinin onun yaxınlığında olmasına necə reaksiya göstərməli olduğu haqda təsəvvürü olur. Burada isə bilmək vacibdir ki, daun sindromlu uşaqlarda gözlə əlaqə qurma vərdişinin yaranmağa başlaması iki-iki həftə yarım gecikə bilər. Onlarda gülümsəmə vərdişinin yaranması daha gec (orta hesabla bir ay) və onun az ifadəli olması müşahidə olunur. Daun sindromlu uşaqlar daha çox 6 aydan sonra fəal şəkildə səs çıxarırlar ki, bu da onların yaşıdları ilə müqayisədə iki ay gecdir. Əgər ana və ailənin digər üzvləri bu xüsusiyyətləri bilmirlərsə, onlara elə gələ bilər ki, onların mövcudluğu uşaq üçün əhəmiyyətsizdir. Lakin, Daun sindromlu uşaqlar onların adi yaşıdları kimi qarşılıqlı hərəkətə hazırdırlar, hər kəsdən daha çox bunu gözləyir və ehtiyac duyurlar. Lakin, onun gecikmiş və ya daha az hiss edilən reaksiyasını ana və ya digər yaxın adamları görməyə bilərlər. Buna görə də, onda bunun heç olmadığı qərarına gəlmək və körpə ilə ünsiyyətin onun qayğısına qalmaqla məhdudlaşdırılması, şübhəsiz, onun inkişafı üçün kifayət deyil. Bundan əlavə, müxtəlif xəstəliklər və əmmənin pozulması kimi körpəni yedizdirmə problemi də uşağın anası ilə ünsiyyətinə mane ola bilər.

## Ünsiyyətin formalaşması, nitqin inkişafı

Ətrafdakıların danışığını başa düşmə (impressiv nitq) hər bir uşağın öz nitq qabiliyyətindən (ekspressiv nitq) əvvəl gəlir. Daun sindromu zamanı bu məsafə  söz ehtiyatının həcminə görə böyük və zamana görə uzun olur. Başqa sözlə, körpə söhbətin nədən getdiyini başa düşür, lakin, cavab verə bilmir. O, öz arzu və istəklərini ifadə etməkdə çətinlik çəkir, bu isə onun ümumi inkişafına mane olur və davranışlarında problemlərin yaranmasına gətirib çıxarır. Ona görə də, bütün dünyanın tədqiqatçıları və praktikləri uşağın öz nitqini müvəqqəti olaraq bu məsafəni azaltmağa yardım edəcək yardımçı ünsiyyət üsulları ilə tamamlamaq və onun

inkişafındakı mümkün pozulmaların qarşısını almağı təklif edirlər. Üç yaşından yuxarı uşaqlarla keçirilən məşğələlərdə adətən sözlər yazılan lövhəciklər, kiçik uşaqlar üçün isə adi nitqin zamanla sıradan çıxaracağı sadə jestlərdən istifadə edilir. Daun sindromu zamanı nitqin necə inkişaf etdiyi barədə sizdə daha dəqiq təsəvvür yaratmağa yardım edəcək məlumatları (cədvəl 2) diqqətinizə təqdim edirik.

| Yaş | Normal ekspressiv nitq | Daun sindromlu uşaqlarda ekspressiv nitq | Normal impressiv nitq | Daun sindromlu uşaqlarda impressiv nitq |
|---|---|---|---|---|
| Doğulandan bir yaşa qədər | Qığıldama, uğuldama, gülmə və ağlama. 4-6 aydan anlaşılmaz danışıq yaranır və inkişaf edir. Ana dilin səslərini xatırladan vokalizasiya yaranır. 8-9 aydan 1 yaş iki aylığa qədər ilk sözü öyrənir | Qığıldama, uğuldama, gülmə və ağlama. Adətən, 8-ci aydan anlaşılmaz danışıq yaranır | 5-6 aydan ona deyilən sözləri başa düşürlər. Bir yaşına yaxın hərəkətlərlə və ya təsvirlərlə sözləri əşyalara uyğunlaşdırırlar. İstənildikdə, sadə süjetli şəkildə lazımi təsviri göstərirlər. | Birinci ilin axırına yaxın bir neçə sözü başa düşür, bu sözləri gerçək əşyalarla və onların sadə əşya şəkillərindəki təsvirlərinə uyğunlaşdırırlar. İstənildikdə sadə hərəkətlər edə bilirlər, məsələn, sağollaşmaq, hansı böyük-dür, laduşki |
| Bir yaşdan iki yaşa qədər | 50 sözdən 200-250 sözə qədər lüğət bazası. İki-üç sözdən ibarət cümlə | Jestlər və ilk 10 söz mey-dana çıxır. Söz və jestləri birləşdirməyə başlayır | Hərəkət və keyfiyyəti bildirən sözləri başa düşmək hesabına lüğət bazası genişlənir. Körpə iki mərhələli təlimatları yerinə yetirir, sözönülərin mənasını anlamağa başlayır | Hərəkətlərlə və təsvirlərlə sözləri əşyalara uyğunlaşdırmaq. İstənildikdə, sadə süjetli şəkildə lazımi təsviri göstərirlər. |
| İki yaşdan üç yaşa qədər | Üçüncü ilə yaxın lüğətin 800-100 söz olur. Demək olar ki, bütün nitq hissələri mövcud olur. Uşaq üç, dörd sözdən ibarət cümlələrdən istifadə edir, ana dilin elementar qrammatik vərdişlərə malik olur. | Aktiv lüğətdə 30-a yaxın söz olur. Çox vaxt söz və jestlərdən ibarət sadə qram-matikaya uyğun olmayan ifadələr yaranır. | Sadə nağılları başa düşür, əvvəlcə göz yaddaşı, sonra isə şifahi şəkildə | Söz yaddaşı ilə sadə adap-tasiya olunmuş nağılları başa düşür |

## Böyük motorikanın və məkan oriyentasiyasının inkişafı

Erkən uşaq yaşlarında hərəkətin inkişafı ünsiyyətin və qavrayışın formalaşması ilə birgə erkən inkişafın əsasını təşkil edir. Hər bir insanda hərəkət ehtiyacı başlanğıcdan olur və Daun sindromlu uşaqlar da sözsüz ki, istisna deyillər. Lakin, hərəkət vərdişləri onlarda adi inkişaf edən yaşıdlarından fərqli formalaşır. Daun sindromlu uşaqlarda böyük motorika vərdişlərinin yarandığı yaşa diqqət yetirək (cədvəl 3).

Cədvəl 3

**Hərəkətin inkişafının müqayisəli göstəriciləri**

| **Vərdişlər** | **Normativ göstəricilər** | **Daun sindromu. Xarici mənbənin göstəriciləri** | **Daun sindromu. DSA Mərkəzinin göstəriciləri** |
|---|---|---|---|
| | Yaş dövrü (ayla) | | |
| Çevrilir | 5 | 8 | 6 |
| Sərbəst oturur | 7 | 10 | 8,5 |
| Üzü üstə sürünür | 8 | 10 | 8,7 |
| İməkləyir | 10 | 15 | 12,5 |
| Durur | 11 | 20 | 14,5 |
| Yeriyir | 13 | 24 | 18,2 |

XX əsrin səksəninci illərindən hesab edilirdi ki, Daun sindromlu uşaqlarda hərəkətin inkişaf mərhələlərinin ardıcıllığı normal uşaqlardakı kimidir, ancaq, vərdişlər daha uzun müddətlərdə yaranır. Lakin, müasir dövrün alimləri və praktikləri belə bir fərziyyəni dəstəkləyirlər ki, bu halda təkcə gecikmiş deyil, eləcə də alternativ inkişaf baş verir, bu isə vərdişlərin və onların keyfiyyət dəyişmələrinin formalaşmasının başqa qaydasını nəzərdə tutur. Son onilliklərdəki tədqiqatlar təsdiq etdi ki, Daun sindromlu insanlarda böyük hərəkətlərin inkişafındakı pozulmaların əsasında aşağı əzələ tonusu durur. Bu isə öz növbəsində əzələlərin hərəkətinin əlaqəliliyinin pozulmasına, bədənin

hissiyyatlılığının azalmasına, bağların son dərəcə elastik olmasına və oynaqların hərəkətliliyinin artmasına gətirib çıxarır. Bunun nəticəsində belə uşaqlarda böyük motorikanın inkişafının bütün komponentlərinin – əzələnin gücü, müvazinət, əlaqəlilik, məkanda oriyentasiya qabiliyyəti, reaksiya sürəti, dözümlülüyün öz xüsusiyyətləri olur. Məsələn, Daun sindromlu uşaq bədənin vəziyyətinə nəzarətdəki çatışmazlığı kompensasiya etmək üçün əsasən simmetrik və statik duruşdan istifadə edir. O, elə hərəkət etməyə çalışır ki, ağırlıq mərkəzinin proyeksiyası dayaq sahəsindən kənara çıxmasın.

Daun sindromlu uşaqlarda hərəkət qabiliyyətinin inkişafı üzrə ixtisaslaşmış holland alimi Peter Lauteslaqer hərəkət vərdişlərinin formalaşmasının xüsusi ardıcıllığını müəyyən etmişdir.

1. Arxası üstdə uzanmış vəziyyətdə ayaqlarını qaldırır.
2. Arxası üstdə uzanmış vəziyyətdə əllərini qaldırır.
3. Arxası üstdə uzanmış vəziyyətdə başını qaldırır.
4. Üzü üstdə uzanmış vəziyyətdə pəncələrinə dirənir.
5. Üzü üstdə uzanmış vəziyyətdən arxası üstə çevrilir
6. Arxası üstdə uzanmış vəziyyətdən üzü üstə çevrilir
7. Oturur.
8. Sürünür.
9. Söykənəcək boyunca yeriyir.
10. Söykənəcəyin yanında durur.
11. Söykənəcəyə tutub qalxır.
12. Sərbəst durur.
13. Uzanmış vəziyyətdən qalxıb oturur.
14. Sərbəst yeriyir.
15. Söykənəcək olmadan ayağa qalxır.

**Bu ardıcıllığı təhlil etdikdən sonra bu nəticəyə gəlmək olar ki,** *statik vəziyyəti saxlamaq bacarığı bir vəziyyəti digəri ilə dəyişmə qabiliyyətindən əvvəl yaranır.* **Məsələn, artıq oturaq vəziyyəti saxlamağı bacaran uşaq heç də tezliklə oturmağı öyrənmir. Bu arada, əzələ tonusunun pozulmaları olmadan**

**oturmaq bacarığı və oturaq vəziyyəti saxlama qabiliyyəti praktik olaraq eyni zamanda formalaşır.**
Bu, xüsusi iş strategiyasını şərtləndirir. Məsələn, uşaq aşağı oturmağı və sərbəst ayağa qalxmağı öyrənməzdən xeyli müddət əvvəl ona yerinə oturmağı və ayaq üstə qalmağı öyrətmək lazımdır. Təbii ki, vəziyyəti dəyişmənin öyrədilməsi, yəni, təkcə statik vəziyyətdə deyil, eləcə də hərəkət zamanı bütün bədənin yerini dəyişmək və müvazinəti saxlama uşağın hərəkət qabiliyyətinin inkişafı üzrə məşğələlərin əsas məzmununa çevrilir.
*Daun sindromlu uşaqlarda hərəkət vərdişlərinin inkişaf səviyyəsi əhəmiyyətli dərəcədə işin vaxtında və düzgün təşkil edilməsindən asılıdır.*

**Kiçik motorikanın və görmə-hərəkət əlaqəliliyinin inkişafı**
Hərəkət sferasından danışarkən, qeyd etmək lazımdır ki, Daun sindromlu uşaqlarda əllərin kiçik / incə hərəkətinin də öz xüsusiyyətləri vardır.
- Ən çox əllərini hərəkət etdirmək əvəzinə çiyin və çiyinətrafını hərəkət etdirirlər. Aşağı tonuslu uşaqlarda xüsusi məşğələlər aparılmadıqda bu bacarıqlar dörd-beş yaşına qədər müşahidə edilə bilər.
- Baş barmaq yuxarı istiqamətlənmiş şəkildə əlini möhkəm yerə qoyaraq biləyi lazımi vəziyyətə gətirmək uşağa daha asan gəlir. Dayaq olmadan sabitliyi saxlamağın vacibliyi uşağı yorur və onun hərəkətə marağı itir.
- Daun sindromlu uşaqlarda müxtəlif əşyaları əl ilə tutmaq vərdişinin formalaşması adi ardıcıllıqla baş verir: ovucda tutma, çimdikləmə, iki barmağı ilə tutma və aralıq formalar. Lakin, burada da xüsusi özəlliklər qeyd edilir: sonradan əşyanı qeyr-iradi ələ keçirmək yavaş-yavaş azalır, xüsusi iş aparılmadıqda ovucla ələ keçirmə vərdişi uzun müddət davam edə bilər. Ələ keçirmə gücü aşağıdır. Ovucun və biləyin anatomik xüsusiyyətləri bir sıra hallarda biləyin sabitləşməsini çətinləşdirə və əşyanı barmaqları işlətməklə ələ

keçirmə vərdişinin formalaşmasını ləngidə bilər.
*Kiçik motorikanın formalaşmasını çətinləşdirən amillərin olmasına baxmayaraq, işin düzgün təşkil edilməsi üç yaşına yaxın uşaqda əşyanı əl ilə tutmanın bütün növlərini formalaşdırmağa imkan verir. Bunların köməyi ilə isə o, əşyalarla sadə hərəkətləri yerinə yetirə bilər.*
Eyni zamanda nəzərə almaq vacibdir ki, kiçik motorikanın inkişafının yüksək səviyyədə olmasının özü bu və ya digər vərdişlərin yaranmasına zəmanət vermir. Əsasını hərəkətlər zəncirinin təşkil etdiyi mürəkkəb vərdişlərin formalaşması xüsusi yanaşma tələb edir. Siz tövsiyələrlə tanış olduqdan sonra onun təsvirini tapacaqsınız.

**İdrak fəaliyyətinin (koqnitiv inkişaf) inkişafı**

Koqnitiv inkişafın azalma dərəcəsi haqda danışarkən, qeyd etmək lazımdır ki, son illərdə aparılan tədqiqatlar Daun sindromlu bütün uşaqların intellektual imkanlarının azalma dərəcəsinin çox olması barədə əvvəllər gəlinmiş nəticələri rədd edir. Ömrünün çox ilini Daun sindromlu insanların imkanları üzrə tədqiqata həsr etmiş məşhur alim, pediatr Ziqfrid Puşelə görə erkən yaşlı Daun sindromlu əksər uşaqlarda koqnitiv inkişafın geri qalma dərəcəsi yüngül səviyyə ilə orta səviyyə arasındadır. Bəzi uşaqların intellektual fəaliyyət səviyyəsi orta və aşağı hədlər arasındadır və yalnız çox az uşaqlarda intellektual inkişafın gözəçarpan ləngiməsi müşahidə olunur.

Tədqiqatçılar və praktiklər qeyd edirlər ki, idrak fəaliyyətinin xüsusiyyətləri əhəmiyyətli dərəcədə onun ətrafdakılarla qarşılıqlı əlaqəsindən, qismən də stimullaşdırıcı şəraitin olub olmadığından asılı olan uşağın inkişafını müəyyən edən yeganə amil deyil.

**Özünəqulluq vərdişlərinin inkişafı**

Mədəni-gigiyenik vərdişlərin formalaşması üçün ən əlverişli vaxt erkən uşaqlıq dövrüdür. Yadda saxlamaq vacibdir ki, onların inkişafının əsasında uşağın böyüklə əməkdaşlığı

prosesində yaranan onun əşyavi fəaliyyəti durur. Daun sindromlu uşaqlarda özünə qulluq etmə vərdişlərinin inkişaf səviyyəsini nəzərdən keçirək (cədvəl 4).

Cədvəl 4

**Erkən yaşlarda özünəqulluq vərdişlərinin formalaşması**

| **Vərdişlər** | **Normal halda vərdişlərin yaranmasının təqribi yaş dövrü** | **Daun sindromlu uşaqlar DSA Mərkəzinin göstəriciləri** |
|---|---|---|
| | Yaş dövrü (ayla) | |
| Bərk qidanı yeyir | 7-12 | 8-18 |
| Qaşıqla sərbəst yeyir, lakin azca yerə tökür | 12-18 bəzi mənbələrə görə 20-24 | 12-30 |
| Fincandan sərbəst içir | 12-19 | 18-36 |
| Bayıra getmək istəyir | 15-24 | 18-36 |

*Özünəqulluq vərdişlərinin formalaşma müddəti həm uşağın imkanlarından, həm də valideynlərin ona bu vərdişləri hansı yaş dövründə öyrətməyin lazım və mümkün olduğu barədə təsəvvürlərindən asılır.* Belə ki, uşağın imkanlarının onun yaxınları tərəfindən ona zəif və xəstə uşaq obrazında nəzər salaraq əsassız şəkildə azaldılması özünəqulluq vərdişlərinin yaranmasına onun inkişafının obyektiv xüsusiyyətlərindən daha çox dərəcədə mənfi təsir göstərə bilər.

Eyni zamanda, valideynlərin uşağın uşaq bağçasına daxil olmağa hazırlaşmasına yardım etmək arzusu əksər hallarda lazımi özünəqulluq vərdişlərinin öyrədilməsinin stimuluna çevrilir.

**Körpə ilə məşğələləri necə təşkil etməli**

Erkən yaşlı uşaqların stimulyasiyasının iki əsas xüsusiyyəti vardır:

Birincisi, uşaqla valideynləri məşğul olur. İkincisi isə odur ki, uşağın inkişafının stimulyasiyasının yalnız kiçik bir hissəsi məşğələ formasında keçirilir. Əsas tapşırıqlar gündəlik həyatda və oyun zamanı həll edilir.

Əgər sizin övladınızla pedaqoq məşğul olursa, o, sizinlə birlikdə uşağı yoxlamadan keçirir və əldə edilmiş nəticələri təhlil edərək hazırkı inkişaf mərhələsində hansı əsas məqsədlərin olduğunu müəyyən etməkdə sizə yardım edir. Sonra isə siz bu kitabdan istifadə edərək məşğələ və oyunları seçə biləcəksiniz.

Əgər siz övladınızla sərbəst məşğul olmaq istəsəniz, sizin vəzifəniz bir qədər çətinləşəcək, lakin tamamilə həll edilən olaraq qalacaq. Hər şeydən əvvəl, siz körpənizin inkişaf səviyyəsini müəyyən etməli və ona və sizə uyğun gələn tövsiyələri seçməlisiniz.

Hər bir mərhələnin xarakteristikasını diqqətlə dəfələrlə oxuyun və uşağınıza ən çox uyğun gələnini seçin. Onun hər hansı tapşırığın öhdəsindən gələ bilmədiyi halda məhz buradan başlayın. Çünki, bu, pozuntunun yenidən təkrarlanmasının qarşısını almağa kömək edəcək. Məsələn, uşağınız kiçik motorika üzrə mürəkkəb tapşırıqları yerinə yetirir, lakin, sərbəst şəkildə irəliləyə bilmir. Əgər siz əsas diqqəti didaktik oyuncaqlara (piramida, matryoşka, poçt qutusu, stəkan-nəlbəki) ayırsanız, onda, böyük və kiçik motorikanın inkişafı arasındakı uyğunsuzluq artacaq. Nəticədə, uşaqda onun tərəfindən seçilən məqsədə doğru sərbəst irəliləmə tələb edən yoxlama fəaliyyəti ləngiməyə başlayacaq və o, özünü ətrafdakılardan asılı hiss edəcək. Əgər sizin diqqətiniz istənilən hərəkət üsullarını həvəsləndirməyə yönəlsə, onda körpə daha ahəngdar olacaq. Çünki, bu mərhələdə onun məqsədə hansı üsulla – sürünərək və ya yuvarlanaraq çatması o qədər də əhəmiyyətli deyil. Eyni

zamanda siz bununla tədricən ona iməkləməyi öyrədəcəkainiz. Bu halda isə iməkləmə vərdişinin daha gec formalaşması növbəti mərhələyə keçid üçün gecikmə yaratmayacaq.

Körpənizin inkişafının stimullaşdırılmasına ayırdığınız vaxtın düzgün bölünməsində sizə yardım edəcək bir neçə çox sadə qaydalar vardır.

Uşaqlar tədricən öyrənir və bu prosesi spontan* və təşkil edilmiş təlimin əlaqələndirilməsi kimi müəyyən etmək olar.

Ətraf aləmi dərk etmənin hər iki üsulunun bir-biri ilə düzgün əlaqələndirilməsini təmin etmək bizim üçün vacibdir. Adi körpə öz-özünə onun ətrafında baş verənləri müşahidə edərək və araşdıraraq çoxlu məlumat əldə edir. Xüsusi inkişaf özəlliklərinə malik uşaqlar isə bu təlim üsuluna mane olan əhəmiyyətli çətinliklərlə üzləşirlər. Məsələn, Daun sindromlu körpə üçün irəliləməyi bacarmamaq və ya hadisələrin bir-birini sürətlə əvəz etməsi səbəbindən baş verənləri anlamaqda çətinlik çəkməsi onun inkişafına mənfi təsir göstərən amilə çevrilə bilər. Belə uşağın spontan təlimində pozulmaları görən valideynlər boşluqları təşkil edilmiş təlimin qeyri-bərabər artırılması yolu ilə doldurmağa çalışırlar. Bu arada, inkişaf özəlliklərinə malik olan uşaqların spontan təlimi üçün şərait yaratmaq çətin deyil. Bunun üçün lazımi, inkişaf edən (dəyişkən) mühit təşkil etmək və uşağın ailə həyatına maksimum şəkildə daxil edilməsini təmin etmək lazımdır. Uşağı maraqlandıran əşyaya və ya onun üçün maraqlı hadisələri müşahidə edə biləcəyi yerə çatmaqda ona kömək etsəniz, hərəkətlərinizin tempini azaltsanız və hərəkətlərinizi qısa şərhlərlə müşayiət etdirsəniz, onun aktiv diqqətinə nail ola bilərsiniz. O, baş verənlərə maraq göstərdikdə və birgə fəaliyyətə girmək istədikdə müəllim mövqeyindən uzaq durub tərəfdaş rolunu ifa etməyə davam etmək vacibdir. Bütün bunlar adi inkişaf yolu keçən yaşıdlarında olduğu kimi belə uşaqların ətrafdakıları müşahidə etmə və öz fəaliyyəti prosesində öyrənməyinə imkan verir. Bu halda vaxtın az

bir hissəsi uşağınız üçün MARAQLI oyun şəklində keçən xüsusi təşkil edilmiş məşğələyə ayrılacaq. Bilmək vacibdir ki, ömrünün birinci ilində uşağın əsas marağını “Bu kimdir?” və “Bu nədir?” sualları ilə müəyyən etmək olar. Uşağın həyatının ikinci ilində isə “bununla nə etmək olar?” sualı ilə ifadə edilən maraq aparıcı olur. Bundan əlavə, hər bir uşağın özünün üstünlük verdiyi cəhətlər olur. Uşağın valideynləri bunu yaxşı bilirlər. Məsələn, bir yaşlı körpə təkcə qanunauyğun olaraq öz anasına tərəf addım atmır, eləcə də atasının eynəyini götürmək üçün hərəkət edir.

Hər bir məşğələnin əsasını körpənin praktik fəaliyyəti təşkil etməlidir. Şəkillərdən istifadə etməklə məşğələ təşkil etmək olar, lakin onlar heç vaxt uşağın öz hərəkətlərini dəyişə bilməzlər.

Bir daha qeyd etmək lazımdır: əsas odur ki, məşğələni təşkil edərkən unutmayın: siz –
Uşağı sevən və onunla sevinənlər – hər kəsdən əvvəl valideynləri, babaları, nənələri, qardaşları və bacıları onun qayğısına qalır və onu böyük dünyaya daxil edirlər! Uşağa təklif etdiyiniz hər şey ona maraqlı və sizə rahat olmalıdır.

Aşağıda yerləşdirilmiş tövsiyələr erkən yaşlı uşaqlarla məşğələlərin təşkil edilməsinin vacib və heç də çətin olmayan tələblərinə riayət etməkdə sizə yardım edəcək.

* Burada “spontan təlim” anlayışı dedikdə uşağın ətraf aləmi sərbəst müşahidə etməsi və araşdırması prosesində təlimi nəzərdə tutulur.

## FƏSİL 2

## ERKƏN YAŞLI DAUN SİNDROMLU UŞAQLARIN İNKİŞAFI ÜZRƏ TÖVSİYƏLƏR

Hər şeydən əvvəl, uşaqların doğumdan bir yaşına qədər inkişafını nəzərdən keçirək. Bu yaş dövrünü körpəlik adlandırırlar. Bu yaş dövrünün sonuna yaxın uşaq adətən irəli hərəkət edə bilir, ona edilən müraciətləri anlamağa başlayır və özü də danışmağa cəhd edir. Bu yaşda uşağın inkişafındakı ən əhəmiyyətli amil yaxın adamları ilə sevgi və inam münasibətləridir.

### BİRİNCİ MƏRHƏLƏ
### (Yeni doğulmuş körpə: doğumdan sosial gülümsəmənin yaranmasına qədər)

#### Mərhələnin xüsusiyyətləri

Ailənizdə körpə dünyaya göz açmışdır. Hələ, o, tamamilə köməksizdir və hər cəhətdən böyüklərindən, xüsusilə də anasından asılıdır. Onun üçün ən əsas adamlar ana və atasıdır. Lakin, tezliklə sizin qızınız və ya oğlunuz razılıqla başqa yaxınlarına da göz gəzdirəcək, onları tanımağa və onlara gülümsəməyə başlayacaq.

#### Ana və körpənin bir-birinə qarşılıqlı təsiri

Yeni doğulmuş körpəni valideynlərindən ayrı nəzərdən keçirmək olmaz. Valideynləri ilə birlik ona daha rahat mühit təsiri bağışlayır. Bu zaman, körpə ətraf aləmə uyğunlaşır: birincisi, o, qavramağa başlayır – bu lamisə qıcıqlandırıcısıdır – toxunma, vəziyyətin dəyişməsi, ətraf mühitin temperaturunun dəyişməsi. Olduqca tez, böyüklə ünsiyyət üçün ilkin şərtlər meydana çıxır – körpə böyüyün üzündəki diqqəti görür, onun üzünə baxır.

Bu zaman anada və körpədə köklənən davranış formalaşır. Belə adlandırma təsadüfi deyildir: onların hər biri digərinin dalğasında köklənir. Ana və körpəsi arasında emosional əlaqə və ya bağlılıq (bonding) körpə anadan olduqdan dərhal sonra yaranır. Bir sıra müəlliflərin fikrincə, qarşılıqlı təsir prosesini körpə başlayır. Öz görünüşü və davranışı ilə anasının və ya onu əvəz edən digər böyüyünün cavabını şərtləndirir. (Bundan sonra, yalnız qısaca “ana” sözündən istifadə ediləcək.)

Xüsusi analıq davranışından istifadə edən ana körpənin fəallığına cavab olaraq onunla qarşılıqlı əlaqəyə girir. Onun hələ optimal səviyyə və stimulyasiya həcmi barədə məlumatı yoxdur və buna görə də anaya körpə tərəfindən əks əlaqə şəklində təlqin lazımdır.

**Körpə anası ilə ünsiyyətdə olarkən özünü necə aparır?**

*Onun əhvalı yaxşı olduqda və ünsiyyətdə olmaq istədikdə aşağıdakı üsullardan istifadə edir:*

- Böyüyün gözünün içinə baxır;
- Onun gözləri bərəlir, parıldayır;
- Dodaqlarını yumrulayır;
- Körpə uzun səslər çıxarır;
- O, qollarını uzadır və dartır, ovuclarını açır;
- Ayaqlarını uzadır, dartır.

Körpə yorulduqda və yatmaq istədikdə o, öz istəyini ünsiyyəti kəsməklə bildirə bilər. Bu zaman, daha çox aşağıdakı kimi davranır:

- gözünü çəkir və ya bağlayır;
- başını çevirir;
- əllərini başına yaxınlaşdırır, onları başının arxasına aparır;
- sızıldayır, sonra isə ağlamağa başlayır;
- bəzi hallarda öyümə və qusma müşahidə olunur.

**Ana öz körpəsinə necə cavab verir?**

Əgər ananın özünü necə apardığını və öz körpəsi ilə danışdığını müşahidə etsək, asanlıqla görərik ki, onunla ünsiyyət üsulu onun böyüklərlə və ya yuxarı yaşlı uşaqlarla qarşılıqlı münasibəti zamanı davranışından kəskin şəkildə fərqlənir. Yeri gəlmişkən, körpə ilə ünsiyyətdə olarkən belə davranışı demək olar ki, bütün böyüklər nümayiş etdirir. Maraqlıdır ki, qız uşaqları "qızlar – analar" oyununda müşahidə edilən davranışı kukla ilə ünsiyyətdə də nümayiş etdirirlər.

Böyüklər körpə ilə ünsiyyətdə olarkən onların nitqi və davranışı nə ilə xarakterizə olunur?

- Hər şeydən əvvəl, uşağın davranışının imitasiyası - onun çıxardığı səslərin, sifət cizgilərinin təkrarı
- Böyükdə "uşaq danışığı" müşahidə olunur. Onun uşağa müraciətdə vokalizasiyası yüksək, musiqi səsi ilə yerinə yetirilir. Danışığın tempi uzun pauzalı və asta olur.
- Dialoq formasında monoloqdan istifadə edilir: cavab siqnalı olmadıqda ana özünü elə aparır ki, sanki onlar var. Sonra tədricən təsəvvür edilən dialoqdan real dialoqa keçirilir və biz ananın və uşağın siqnallarının bir-birini əvəz etdiyini müşahidə edə bilərik.
- Dialoq zamanı böyüyün üz ifadəsinin xüsusiyyətləri aşkara çıxır. Uşağa müraciət edərkən qaşlarını qaldırır, gözlərini geniş açır, ağzını azca açır.
- Ünsiyyət zamanı çox vaxt məsafə əvəzləməsi edilir: körpənin üzünə tərəf yaxınlaşma və ya uzaqlaşma.
- Ananın davranışının bütün bu xüsusiyyətləri dövri şəkildə təkrarlanır. Tədqiqatlar göstərmişlər ki, uşaq qısa söz zəncirinin və hərəkətlərin təkrarını təkrar olunmayan nitqə nisbətən daha yaxşı qavrayır. Yeri gəlmişkən, bütün nəğmə və əyləncəli sözlər qısa söz zəncirinin belə təkrarına əsaslanır, sonra isə, uşaqda yaddaşın həcmi artdıqda nağıllarda və əyləncəli sözlərdə istifadə olunan söz zənciri də uzanır. Bax doğrudan da xalq kəlamı həmişə alimlərin tədqiqatlarını qabaqlayır.

Tədricən kökləmə prosesi qarşılıqlı şəkil alır, körpə öz hərəkətini anasının səsi və hərəkətləri uyğunlaşdırır. Ananın və uşağın siqnallarının bir-birini əvəz etməsini aydın görmək olar. Bir çox tədqiqatçılar bu prosesi rəqslə müqayisə edirlər. Bu ikiliyin hər bir üzvü bir-birini müsbət emosional halla yoluxdurur. Bütün bunlar hər ikisinə böyük həzz verir. Daha sonrakı yaş dövründə (doğumdan sonrakı ikinci yarım-ildə) körpə mənfi emosiyalarını da bölüşməyə başlayır. Bu başlanğıc qarşılıqlı təsir bağlılığın əsasına çevrilir. Sonuncu da öz növbəsində hər bir uşağın təkcə emosional deyil, eləcə də ümumi inkişafını müəyyən edir. Ona görə də körpə və anası arasında isti sevgi və inam münasibətləri çox vacibdir.
Əlavə etmək lazımdır ki, körpə və onun yaxınları arasında bağlılıq münasibətləri təkcə uşağın inkişafına deyil, eləcə də bütün ömrü boyu onun digər insanlarla gələcək münasibətlərinə təsir göstərir.

## Uşaqla qarşılıqlı əlaqə və dəyişkən mühitin yaradılması üzrə tövsiyələr

**Sosial təbəssümün yaranmasının stimullaşdırılması**

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, "sosial təbəssüm"dən danışarkən, biz, bu təbəssümün böyüyün müraciətinə cavab olduğunu vurğulayırıq. Yəni, bu cavabı təqribən belə "səsləndirmək" olar: "Mən səni tanıyıram. Mən sənə sevinirəm. Mənə xoş və rahatdır. Mənə sənin yanında yaxşıdır!" Bu – yaxın adamla uzun dialoqun başlanğıcıdır. Bu dialoqa sizin körpəniz də hazırdır. Siz sadəcə bilməlisiniz ki, yeni doğulmuş daun sindromlu körpələrdə qavrayış və reaksiya vermə tempi bir qədər aşağıdır və buna görə də anadan, eləcə də digər yaxınlardan səbir tələb olunur. Mütləq, körpəyə diqqət yetirin, onunla nəvazişlə danışın, ona təbəssüm göstərin və öz müraciətlərinizi dəfələrlə təkrar edin. Çalışın ki, sizin səsiniz

dostcasına və səlis olsun! Ananın davranışının yuxarıda təsvir etdiyimiz bütün xüsusiyyətlərindən istifadə edərək onları incə lamisə və vestibülyar stimulyasiya ilə tamamlayın. Başqa sözlə, siz körpəni sığallaya, onu yelləyə, şəfqətlə qucaqlaya, əllərini-ayaqlarını ovuşdura və s. bilərsiniz. Bu zaman yaranmış təbəssüm demək olar ki, sosialdır və əsl cavaba yaxındır. Əgər onun yarandığı an siz uşağa gülümsəsəniz, onunla danışsanız, onun gözlərinə baxıb baxış əlaqəsi qursanız və saxlasanız, onda o, cavabında tədricən inamla gülümsəməyə başlayacaq. Heç bir cəhdi boş qoymayın. Yadda saxlayın ki, sizin körpəniz cavab vermək üçün daha çox vaxta ehtiyac duyur. Beləliklə, siz onunla emosional və konstruktiv qarşılıqlı təsirin əsasını qoyacaqsınız. Bu isə çox vacibdir!

**Yedizdirmənin təşkili**

Başqa uşaqlar kimi Daun sindromlu körpələrə də döşlə yedizdirmə nəzərdə tutulur. Belə uşaqlarda üz-çənə aparatı quruluşunun bəzi özəlliklərə malik olmasına baxmayaraq, döşlə yedizdirmə tamamilə mümkündür. Yadda saxlamaq çox vacibdir ki, təbii yedizdirmə təkcə körpənin ən yaxşı qidanı qəbul etməsinə deyil, həm də onun immunitetinin artmasına, otitlərin yaranmasının qarşısını almağa imkan verir, eləcə də onun gələcək aktiv nitqinin inkişafı, yəni, danışması üçün gələcəkdə lazım olacaq əzələləri inkişaf etdirir.

Əgər hər hansı ciddi səbəbdən döşlə yedizdirmə mümkün olmazsa, butulka ilə yedizdirərkən, mütləq, döşlə yedizdirmə vəziyyətini imitasiya etmək lazımdır: körpə döş altında, döş altında vəziyyətində “anası ilə üz-üzə” uzanır. Sağ və sol tərəflərə dəyişməyi unutmayın.

Döşlə yedizdirməni çətinləşdirən səbəb tibbi yardım tələb etmədikdə yedizdirmə problemlərinin tam öhdəsindən gəlmək olar. Lakin, əlbəttə, bu vacib proses anadan sevgi və səbir tələb edir.

**Döşlə yedizdirməni və / və ya butulka ilə yedizdirməni ən yaxşı necə təşkil etmək olar?**

Dünya gəldikdən sonra körpə döş və ya əmzik əmir. Yedizdirmə vaxtı təkcə qida qəbulu prosesi deyil. Bu, həmçinin ana və onun körpəsi arasında etibarın yarandığı vaxtdır. Təbiət hər bir yeni doğulmuş körpəyə insanlarla ünsiyyət və qarşılıqlı əlaqə istəyi əta etmişdir. Bu, qarşılıqlı əlaqənin başlanğıcı yedizdirmə zamanı ana və körpəsi arasında baxışların əlaqəsidir. Maraqlıdır ki, yeni doğulmuş körpənin optimal görmə məsafəsi 20-25 santimetrə bərabərdir və bu məsafə döşlə yedizdirmə zamanı ana və körpəsi arasında saxlanılır. Həyatının bütün sonrakı mərhələlərində məhz baxışların əlaqəsi digər insanlarla əlaqənin vacib ünsürü olacaq. Tamamilə mümkündür ki, körpənin elə birinci təbəssümü məhz elə bu anda yaranır.

*Körpənin butulka ilə yedizdirmə zamanı* onu döşlə yedizdirmə vəziyyətində, yəni qucaqda saxlamaq lazımdır. Bu vəziyyətdə uşağın başını azca qaldırmaq çox vacibdir. Belə ki, bu, mayenin burunu qulaqla birləşdirən kanala – yevstaxi borusuna düşməsinə imkan vermir. Əks halda otitə səbəb ola bilər. Qeyd etmək lazımdır ki, bir yaşından sonra yevstaxi borusunun konfiqurasiyası dəyişir və davamlı olaraq üfüqi vəziyyətdə əmzikdən yedizdirmə halında qulaqların ağrıması ehtimalı çoxalır.

*Yedizdirmə üçün əmzik* nə çox yumşaq, nə də çox bərk olmalıdır. Çünki, Daun sindromlu uşaqlarda çox vaxt əzələ tonusu aşağı olur və o, çox elastik rezin və ya lateksin öhdəsindən çətinliklə gəlir. Əmzikdə yaxşı olar ki, bir deyil, bir neçə deşik açılsın və ya uşağın əmməsinin intensivliyindən asılı olaraq çox və ya az açılaraq maye axınını tənzimləyən xaç formalı kiçik kəsik qoymaq lazımdır. Əmziyin oturacağı geniş olmalıdır ki, körpə ağzına yalnız onun uc hissəsini sala bilsin. O, əmziyi bütövlükdə ağzına salsa onda qusma riski yarada bilər. Çünki, bu zaman əmziyin uc hissəsi çox dərinə gedir.

Uşaqda əzələ tonusu aşağı olduqda və siz onun

çətinliklə əmdiyini görsəniz əmməyə hazırlıq aparmaq ola. Bunun üçün üz və boyun əzələsini stimullaşdıran müəyyən üsullar vardır.

Sizin körpənizə yedizdirmədən 15 dəqiqə əvvəl edilən üz masajı kömək edə bilər. Buraya daxildir:

• Bir barmaqla ağzın kənarlarını yuxarıdan aşağı istiqamətdə sürtələmək;
• Yanaqdan ağıza qədər üzü sürtələmək;
• Qırtlağın xaricdən yuxarıdan aşağıya sürtələnməsi;
• Bir barmaqla diş əti və damağın öndən arxaya ehtiyatla sürtələnməsi;
• Buz parçasının dodaqların ətrafında sürüşdürülməsi.

Növbəti üsullar bilavasitə yedizdirmədən əvvəl gəlir:

• İşarət barmağınızı körpənin ağzına elə salın ki, barmağın oturacağı dilinin üstündə düşsün. Uşaq dili ilə barmağınızı tutub əmmə hərəkətləri etməmiş onu ehmalca aşağı basın. Tez, lakin tam vaxtında barmağınızı çıxarıb yerinə döş giləsini və ya əmziyi qoyun;
• Əmziyi körpənin yanağına toxundurmağa cəhd edin;
• Əmziyi alt dodağa və dilin ucuna basmağa cəhd edin, bu zaman körpə əmməyə başlayacaq.

Yedizdirmə zamanı sərbəst qolunuzla uşağın stimulyasiyasını davam etdirin:

• Körpənin əlini tutun və sürtələyin, xüsusilə də baş barmağın kökünü. Bu, ovuc-ağız refleksini stimullaşdıracaq;
• Uşağın vəziyyətinin əmməyə rahat olmasına diqqət edin;
• Uşağın yanağını, alt çənəsini və üst dodağını sürtələyin: sizin hərəkətləriniz nə cürsə uşağın dodaqlarını döş giləsi və ya əmziyi götürməyə stimullaşdırmaqla önə gətirməlidir.

**Yuxu zamanı apnoenin profilaktikası**

Daun sindromlu uşaqların təqribən yarısında yuxuda olarkən hərdən tənəffüs pozğunluğuna rast gəlinir. Bu hadisə apnoe adlanır və onun intensivliyi tez-tez dəyişir. Körpənin

gecə yuxusunu pozaraq onun fəallığına təsir edir, fiziki və intellektual inkişafına mənfi təsir göstərir, davranışında problemlərin yaranmasına səbəb olur. Bundan əlavə, apnoeli uşaqlar ani ölüm sindromu risk qrupuna aiddirlər. Təəssüf ki, apnoe heç də həmişə üzə çıxarılmır. Bununla belə, onun profilaktikası çox sadədir: uşağın çarpayısının baş hissəsini 10 dərəcə qaldırmaq və körpəni böyrü üstə yatızdırmaq kifayətdir. Beləliklə, onun tənəffüsü qaydasına düşür.

**Birinci mərhələnin sonunda körpə nəyi bacarır?**

- Gözünü üzə və / və ya cəlbedici oyuncağa zilləyir.
- Gözü ilə obyektin hərəkətini izləyir.
- Üzü üstə uzanmış vəziyyətdən azca qalxır və başını bir anlıq saxlayır.
- Gurultulu səs çıxarır.
- Danışığa və böyüyün təbəssümünə cavab olaraq gülümsəyir.

## İKİNCİ MƏRHƏLƏ
## (ilk təbəssümdən canlanma kompleksinin yaranmasına qədər)

### Mərhələnin xüsusiyyətləri

Uşaq doğulduqdan sonra yaxın adamlarına və onların sevgisinə ehtiyac duyur. Lakin, yalnız onda ilk təbəssüm yarandığı andan böyüklər aydın şəkildə başa düşürlər ki, körpə, onların onun yanında olmasına çox şaddır. Bu mərhələdə uşaqda açıq-aşkar ətraf aləmə müsbət-emosional reaksiya yaranır. Uşaq öz baxışını onun üçün maraqlı oyuncaq üzərində cəmləyir, onun hərəkətini izləyir. Bu mərhələdə görmə və eşitmə təəssüratları arasında əlaqə yaranmağa başlanır. Əşyanın necə görünməsi və onun nə cür səs çıxarması uşağa maraqlı gəlir. Öz yaxınlarını görən və ya onların səsini eşidən körpə canlanır, qığıldayır, əlləri və ayaqları ilə ritmik

hərəkətlər etməyə başlayır və gülümsəyir. Sevimli oyuncağının görünməsinə də o, belə reaksiya göstərir. Belə davranış canlanma kompleksi adlanır və onun yaranması növbəti inkişaf mərhələsinə keçidi şahidlik edir.

Daun sindromlu uşaqlar bir aydan üç aya qədər yaş dövründə bir çox göstəricilərə görə adi inkişafda olan yaşıdlarından demək olar ki, fərqlənmirlər. Lakin, eyni zamanda onların inkişafına mane ola bilən bir sıra amillər mövcud ola bilər.

İlk növbədə, bu, gözdən qaçırılmamağı vacib olan əlavə tibbi problemlərin mövcudluğunun mümkün olmasıdır. Onlardan tez-tez rast gəlinənləri xatırladaq: ürək-damar sistemində pozğunluqlar, həzm yolunda anomaliya, eşitmə və görmə pozğunluğu, qalxanabənzər vəzinin patologiyası. Bu xəstəliklərin diaqnostikası, profilaktikası və müalicəsi Daun sindromlu uşaqların öz potensiallarını maksimum istifadə etmələrinə imkan verir. Diqqət yetirilməli olan növbəti məsələ bu sindroma xas olan inkişaf xüsusiyyətləridir. Körpənizdə hansı çətinliklərin yarana biləcəyi və onun öhdəsindən necə gəlmək barədə təsəvvür təkcə mümkün pozğunluqları kompensasiya etməyə deyil, eləcə də qarşısını almağa yardım edir.

Erkən yaşlarında uşağın inkişafının stimulyasiyasından danışdıqda yadda saxlamaq lazımdır ki, söhbət onun inkişafının hər iki tərəfindən gedir. İstənilən mərhələdə uşağı onun inkişafının sistemliyi nəzərə alınmaqla yardım edilə bilən tam kiçik insan kimi baxmaq lazımdır.

İkinci mərhələdə sizin iştirakını və yardımınızı tələb edən inkişafın əsas istiqamətlərini qısa xarakterizə edək.

Bilmək çox vacibdir ki, uşağın inkişafı üçün ən əhəmiyyətli məsələ onun **böyüklə ünsiyyətidir.** Körpə ilə tez-tez baxış əlaqəsi saxlandıqda, söhbət edildikdə, onu qucaqda gəzdirdikdə və sığalladıqda, bu, körpədə ona təbəssümlə yaxınlaşan hər kəslə ünsiyyətdə müsbət reaksiya yaranmasına təsir göstərir. Körpənin əl və ayaqları ilə aktiv

oyunlar **canlanma kompleksinin** formalaşmasına yardım edir. Sonuncu, hərəkətin fəallaşmasını və ətrafdakıların diqqətinə cavab olaraq göstərdiyi təbəssümü ehtiva edir. Ünsiyyət zamanı nitq fəal şəkildə inkişaf edir – qığıldanma, eləcə də deyilənləri anlama üçün ilkin şərtlər formalaşır. Bu yaş dövründə körpə sizin səsinizin yüksəkliyinə və tembrinə, nitqinizin intonasiyasına və tempinə həssas olur.

Daun sindromlu uşaqların özəlliyi ondadır ki, qavrama tempi aşağıdır və buna görə də, körpənizin sisin səsini eşitməyini və cavab verməyini istəyirsinizsə onunla asta danışın və sözləri təkrar edin. Yadda saxlamaq vacibdir ki, onun cavabı dərhal gəlmir və o qədər də anlaşıqlı olmur. Ola bilsin ki, siz cavabı gözləyəcəksiniz.

Bu mərhələdə uşaqda **qavrayışın bütün növləri** fəal şəkildə inkişaf edir. Göz və eşitmə təəssüratları arasında əlaqənin qurulmasının başlanğıcı da bu vaxta təsadüf edir: körpə hər bir səsin öz mənbəyinin olduğunu anlamağa başlayır – zəngin səsini eşidəndə onu gözləri ilə axtarır. Burada da səsin haradan gəldiyini anlaması üçün ona bir qədər çox vaxt lazım olur.

Daun sindromlu uşaqlar tez-tez yaşıdları ilə müqayisədə **daha az hərəkətli** görünürlər. Bunun səbəbi isə aşağı əzələ tonusu və nəticə etibarilə, bədəni ilə hiss etmək (duymaq) bacarığının kifayət qədər olmamağıdır. Ona görə də, lamisə, hərəkət və bütün körpələrin həssas olduğu vestibülyar stimulyasiya belə uşaqlar üçün xüsusilə faydalıdır.

Lamisə stimulyasiyası astadan əl çalma, sığallamadan istifadə edilir. Bütün bədəni yumşaq tükləri xatırladan materiallarla sığallamaq xüsusilə tövsiyə olunur. Bu, saçaq və ya incə kənarları olan top ola bilər. Ən yaxşısı isə odur ki, ana öz saçlarını körpəyə toxundursun. Məkanda uşağın yerinin dəyişdirilməsi, onun qucaqda aparılması, yırğalanma və dönmə tələb edən bütün oyunlar onu öz bədənini hiss etməyə yardım edir.

Bu yaş dövründə **oyuncaqlar get-gedə körpənin**

**marağına daha çox səbəb olmağa başlayır.** Başlanğıcda o, hələ əl-ayağını onu maraqlandıran obyektlərə düşünərək atmağı bacarmır, uzun müddət baxır və təsadüfən əllərini onlara toxundurur, nəhayət isə artıq məqsədyönlü şəkildə onları döyəcləyir. Oyuncaqlar körpənin əlini qaldıra biləcəyi səviyyədən hündürdə asılı olarsa, əllər bu oyuncaqlara təsadüfən dəymir. Başqa sözlə, o, düşüncəli şəkildə əllərini uzada və istədiyi əşyaya vura bilməyəcək. Elə ona görə də, Daun sindromlu uşaqlarda oyuncaqları və onların yerini düzgün seçmək çox vacibdir. Əşyanı ələ keçirmə vərdişinin inkişaf etdirilməsi əsasən oyuncağın körpə üçün nə dərəcə rahat və cəlbedici olmağından asılıdır.

DİQQƏT!

Körpənin stimulyasiyası zamanı onu diqqətlə müşahidə etmək lazımdır. Sizdə uşağın donub qalması, diksinməsi, əzələsini gərməsi, gözlərinin yorulması və ya hər şeydən əvvəl ona xas olmayan başqa cür hərəkət etməsi təəssüratı yaranarsa, stimulyasiyanı dərhal kəsmək və təcili olaraq nevroloqa müraciət etmək lazımdır.

**Uşaqla qarşılıqlı təsir və dəyişkən mühitin yaradılması üzrə tövsiyələr***

Əziz valideynlər, sizə təklif edilən tövsiyələr uşağın inkişafının bütün sahələrini əhatə edir. Lakin, bu zaman onu çoxsaylı tapşırıqlar və fəaliyyət növləri ilə yükləməmək çox vacibdir.

Körpə ilə necə davranmaq lazımdır.

Körpə üçün ən vacibi sizin sevgi və şəfqətinizdir. Əgər siz onu tez-tez qucağınızda tutsanız, gözlərinə baxıb ona təbəssüm göstərsəniz və onunla söhbət etsəniz, sığallayıb nəvaziş etsəniz, onun barmaqlarını bir-bir oynatsanız, bu, onun sizin üçün necə dəyərli və lazım olduğunu anlamağına kömək edəcək.

Burada, bizə elə gəlir, kiçik uşaqla ünsiyyətin təşkili

üzrə bəzi məsləhətlərimiz sizə yaraya bilər.
• Uşağın hərəkətlərini imitasiya edin – onun səsini, üz ifadəsini təkrar edin.
• “Uşaq danışığından” istifadə edin – yüksək, həzin səs.
• Uzun pauzalarla asta danışın.
• Dialoq formasında monoloqdan istifadə edin: körpəyə müraciət edin və cavab siqnalı hələ olmasa da özünüzü elə aparın ki, sanki var. Körpə tədricən qısa sait səslər və boğaz samitləri çıxarmaqla cavab verməyə başlayacaq. Yəni, qığıldanmağa, sonra isə dodaq səsləri ilə hecaları təkrar başlayacaq və deyəcək, məsələn, “ba-ba-ba”, “ma-ma-ma” və s.
• Uşaqla üz-üzə söhbət edərkən “xüsusi” ifadələri saxlayın: qaşlar qaldırılır, gözlər geniş açılır, dodaqlar azca aralanır. Siz bunu daha çox südəmər körpə ilə sevgi ilə danışan insanların üzlərində bu ifadələri görmüsünüz. Burada diqqət də, sevinc də, körpənin istənilən cavabını tutmağa hazırlıq vardır. ¬¬¬¬
• Üzünüzü körpənin üzünə yaxınlaşdırın və uzaqlaşdırın. Yaxşı olar ki, siz özünüzə körpənin sizi asan görməsi və eşitməsi üçün münasib yer tutaraq yuxarıda təsvir edilmiş ünsiyyət üsullarının qısa ardıcıllığını vaxtaşırı təkrar edəsiniz.

**Uşağın hərəkət vərdişlərinin inkişafı**

*Yuxuda olarkən bədənin vəziyyəti*. Ən yaxşısı odur ki, körpəniz yanı üstə yatsın. Uşaq bu vəziyyətdə qala bilmədikdə ilk vaxtlarda onun bu vəziyyətdə saxlanılması üçün ədyaldan düzəldilmiş yastıqdan istifadə etməklə uzatmaq lazımdır. Bundan əlavə, körpənin sağlamlığına və inkişafına mənfi təsir edə biləcək tənəffüs problemlərindən qaçmaq üçün, mütləq, döşəyin baş hissəsini və ya bütün çarpayını təqribən on dərəcə qaldırın.

***Oyaq vaxtı bədənin vəziyyəti.*** Körpə ilə ünsiyyətdə olarkən ən yaxşısı “əlaqə” vəziyyəti və ya mövqeyi adlanan vəziyyət almaq lazımdır.
• Sallağı vəziyyətdə üzü yuxarı. Böyüyün bir qolu körpənin baş

və boynunun altında, o birisi isə sağrının altında olur. Uşağın üzünü yuxarı tutun.

• Böyüyün əlində sallağı vəziyyətdə üzü yuxarı. Valideyn bir ovcu körpənin sinəsini, o biri əli ilə isə özündən aralı şəkildə budlarından tutur.

• Döş altında. Bu vəziyyət döşlə yedizdirmə vəziyyətini imitasiya edir. Bu vəziyyətdən təkcə yemək vaxtı deyil, eləcə də başqa vaxtlarda da istifadə etmək olar. Bu zaman ana otura, ayaq üstə dayana və gəzə bilər.

• Böyüyün sinəsində üzü üstə uzanma. Siz divan, çarpayı və ya döşəmə üzərində rahat uzanmalı və körpənizi üzü üstə sinənizə elə uzatmalısınız ki, üz-üzə olasınız.

---

* Ətraflı məlumat üçün Əlavə 1-ə baxın.

• Böyüyün çiyinlərinə şaquli vəziyyətdə. Uşağın başını düz saxlaması bacarığından asılı olaraq onu tutma səviyyəsi boyunun ardın çiyin qurşağına qədər dəyişir. Yəni, uşaq nə qədər balaca olarsa, siz onun başını bir o qədər etibarlı tutmalısınız.

• Arxası üstə. Burada uşağın təqribən $30^o$ bucaq altında yerləşən yerdə uzandığı vəziyyət nəzərdə tutulur. Bu vəziyyətin körpə ilə ünsiyyət üçün ən çox yayılmış və rahat variantlardan biri uşağın böyüyün dizlərində maili vəziyyətdə uzanmasıdır. Divan və ya kresloda oturub ayaqlarınızı azca alçaq skamyaya qoyun və uşağı elə uzadın ki, onun kürəyi dizinizdə olsun, ayaqları isə qalxsın və sinənizə uzadılsın. Bu şəkildə döşəmədə oturub divara, divana və ya şkafa söykənmək və dizləri azca qaldırmaq olar. Körpəni isə bundan əvvəlki haldakı kimi uzatmaq lazımdır.

### Məişət şəraitində  körpənin stimulyasiyası

***Yedizdirmə zamanı*** artıq qeyd etdiyimiz kimi uşağın anasının üzünə baxması üçün maksimum əlverişli şəraiti yaradılır: döşlə yedizdirmə vəziyyətində olan körpənin gözləri ananın üzündən optimal məsafədə olmalıdır. Əvvəllər, uşaq sizə üç saniyə

baxacaq, sonralar isə sizin diqqətiniz ona yönəlsə bu müddət tədricən artacaq. Yadda saxlayın ki, yedizdirmə vaxtı – ana və körpəsi arasında ən sıx bağlılıq anıdır. Çalışın, diqqətinizi yedizdirmə prosesindən yayındırmayasınız və bu vaxtı körpənizə ayırasınız! Yedizdirmə zamanı televizora baxmayın, telefonla danışmayın, evinizdə olanlardan diqqətinizi yayındırmamağı və sual verməməyi xahiş edin.

***Bələmə zamanı*** uşağa diqqətlə yanaşın: ona tərəf əyilin, onu adı ilə çağırın, diliniz tərpədin və onun nəzərini öz üzünüzə cəlb edin. Körpə sizə baxanda nəvazişlə ona gülümsəyin və başınızı asta-asta ora-bura yırğalayın ki, sizin üzünüzü izləsin.

***Çimizdirmə zamanı*** körpə ilə mütləq dostcasına söhbət edin, ona nəğmə oxuyaraq onun diqqətini cəlb edin və ona gülümsəməyi unutmayın.

***Oyaq vaxtı***. Oyuncağı körpənin yaxşı görə və oynada bildiyi yerdə çarpayıdan asmağı unutmayın.

**Çarpayının yanından keçərkən** körpənin yatmadığını gördükdə əyilin və onun nəzərini özünüzə cəlb edənə qədər onunla danışın. Uşaq yaxın məsafədən nəzərini üzünüzdə yaxşı saxlamağı bacardıqda aranızdakı məsafəni tədricən 1-2 metrə qədər artıra bilərsiniz.

***Körpəni qarnı üstə uzadın*** və qarşısına rəngbərəng rəsmlər, plastik güzgülər və ya başqa əks etdirici lövhəcik düzün.

## Uşağın oyunda inkişafı

### *Uşağın yeri*

Uşağın üç-dörd yaşı olmayınca, onun vaxtının əsas hissəsi adətən çarpayıda keçir. Onu elə uzatmaq lazımdır ki, gecə və gündüzün dəyişməsini hiss edə bilsin. Otağın işıqlandırılma səviyyəsi uşağın fəallığına təsir edir və işığın həcminin təbii dəyişkənliyi onun yuxu dövrlərinin fəal oyaqlıqla əvəzlənməsinə yardım edir. Çarpayının baş hissəsinin yerinin vaxtaşırı dəyişdirilməsi işığın sağ və sol tərəfdən bərabər bölgüsünə yardım edir. Otaqda işıq mənbələrinin

yerinə diqqətlə nəzarətdə saxlayın: parlaq işıq birbaşa uşağın üzünə düşməməlidir. Yaxşı olar ki, bu mənbələr onun görünüş sahəsindəki obyektləri işıqlandırsın. Uşağın işıq mənbəyini, istər pəncərə olsun, istər lampa olsun, görmək üçün başını arxaya çəkdiyini gördükdə, mütləq, uşağın vəziyyətini dəyişmək və ya uşaq üçün zərərli vəziyyətdən qaçmaq üçün lampanı irəli çəkmək lazımdır.

**Oyuncaqlar, ləvazimatlar və onlardan istifadə**

*Hər şeydən əvvəl yaddan çıxarmayın ki, körpə üçün ən maraqlı oyuncaq sizin özünüz, sizin üzünüz və təbəssümünüzdür! Heç bir, hətta ən cəlbedici oyuncaq canlı baxışı, səsi, sevdiyi yaxınların toxunuşunu əvəz edə bilməz!*

Ananın həmişə işi olduğundan və körpənin təəssüratlarının tədricən çoxalması vacib olduğundan onun marağına səbəb olan, diqqəti cəmləşdirmə, baxma, qulaq asma, hərəkət etmə, ətrafda baş verənlərə emosional cavab vermə bacarıqlarını məşq etdirməyə yardım edən oyuncaqlara ehtiyacı olur.

Parlaq rəngli səs salan oyuncaqlar. Bu oyuncaq zəng, çax-çax və ya hansı heyvan fiquru ola bilər. Onları uşağın gözlərindən 25-30 santimetr məsafədə asın. Bunlar sizə yaxşı tanışdır. Körpə onlara göz gəzdirəcək, sonra isə əlləri ilə onlara vuracaq və necə əyləncəli cingildəməsinə qulaq asacaq.

Zolaqlı ağ-qara oyuncaqlar. Onlar da səs salırlar. Uşaq yatmazsa onları yırğalayın. əgər onları rezin iplə assanız onda daha çox səs salacaq və yuxarı-aşağı və sağa-sola yırğalanacaqlar.

Musiqili-hərəkətli oyuncaq. Bu, karuselə oxşar zavod istehsallı və oyuncaqların asıldığı oyuncaqdır. Bu karuselin fırlanması həzin musiqi ilə müşayiət olunur və hərəkət edən əşyaları izləmək bacarığının inkişafına yardım edir.

Çarpayı və ya onun divarından asılan şəkillər. Şəkillərdə şahmat taxtasını xatırladan ağ-qara naxışlar, spirallar, hədəflər, dalğavarı zolaqlar və ya sxematik və kontrast

rəngli üzlər təsvir oluna bilər. Siz bunları ağ albom kağızlarında qara flomasterlərlə özünüz də çəkə bilərsiniz. Lakin, nəzərə almaq lazımdır ki, xətlərin eni 8-10 mm olmalıdır.

Müxtəlif rəngli hava şarları. Uşaq çarpayısından asılan şarlar havanın istənilən tərpənişində hərəkət edir və uşağın diqqətini özünə cəlb edir.

Kələ-kötür və ya nahamar dəstəkli cingildəyən oyuncaq. Dəstəyin qalınlığı təqribən böyük adamın barmağına uyğun olmalıdır. Uşağın əlinin arxa hissəsini sığallayın və onun yumruğu yığıldıqda cingildəyən oyuncağı onun əlinin içinə qoyun. Körpə barmaqlarını hələ möhkəm sıxa bilmirsə, oyuncağın arxasından yüngülcə dartın və onun bunu yaxşı hiss etməsinə çalışın. Elə bu oyuncaqlardan hərəkət edən əşyaları izləmə qabiliyyətinin inkişafı üçün də istifadə etmək olar: oyuncağı astaca o tərəfə, bu tərəfə, alnından çənəsinə qədər və dairəvi hərəkət etdirin. Uşaq oyuncağı izləməyi dayandırdıqda onu yırğalayın. Bu, bir daha onun diqqətini cəlb etməyə kömək edəcək.

Rezin iplə çarpayıya bağlanmış yumşaq səs salan oyuncaqlar. Belə oyuncağı uşağın sinəsinə qoyduqda və onu azca basdıqda, uşaq əllərini birləşdirərək onu özünə tərəf sıxacaq. Belə oyuncaqları özünüz də düzəldə bilərsiniz. Bunun üçün çax-çaxı və ya ən sadə cingildəyən oyuncağı adi yumşaq oyuncağa tikə bilərsiniz.

Cingiltili qolbaq və qol üçün digər bəzək əşyaları. Bu bəzək əşyaları gərək uşağın diqqətini cəlb etsin. Onları rəngli lentlərdən hazırlamaq və ya ipdən hazırlanmış qotazlardan istifadə etmək olar. Onları qısa vaxt üçün uşağın gah bir qoluna, gah da digərinə taxın. Belə ki, uzun zaman qolda qaldıqda onlara öyrəşir və daha onlara diqqət yetirmir.

Plastik spiral. Spiralı elə asın ki, çevrələri üfüqi vəziyyətdə və uşağın qolunun açılmış haldakı uzunluğu məsafəsində aralı olsun. Uşaq əli ilə ona toxunduqda o, nəinki hərəkət etməyə başlayacaq, həmçinin rəngini dəyişəcək. Təsəvvür edin, necə də maraqlıdır?!

Güzgü və başqa əks etdirici əşyalar. Siz uşağı əllərinizdə tutub onun diqqətini baş verənlərə cəlb etməklə böyük güzgüyə yaxınlaşa bilərsiniz. Əgər plastik uşaq güzgüsü varınızdırsa, onu yaxşı olar ki, uşağın görə biləcəyi yerdə çarpayı divarından asasınız.

Böyük çimərlik topu və ya xüsusi gimnastika topları. Uşağın qarnını topun üstünə qoyaraq onu ehmalca yırğalayın. Uşaq orada həvəslə uzanacaq və başını azca qaldıraraq əlləri ilə topdan tutacaq.

Oyunların təşkili

• Özünüz və körpəniz üçün əlverişli vaxt seçin, yəni onun adi oyaq vaxtını. Onu bütün qayğılardan uzaq olmağa və diqqətini tamamilə məşğələ üzərində cəmləşdirməsinə çalışın

• Məşğələ üçün lazın olan hər şeyi hazırlayın.

• Özünüz üçün optimal vəziyyəti fikirləşib tapın və həmin vəziyyətdə durun. Bu, sizin üçün əlverişli olmalıdır!

• Oyun zamanı körpənin reaksiyasına diqqət yetirin. Yadda saxlayın ki, körpə nəzərini sizdən çəksə, bu, o deməkdir ki, o yorulub və dincəlməlidir. Müəyyən vaxtdan sonra onun diqqətini özünüzə cəlb etməyə çalışın.

• Öz hərəkətlərinizin tempini tənzimləyin və bütün hərəkətləri aramla edin. Uşağın reaksiya verməyi bacarmasının vacibliyini yaddan çıxarmayın!

• Əgər siz onun diqqətini üzünüzə cəlb etmək istəyirsinizsə və körpə yalnız oyuncağa maraq göstərirsə, bu oyuncağı öz aranızda yerləşdirin və o, diqqətini onun üzərində cəmləşdirdikdə onu yığışdırın.

## Oyun və məşğələlərin təsviri

### "Anaya bax" oyunu

**Oyun vəziyyəti.** Valideyn yarı uzanmış vəziyyətdə kreslonun arxasına və ya möhkəm yastığa söykənir. Uşaq isə qarnı üstə onu sinəsinə uzanır.

**Oyunun təsviri.** Valideyn uşağa səslənir, onun saçına üfürür.

Uşaq başını qaldırdıqda mütləq ona gülümsəmək, onunla söhbət etmək və eyni zamanda, danışıq tempini və cavabı gözləməyi unutmamaq lazımdır. Uşaq yayınırsa, onun səsini təkrar etməyə çalışın.
**Əlavə yardım.** Uşaq başını qaldırmağa hələ çətinlik çəkirsə, onun sinəsinin altına yastıq qoymaq və ya əllə onun çənəsindən tutmaq lazımdır. Uşağın başını qalxmış vəziyyətdə asanlıqla saxlaması üçün onun qollarını dirsəkdən bükülmüş sinəsinin altına gətirin və öz əllərinizlə dəstək verin. Uşağın başını qaldırmasına kömək edən başqa bir üsul onun kürəyinin sığallanmasıdır.

## "Təyyarə" oyunu

**Oyun vəziyyəti**. Valideyn uşağı qarnı aşağı sallağı vəziyyətdə saxlayır.
**Oyunun təsviri.** Valideyn uşağı irəli-geri yelləyir və deyir: "Uçduq-uçduq!". Yellənmə amplitudası, əlbəttə, uşağın reaksiyasına uyğun olaraq artırılır.

## "Gəl, birlikdə oynayaq" oyunu

**Oyun vəziyyəti.** Uşaq arxası üstə uzanır. Bu oyunu arxası üstə müxtəlif vəziyyətlərdə uzanmaqla oynamaq olar. Lakin, ən əlverişlisi uşağın valideynin maili vəziyyətdə dizlərində arxası üstə uzanmasıdır. Belə vəziyyət uşağın qismət şaquli vəziyyətdə tutulmasına imkan verir. Bu, ona xeyirdir. Valideynin qolları sərbəst qalır. Uşaq kifayət qədər təhlükəsizlikdə olur.

**Oyun variantları.** Onlar çoxdur! Uşağın reaksiyasına fikir verin, onun yorulduğu momenti əldən buraxmayın (üzünü çevirməsi, gözünü çəkməsi, ağlaması, narahat olması və s.)
• Nəğmə və layla oyuma. Bu nəğmələri oxuyarkən yaxşı olar ki, eyni zamanda ritmə ona toxunasınız, əllərini və ya ayaqlarını sıxasınız və s. Ən sadə uşaq nağıllarını və ya

nəğmələrini xatırlayın və ya özünüz uydurun!
• Uşağın əlləri ilə oynama. Valideyn uşağın əllərini öz əlləri ilə tutur və onları üzünə yaxınlaşdırır, onun ovuclarına üfürür, barmaqlarını dişləyir, uşağın yumruğunu onun dodaqlarına doğru aparır.
• Uşağın ayaqları ilə oynama. Oyun əllərlə oyunda olduğu kimi qurulur. Uşağın ayaqlarını qaldırın və ona göstərin. Onun pəncəsinin alını astaca şappıldadın, dabanlarını sürtələyin və s. Uşaqla “təpik-təpik” oynayın – onun ayaqlarını sinənizə itələyin.
• Uşağın üzü ilə oymana. Uşağın üzünü dartışdırın, onun başını və boğazını sığallayın, əlinizi yanaqlarına toxundurun və sürtələyin, dodaqlarını yüngülcə çimdikləyin, astaca çənəsini sıxın və uşağın dodaqlarını yummasına səbəb olun. Bu zaman üz hissələrinin adlarını təkrarlamaq olar: alnına toxunanda “bu alındır”, dodaqlarına toxunanda “bu dodaqdır” demək lazımdır.
• Valideynin öz saçları və ya hər hansı tüklü parça ilə uşağın bədənini sığallaması onun ümumi stimulyasiyası və onda bədən hissiyyatının artması üçün çox faydalıdır.
• Dəsmalla “ku-ku” oyunu. Dəsmalla üzünüzü örtərək uşağın onu götürməsinə və beləliklə də sizi yenidən görməsinə çalışın. Sonra rolları dəyişin. Bu zaman tələsməyin. Çünki, uşaqlar belə oyuna heç də həmişə dərhal cavab vermir. Onunla həvəslə oynadığınızı və  mimika, təbəssüm və sözlərlə öz müsbət reaksiyanızı uşağa dəfələrlə göstərməyiniz çox vacibdir!
• Hərəkətlərin izlənməsi. Uşaq arxası üstə uzanarkən, başını elə yırğalayın ki, o, üz hərəkətlərini izləmək bacarığını məşq etdirə bilsin. O, həmçinin oyuncaq oynadarkən (üfüqi, şaquli, dairəvi) əlinizin hərəkətini də izləyə bilər.
• Əşyanı ələ keçirmənin inkişafına yönəlmiş oyun. Uşaq yumruğunu sıxırsa, onu açana qədər əlinin arxa tərəfini sürtələmək lazımdır. Sonra isə işarət barmağınızı onun ovcuna qoyub uşağın onu sıxmasına çalışın.

## “Səs haradan gəlir?” oyunu

**Oyun vəziyyəti.** Uşaq arxası üstə uzanır.
**Ləvazimat.** Sizə səs çıxaran oyuncaqlar lazım olacaq.
**Oyunun təsviri.** Valideyn oyuncağı uşağa göstərib onun səsini nümayiş etdirir. Uşağın baxışlarından, davranışının dəyişməsindən onun reaksiyasını diqqətlə izləməklə onun oyuncağın səsini eşidib-eşitmədiyini başa düşmək olar.
Balaca uşaq səsi eşitdikdə qeyri-iradi olaraq üzünü həmin istiqamətə çevirir. Bu halda, uşağın səsi eşitdiyi aydın olsa, lakin, o, başını çevirməsə, ona yardım etmək lazımdır.
Əziz valideynlər! Uşağın eşitmə vəziyyəti ilə bağlı şübhələriniz olduqda, çalışın təxirə salmadan həkim-otolarinqoloqa müraciət edəsiniz.
**Əlavə yardım.** Oyuncağı yan tərəfdə elə uzadın ki, o, sizi görsün, lakin çox da yaxşı yox. Ola bilsin ki, o, başını çevirsin. Ona görə də oyuncaq onun görmə sahəsinin mərkəzində olsun. Oyuncağı yandan səsləndirib ehmalca uşağın başını çevirin ki, o, səsin mənbəyini görsün. Başqa bir “hiylə” – rezin və ya plastik oyuncaqlar-deşikli tütəklərdən istifadə etmək olar. Oyuncağı yan tərəfdə elə yerləşdirin ki, uşaq səslə eyni vaxtda yanağında hava axınını hiss etsin.
Səbirli olun və oyuncaqları dəyişərək oyunu dəfələrlə təkrar edin. Oyuncaqların səslənməsini ara verə-verə əvəz edin. Belə ki, səslənmənin davamlı olması uşağın diqqətini zəiflədir.

## “Uçuruq-uçuruq” oyunu

**Oyun vəziyyəti.** Valideyn uşağı üzü yuxarı, sallağı vəziyyətdə ayaq üstə saxlayır.
**Oyunun təsviri.** Valideyn uşağı ehtiyatla yuxarı qaldırır, aşağı endir, onu o tərəfə, bu tərəfə yırğalayır. Bu zaman “uçuruq-uçuruq” demək, hər hansı sadə nəğmə “Nənəgilə, babagilə gedirəm” və ya sadəcə sözləri hecalarla demək olar.

## Topla oyunlar

Bu oyunları bu mərhələnin sona yaxın və ya növbəti inkişaf mərhələsi ərzində oynamağa başlamaq olar.

Hələ ki, uşağı üzüaşağı topun üstünə qoyub onun belindən və ayaqlarından tutaraq yüngülcə irəli-geri hərəkət etdirməyə cəhd etmək olar. Bu, uşağın xoşuna gəlməzsə, israr etməyin və bir qədər gözləyin. O, özündə inam hiss edən kimi belə hərəkət onun xoşuna gələcək.

**Uşaq ikinci mərhələnin sonuna yaxın nəyi bacarır.**

• Nəzərini onunla danışan valideyninin üzünə cəmləşdirməyi.
• Başını səs gələn tərəfə çevirməyi.
• Sinəsi səviyyəsində asılmış oyuncaqları əlləri ilə itələyir.
• Əllərinə qoyulan oyuncaqları tutur və saxlayır, yumruğunu ağzına tərəf aparır.
• Qarnı üstə uzanmış vəziyyətdə başını qaldırır və saxlayır.
• Şaquli vəziyyətdə qoltuğunun altından saxladıqda başını şaquli istiqamətdə düz saxlayır və ayaqlarını sərt yerə dayayır.
• Uşaqda canlanma kompleksinin yaranması onun növbəti mərhələyə keçidə hazır olmasını göstərir: uşaq fəal şəkildə - "bütün bədəni ilə, bütün vücudu ilə" valideynin onun yanında olmasına cavab verir, fəal şəkildə qığıldanır və əzizlərinin intonasiyasını hiss edir, başını səs gələn tərəfə çevirir.

## ÜÇÜNCÜ MƏRHƏLƏ

Tədricən ətraf mühitə daha mürəkkəb diferensiallaşmış reaksiya ilə əvəz olunan canlanma kompleksinin yaranması bu mərhələnin başlanğıcı hesab edilir. Əşyalarla hərəkətin inkişafı və səth üzərində irəliləmək bacarığı uşağın növbəti mərhələyə keçidə hazır olduğunu göstərir.

### Mərhələnin xüsusiyyətləri

Sizin körpəniz böyümüş və artıq bir çox şey öyrənmişdir. Görmə və eşitmə zamanı səs gələn tərəfə yönəlmə reaksiyasının inkişafı davam edir: Sizin səsinizi və ya zəngin səsini eşidən uşaq baxışları ilə səsin mənbəyini axtarmağa başlayır. Görmə ilə izləmə göz gəzdirmə ilə əvəz edilir. Körpə

sanki baxışlarla obyekti yoxlayır və diqqəti yayındırıldığı halda bir daha onu müşahidə etməyə başlayır. Elə bu vaxt görmə və hərəkətin əlaqələndirilməsi bacarığı əlaqəsi inkişaf edir: Baxışlarla nəzarət ilə uşaqda düşüncəli şəkildə ələ keçirmə hissi yaranır. Bu, sonradan əşyanı götürmə, saxlama və oynatma bacarıqlarına çevrilir. ***Əşyalarla hərəkət bu mərhələnin əsas nailiyyətinə çevrilir.*** Elə bu zaman nəzərə almaq vacibdir ki, ***uşağın kiçik motorikasının və görmə və hərəkətin əlaqələndirilməsi bacarığının inkişafı*** bəzi xüsusiyyətlərə malikdir.
Arxası üstə uzanmış vəziyyətdə əşyanı məqsədyönlü şəkildə əllə tutma bacarığının formalaşması aşağıdakı vərdişlərin olmasını tələb edir: əli qaldırma bacarığı, baxışlarla nəzarət ilə əşyaya yaxınlaşma və onu əllə tutma. Yuxarıda sadalananlardan Daun sindromlu uşaqlar üçün ən çətini əli qaldırma hərəkətlərini tənzimləmə bacarığıdır. Hətta, görmə və hərəkətin əlaqələndirilməsi bacarığı yaxşı səviyyədə formalaşdığı halda belə aşağı əzələ tonusu və oynaqların dayanıqsızlığı uşağın lazımi nəticəni əldə etməsinə mane olur. Beləliklə, buradan nəticə çıxır ki, kiçik motorika vərdişlərinin vəziyyəti ümumi hərəkətlərin inkişaf səviyyəsi ilə sıx bağlıdır. Oyuna çevrilmiş bir sıra xüsusi məşqlər sadalanan çətinliklərin aradan qaldırılmasına yardım edəcək.
Uşağın ***böyük motorikası*** da təkmilləşir: onu qoltuğunun altından tutduqda dayanıqlı şəkildə durur, dirsəkdən bükülmüş halda qucaqda qarnı üstə uzun müddət uzanır. Əksər uşaqlar qarnı üstə sürünürlər. Lakin, elə hallar da vardır ki, uşaq sürünməyə gec başlayır və ancaq iməkləyirlər. Qarnı üstə uzanmış vəziyyətdə uşağın marağına səbəb olan oyuncağı götürməsi üçün bir əlini boşaltması və bu zaman bütün ağırlığını əks tərəfə salması lazım gəlir. Bu tənzimləyici reaksiya böyük motorikanın inkişafında mühüm rol oynayır və gələcəkdə bütün hərəkət növlərinin əsasına çevrilir. Daun sindromlu uşaqlarda məhz bu cavab vərdişləri pozulmuşdur. Əzələnin kifayət qədər güclü olmamağı və bağların

elastikliyinin yüksək olması da hərəkətin formalaşmasını çətinləşdirir. Böyük motorikanın inkişafına xüsusi diqqət yetirilməsi digər inkişaf sahələrindəki pozğunluqların qarşısını almağa imkan verir. Bu, xüsusilə kiçik motorikanın və idrak fəaliyyətinin inkişafı ilə sıx bağlıdır.
Uşaqda ***hərəkəti planlaşdırma*** bacarığının inkişafı onda ilk məqsədyönlü hərəkətlərin yaranmasını təsdiq edir. O, sonradan məqsədyönlü idrak fəaliyyətinin əsasına çevrilir. Uşaq uzanıb istədiyi oyuncağı götürməkdə çətinlik çəkərsə, onun davamlı uğursuz cəhdləri onun fəallığının azalmasına gətirib çıxara bilər. Bu halda, uşağın davranışı passivləşir və o, məqsədə çatmaq üçün heç bir səy göstərmir. Məqsədyönlü hərəkət vərdişlərinin formalaşdırması üzrə vaxtında başlanmış hərtərəfli iş bu çətinliklərdən qaçmağa icazə verir.
Canlanma kompleksi daha ***müxtəlif formada böyüyə oriyentasiya reaksiyası*** ilə əvəz olunur. Bu mərhələdə yaxın adama müsbət reaksiya yaranır, uşaq gülür, onu görəndə şadlıq hissi ifadə edir. Qığıldanma (boğaz səslərindən ibarət təsadüfi hecaların səsləndirilməsi – qa, qu, aqu) dodaq səslərinin aşkar eşidildiyi anlaşıqsız danışıqla əvəz olunur (ma, ba, bu və s). Anlaşıqsız danışıq tədricən daha davamlı və müxtəlif olur.
Bütün uşaqlar kimi Daun sindromlu körpələr sizin göstərdiyiniz hər bir sevgi və şəfqətli münasibətə şad olurlar. Onunla qarşılı əlaqə zamanı siz onun davranış repertuarının xüsusiyyətlərini nəzərə alsanız, siz və körpəniz ümumi dil tapacaqsınız və heç nə sizin ünsiyyətdən razı qalmağınıza mane olmayacaq.
Daun sindromlu uşaqların davranış xüsusiyyətlərini nəzərdən keçirək.
• Göz əlaqəsi iki-iki həftə yarımdan çox vaxtda yaranır.
• Göz əlaqəsinin davamlılığı daha azdır.
• Təbəssüm gec yaranır (adətən, bir aya) və az ifadəli ola bilər.
• Stimula reaksiya qabiliyyəti bir qədər gecikir.
• Vokalizasiya az aktivdir, bundan əlavə, daha çox 6-cı ayında inkişaf edir ki, bu da yaşıdlarından iki ay gecdir.

• Bütün bu xüsusiyyətlər canlanma kompleksinə də xasdır: uşağın davranışı az aydın ola bilər və aktiv hərəkət oyanıqlığı ilə müşayiət olunmaya bilər. Uşağın inkişafının bu mərhələdə yaranan gülüş adətən daha sakit olur.

**Böyüyün işarələrini yoxlamaq bacarığı**

Qavrayış tempi Daun sindromlu uşaqlarda aşağıdır. Bu o deməkdir, ona edilən müraciəti qəbul etməsi və ona cavab verməsinə daha çox vaxt lazımdır.
Uşaqda görmə və ya eşitmə pozğunluğu olsa, bu, sizin daha çox diqqət və qətiyyət, eləcə də tiflopedaqoq və ya surdopedaqoq (Onlar görmə və eşitmə pozğunluğu olan uşaqlarla işləyən pedaqoqlardır.) məsləhətinə ehtiyac duymağınıza səbəb olacaq.

**Valideyn və uşağın bir-birinə qarşılıqlı təsiri**

Valideynlər Daun sindromlu uşaqların inkişaf xüsusiyyətləri ilə tanış deyillərsə, onda, onlar uşaqla ünsiyyətdə olarkən və daha aydın və tez gözləyərkən uşağın onlarla qarşılıqlı əlaqə istəyində olmasına şübhə ilə yanaşırlar və ona görə də ünsiyyət təşəbbüsü ilə az çıxış edirlər. Bütün bunlar isə öz növbəsində ona gətirib çıxarır ki, az ünsiyyətə cəlb olunan uşaq ətrafdakıların müraciətlərinə passiv cavab verirlər. Tövsiyələr bölməsində qeyd edilmiş sadə qaydalara əməl etdikdə belə qapalı mühiti dağıtmaq heç də çətin deyildir. Uşağınızın yaxın adamları ilə isti münasibətləri yaranmışdır. İndi isə ***ətrafdakılara oriyentasiyanı*** öyrənmək çox vacibdir. Yaxın adamlara xüsusi münasibətin yaranması, bir oyuncağın o birisindən çox üstünlük verilməsi uşağın insanları və əşyaları yadda saxlamaq və tanımaq bacarığını təsdiq edir. Subyektləri, obyektləri və baş verən hadisələri dəqiq qavramaq, yadda saxlamaq və fərqləndirməkdə Daun sindromlu uşaqlara yardım etmək üçün bir sıra digər şərtlər də lazımdır. Biz artıq uşağa edilən müraciətin aşağı tempi və dəfələrlə təkrar edilməsi barədə danışmışıq. İndi isə yadda saxlamaq vacibdir ki,

şəraitin tez-tez dəyişməsi, rejimin yoxluğu və ya pozğunluğu, ətrafdakılarının davranışının kəskin dəyişməsi, qoxunun, paltarın rəng qammasının əvəzlənməsi uşağın baş verənlərə oriyentasiyasına mane olur və əksinə, məkanın və zamanın bölgüsünə valideynin xüsusi diqqət yetirməsi körpənin özünü rahat və inamlı hiss etməsinə yardım edir, onu əhatə edən yaxın adamları və əşyaları görməsinə və yadda saxlamasına imkan verir. Belə ki, məsələn, uşağın çimizdirilməsi zamanı ana öz xalatını geyindikdə və böyük sarı dəsmalı götürəndə, uşaq isə suyun şırıltısını eşidəndə o, asanlıqla anlayacaq ki, onu hansı hadisə gözləyir. Ətrafdakılara aşkar müsbət reaksiya, baş verənlərə öz münasibətini beləcə emosional bildirməkdə bu balaca insana yardım edəcək.

***Qeyd:*** Uşağın görmə və eşitmə qabiliyyətini yoxlayın. əgər siz uşağın soyuqdəymədən sonra səsinizə daha pis reaksiya verdiyini aşkara etsəniz, hətta, yaxın vaxtlarda həkim yanında olmağınıza baxmayaraq eşitmə qabiliyyətini dərhal müayinə etdirin. Anatomik xüsusiyyətlərdən Daun sindromlu uşaqlarda soyuqdəymə çox vaxt eşitmə orqanlarının iltihabı xəstəliklərinə keçir.

***Yedizdirmənin təşkilinə*** diqqət yetirək. Bu mərhələdə, dörd aydan sonrakı yaş dövründə qida rasionuna meyvə şirəsi, bir neçə həftədən keçdikdən sonra isə meyvə püresi (həkim məsləhəti ilə) daxil edilir. Ağız boşluğu və dilin quruluş xüsusiyyətləri, eləcə də qida qəbulu prosesində iştirak edən bütün əzələ qruplarının hipotoniyası yedizdirmənin təşkilinə xüsusi diqqət tələb edir.

Körpəyə qaşıqla yeməyi, eləcədə mayenin qəbulunu tənzimləyərək butulka tutmağı öyrədirlər.

Sonda, qeyd edək ki, uşağın ömrünün ilk yarım ili onunla xarakterizə olunur ki, onun üçün ən maraqlı obyekt yaxın adamıdır. Oyuncağa marağı isə ikinci yerdə gəlir və bu maraq adətən həmsöhbət olmayanda yaranır. Maraqlıdır ki, uşağın əşyaya marağı və insana marağı praktik olaraq ayrı-ayrılıqda mövcud olur.

## Uşaqla qarşılıqlı təsir və inkişaf etdirici mühitin yaradılması üzrə tövsiyələr

### Ünsiyyət və nitq

Uşaq əvvəlki kimi intonasiyaya həssasdır, lakin, bu mərhələnin sonuna yaxın sözlərin mənasına diqqət yetirir. Əsas mənanı ifadə edən (əsas sözləri) nitq axını zamanı sözü fərqləndirməkdə uşağa yardım etmək üçün təklif edilən əşyanın adını və baş verən hadisəni (uçduq-uçduq, iti götür, gör necə köpəkdir) aramla və anlaşıqlı demək lazımdır. Sadə oyun-nağıllardan çox istifadə edin, nağılları qısa şərh edin. Oyun uşağı bezdirsə, onu bir qədər dəyişə və ya başqa nağıla keçə bilərsiniz.

Uşaqla ünsiyyət zamanı onun adını tez-tez çəkin, yanında və ya arxasında durub onu çağırın. O, səsinizi eşidib sizə tərəf döndükdə ona gülümsəyin.

Bu yaş dövründə uşaqda qığıldanma, bu mərhələnin sonuna yaxın isə uşağın özünəməxsus anlaşılmaz danışığı (anlaşılmaz danışıq) inkişaf edir. Uşağınızın danışıq qabiliyyətinin stimullaşdırılması üzrə məsləhətlərdən nümunə göstərək.

- Uşaqla söhbət edin, onun çıxardığı səsləri və dediyi hecaları ondan sonra təkrar edin. Çalışın ki, uşağınız bu zaman sizin üzünüzə baxsın.
- Uşaqla danışarkən həmişə fasilələr verin ki, o, bir qədər keçdikdən sonra sizə cavab versin.
- Ona nəğmə oxuyun. Nəğmə kimi körpənizin “repertuarındakı” sait səslərdən istifadə etmək olar.
- Hərəkətlər edərək nağıl danışın. Siz yəqin bu nağılları bilirsiniz: “Laduşki”, “Sağsağan-alaqarğa” və s.
- Anlaşılmaz danışığın stimullaşdırılması üçün baş və işarət barmağı ilə uşağın dodaqlarını dəfələrlə açıb-yumun. O, sait səsi çıxararsa, dodaqları yumulduqda dodaq samitlərindən ibarət hecalar – ba-ba-ba, ma-ma-ma əmələ gəlir.
- Hərəkət və ya lamisə stimulyasiyası tez-tez uşağın nitq aktivliyinə səbəb olur. Uşağı sığalların, şappıldadın, onu atıb-

tutun, məzəli səslər çıxarın, bir sözlə, onda şad əhval-ruhiyyə yaratmaq üçün bütün üsullara əl atın.
• "Canlanma kompleksinin" formalaşdırılması üçün körpənizin əl və ayaqlarını oynadın.

**Uşağın hərəkət qabiliyyətini inkişaf etdiririk**

***Arxası üstə uzanmış vəziyyət.*** Oyun zamanı əvvəlki kimi uşaqdan istifadə edilir: uşaq ayaqlarını qaldırır, onlara toxunur, o, əllərini oyuncağa doğru uzadır, oyuncağı tutmaq üçün tez-tez başını qaldırır, yana çevrilir, sonra isə yenidən arxası üstə dönür.
Uşağın oyuncaqları tutma dəqiqliyi əsasən böyük motorikanın inkişafından asılıdır. Körpə və ana üçün əyləncəli oyunun gedişində aşağıdakı tapşırıqları yerinə yetirmək olar:
• uşağa əşyaya doğru uzanması və əli ilə onu vurmasını öyrətmək;
• əşyaya doğru uzanmaq və onu tutmaq;
• oyuncağı əlində saxlamaq;
• oyuncağı ağıza aparmaq;
• Böyüyün əlindən oyuncağı almaq;
• öz bədənini öyrənmək;
• Başını səs gələn tərəfə döndərmək, səsli oyuncağa doğru uzanmaq və onu götürmək.
***Qarnı üstə uzanmış vəziyyət.*** Uşağı tez-tez qarnı üstə uzatsanız, bu vəziyyət onu daha çox cəlb edəcək və arxası üstə uzanmış vəziyyət isə onun üçün tədricən dincəlmə vəziyyətinə çevriləcək. Uşaq uzanmış vəziyyətdə başını azca yuxarı qaldırmağı və saxlamağı, uzanmağı, bazu önünə dirənməklə bütün bədənini bir tərəfdən digərinə aparmağı öyrənir.
***Söykənəcəyi maili olan xüsusi kreslada oturaq vəziyyət.*** Kreslonun konstruksiyasına diqqət yetirin: kreslonun söykənəcəyi sərt olmalı, uşağın çanağı və kürəyi xüsusi kəmərlərlə elə bərkidilməlidir ki, onun kürəyi düz otursun. Bu kreslo uşağı qaşıqla yedizdirmək, onunla oynamaq, üz-üzə oturmaq əlverişlidir. Kreslonun yerini dəyişsəniz belə körpə

orada oturaraq baş verənləri izləyə bilər. Yadda saxlamaq vacibdir ki, kresloda uzun-uzadı oturma körpənin hərəkət aktivliyini məhdudlaşdırır. Ona görə də, sərbəst oturmağı bacarmayan uşaq üçün gündə üç-dörd dəfə 15 dəqiqə müddətdə oturmaq kifayətdir.

***Əlaqə vəziyyətləri***

• Şaquli vəziyyət. Sizə tanış olan çiyin vəziyyətindən istifadə edin. Bundan əlavə, uşağı sinənizə sıxmaqla və qucaqlamaqla şaquli vəziyyətdə saxlaya bilərsiniz. Dayaq yerlərini tədricən aşağı salaraq uşağınızın kürək nahiyəsindən tutmaqla şaquli vəziyyətdə durmasına nail ola bilərsiniz.

• Maili dizlər vəziyyəti. Əl və ayaqlarla oyunlarda əvvəlki kimi bu vəziyyətin müxtəlif variantlarından istifadə edin. Ən geniş yayılmış uşağın sinənizdə uzandığı vəziyyətdir. Həmçinin uşağı maili vəziyyətə gətirilmiş dizlərin üzərində elə uzadın ki, ayaqları sinənizə dirənsin. Elə oturmağa çalışın ki, uşaq praktik olaraq şaquli vəziyyətdə dayansın.

• Böyüyün qucağında oturaq vəziyyət. Bu vəziyyət adətən uşağın harayasa aparıldığı halda istifadə edilir və ondan ibarətdir ki, körpənin dizləri oturaq vəziyyətdə olduğu kimi bükülür. Uşaq bu vəziyyətdə arxası və ya yanı sizə tərəf otura bilər. Dayaq səviyyəsini tədricən endirin və körpənin onu marağına səbəb olan əşyaya tərəf dönməsinə imkan verin.

**Məişət şəraitində uşağın stimulyasiyası**

Uşağın inkişafı üçün optimal şərait təşkil etməkdə sizin köməyinizə gələ biləcək bir neçə sadə məsləhət verək.

• Uşağı geyindirib-soyundurarkən, çimizdirərkən onunla söhbət edin, ona təbəssüm göstərin və öz hərəkətlərinizi izah edin.

• Bir əli ilə digərini yoxlamaqda, üzünə və başına toxundurması üçün əlini qaldırmaqda uşağa kömək edin.

• Paltarını geyindirərkən uşağın diqqətini ayaqlarına cəlb edin. Bunun üçün dizlərinə və topuqlarına əlinin çatması, eləcə də sizin ona corab və ya dizlik geyindirdiyinizi görməsi üçün onun arxasına bükülmüş əski qoyun.

• Onun sizin üzünüzü əli ilə yoxlaması, eynəyinizi çıxarması və ya saçlarınızı dartması üçün əyilin. Uşaq əlini belə hündürlüyə uzada bilməzsə, bazu önündən tutmaqla ona kömək edin.
• Uşağın başını qaldırarkən onun arxaya əyilməməyinə fikir verin. Uşağı çiyinlərindən tutub astaca özünüzə tərəf çəkin. Lazımi hallarda hər iki tərəfdən işarət və ya orta barmaqla onun başını saxlayın. Dayaq səviyyəsini tədricən endirin.
• Uşağın yumruqları sıxılmış vəziyyətdədirsə, barmaqların aşağı ucları və ya sacla onun əlinin arxa tərəfindən sürtələyin və sonra, açılmış ovucları üzünüzə tutun.
• Arxası üstə uzanmış uşağı əlinizə götürməzdən əvvəl onu yana çevirin. Uşağın baş barmaqları ilə qolunuzdan tutmasına imkan verin və o biri barmaqlarla onu tutun və bu üsulla onu bir yandan o biri yana çevirin.
• Uşağın paltar geyindirilmə, yuyundurulma və ya qucağa alınmasından əvvəl arxası üstə uzanmış vəziyyətdən yana və ya qarnı üstə çevirməyin ən yaxşı üsulu ondan ibarətdir ki, siz onun bir ayağını dizdən bükür və onu digər ayağının altında diaqonal üzrə yuxarı aparırsınız.
• Çimizdirərkən uşağın sığallayın, ona nəğmə oxuyun.
Uşağı qoltuğundan götürərək suda yuxarı-aşağı və sağa-sola yırğalayın.
***Uşağın yedizdirilməsi*** üzərində bir qədər ətraflı dayanaq.
***Qaşıq.*** Uşağın qida rasionuna şirə və püre daxil edildikdən sonra onu qaşıqla yedizdirmək olar. Yemək yumşaq və hamar olmalıdır. Qaşığı onun ağzına ehmalca qoymaq və azca aşağı sıxıb ağız boşluğuna əymək lazımdır. Uşağın dodağını qabağa gətirməsi və qaşıqdan yeməyi götürməsi üçün azca gözləmək çox vacibdir. Əgər valideyn qaşığı azca qaldırıb uşağın yuxarına dodağına toxundurmaqla yeməyi onun ağzına özü tökərsə, o, başını arxaya çəkməli olacaq və yeməyi udmaqda çətinlik yaranacaq. Bundan əlavə, bu halda uşağın dodaqları və ağzı passiv olur. Beləliklə də aşağı tonus şəraitində uşaq dodaqlarını yummağı öyrənə bilmir və daim ağzından dili görünür. Sonradan isə dilini götürməyi və ağzını

bağlı saxlamağı öyrətmək üçün böyük səy tələb olunur. Yeri gəlmişkən, əksər hallarda düzgün təşkil edilmiş yedizdirmə bunun qarşısını alır. Ola bilsin ki, uşaqda əvvəlcə sorma hərəkətləri yaranmasın. Lakin, tədricən qaşıqdan yeməyi öyrənəcək.

Qaşıqla yedizdirmə zamanı ana uşaqla üz-üzə oturmalıdır, Yaxşı olar ki, ondan azca aşağıda otursun. Bu halda o, qaşığı qaldırıb yeməyi uşağın üst dodağı ilə "silməyə" imkanı olmayacaq, uşaq isə qaşıqla yaxşı əlaqədə olacaq.

Çay qaşığının ölçüsünə bərabər qaşıqdan istifadə olunur. O, nə çox geniş, nə də ürəkbulanmasına səbəb olacaq qədər uzun olmamalıdır. Bundan əlavə, qaşıq uşağın yeməyi götürməsində çətinlik yaranmamağı üçün çox dərin və ağızda asan hiss olunması üçün elastik olmamalıdır.

Fincan kənarları qatlanmış və plastmas olmalıdır. Hərdən, gözlərin kənarları ilə örtülmədən mayeni içməyə imkan verən çıxıntılı fincanlardan istifadə edilir. Belə fincanları adi plastik fincanlardan dəlik açmaqla özünüz də düzəldə bilərsiniz. Qatı mayeləri, məsələn, qatıq və ya qatı meyvə şirəsi içməkdən başlaya bilərsiniz. Fincanın kənarını uşağın alt dodağına dayayıb onun ağzına azca maye buraxın. Əgər uşaq ağzını bağlamaq lazım olduğunu anlamasa, çənəsinin altından sıxın və ağzını bağlayın. Bununla da o, reflektor olaraq udqunacaq.

## Uşağın oyun zamanı inkişaf etdirilməsi

### *Oyunun keçirildiyi yer*

Çarpayının sahəsi tədricən uşağa dar gəlir. O, get-gedə fəallaşır. Ona görə də, oyaq vaxtı oyun üçün xüsusi ayrılmış yerdə vaxtını keçirmək ona daha xoş gəlir. Siz döşəməyə qalın ədyal və ya xalça sərin. Sizə həmçinin oyuncaqları asmaq üçün dirək lazım olacaq. Siz uşağı döşəmədə qoyub otaqdan çıxsanız, geri qayıtdıqdan sonra təəccüblə müşahidə edəcəksiniz ki, o, nə cürsə bir yerdən başqa yerə gedib və ola bilsin ki, vəziyyətini dəyişib.

Uşağı elə yerləşdirin ki, o, sizin hərəkətlərinizi və fəaliyyətinizi

müşahidə edə bilsin. Hərdən onunla ünsiyyət qurun və onun səsinə cavab verin. Uşağın otaqda rahat şəkildə ətrafa nəzər yetirib yetirə bilmədiyi yoxlayın.
Uşağın görmə sahəsində müşahidəyə daha yararlı obyektlər yerləşdirin: maraqlı hissələri olan mürəkkəb formalı oyuncaqlar, kiçik naxışlı şəkillər, fotoşəkillər. Uşağı elə yerdə qoyun ki, o, xalçanın, pərdənin və ya süfrənin naxışlarını nəzərdən keçirə bilsin. Ola bilsin ki, otaqda onun marağını cəlb edən şəkil asılıb. Vaxtaşırı olaraq ətrafa yeni elementlər – içərisində gül olan vaza, stulun arxalığına sərilmiş parlaq rəngli şərf daxil edin.
Uşağın öz əksini görməsi üçün güzgü və ya digər əksetdirici əşyalar asın.
Uşağın marağına, əlini olana tərəf uzatmasına, vəziyyətini dəyişməyə və çevrilməsinə səbəb olan maraqlı oyuncaqlar yerləşdirin.
Uşağı hərdən başqa yerə aparın. Onun diqqətini öz hərəkətlərinizə cəlb edin.
Gəzinti zamanı onu elə yerləşdirin ki, qarşısında baş verən hadisələri görməsi üçün geniş sahə açılsın. Uşaq arabasında uzanarkən o, maraqla buludlara, ağacların yarpaqlarına, avtomobillərə, itlərə, yanından keçib gedən insanlara baxacaq.

**Oyuncaqlar və ləvazimatlar**
Oyuncağın forması. Təqribən üç aylıq uşaqlarda dərinliyi qavramaq bacarığı formalaşır. Ona görə də böyük həcmli oyuncaqlar onun marağını cəlb edir.
Oyuncağın rəngi. Demək olar ki, bu yaş dövründəki uşaqlarda rəngi görmək bacarığı yaranır. Ona görə də oyuncaqların rənginə fikir verməliyik. Bu yaş dövründəki uşaqları daha çox sarı və tünd-göy və ən yaxşısı onların qarışığı cəlb edir. Lakin, başqa variantlar da istisna deyil. Uşağı müşahidə edərək siz onun diqqətini hansı rəngli əşyaların cəlb etdiyini müəyyən edə bilərsiniz. Uşağın görmə sahəsinə belə oyuncaqlar yerləşdirməklə onda diqqətin cəmləşdirilməsi vərdişini inkişaf

etdirə bilərsiniz.
Oyuncaqların sayı çox olmamalıdır (hər tərəfdə bir-iki dənə).
Oyuncaqların başqaları ilə əvəz edilməsi. Siz uşağınızın oyuncaqlara az baxdığını müşahidə etsəniz onları başqaları ilə əvəz edin. Adətən, oyuncaqları həftədə iki dəfə dəyişmək kifayət edir.
Oyuncağa qədər məsafə müxtəlif ola bilər. 50-70 santimetrlik məsafə oyuncağa yaxşı baxmağa imkan verir. Lakin, nəzərə almaq lazımdır ki, bu yaş dövründə görmə və hərəkətin əlaqələndirilməsi bacarığı formalaşır. Oyuncaqların bir qismini elə yerləşdirmək lazımdır ki, uşaq əvvəlcə təsadüfi olaraq əllərini ona toxundursun, sonra isə məqsədyönlü şəkildə döyəcləyə bilsin. Bunu edə bilmədikdə onun qolunu qaldırıb oyuncağa vurmasına kömək edin və bunu dəfələrlə təkrarlayın.
Oyuncağın yerləşdirilmə variantları. Uşağın xoşuna gələn oyuncaqları təkcə çarpayıda deyil, eləcə də onun olduğu digər yerlərdə, məsələn, bələmə stolunda, vannada və s. yerləşdirin və pampersləri dəyişmə, çimizdirmə zamanı onlardan istifadə edin.

***Oyuncaqların siyahısı və onlardan istifadə qaydalarını qısa izahı***

Ələ keçirmək üçün əlverişli, halqa formalı və ya çubuq formalı dəstəyi olan çax-çax. Siz çax-çaxı uşağın barmaqlarının ucuna və ya ovcunun arxa hissəsinə toxundursanız o, çax-çaxı tutacaq. Oyuncağı elə tutsun ki, baş barmaq digərlərindən əks tərəfdə olsun və siz də bu zaman ona kömək edin.
Əlavə detallar asılmış çax-çax. Məsələn, bu sallanan diyircəkli çubuqlar, halqalar ola bilər. İki əlli və əşyanın bir əldən o birisinə keçirmə oyunlarında istifadə olunurlar.
Uşağın əlinin açılmış vəziyyətindəki uzaqlıqda çarpayıdan asılan oyuncaqlar. Müxtəlif örtüklü – tüklü, ucu şiş, xışıltılı – toplardan və digər oyuncaqlar. Onların örtüyü nə qədər çeşidli olarsa, uşağınız onu daha çox maraqla yoxlayacaq.
Basdıqda civildəyən və müxtəlif materiallardan hazırlanmış

oyuncaqlar. Uşağın iki əllə tutması üçün bu oyuncaqları onun qarnının üstünə qoyun.
Diqqəti cəlb etmək üçün qola taxılan bəzək əşyaları. Bu, qolbaq, rəngli lent, ipdən hazırlanmış qotaz ola bilər. Bu bəzək əşyalarını qısa vaxt ərzində bu və ya digər qola taxın və beləliklə, bu bəzək əşyasına öyrəşən uşaq diqqətini ondan çəkəcək.
Güzgüdəki təsvir. Uşağı qucağınızda tutaraq güzgünün qabağında dayana bilərsiniz. Güzgü plastik materialdan hazırlanıbsa onu uşağın görmə sahəsinə yerləşdirin.
Böyük çimərlik topu  və ya xüsusi gimnastika topu. Uşağı qarnı üstə onun üzərinə qoyaraq gəzdirin. Uşaq böyük həvəslə onun üzərində uzanacaq.
Zəng və ya başqa asılan cingildəyən oyuncaqlar. Onu elə asmaq olar ki, onun cingildəyən hissəsi uşağın əlinin çatan yerdə olmasın. Uşaq ona bağlanan lenti çəkdikdə cingildəyəcək.
İki əllə rahat tutula bilən oyuncaqlar. Məsələn, içərisində kürəcik olan böyük çevrə qismində cingildəyən oyuncaq.
Qaytanlı zınqırovlu sabit oyuncaqlar və ya nevalyaşka tipi oyuncaqlar. Belə oyuncaqlar astaca toxunduqdan sonra uzun müddət səs salır.
Hərəkət edən oyuncaqlar. Uşaq qarnı üstə uzanaraq və ya valideynin qucağında oturaraq onların hərəkətini izləyə bilər. Oyuncaqlar qurulmaqla hərəkətə gətirilə bilər. Lakin, diyirlənən top və ya xüsusən hərəkəti əlavə işıq və səs siqnalları ilə müşayiət edildikdə parıldayan maşınlar da körpənin xoşuna gəlir.
Ayaq bağları, zəngli və ya çax-çaxlı corablar. Körpə onlara doğru uzanacaq və əlini vuracaq.
Uşağın ayağından asılmış zəng və ya bir neçə çax-çaxlı top. Uşaq onları ayağı ilə vurur. Uşağın ayaqlarının yanına xışıldayan sellofan paketlər də qoymaq olar. Uşaq onun üçün maraqlı olan səsi eşitmək üçün ayaqlarını fəal şəkildə hərəkət etdirəcək.
Qurulan musiqili oyuncaqlar. Uşaq musiqi səsinə yönələnərək

onu axtaracaq. Belə oyuncağın üstünü dəsmalla örtün. Uşaq səsə çevrildikdə onun dəsmalı götürməsinə yardım edin. Cingildəyən oyuncağı zəngli saat və ya taymerlə əvəz etmək olar.
Görünən və gözdən itən obyekt. Bu, sizin üzünüz, sevimli oyuncaqlar, bi-ba-bo kuklası (əlcək kimi ələ geyinilən kukla) ola bilər. Bütün bunları istifadə etməklə uşaqla gizlənqaç oynamağa çalışın. Bu oyun uşaqda maraq oyatmazsa, bir qədər ara verdikdən sonra onu təkrar edin.
Çimmə üçün oyuncaq – üzən fiqurlar, toplar, gəmilər, plastik fincanlar, ələk, parlaq süngər – uşağınızın çimməsini maraqlı edə bilər.
Təhlükəsiz məişət əşyaları – plastik, taxta və metal fincanlar, qaşıqlar və qazan qapaqları. Onlara toxunmaq, atmaq, döyəcləmək, əldən-ələ vermək olar.
Ağıza alma, sorma  və çeynəməyə icazə verilən əşyalar. Bu, xüsusi oyuncaqlar, diş şotkası, suxarı, suşka ola bilər.
Şəkilli kitablar – taxta, yapışqanlı və ya  qalın karton kağızdan.
Əlavə ləvazimatlar. Lazım gəldikdə yardımçı vasitələrdən – yastıq, şişirtmə halqa, söykənəcəyi maili kreslodan istifadə etmək olar.

## Oyun və məşğələlərin təsviri

### "Top hara diyirləndi" oyunu

***Oyun vəziyyəti:*** dirsəklərə dirənməklə qarnı üstə uzanmış vəziyyət.
***Hərəkət:*** başı qaldırmaq, onu döndərmək.
***Danışıq materialı:*** Top hardadır? Bax, gör o, diyirlənir!
***Oyuncaq və ləvazimatlar.*** Parlaq rəngli top və ya başqa bir maraqlı oyuncaq, əski və ya dəsmaldan yastıq.
***Oyunun təsviri.*** Uşaq qarnı üstə uzanır. O, başını qalxmış vəziyyətdə saxlamağa çətinlik çəksə onun sinəsinin altına yastıq qoymaqla ona kömək edin. Uşağı adı ilə çağırın və

başını qaldırdıqda ətrafa baxmağa sövq edin. Bunun üçün onun diqqətini topa və ya başqa maraqlı oyuncağa yönəldin və onu aramla bir tərəfdən başqa tərəfə aparın. Oyuncağı izləyən uşaq başını müvafiq istiqamətə döndərəcək.

**"Nevalyaşka rəqs edir" oyunu**

***Oyun vəziyyəti:*** dirsəklərə dirənməklə qarnı üstə uzanmış vəziyyət.
***Hərəkət:*** bədənin ağırlığını bir qoluna salmaq, oyuncağı götürmək.
***Ləvazimatlar.*** Nevalyaşka və ya başqa bir maraqlı oyuncaq.
***Oyunun təsviri.*** Uşaq dirsəklərinə dirənməklə qarnı üstə uzanır. Nevalyaşkanı onun qarşısına qoyun və onun diqqətini cəlb edin. Məsələn, siz onu yırğalayıb belə deyə bilərsiniz: "Bax belədir nevalyaşka, din-don, din-don!". Uşağın bədəninin ağırlığını bir qoluna salaraq o biri əli ilə oyuncağa vurmağa yardım edin. Bunun üçün uşağın arxasında dizi üstə durub əlinlə onun sinəsində aşağı tutun və onu bir tərəfə əyin, o biri əli ilə isə oyuncağa vurmasına yardım edin.
Müntəzəm olaraq belə oyunlar oynamaqla və yardım səviyyəsini azaltmaqla uşağa bir dirsəyinə dirənməklə sərbəst şəkildə oyuncağı götürməyi və onu yoxlamağı öyrədə bilərsiniz.
Tədricən oyuncağı daha da yüksəyə qaldırın – qoy uşaq əlini ona uzatsın və belini düzəltsin.

**"Ayaqlarımız hanı" oyunu**

***Oyun vəziyyəti:*** böyüyün bükülmüş dizləri və ya baş hissəsi azca qaldırılmış səth üzərində arxası üstə uzanmış vəziyyətdə. Uşaq və böyük üzbəüz mövqe tuturlar. Belə vəziyyətin onların hər ikisi üçün əlverişli olması vacibdir.
***Hərəkət:*** arxası üstə uzanaraq ayaqları qaldırmaq
***Danışıq materialı:*** Ayaqlarımız hanı? Budur ayaqlarımız! Ayaqlarımız yoxdur, budur ayaqlarımız!
***Oyunun təsviri.*** Uşağın ayaqlarını düz açın və onu ombanıza

sıxın. Ayaqları buraxdıqda uşağın diqqətini buna yönəldin. Bunun üçün onun barmaqlarını yüngülcə dişləyərək ayaqlarını qıdıqlaya bilərsiniz. Parlaq bilərzik və ya başqa bir oyuncaq da onun diqqətini ayaqlarına yönəldə bilər. Uşağın ayaqlarına toxunmasına və onu ağzına aparmasına yardım edin.

**"Kəpənəyi tut" oyunu**

***Oyun vəziyyəti:*** böyüyün bükülmüş dizləri və ya baş hissəsi azca qaldırılmış səth üzərində arxası üstə uzanmış vəziyyətdə. Uşaq və böyük üzbəüz mövqe tuturlar.
***Hərəkət:*** arxası üstə uzanmış vəziyyətdə əlini oyuncağa uzatmaq.
***Ləvazimatlar.*** İpdən asılmış parlaq rəngli oyuncaq kəpənək, başqa bir maraqlı oyuncaq və ya məişət əşyası.
***Danışıq materialı:*** "Kəpənək hanı? Bax budur o! Kəpənəyi tut! Əlini uzat, əlini uzat! Bax budur tutdun!" Danışıq tempi asta, fasiləli olmalı, oyuncağın adı aydın deyilməlidir. Bu zaman uşağa təbəssüm göstərin və onun hərəkətlərini şərh edin.
***Oyunun təsviri.*** Uşağın əllərini irəliyə çıxarın, astaca qaldırıb üzünüzə və saçlarınıza toxundurmağa yardım edin.
Maraqlı bir oyuncağı onun qabağına qoyub onun diqqətini həmin oyuncağa cəlb edin.
Uşaq əlini oyuncağa çatdırdıqda onunla oynamasına imkan verin, sonra isə oyunu təkrar edin.
Uşaqla söhbət etməyi unutmayın.
***Tapşırığın çətinləşdirilməsi.***
Əvvəlcə uşaq öz əlini yalnız qabağında qaldıra bacaracaq. Beləcə çiyinlərini sabitləşdirmək asandır. Tədricən əllərini kənarlara uzatmağı stimullaşdırın. Bunun üçün oyuncaqları və üzünüzü elə tutun ki, o, əlini kənara uzatsın. Beləliklə, o, əzələlərini möhkəmləndirir və bədənini döndərməyi öyrənir.

**"Gəl, buynuz vuraq" oyunu**

***Oyun vəziyyəti:*** böyüyün bükülmüş dizlərində arxası üstə uzanmış vəziyyətdə.

***Hərəkət:*** arxası üstə uzanmış vəziyyətdə başı azca yuxarı qaldırmaq.
***Danışıq materialı:*** “Başımız hardadır? Mən buynuz vururam, mən buynuz vururam!”
***Oyunun təsviri.*** Uşağın çiyinlərindən tutub yüngülcə özünə tərəf çəkmək. O, başını əydikdə onunla “buynuzlaşmaq”. Bu zaman lazım gələrsə, başını saxlamaqda ona kömək edin. Uşaq tədricən maraqlı oyun xatirinə başını özü qaldıracaq.

**“Gizlənqaç” oyunu**
***Oyun vəziyyəti:*** böyüyün bükülmüş dizlərində arxası üstə uzanmış vəziyyətdə.
***Hərəkət:*** körpə böyüyün üzünü çevirməsinin ardınca başını çevirir.
***Danışıq materialı:*** uşağı adı ilə çağırmaq, “cik-cik”, “mənim körpəm hardadır?” “anamı axtarıram, bax budur anam”.
***Ləvazimat:*** Uşağın diqqətini üzünüzə yönəldəcək hər bir əşyadan – şlyapa, günəş eynəyi, şərf, oyuncaqlardan istifadə edə bilərsiniz.
***Oyunun təsviri.*** Üzünüzü əllərinizlə və ya dəsmalla bağlayın və onun diqqətini cəlb edin. Bir neçə saniyədən sonra açın, “cik-cik” deyin və onun adını çağırın.
Üzünüzün tam itməyi onun xoşuna gəlməzsə, şəffaf və ya yarım-şəffaf parçadan istifadə edin.
Hərəkətlərin ardıcıllığını dəyişin: üzünüzü bağlayın və körpənizi çağırın. O, sizə baxdıqda üzünüzü açın və ona gülümsəyin.
***Oyunun çətinləşdirilməsi.*** Başın və bədənin kənara çevrilməsi. Kənara əyilərək uşağınızı çağırın və eyni zamanda, onun çiynini irəliyə elə əyin ki, sizə tərəf çevrilə bilsin.
Onun bir ayağını büküb onu digər ayağının altında diaqonal üzrə yuxarı aparmaqla ona yardım edə bilərsiniz.
Hərəkətlərini aramla edin ki, uşaq onlara reaksiya verə və qoşula bilsin. Hərəkəti sıra ilə hər iki tərəfə etməyi unutmayın.

### “Dön və tap” oyunu

***Oyun vəziyyəti:*** çıxış vəziyyəti – uşaq arxası üstə uzanır. Oyun prosesində onu qarnı üstə dönməyə sövq etmək lazımdır.
***Hərəkət:*** qarnı üstə çevrilmək.
***Danışıq materialı:*** “Bir bax, necə itdir. Onu sığalla. İti ver. Ay aman, it yoxdur! İt hanı? İti götür”
***Ləvazimat:*** maraqlı səs çıxaran oyuncaq.
***Oyunun təsviri.*** Uşağın diqqətini oyuncağa yönəldin, onun necə səs çıxardığını nümayiş etdirin, onunla oynamağa icazə verin. İti istəyib onu ehmalca götürün.
Uşaqla oynayın, bir neçə dəfə iti götürməyi ona təklif edin Onu elə yerləşdirin ki, uşaq əlini uzatdıqda bədəninin orta xəttini keçmiş olsun. Bunun üçün oyuncağı uşağa soldan təklif edib onun sol əlini tutursunuz ki, o, oyuncağa sağ əlini uzatsın.
Uşaq çevrilə bilmədikdə ona yenə kömək edin. Bunun üçün uşağın bir ayağını dizdən büküb onu digər ayağının altında diaqonal üzrə yuxarı aparın.
Uşaq tamamilə çevrildikdə oyuncağı götürməsinə yardım edin.
Uşaq onunla arxası üstə uzanmış vəziyyətdə oynamaq istəsə, onun çevrilməsinə yardım edin. Arxası üstə çevrilə bilməsi üçün onun ayağını dizdən bükün və diaqonal üzrə arxaya aparın.
Uşağın hərəkət prosesinə maksimum qoşulması üçün bütün hərəkətlərinizi çox aramla edin və onun hərəkət reaksiyası göstərməyini gözləyin.
Tədricən köməyi azaldın. Uşaq tezliklə əlini cəlbedici əşyaya doğru uzadaraq onun tərəfə çevriləcəkdir.

**Uşaq üçüncü mərhələnin sonuna yaxın nəyi bacarır.**
Valideynini görəndə canlanır, əllərini və ayaqlarını oynadır, gülür.
Tanış və yad adamlara fərqli reaksiya göstərir.
Davamlı qığıldanır, ardıcıl bir neçə heca deməyə başlayır (uşaq danışığı)
Səsin mənbəyini axtarır .

Əlini oyuncağa uzadır və onu tutur.
Oyuncağı bir əlindən o biri əlinə keçirir.
Qarnı üstə uzanmış vəziyyətdən arxası üstə uzanmış vəziyyətə və əksinə çevrilməyi bacarır.
İstədiyi oyuncağa çatmaq üçün səth üzərində irəliləyir.
Qolunu düz açaraq ovcuna dirənərək qarnı üstə uzanır.
Az qatı və ya qatı yeməyi qaşıqdan yeyir.
Uşağın həyatının növbəti, ikinci yarım ili ətraf mühitə get-gedə marağın artması ilə fərqlənir. İnsana və əşyaya maraq tədricən çulğaşır və birinci ilin sonuna yaxın birgə-bölünmüş (referent) diqqət yaranır. Bu o deməkdir ki, həm oyuncaq, həm də böyüyün onunla necə rəftar etməsi onu marağına səbəb olur.

## DÖRDÜNCÜ MƏRHƏLƏ
### Mərhələnin xüsusiyyətləri

Dördüncü inkişaf mərhələsindən başlayaraq uşağın baş verənləri müşahidə etməsi ***ətraf aləmi aktiv şəkildə araşdırma*** ilə əvəz edilir. O, nəinki valideynlərini çağırır, hətta özünü onlara və ya onu maraqlandıran obyektlərə çatdırmağa çalışır. Əşyanın bilavasitə yaxınlığında olan uşaq onu əlinə almaq və onunla oynamaq imkanı əldə etmək üçün onu yeməyə çalışır. Uşaq qutudan oyuncağı çıxarır, şkafdan əşyaları götürür. Bu isə onun görmə sahəsindən kənara çıxmış, lakin mövcud olmaqda davam edən əşyaları anlamaqda ona yardım edir.

Daun sindromu zamanı bu inkişaf mərhələsi uşağın hərəkət imkanlarının kifayət qədər inkişaf etməməyi və onun əşyalar dünyasına olan marağı arasında əhəmiyyətli fərqlə seçilir. Oyuncağa yaxınlaşıb onu götürə bilməməyi, yəni istənilən məqsədə sərbəst çata bilmək bacarığı tədricən idrak fəaliyyətinin aşağı düşməsinə gətirib çıxarır. Bu halda, müvəqqəti əvəzedici vərdişlərdən istifadə əlavə pozğunluqların qarşısını almaqda bizə kömək edir.

***Uşağın məkanda irəliləməsinə imkan verən əvəzedici***

***vərdişlər*** çevrilmələr etmək bacarığı olacaq. Xatırladaq ki, Daun sindromu zamanı təqribən səkkizinci ayda (DSA-nın göstəricilərinə əsasən bir qədər tez) çevrilməyə başlayır. Uşaq qarnı üstə sürünməyi isə 3-4 aydan sonra, iməkləməyi isə artıq daha gec öyrənir. Çoxdəfəli çevrilmələrin stimullaşdırılması dördüncü mərhələnin əsas vəzifələrindən biridir.

Uşağın sürünməyi öyrədilməsi zamanı da əsas məşqlər oyunlar və bədənin ağırlığının başqa tərəfə salınması məşqləri təşkil edir.

***Uşağın əşyalarla hərəkətinin formalaşdırılmasına başlanması üçün onun oturaq vəziyyətdə olması lazımdır. Bu, əllərin sərbəst olmasına imkan verir. Bunun üçün daha bir əvəzedici vərdişdən – xüsusi kresloda oturma vəziyyətindən istifadə edirik.*** Bu, uşağın uzanmış vəziyyətdə əşyalarla edə biləcəyi hərəkətlərdən əhəmiyyətli dərəcədə mürəkkəb olan hərəkətləri yerinə yetirməsinə imkan verir. Oyuncaqların düzgün seçilməsi uşağın hərəkətlərinin təkmilləşməsinə imkan verir: əşyanı tutmaq, oyuncağı bir əldən digərinə keçirmək, eləcə də əşyanı iki əlli tutmaq.

Bununla eyni vaxtda, uşağın sərbəst oturaq vəziyyətini qoruyub saxlama bacarığının hazırlanması prosesi gedir. Başqa sözlə isə bu mərhələnin növbəti tapşırığı dayağa söykənərək oturaq vəziyyətdə balanslaşdırılmış reaksiyanın inkişaf etdirilməsi olacaq. Bu məşqlər valideynin dizlərində və ya gimnastik top üzərində aparılır.

Böyük hərəkətlərin əsas inkişaf istiqamətlərindən biri də ***dayağa söykənərək durma vəziyyətini qoruyub saxlama bacarığıdır.*** Bu bacarığın yaranmasının ilkin şərti beli və ombanı tamamilə düzəltmək bacarığıdır. Uşaqda bədənin məhz belə vəziyyəti (o, qarnı üstə uzanır və ovucların üstünə dirənir) məşq etdirilir. Ayaqlara istinad da ayaq üstə durma vəziyyətinin qorunub saxlanması üçün vacibdir. Bu, əlavə məşqlərin, o cümlədən, böyük gimnastika topunun köməyi ilə məşq etdirilir.

***Ünsiyyət.*** Ünsiyyət prosesinin bu mərhələsinə əşya daxil olur. Belə ünsiyyət növünü bir qayda olaraq əşya-şəxs

ünsiyyəti adlandırırlar. Çünki, uşaq böyüyün diqqətini cəlb etmək üçün əşyadan istifadə edir. Burada, ilk dəfə insanlar və əşyalar birləşir və nəticədə bu, uşağın bir yaşına yaxın inkişaf edərək onun və böyüyün birgə fəaliyyətinə çevrilir.

Bununla, uşaq böyüyü təqlid etməyə başlayır. Əvvəlcə o, sadə hərəkətləri, sonra isə əşya ilə daha mürəkkəb hərəkətləri təkrar etməyi öyrənir. Yadda saxlamaq vacibdir ki, böyüyün mürəkkəb hərəkətlərinin təkrar edilməsi artikulyasiya orqanlarının hərəkətlərini təqlid etməyi öyrənməyə imkan verir. Bu isə loqopedik məşğələlərin əsasını təşkil edir. Daun sindromlu uşaqlar təqlid etmənin inkişafının ilkin şərtlərinə malik olurlar. Ona görə də oyunda uşağın konkret maraq və xüsusiyyətlərini nəzərə almaqla ardıcıllığın gözlənilməsi (Ana bax beləcə təbili vurur, indi isə Vasif vursun və s.) təlim zamanı yaxşı nəticələrin əldə edilməsinə imkan verir.

Təqlid qabiliyyətinin inkişafı üzrə qarşılıqlı oyunlar (top oyunu) nitqin tədricən inkişafına gətirib çıxarır.

Daun sindromlu uşaqlar üçün belə oyunlar tempin aşağı olması, sadə jestlərdən istifadə və onların dəfələrlə təkrarı ilə fərqlənir. Bu halda qeyd edilənlər sözlərin başa düşülməsi və yadda saxlanması üçün əlavə dəstəkləyici amildir.

Uşaq danışığının stimullaşdırılması və jestlərdən istifadə ekspressiv nitqin inkişafına şərait yaradır. Uşağın ardınca bütün səslərin təkrar edilməsi onun ünsiyyət qurmaq səylərinə, yedizdirmənin təşkilinə müsbət təsir göstərir. Bir çox hallarda isə nitq orqanlarının masajı uşağın öz nitqinin inkişafının aktivləşməsinə yardım edir. Son dövrlərdə mütəxəssislərin nitqin inkişaf etdirilməsi üzrə apardıqları tədqiqatlarda hazırkı yaş dövründə uşağın nitq imkanları ilə nəsə demək istəyinin ifadəsi olan praqmatik amili nəzərə almağın vacibliyini qeyd etmişlər.

Uşaq ətrafdakılara get-gedə daha yaxşı oriyentasiya olunur. O, nəinki yaxın adamlarını tanıyır, eləcə də bütün yad adamlardan ehtiyatlanmağa başlayır. Bu mərhələdə uşağın yad insan və hadisələrdən qorxma hissi yaranır. Lakin, bu

zaman qorxulu oyunlar ("Gəldim-gəldim", "Cin gəlir" və s.) Lamisə-hərəkət stimulyasiyası ilə birgə bütün bunlar bu oyunları nəinki maraqlı edir, eləcə də Daun sindromlu uşaqlara faydalı təsir göstərir. Bu yaş dövrü üçün uşaqda gülmə bacarığı yaranmayıbsa, hərəkətli emosional oyunlar onun yaranmasını sürətləndirir. Bədənin stimulyasiyasının bütün bu növlərinin uşaq və böyüyün ünsiyyəti şəraitində keçməsi çox vacibdir.

Uşağın güzgüdəki istənilən təsvirə marağı bu mərhələdə düşüncəli və davamlı olur. Güzgü qarşısındakı oyunlar tədricən uşağın sevimli məşğuliyyətinə çevrilir.

Uşaq öz hərəkətlərinə yaxşı nəzarət edə bilir, onun hərəkətləri get-gedə daha dəqiq olur, konkret hallarda isə işin nədən getdiyini yaxşı başa düşür və sadə istəkləri yerinə yetirə bilir. Bütün bunlar özünəqulluq vərdişlərinin inkişafına müsbət təsir göstərir.

Onda qaşıqdan yemə, fincandan içmə və əlləri ilə sərbəst şəkildə bərk qidanı yemək bacarıqları təkmilləşir. Yadda saxlamaq lazımdır ki, nitq orqanlarının hərəkəti məhz yemək zamanı formalaşır. Sizin bildiyiniz halda, uşağın geyindirilməsi zamanı ananın buyruğu ilə paltara toxundurulması o, əl və ayaqlarını geyinmək üçün ona uzadır. Hərəkətlərin sözlə buyurulması nitqi başa düşmə vərdişlərini inkişafına şərait yaradır.

Valideynlər adətən uşağın bayıra getməsi üçün çanağa otuzdurma vaxtını "tuta" bilirlər. Böyüyün son dərəcə israrlı olduğu hallarda uşaqda çanağa qarşı mənfi reaksiya yaranması təhlükəsi vardır.

## Uşaqla qarşılıqlı təsir və inkişaf etdirici mühitin yaradılması

### Ünsiyyət və nitq

Əvvəlki kimi uşağınızın sizə baxmaqdan, səsinizi eşitməkdən xoşu gəlir. Oyuncaqla isə adətən sizin yoxluğunuzda məşğul olur. Lakin, bu balaca insan tədricən oyuncaqlardan sizin diqqətinizi cəlb etmək üçün istifadə edir.

Başqa sözlə, o, əşyalardan ünsiyyət vasitəsi kimi istifadə edir. Uşaq oyuncağı atır və böyüyün buna necə münasibət göstərəcəyini izləyir. Böyük onu götürüb uşağa versə, bu, onun çox xoşuna gəlir. O, oyuncağı həvəslə götürür, onu geri uzadır, lakin hələ vermir. Oyun cağı istəyib onun ovuclarını sığallayaraq əşyanı yüngülcə onun əlindən almaqla ona yardım edə bilərsiniz. Uşağa təşəkkür etməklə oyuncağı ona qaytarmağı unutmayın. Belə oyun-dialoqlar prosesində uşaq nəinki əşyaları götürməyi, eləcə də onları verməyi öyrənir.

Bu mərhələdə, uşaq hələ mürəkkəb hərəkətləri böyüyün ardınca yerinə yetirməyi bacarmır. O, yalnız sadə hərəkətləri imitasiya edə bilir. O, quşların necə uçduğunu, onun nə qədər böyük olduğunu göstərməyi, sağollaşarkən əl eləməyi bacarır. Ola bilsin ki, uşaq əşya ilə ona yaxşı məlum olan hərəkəti təkrar edə bilsin. Məsələn, siz növbə ilə çax-çaxı şaqqıldada bilərsiniz. Oyunda hərəkətlərin belə ardıcıllığı uşağı dialoqda iştiraka hazırlayır.

***Deyilən sözlərin başa düşülməsi.*** Nitqin başa düşülməsinin birinci mərhələsi həmişə vəziyyətlə (şəraitlə) bağlıdır. Bu, deyilənlərin mənasını başa düşməkdə ona yardım edir. Məsələn, siz dəstəyi olan zəngi əldə tutub çalırsınız, sonra isə oyuncağı uşağa uzadıb təkrar etməsini istəyirsiniz. O, isə istəyinizi yerinə yetirir. Uşağın dediyiniz sözləri başa düşdüyünü yoxsa vəziyyətdən anlaması və ya təqlid etdiyini fərqləndirmək bəzən çətin olur. Yəqin ki, bütün bu amillər əhəmiyyətlidir. Bu halda, belə oyunlarda uşağın deyilən sözləri başa düşmə bacarığının inkişaf etməsi vacibdir. Əşyanı, hərəkəti, daha sonra əşyanın keyfiyyətini deməklə biz tam söz, səs və jestlərdən istifadə edirik. Bu, nəinki nitqi başa düşməkdə uşağa yardım edir, eləcə də onun bildiyi ifadə formalarını təkrar etməsinə imkan yaradır. Məsələn, maşını göstərib, sözlə "maşın" deyirik və onun hərəkətini səslə "drrr" və ya "bi-bii" ifadə edirik və "rulu döndərməyi" imitasiya edirik. Hər bir söz və jestin mənaya uyğun olması çox vacibdir. Nəğmələrin hərəkətlərlə dəfələrlə təkrar edilməsi də nitqi başa düşmə

bacarığının inkişaf etməsinə müsbət təsir göstərir. Siz yəqin ki, uşağın donub-qaldığını və ya sözü deməmişdən qabaq güldüyünü görürsünüz. Bu o deməkdir ki, o, bu sözləri sizin hərəkətlərinizlə əlaqələndirib. Bundan əlavə, artıq hadisələri qabaqcadan duymağı öyrənir. Beləliklə, nitqi başa düşməyin birinci mərhələsi – sözün konkret məzmunla əlaqəsinin qurulmasıdır: subyekt, obyekt və hərəkət.

Növbəti mərhələ iki əşya və ya hadisədən birinin seçilməsidir. Siz uşağa iki oyuncaq təklif edib onlardan birini götürməsini istəyirsiniz. Uşaq əlini istədiyiniz oyuncağa uzatmazsa, istəyinizi düzgün yerinə yetirməkdə ona yardım edin. Bunun üçün götürməsini istədiyiniz oyuncağı öz plana çəkin və onun adını yenə deyin. Hər bir belə məşğələdə nəzarət ünsürü vardır. Lakin, ən əsası sözün konkret məna ilə uyğunlaşdırılmasıdır. Məişət və ya oyun şəraitində uşağın nəğmədən öyrəndiyi hərəkətlər də belə məşğələlər zamanı dəqiqləşir. Məsələn, uşağa daraq və ya qaşıq təklif edərək ondan saçını daramasını və ya ayıcığı yedizdirməsini istəyin. Uşağın cavabında yedizdirmə üçün qaşığı götürdüyü halda düzgün hesab edilir. Lakin, ayıcığın əvəzinə sizi yedizdirdikdə hələ ki əhəmiyyətli deyil. Bu zaman “İndi isə ayıcığı yedizdir!” deyib oyuncağı ona göstərin. Bütün bu tövsiyələr məişət şəraitində yerinə yetirilir. Gəzinti, yedizdirmə, çimizdirmə və başqa hallar uşağın nitqi başa düşmə bacarığının inkişafı üçün çoxsaylı imkanlar yaradır. Siz baş verənləri, məsələn, məişət şəraitində müxtəlif səsləri : suyun şırıltısı, maşının hərəkətini, kağızın xışıltısını lakonik sözlərlə ifadə edə bilərsiniz.

### Uşağın öz nitqinin stimulyasiyası

Təcrübə göstərir ki, emosional yüksəlişlə bağlı maraqlı oyunlar prosesində uşağın ümumi stimulyasiyası onun nitqinin aktivliyini artırır. Siz uşağı qıdıqlaya, onun əlini, ayaqlarını, kürəyini, qarnını yüngülcə şappıldada bilərsiniz.  Uşağı dizlərinizdə yırğalayın, onun dovşan kimi, hoppanmasına, at kimi çapmasına yardım edin. Böyük şişirdilən topunuz

varsa, uşağı onun üstündə yelləyin. Yəqin ki, topun üstündə tullanmaqdan xoşu gələcək.

***Nəfəs verilməsinin inkişafını*** stimullaşdıran bir sıra oyunlar vardır. Onlara tütək, şamın üfürülərək söndürülməsi, kağızdan düzəldilmiş kəpənəyin üfürülərək uçurdulması və s. nümunə göstərmək olar. Siz asan səs çıxaran tütək və ya fitdən istifadə etməklə başlayın. Əgər dərhal nəticə əldə edə bilməsəniz, bir qədər fasilə verdikdən sonra bu cəhdi təkrar edin.

Şərti, uşağın ***yalnız səsə yönələrək*** gizlədilmiş əşyanı axtarıb tapması olan oyunlar təşkil edin. Siz bunun üçün qurulan musiqili oyuncaq, zəngli saat və ya taymerdən istifadə edə bilərsiniz.

Düzgün təşkil edilmiş yedizdirmə ilə yanaşı ***nitq orqanlarının və nitq zonalarının sadə masajından*** da istifadə edə bilərsiniz. Masajdan əvvəl yaxşı olar ki, bütün bədən və nitq zonaları aktivləşdirilsin – işarət və orta barmaqla bazu özü yuxarı əzələləri şappıldadın. (masaj barədə əlavə 2-yə baxın.)

***Samit səslərin və hecaların ifadə edilməsi.*** Uşağın dodaqlarını yumaraq və **m, p, b** səslərini və ya bu səslər olan hecaları deməsinə yardım edin.

Dilinin alveollara qalması ilə siz **t, d** səslərini və ya bu səslər olan hecaları səsləndirməsi üçün imkan yaratmış olacaqsınız.

N səsini çıxararkən burnunuzun pərlərinin titrəyişini hiss etməsini təmin edin.

Uşağın ovcunu boynunuzun yuxarı hissəsinə qoyun, **r, k, x** səslərini və ya bu səslər olan hecaları tələffüz edin və onun dil kökünün hərəkətini hiss etməsinə şərait yaradın.

***Uşaq danışığının stimulyasiyası.*** Uşaq sizin köməyiniz nəticəsində bu hecaları öyrəndikdən sonra böyüklərdən nümunə götürməklə onları tələffüz edə biləcək. Uşağın qarşısında əyləşib onun diqqətini dodaqlarınıza cəlb edin və onun "repertuarından" hecalar tələffüz edin. Güzgü qarşısında da onunla yanaşı oturmaq və "üzlər" adlı maraqlı oyun

oynayın: qaşqabağınızı tökün və ya gülümsəyin, ağzınızı açın və bağlayın, dodaqlarınızla borucuğu sorun, öz hərəkətlərinizi uşağın tələffüz edə biləcəyi səs və hecalarla genişləndirin. Bu mərhələdə, uşağın sizdən sonra "öz" səs və hecalarını təkrar etməyi öyrənməsi vacibdir. Bununla isə yeni nitq materiallarını təkrar etmə bacarığı daha gec inkişaf etməyə başlayır.
Nitqi başa düşmə qabiliyyətindən danışarkən, biz böyük tərəfindən jestlərdən istifadəni qeyd etdik. Bu mərhələdə uşaq artıq özü də sadə jestlərdən istifadə etməyi bacarır. Uşağın işarəedici jestlərdən istifadə etməyi öyrənməsinə yardım edin. Bu zaman, əvvəlcə, obyektə əlin uzadılması, sonra isə işarət barmağın istifadə etmə ola bilər. Uşaq artıq "ver" jestindən istifadə etməyi bacarır. Bu, əşyanın əldə tutulması ilə imitasiya olunur. Uşaqlar çox vaxt sağollaşma istəyinə cavab olaraq əllərini yelləyirlər. Digər jestlər adətən siz müvafiq hərəkətlərlə müşayiət olunan nəğmələr, məsələn, "alaqarğalar", "uçdular", oxuduğunuz zaman yaranır.

**Uşağın hərəkətini inkişaf etdiririk.**

***Dirsəklərinə dirənərək qarnı üstə uzanmış vəziyyət.***
Uşağın bütün ağırlığını bir tərəfə salmağı öyrətmək məqsədilə onun bütün ağırlığını bir tərəfə salmaqla əlini uzatması üçün ona maraqlı bir oyuncaq təklif etmək lazımdır.
***Biləklərə dirənməklə qarnı üstə uzanmış vəziyyət.*** Bu vəziyyətdə uşaq kürəyini və ombasını düz açmağı öyrənir. Açılmış hər iki əlinə dirənmək bacarığı uzanmış vəziyyətdən oturmaq, bədənin düz açılması isə şaquli vəziyyətin saxlanılması üçün lazımdır. Uşağın dirsəyə dirənmiş vəziyyətdən əllərə dirənmiş vəziyyətə keçmək üçün ona oyuncaq təklif edin və onu azca qaldırın. Bu, dirsəyi açmağa səbəb olacaq.
***Uşağı oturaq vəziyyətdə gəzdirməyə davam edin:*** Uşaq arxası sizə tərəf dizləri bükülmüş vəziyyətdə qucağınızdadır. Onu ayığının bud hissəsindən elə tutun ki, o, yalnız yanı ilə sizə söykənsin. Ona görə də kürəyini sərbəst tutması və sinənizdən

aralanması üçün onun marağına səbəb ola biləcək oyuncaqla onun diqqətini cəlb edin. Uşaq yorulduqda özünü yenidən sizə ata bilər.

***Beli maili vəziyyətdə kresloda oturaq vəziyyət.*** Bu vəziyyətdən uşağın qaşıqla yedizdirildiyi, ünsiyyət oyunları zamanı, baş verənləri sərbəst müşahidə etdiyi zaman istifadə edilir. Oyuncaqları uşağa təklif edərkən onu elə uzadın ki, o, əlini oyuncağa uzatdıqda kreslonun söykənəcəyindən aralansın.

***Dayaqsız oturaq vəziyyət.*** Uşağınız heç bir dayağa söykənmədən otura bilir, lakin, hələ də tez-tez müvazinətini itirirsə, bu vəziyyətdə yalnız onun bildiyi sadə oyunlar oynayın. Məsələn, oyuncağı əlinizdən götürməyi təklif edin və ya içində maraqlı oyuncaqlar olan qutunu onun qabağına qoyub onun bu oyuncaqları götürməsi və atmasını təmin edin. Əvvəllər, müvazinətin saxlanması çoxlu güc və diqqət tələb edir. Ona görə də əlavə səylər tələb edən bu oyunları uşağı onun üçün rahat dayağa söykənmiş vəziyyətdə oturtmaqla oynamaq lazımdır.

***Şaquli vəziyyətlər.***

• Uşağı qarnı üstə gimnastika topunun üstünə qoyub ombasından tutun və arxa tərəfə ayaqlarına dəyənədək otuzdurub qaldırın. Bu vəziyyətdə bir neçə saniyə saxlayın. Uşağın ayaqlarının çiyin bərabərində olmasına diqqət yetirin.

• Bu vəziyyətdə uşağı bir ayağından o digərinə yırğalayın, hər bir ayaqda bir neçə saniyə saxlayın.

• Uşağın çanaq və ombasından tutub divanın qarşısına qoyun. O, bütün bədəni ilə söykənərək dayanacaq.

***Hərəkət***

• Dairəvi sürünmə. Uşağı qarnı üstə uzadın və yan tərəfdə maraqlı bir oyuncaq qoyun. Uşaq artıq əlini əşyaya uzatmağı bacarırsa, onda bütün ağırlığını bir qoluna salın o biri əlini oyuncağa uzadacaq. Beləliklə, o, tədricən yalnız əllərindən istifadə edərək dairəvi hərəkət etməyə başlayacaq.

• Qarnı üstə sürünmə. Bu sürünmə üsulu adətən iməkləmədən əvvəl formalaşır. Uşaq hərdən irəli getmək əvəzinə geri gedir.

Bütün bunlar müvəqqəti çətinlikdir. Uşağı cəsarətləndirin və onu tərifləyin. Götürməyə cəhd etdiyi oyuncağa çatmaqda ona kömək edin. Yadda saxlayın ki, uşağın nə qədər çox sərbəst gəzmək imkanı olarsa, bədən hərəkətlərini bir o qədər asanlıqla tənzimləyə biləcək.

• İməkləmə. Uşağın əl və dizlərə dirənərək hərəkət etməyi öyrənməsi üçün ona müxtəlif maneələr üzərindən sürünərək keçmək imkanı vermək lazımdır. Bu məşqlərdə kiçik səkidən də istifadə etmək olar. Əllərə dirənmək üçün lazımi bacarıqları topla məşqlərdə yiyələnə bilərsiniz. Bu halda, siz uşağı təkcə arxaya deyil, eləcə də əllərə dirənmə səviyyəsinə qədər irəliyə yırğalayırsınız. Bu vəziyyətdə onu bir qədər saxlayın. Uşağın ayaqlarını çiyin bərabərində qoyun.

## Uşağın məişət şəraitində inkişafı

**Uşağın sizin hərəkətlərini müşahidə etməyinə şərait yaradın.**

• Onu ev işləri ilə məşğul olduğunuz yerə aparın. Uşaq sərbəst yeriyə bilirsə onu yanınıza çağırın.

• Adi ev işlərini aramla görün, əlinizdə nə olduğunu və onunla nə etdiyinizi ona göstərin.

• Öz hərəkətlərinizi izah edin, mümkün qədər uşağı baş verənlərə cəlb edin: “Bax, ananın əlində qazan var, mən ona su tökürəm, bax su axır, əlini suya vur”.

• Uşağın inkişafı üçün məişət işlərindən istifadə edərkən çox da israr etməyin. Uşaq yorulubsa, onun tək oynamasına imkan verin.

***Paltar geyinmə.*** Uşağı geyindirib-soyundurarkən onun bədən üzvlərinin, eləcə də paltarın hissələrinin adını çəkin. Nə

etdiyinizi mütləq deyin, ondan əlini, ayağını uzatmasını istəyin. Bu zaman maraqlı oyunlar qurmaq olar. Məsələn, paltarın qolundan əl görünmürsə, soruşun: “Əlin hanı?”, onun əlini tapdıqda sevinclə qışqırın: “Bax, əlin burdadır!” Uşağın üzü paltarın, məsələn sviterin içərisində olanda, onu çağırın, başını oradan çıxaranda isə gülümsəyin və deyin: “Bax, bu da bizim körpəmiz!”

***Çimizdirmə.*** Uşağı çimizdirərkən ona maraqlı oyuncaqlar və ya plastmas qab təklif edin. Ona süngər verin və onun suyunu sıxmağı öyrədin. Üzən oyuncağı suyun dibinə salıb gizlədin və uşaqdan onun harada olduğunu soruşun və onunla birlikdə bu oyuncağı “tapın”. Onun gözlənilmədən su içindən çıxması uşağın xoşuna gələcək.

Uşağı qoltuğunun altından tutub onun suda atılıb-düşməsinə kömək edin. Ola bilsin ki, o, vannanın kənarlarından yapışmaqla suda dura bilər. Uşağı suyun içərisində o yana bu yana yırğalayın. Uşağı çimizdirərkən və qurulayarkən onun üz və bədən üzvlərinin adını deyin.

***Gəzinti.*** Körpə gəzinti zamanı uşaq arabasında oturub əlləri ilə onun yedəyindən tuta bilər. Gəzinti arabası möhkəm arxalıqlı olarsa, uşaq baş verənləri rahatlıqla müşahidə edə bilər. Onun diqqətini o biri uşaqlara, onların yanından ötüb keçənlərə, yaxınlıqda gəzişən itə, uçan quşa cəlb edin. Uşaq dayağa söykənməyi artıq bacarırsa onu arabanın yanına qoyun.

***Yemək.*** Uşağı qaşıqla yedizdirin, fincandan içizdirin. Yemək zamanı artıq əlində suxarı, ola bilsin ki, hətta qaşıq tuta biləcək. O, qaşıqla özü yemək istəsə mütləq ona yardım edin. Bu, çox vacib məqamdır! Əlbəttə, hər şey sizin istədiyiniz kimi səliqəli olmayacaq, lakin, siz uşağın təşəbbüslərini təşviq etməsəniz belə aktivlik dövrü çox tez keçəcək və onu sərbəst yemək yeməyi öyrətmək çox çətin olacaq!

***Əllə yemək.*** Hər bir uşağın elə dövrü olur ki, o, oyuncaq və ya başqa əşyaları tutan kimi mütləq ağzına aparır. Oyuncağın əvəzinə ona peçenye təklif edin. Tamamilə aydındır ki, o, peçenye ilə həmin hərəkəti edəcək. Lakin, onun dadı xoşuna

gəlsə, bu hərəkəti təkrar-təkrar edin. Hərdən, valideynlər ehtiyat edirlər ki, uşaq çeçəyə bilər. Ona görə də onlar "kurabiye" tipli tez ovulan şirin peçenyedən istifadə edirlər. O, praktik olaraq dərhal ağızda əriyir. Uşaq peçenyeni, çörək parçasını əlində tutacaq, sonra isə kiçik hissəcikləri çimdiklə (baş, işarət və orta barmaqları birləşdirməklə) və ya maqqaş üsulu (işarət və baş barmaqları birləşdirməklə) ilə götürə biləcək.

***Çeynəməyi uşağa necə öyrətmək olar.*** Bərk qida maddəsi azğına düşdükdə uşaq dili ilə onu irəli itələyə bilər. Bu heç də o demək deyil ki, o, yemək istəmir: Qida maddəsi ona görə irəli itələnir ki, dilin belə hərəkəti məhz döşlə qidalanmasından qalmışdır. İndi isə ağıza yemək düşür, o, isə reflektor olaraq belə etməyə başlayır. Çeynəmə üçün dil gərək başqa cür hərəkət etsin. Biz çeynəyəndə dilimiz bir tərəfdən digər tərəfə hərəkət edir. Uşağın çeynəməsinə necə kömək etmək olar? Peçenye parçasını üst çənənin azı dişlər zonasına daxil edin. Qidanı ənənəvi yerə - dilin mərkəzinə gətirməyə çalışan uşaq sadəcə olaraq dilini bir tərəfdən digər tərəfə hərəkət etdirməli olacaq. Qida parçasını gah sol, gah da sağ tərəfə qoymağı unutmayın. Bu proseduru müntəzəm olaraq, hər yemək zamanı hər bir tərəfdə 3-4 dəfə yerinə yetirsəniz nəticədə tez bir zamanda hasil olacaq: Siz bir müddətdən sonra uşaqda düzgün çeynəmə vərdişləri yaranıb. Çeynəmənin stimullaşdırılması üçün bəzi valideynlər qurudulmuş almanın uzun dilimlənmiş parçalarından istifadə edirlər. Bu halda dilimin bir ucunu yandan uşağın diş ətinə qoymaq lazımdır. Uşağın çeynəməyi öyrənməsinə həsr etdiyiniz vaxta heyfsilənməyin! Bir daha xatırladaq ki, çeynəmə zamanı edilən hərəkət tələffüz edilən hecanın modelidir: ağız açıqdır – sait səs, ağız bağlıdır – samit səs tələffüz edilir.

***Yemək zamanı ünsiyyət.*** Yemək – ünsiyyətin inkişafı üçün ən əlverişli məqamlardan biridir. Budur, belə ünsiyyətin qurulmasında sizə yardım edəcək məsləhətlər aşağıda verilir:

• Yedizdirmə zamanı uşağa verdiyiniz qida maddəsinin adını

uca səslə deyin.
• Stol arxasında baş verənlərə şərhləriniz qısa və dəqiq olmalıdır.
• Uşağa yeyəcəyini seçmək imkanı verin. Əgər bir növ yeməyiniz varsa, ona yemək yoxsa içmək seçimi verin. Uşaq cavab verməyi bacarmadıqda ona yardım edin. O, işarə edici jestlərdən və ya hətta baxışlardan istifadə edəcək. Uşağı diqqətlə müşahidə etsəniz və seçim etdiyini başa düşsəniz bunu sözlərlə izah edin.
• Kənarlaşmaq jestlərdən istifadə edərək uşağın yeməkdən imtina etməsini öyrədin. Onda, siz yeməyin tökülməsi və qəzəbli qışqırıqların qarşısını ala bilərsiniz. Etiraf etməlisiniz ki, bəzi yeməklər uşağın xoşuna gəlməyə bilər. Bu zaman o, bu yeməkdən imtina etmək hüququna malikdir!
• Uşaq yeməyin "atıldığı" obyekt deyil, bu prosesin bərabərhüquqlu üzvü olduğunu başa düşəndə onun öz istəklərini və ya narazılıqlarını bildirmək cəhdləri daha aktiv olur.

## Uşağın oyun zamanı inkişafı

***Oyun keçirildiyi yer***

• Uşaq artıq məkanda irəliləməyi öyrənmişdir. Ona görə də döşəmədə ona əlverişli yer ayırmaq lazımdır. O, artıq bütün mənzildə gəzişirsə onun qarşısını kəsməyin, sadəcə onun hərəkət zamanı təhlükəsizliyini təmin edin. Mebelə diqqət yetirin, o, ayağa qalxma üçün davamlı olmalıdır.
• Uşağın oyuncaqlarını yığması üçün qutusu olmalıdır. Tezliklə, o, əşyaları onun içinə yığmaqda sizə yardım edəcək. Hələlik isə uşaq onun içindəkiləri çıxarıb atacaq. Ona açıqlanmayın. Çünki, belə yoxlayıcı hərəkətlər onun əqli cəhətdən inkişafı üçün vacibdir. Uşağınız hələ oturmağı bacarmırsa, elə hündürlükdə qutu seçin ki, o, uzanmış vəziyyətdə oyuncaqları onun içindən götürə bilsin.

Oyuncaqlar, ləvazimatlar və onlardan istifadə qaydaları

Oyuncaqların sayı həddən artıq çox olmamalıdır.

Uşağınıza daha maraqsız olanları get-gedə yığışdırın. Onun inkişafı üçün aşağıdakı oyuncaq və məişət əşyalarından istifadə edin.

Oyuncaq üçün qutu və ya səbət. Onun içindəkiləri araşdırmaq uşağa maraqlı gələcək.

Təhlükəsiz məişət əşyaları – plastik, taxta və metal fincanlar, qaşıqlar və qazan qapaqları. Onlara toxunmaq, atmaq, əldən ələ keçirmək, gizlətmək, onlardan oyuncaq çıxarmaq və döyəcləmək olar.

Şəffaf konteynerlər və onların əşya dəsti (kiçik oyuncaqlar, kubiklər, kürəciklər, piramida halqaları). Bu əşyaları yerə atmaq və onun düşməsini müşahidə etmək olar.

İçərisində müxtəlif ərzaq məhsulları olan kisəciklər: noxud, düyü, lobya, qarabaşaq, qarğıdalı. Onlara toxunmaq, ələ götürmək, əzmək və atmaq olar. Belə kisəcikləri xüsusi üsulla tikmədən parlaq rəngli corablardan istifadə edə bilərsiniz.

Kasa və ya ləyənə yığılmış dənli ərzaq məhsulları (buğda, noxud). Uşaq gözlədilmiş xırda oyuncaqları tapmaq üçün onların içərisini əli ilə eşələyə bilər. Yalnız valideynin nəzarəti altında oynamaq olar!

Rezin toplar və ya tütəklər – onları sıxmaq, atmaq, böyüyün yanına diyirlətmək olar.

Çeynənən oyuncaqlar. Uşaq əlinə keçəni hər şeyi ağzına aparmağı, sormağı, çeynəməyi və sındırmağı xoşlayır. Əşyanın və oyuncağın hazırlandığı materialın zərərsiz olduğuna əmin olun.

Güzgü – onu parlaq dibi olan tava da əvəz edə bilər. İndi uşağın özü davamlı olaraq öz əksini müşahidə edəcək.

İplə hərəkət etdirilən təkərli oyuncaqlar. Yaxşı olar ki, hərəkətə gətiriləndə oyuncaq səs və ya işıq salsın, eləcə də hər hansı hərəkəti yerinə yetirsin. Məsələn, ördək vaqqıldayır, it gözlərini bərəldir. Bu, uşaq üçün əlavə stimul olacaq.

Bir-birinə bağlanmış iki oyuncaq. Onları dartmaq və ya bir-birinə toqquşdurmaq olar.

Böyük muncuq dənələri, abaka (muncuq dənələri

düzülmüş naqil və ya çubuq). Bu, uşağın hər iki əlini işlətdiyi - irəli çıxarmaq, tutub yapışmaq, əldən ələ keçirmək üçün faydalıdır.

Asanlıqla qurulan oyuncaqların hərəkətini müşahidə etmək uşağın marağına səbəb olur. Uşaq onları böyüyün köməyi ilə, sonradan isə özü sərbəst şəkildə, məsələn, ipi dartmaqla qurub işə sala bilər.

Böyük klavişli və uşağın dartmasına, vurmasına, və ya silkələməsinə imkan verən inkişaf etdirici oyuncaq dəstləri. Onun əvəzinə böyük klavişli elektrik açarı olan lampadan istifadə etmək olar.

Böyük yumşaq kubiklər. Onları atmaq, yığdığınız qülləni dağıtmaq, birini o birisinin üzərinə yığmaq olar.

Müxtəlif üsulla səs çıxaran musiqi alətləri – zənglər, zınqırovlu qolbaqlar, müxtəlif səsli çax-çaxlar, mis boşqablar, dəflər, tütəklər.

Parlaq rəngli sadə şəkilli kitablar. Onlara valideynlərlə baxmaq çox maraqlıdır!

Güzgü qarşısında geyinib-soyunmaq üçün şlyapa və kepkalar.

Yemək qırıntıları, müxtəlif fiqur formasında krekerlər, buğa verilmiş üzüm. Uşaq onu baş və işarət barmaqları ilə götürə bilər və ağzına aparsa heç də təhlükəli deyil.

Süjetli oyuncaqlar – yumşaq kukla, it və ya ayı, plastmas və ya taxta qab-qacaq, telefon, maşın.

Uşağın əl və ayaqlarına dirənmə və müvazinətini saxlamasını məşq etdirmək üçün istifadə edilən şişirtmə gimnastika topu

Müvazinətin inkişaf etdirilməsi üçün oyun meydançası və yelləncək.
Batıq oturacaqlı çanaq – Oturacağı xatırladan bu əşya uşağın hətta inamla otura bilməməyinə baxmayaraq lazımi vəziyyətdə qalmasına imkan verir.

## Oyun və məşğələlərin təsviri

### Əşyalarla oyunlar

Əşyalarla oyunların əhəmiyyətli dərəcədə fərqlənən iki növü vardır:

1. Uşaqdan əlavə səylər tələb etməyən sadə tapşırıqlar: oyuncağı döyəcləmək, onu tutmaq və ya atmaq. Belə oyunlar ***böyük motorikanın*** inkişaf etdirilməsi üçün istifadə edilir. Bu zaman, uşağın qarşısında başqa bir mürəkkəb məqsəd durur və onun bütün diqqəti və səyləri müəyyən vəziyyətin saxlanması və ya çətin hərəkətlərin yerinə yetirilməsidir. Məsələn, o, oturaq vəziyyətdə müvazinətini saxlamalı və ya bir yerdən digər yerə getməlidir. Bu halda oyuncaqdan uşağın diqqətini cəlb etmək üçün yardımçı vasitə kimi istifadə edilir.
2. ***Kiçik motorikanın*** inkişaf etdirilməsinə yönəldilmiş mürəkkəb tapşırıqlar uşağın yerinin sabit və rahat olmasını tələb edir. Uşaq hələ düz otura bilmirsə və qəfil hərəkətlər edərək yıxılırsa, uşağın beli düz halda oturaq vəziyyətdə qalmasını asanlaşdıran rahat kreslodan istifadə etmək daha yaxşıdır. Belə sabit vəziyyətlərdən yedizdirmə, oyun zamanı, eləcə də uşağın ətrafda baş verənləri izləməsi və ətrafdakılarla ünsiyyət qurmasına şərait yaratmaq üçün istifadə edilir.

Aşağıda hərəkətin inkişafı və əşyalarla hərəkətə yönəlmiş oyunların təsviri verilir.

### “At sürürük” oyunu

***Oyun vəziyyəti:*** Uşaq böyüyün dizlərində oturur.

***Nitq materialı:*** nağıl “Gedirəm, gedirəm / babanın yanına, nənənin yanına / düz yol ilə gedirəm / təpəcikdən, təpəcikdən  keçirəm / çalaya düşürəm – bux!”

***Oyunun təsviri.*** Uşağın gah bir tərəfə, gah da o biri tərəfə əyilməsi üçün nağılın sözlərini deyərək dizləri sıra ilə qaldırırıq. Hərəkət aramla edilir ki, uşağın cavab hərəkətlərinə vaxt verilsin. “Bux!” sözü ilə uşağı qəfildən otuzdurub guya çalaya düşdüyünü göstərin. Uşaq qorxarsa, hərəkəti aramla edin. Ayaqlarınızı sağa və ya sola atmaqla hərəkəti fərqli yerinə

yetirə bilərsiniz. Belə ardıcıllıq yeni qrup əzələləri işə cəlb edərək uşağı aktivləşdirir.

**“Topun üstə gəzirik” oyunu**

**1-ci variant “gəzdik – dayandıq”**

***Oyun vəziyyəti:*** Uşaq böyük bir gimnastika topunun üstündə uzanır. Böyük isə döşəmədə dizləri üstə duraraq onu saxlayır.

***Nitq materialı:*** “şak-şak” və ya “gəzdik – dayandıq”

***Oyunun təsviri.*** Topu geriyə elə tərpədin ki, əllərinizi tutan uşaq ayaqlarını döşəməyə dirəsin. Onu bu vəziyyətdə dayanmış halda saxlayın. Uşaq qarnı və əlləri ilə topa sıxılmış qalacaq.

***Oyunun çətinləşdirilməsi.*** Uşaqları ayaqlarını döşəməyə vurduqda topu o tərəfə, bu tərəfə yırğalayın. Belə etməklə bədəninin ağırlığını bir ayaqdan digərinə salmağı, bununla da gələcəkdə yeriməni məşq etməyinə yardım edin!

**2-ci variant “Əl arabası”**

***Oyun əziyyəti:*** uşaq qarnı üstə böyük bir gimnastika topu üstündə uzanır. Döşəmədə dizi üstə duran valideyn isə əlləri ilə onu saxlayır.

***Nitq materialı:*** “şak-şak”

***Oyunun təsviri:*** topu irəli elə yırğalayın kimi uşaq əllərini döşəməyə dirəsin. Lazım gəlsə, bunu etməsinə kömək edin.

Dirənməni məşq etdirmək üçün topun əvəzinə başqa vasitələrdən də istifadə etmək olar. Məsələn, siz döşəmədə oturub uşağı köndələn vəziyyətdə ayaqlarınıza uzada və ya sadəcə sinəsinin aşağısından və ya ombasından tutaraq onun əlləri ilə dirənməsi üçün möhkəm səth üzərindən aparmaq olar.

**3-cü variant. “Şak-şak”**

***Oyun vəziyyəti:*** uşaq böyük bir gimnastika topunun üstündə oturur, böyük isə döşəmədə dizləri üstə duraraq bel nahiyəsindən onu saxlayır.

***Nitq materialı:*** “Şak-şak”

***Oyunun təsviri.*** Topu asta-asta o tərəfə, bu tərəfə yırğalayın. Bu zaman, mütləq, uşağın cavab hərəkəti etməsini gözləyin. Sonra isə belə templə uşağı irəli-geri yırğalayın. Bu onun belini düz tutmasına kömək edəcək.

**4-cü variant.** “Bax beləcə otururuq biz” oyunu

***Oyun vəziyyəti:*** uşaq böyüklə üz-üzə azca şişirdilmiş gimnastika topunun üstündə oturur. Böyük onun yanında diz üstə durur və uşağı ombasından saxlayır.

***Nitq materialı:*** “oturduq – əyildik”

**Oyunun təsviri.** Topu irəli hərəkət etdirin. Bu zaman uşaq pəncələri ilə döşəməyə dirənməli, bədəni isə irəli əyilməli və belini düz tutmasına səbəb olmalıdır.

**“Oyuncağı götür” oyunu**

Sizə uşağın marağına səbəb olan oyuncaq və ya cəlbedici başqa bir əşya lazım olacaq. Sizin vəzifəniz oyuncağı uşağa elə təklif etməkdir ki, bu zaman o, bu oyuncağa doğru əyilərkən lazımi hərəkəti etsin.

***Oyun vəziyyəti:*** uşaq arxası və ya qarnı üstə uzana bilər.

***Nitq materialı və ya böyüyün nitqinə qoyulan tələblər:*** aramla danışın və əşyanın və ya hadisənin mənasını ifadə edən sözləri dəfələrlə təkrarlayın. Məsələn, “dovşanı götür” və ya “kürəciyi vur”.

**1-ci variant. Oyuncağı arxası üstə uzanmış vəziyyətdə götürmək**

Uşağın oyuncaqla maraqlandığına və onu götürməyə cəhd etdiyinə əmin olun. Sonra isə oyuncağı elə tərzdə irəli hərəkət etdirin ki, əllərini ona tərəf uzadan uşaq onları sağa və sola hərəkət etdirsin.

**2-ci variant. Oyuncağı qarnı üstə uzanmış vəziyyətdə götürmək**

Uşağın oyuncaqla maraqlandığına əmin olun və onu bir əlini bu oyuncağa uzadaraq bədəninin bütün ağırlığını o birisinə salıb bu vəziyyətdə bir neçə saniyə qalmağa sövq edin.

**3-cü variant. Qarnı üstə uzanmış vəziyyətdə oyuncağın dalınca dairəvi və irəli hərəkət**

Uşağın oyuncaqla maraqlandığına əmin olduqdan sonra onu bir az aralıda qoyub onun diqqətini həmin oyuncağa (oyunda istifadə edilən oyuncağın və ya əşyanın adını deməyi unutmayın) cəlb edin və ona çatmasına kömək edin. Bunun üçün əlinizi aşağıdan uşağın sinəsinə aparıb asta-asta onu o tərəfə, bu tərəfə yırğalayaraq iməkləmə və sürünməni imitasiya edin.

***Qeyd.*** Uşağın oyuncağa çatmaq üçün etdiyi bütün səyləri həvəsləndirin. O, əvvəllər yerində çabalaya, hətta irəli deyil, geriyə tərəf sürünə bilər. İstənilən halda o, əlbəttə ki, dəstəyə və tərifə layiqdir.

**"Bax beləcə ayağa qalxırıq biz" oyunu**

Sizə alçaq divan və ya stul və uşaqda maraq doğuracaq bir oyuncaq lazım olacaq.

***Oyun vəziyyəti:*** diz üstə durun, sonra isə divanın qarşısında pəncə üstə aşağı oturun. Uşağı diz üstə elə otuzdurun ki, onun dizləri düz bucaq altında bükülsün və pəncələri döşəməyə dirənsin. Yəni, çömbəlmiş vəziyyətdən ayağa durmağa hazır vəziyyətə gətirin.

***Oyunun təsviri:*** Uşağın əlinə onu cəlb edən oyuncaq və ya başqa bir maraqlı əşya verin. Sonra isə onun əlindən bu əşyanı alıb divanın üstünə qoyun və diqqətini cəlb edin. Uşağa bu əşyanı götürməyi təklif edin və əllərinizi onun belinə qoyun bədənini irəli və yuxarı istiqamətləndirərək ayağa durmasına kömək edin.

Uşaq sizin dəstəyinizlə ayağa qalxdıqdan və divana söykənərək bir qədər dayandıqdan sonra onun oturmasına kömək edin. Bunun üçün bir əlinizi çanağının altına, o birisini isə yüngülcə sinəsinə sıxıb onun dizlərini bükməyə və oturmağa sövq edin. Uşağın ayaqları düz vəziyyətdə arxaya yıxılmasına deyil, siz özünüz etdiyiniz kimi dizləri bükməklə bədəni önə əyməklə oturmasına diqqət yetirin.

**Əşyalarla oyunlar**

Oturmağı öyrənmiş uşaq tədricən oyuncağı nəinki silkələmək və ağzına aparmaq, eləcə də onun başqa mürəkkəb hərəkətlər etməyin mümkün olduğunu dərk edib oturaq vəziyyətdə oyuncağı əlində oynatmağa başlayır:

• əşyanın bir əldən o biri ələ keçirilməsi (çox hissəli oyuncaqlardan, məsələn, halqaya salınmış açarlardan istifadə etmək olar);

• iki əşyanı əldə tutub onları bir-birinə vurmaq (əldə rahat tutula bilən oyuncaqlar);

• kiçik qutudan və ya vedrədən əşyanın götürülməsi (oyuncaqlar və onların içi rəngə görə kontrast olmalıdır);

• ovuc və iki barmaqdan istifadə etməklə xırda əşyaları götürmək (peçenye parçaları, xırda krekerlər və ya möhkəm kəndirdən asılmış xırda əşyalar);

• təbili döymək, dəfi cingildətmək, musiqili çəkiclə döyəcləmək;

• oyuncağı axtarmaq və üstündəki dəsmalı çəkib götürməklə onu tapmaq.

Uşaq bu sadə məşğələləri mənimsədikdə onu oyuncaq və əşyalarla yerinə yetirilən daha mürəkkəb hərəkətlərlə tanış edin. Belə müşahidə-oyunlar onun ətraf aləm barədə təsəvvürlərinin genişləndirəcək və ünsiyyət və danışıq qabiliyyətinin inkişafına yardım edəcək. Sonra isə o, bu hərəkətləri sizdən sonra təkrar etməyi öyrənəcək. Uşaqla oynayarkən ona aydın və anlaşıqlı izahlar edin. Bu, ona deyilən sözləri daha yaxşı başa düşməyə yardım edir.

**“Bu nədir?” oyunları**

Bu tip oyunlar uşağın əşyanın təyinatı ilə tanış olmasına imkan verir. Uşaq hələ sizin etdiyiniz hərəkətləri təkrar edə bilməsə də hər bir əşya ilə ayrı-ayrı hərəkətlər edildiyini başa düşür.

***Ləvazimat:*** oyuncaqlar, məişət əşyaları

***Oyun vəziyyəti:*** uşaq döşəmədə və ya möhkəm söykənəcəkli kresloda oturur.

***Nitq materialı və böyüyün nitqinə qoyulan tələblər:*** Oyunlar zamanı uca səslə və aydın tələffüz edilmiş tam sözlərdən, hərəkəti imitasiya edən səslərdən və jestlərdən ibarət izahlardan istifadə edin. Məsələn: siz qarmonu göstərib "qarmon" deyirsiniz və onda ifa edirsiniz. Sonra qarmonda ifanı imitasiya edən jestlər edib aydın şəkildə deyirsiniz: "Bu qarmondur, ana qarmonda çalır: la-la-la"

***Oyunun təsviri.***

• Parlaq rəngli rezin topla oyun –döşəmədən qalxdıqda topa vurun, yuxarı atın, müxtəlif istiqamətlərə - stola, döşəməyə tərəf diyirlədin. "Bax, gör top necə diyirləndi!"

• Sabun köpükləri ilə oyun – köpükləri yuxarı, aşağı, kənara üfürün. "Ana üfürdü: fuuu, köpüklər uçdular, onları tut görüm!"

• Qarmonla oyun – qarmonu çalın. "Ana qarmon çalır: la-la-la

• Musiqili çəkiclə oyun – "çəkic taqqıldayır tak-tak-tak!"

• Uşağın gözünün qabağında rəsm çəkin. Kağızda parlaq çubuqlar çəkib çəpər və ya hasara bənzədə bilərsiniz. "Ana rəsm çəkir: bax belə çubuqları"

• Parlaq rəngli iri kubiklərlə oyun – kubiklərdən qüllələr qurun və uşaq onları dağıtsın: "Bax! Kubiklər dağıldı. Ana yenisini quracaq. Kubik ver, yenə ver, birini də. Bax, gör, necə hündür ev tikildi!"

• Məişət əşyaları (daraq, qaşıq, fincan, telefon) ilə oyunlar – daraqdan, qaşıqdan və s. necə istifadə olunduğunu ona göstərin. Ananın məhz nə etdiyini deməyi və bu əşyalarla həmin hərəkətləri imitasiya edən jestlərdən istifadə edin.

**Gizlənqaç**

Bu mərhələdə gizlənqaç oyunu oynamaq uşağın çox xoşuna gəlir. Bu, heç də təsadüfi deyildir. İnsanların və əşyaların gizlicə yoxa çıxması və ya görünməsi ona çox maraqlı gəlir. Ana və ya yaxın adamlardan biri gizləndikdə onda bir az qorxu əmələ yaranır. Lakin, körpə artıq bilir ki,

onlar görünməsələr də yaşayırlar. Oyuncaqlarla gizlənqaç oynayarkən uşaq onlarla da nə baş verdiyini başa düşməyə başlayır: görünməz olsalar da onlar mövcud olmaqda davam edirlər. Bu vacib nəticə uşağın təfəkkürünün inkişaf etdiyini təsdiq edir. Bu oyunlar zamanı biz çoxlu təkrarlar edərək sözlərin mənasını uşağa öyrədə bilərik. Məsələn, biz deyirik: "Dovşan haradadır? Dovşan yoxdur! Dovşan, gizlənib! Dovşanı axtarıram! Bax, dovşan, burdadır!" Əsas söz – "dovşan" burada beş dəfə işlənmişdir. Hər şeydən əvvəl isə belə maraqlı oyunu oynamaq uşağın çox xoşuna gələcək.

**Böyüklə gizlənqaç**

***Oyun vəziyyəti və uşağın etməli olduğu hərəkətlər:*** uşaq kresloda oturur, böyük isə onun arxasında durur. O, uşağı oturaq vəziyyətdə başını və bədənini çevirməyə sövq edir.

***Ləvazimat:*** eynək, şlyapa

***Oyunun təsviri.*** Uşağın arxasında oturun və gah sağdan, gah da ki, soldan ona baxın. Onu adı ilə çağırın. O çevrildikdə isə ona gülümsəyin və qarnını çimdikləyin. Onun diqqətini daha da cəlb etmək üçün xarici görünüşünüzü dəyişdirən vasitələrdən: tünd rəngli eynək, şlyapa, yaylıqdan istifadə edə bilərsiniz.

**Əşyaları gizlətmə oyunları**

**"it gizləndi" oyunu**

**Oyun vəziyyəti və uşağın hərəkətləri:** kresloda, stol arxasında, anasının dizlərində oturma, qarnı üstə uzanma və s kimi uşağın bildiyi istənilən əlverişli vəziyyətlərdən etmək olar. gizlənmiş iti axtararkən uşağı elə stimullaşdırmaq lazımdır ki, o, əlini oyuncağa uzadıb onun üzərindəki dəsmalı çəkin. Oyuncağı yuxarı və sağa və ya aşağı və sola aparmaqla tapşırığı çətinləşdirin

***Ləvazimat:*** səs çıxaran it, dəsmal

***Nitq materialı və böyüyün nitqinə qoyulan tələblər:*** oyuncağın adı əsas sözdür. Oyuncağın adını eyni sözlə emosional şəkildə deyin. Diqqətli olun, eyni oyuncağı, "it", "köpək", "Şarik" və s. çağırmayın. Əgər bu oyuncağa it demişsinizsə o, həmişə "it"dir!

***Oyunun təsviri***

• Uşağa iti göstərib onu adını deyin, onunla oynayın və itin hürməsini imitasiya edin, qoy it salamlaşsın, oynasın və ya onu şənləndirən və ya marağına səbəb olan hansı başqa hərəkəti etsin.

• Uşağın itə toxunmasına, onu sığallamasına, yoxlamasına icazə verin. Onun oyuncağı basmasına və səs çıxarmasına kömək edin.

• Oyuncağı arxanızda gizlədin və soruşun: "İt hardadır?" Sonra isə ətrafa baxaraq tapana qədər onu tez çıxarıb uşağa göstərin və coşqunluqla deyin: "Oy, it burada imiş ki!"

• Oyunu bir neçə dəfə təkrar edin və hər dəfə də itin yoxa çıxmasına və görünməsinə emosional reaksiya nümayiş etdirin.

***Oyunun çətinləşdirilməsi***

• İti uşağın gözünün qabağında gizlədin. Oyuncaq qismən görünməlidir.

• İti uşağın gözünün qabağında gizlədin. Oyuncaq görünməməlidir. Yalnız onun çıxardığı səsə (əgər bu, səs çıxaran oyuncaqdırsa) görə yerini müəyyən etmək mümkün olsun.

• Uşaq görmədən oyuncağı gizlədin. Lakin, bu oyuncağı onun bildiyi yerə qoyun ki, onu tapa bilsin.

• Oyuncağı uşağın gözünün qabağında ona məlum olan iki yerdən birində gizlədin.

• Uşaq görmədən oyuncağı ona məlum olan iki yerdən birində gizlədin.

• Uşaq görmədən dar məkanda gizlədilmiş oyuncağı tapmasını ondan istəyin.

• Uşaq görmədən otaqda gizlədilmiş oyuncağı tapmasını ondan istəyin.

**"Özünü tanı" oyunu**

Gizlənqaçın dəyişik bir növü olan bu oyun uşağın öz

bədənini daha yaxşı tanımasına imkan verir.

***Oyun vəziyyəti:*** böyük və uşaq onlar üçün əlverişli vəziyyətdə üz-üzə olmalıdırlar. Uşaq stulda, diz üstə otura, divanda və ya döşəmədə uzanmış mövqe tuta bilər.

***Nitq materialı:*** salam, uşağın adı, budur sənin qələmlərin (barmaqlar, ayaqlar), qələmlər hanı, budur onlar, hələlik.

***Oyunun təsviri.***

• Uşağın diqqətini cəlb edin və saxlayın: gülün, onunla şən və nəvazişlə danışın.

• Uşağın diqqətini əllərinə yönəldin: onun əllərini tutun, onları üzünə aparın, onları oynadın, bir-bir barmaqlarını ayırın, ovuclarına üfürün.

• Uşağın öz əllərinə baxdığına əmin olduqda onları öz əllərinizin arasında gizlədin və soruşun: "Qələmlər hardadır?"

• Əllərinizi açın və qələmi "taparaq" coşqunluqla öz sevincinizi büruzə verin, onun əllərini öpün, dişləyin və onun ovuclarını qıdıqlayın. Beləliklə də uşağın təkcə onları görməsini deyil, həm də hiss etməsini təmin edin.

• Oyunu dəfələrlə təkrar edin, hər dəfə uşağın əllərini gizlətdikdə vaxtı uzadın.

• Uşağın diqqəti zəifləsə digər variantlardan və ya oyunlardan istifadə edin.

• Oyunu uşağa paltar geyindirərkən oynayın: elə göstərin ki, guya uşağın əlləri paltarın qolunda ilişib qalıb, yəni, həm də "gizləniblər", sonra isə "tapılıblar"

**Güzgü ilə oyunlar**

Güzgü ilə oyunlar uşaq üçün son dərəcə cəlbedicidir. O, hələ öz əksini gördüyünü başa düşməsə də onun güzgüdə gördüyü ona çox maraqlı gəlir. Aşağıda təsvir edilən oyunlar uşağınızın güzgüdə özünü gördüyünü başa düşməsinə yardım edəcək.

**"Güzgüdə kim var?" oyunu**

Oyun vəziyyəti: uşaqla birlikdə böyük bir güzgünün

qabağında oturun. Uşaq dizlərinizin üstündə elə oturur ki, onun bütün hərəkətləri görünür.

***Oyunun təsviri.***

Uşağın diqqətini güzgüdə əks olunan təsvirə yönəldin və onun üzərində saxlayın. Ola bilsin ki, güzgünü döyməli və ya birlikdə ona yaxınlaşmalı olacaqsınız.

• Uşaqla müxtəlif hərəkətlər yerinə yetirin: onu azca qaldırın və ya hətta onu göyə atın, bir tərəfdən o biri tərəfə yırğalayın, "bərk-bərk" qucaqlayın və s.

• Uşağa parlaq rəngli şlyapa və ya kepka geyindirin. Onu çıxarın və uşağın da çıxarmasına kömək edin. O, etiraz etməzsə, ona parlaq çərçivəli eynək, karnaval şlyapası, parlaq rəngli şərf  və s. geyindirin.

• Onun əllərini və ya ayaqlarını yuxarı qaldırın, onun qarnını qıdıqlayın və ya şappıldadın. Bədənin müxtəlif hissələrinə toxunaraq və ya öpərək onların adını deyin və uşağın diqqətini oraya cəlb edin.

• Güzgünün qabağında uşağın üzünü əllərinizlə və ya yarımşəffaf parça ilə örtüb "ku-ku" oyunu oynayın.

***"Kitab oxuyaq"***

Bir çox böyüklər atası, anası  və ya nənələrinin yanında kreslo və ya divanda rahat oturub maraqlı kitab qiraətinə qulaq asmalarını, parlaq şəkillərə baxmalarını xoş hisslərlə xatırlayırlar. Şübhəsiz ki, söhbət burada nəinki kitabdan, eləcə də böyük və uşağın qarşılıqlı təsirinin yarandığı isti və əlverişli mühitdən gedir.

Kitabı hər şeydən əvvəl sakit bir mühitdə oxumaq daha yaxşıdır. Uşağın yanında əyləşin və ya onu dizlərinizə otuzdurun.

Kitabı açın və hər hansı heyvan, məsələn, pişik şəkli olan səhifəni göstərin. Onun adını deyin və miyovlamasını imitasiya edin, onun şəklini sığallayın və uşağın da belə etməsini təklif edin. Emosional danışın, "həddi aşmaqdan" qorxmayın – bu, uşaqların xoşuna gəlir. Pişiyin gözlərini,

burnunu və quyruğunu göstərin.

Növbəti səhifəyə keçərkən "ləngiyin". Ola bilsin ki, o, hərəkəti bitirməkdə sizə kömək etsin, yəni, səhifəni çevirsin.

Kitabı uşağın istədiyi qədər və sizin ayıracağınız vaxt çərçivəsində oxuyun. Çalışın məşğələni uşaq bezənə qədər bitirin.

Kitab qismində dəyişkən şəkilli albomdan istifadə edə bilərsiniz. Alınan kitabların ən əsas çatışmazlığı onların insanı tez yormasıdır. Dəyişkən şəkil "rolunu" yerinə yetirən şəkil albomu çox faydalıdır. Belə ki, o, aydın və anlaşıqlı şəkilləri seçməyə, eləcə də lazım gəldikdə onların yerini dəyişməyə imkan verir. Digər şəkillərlə yanaşı uşağın özünün, ailə üzvlərinin, ev heyvanlarının və məişət əşyalarının şəkillərindən də istifadə edin.

**Uşaq dördüncü mərhələnin sonuna yaxın nəyi bacarır?**

Onun adını çağırdıqda çevrilir həmin tərəfə baxır.
Sadə istəkləri başa düşür və yerinə yetirir.
Böyüyün istəyi ilə iki əşya / oyuncaqdan birini götürür və ya göstərir.
Anlaşıqsız danışır, anlaşıqsız sözlər deyir.
Oturaq vəziyyətdə uzun müddət oynayır (sərbəst və ya xüsusi stulda)
Təyinatından asılı olaraq əşyaları əldə müxtəlif cür oynadır.
Böyüyü təqlid edərək hərəkət və sadə işlər görür.
Səthdə bacardığı üsullarla irəliləyir.
Dayağa söykənir. Dayaqdan tutaraq hərəkət edir.
Suxarını əlin tutaraq sorur.
Fincanı əlində sərbəst tutaraq ondan içir.
Böyüyün köməyi ilə qaşıqdan yemək yeyir.
Bir neçə dəqiqə çanaqda oturur.

## BEŞİNCİ MƏRHƏLƏ

Uşağın ətrafdakıların sadə istəklərini başa düşməsi, əşyalardan istifadə etməklə birgə oyunlarda iştirakı bu

mərhələnin başlanmasının əlamətləridir. Bu mərhələ uşağın sərbəstliyinin artması, çox vaxt onun indiyə qədər xoşu gələnlərə mənfi münasibəti ilə sona çatır.

### Bu mərhələnin xüsusiyyətləri

Uşaq insanların simalarını yaxşı seçə bilir və buna görə də ətrafdakılara müxtəlif münasibət göstərməyə başlayır. O, böyüyün danışığına cavab olaraq söhbətdə iştirak etməyi, anlaşıqsız danışmağı (mama, baba, papa), böyüyün intonasiyasını təkrar etməyi xoşlayır.

Bu mərhələdə də uşağın nitqinin inkişafının əsasını onun ***yaxın adamlarla emosional ünsiyyəti*** təşkil edir.

Bununla bərabər həmin yaş dövründə uşağın böyüklə əməkdaşlığı formalaşır (bundan əvvəlki fəsildə biz bu barədə danışdıq) və get-gedə onun inkişafında ***situativ-işgüzar ünsiyyətin*** daha əhəmiyyətli rol oynamasına gətirib çıxarır. Böyüklə birlikdə oynamaq get-gedə uşağı daha çox cəlb edir. Uşağın ətrafındakı əşyalar tədricən bu oyuna qoşulur. “Bu nədir?” sualı get-gedə “bununla nə edirlər?” sualı ilə yanaşı işlənir. Bu sualı başa düşmək üçün ətrafdakıların həmin əşya ilə nə etdiklərini görmək, onu təkrar etməyə cəhd etmək və bu cəhdin uğurlu olduğunun təsdiqini almaq lazımdır. Anlaşıqlı şəraitdə belə ünsiyyət müsbət emosional reaksiya və böyüyün münasibəti ilə müşayiət olunan birgə oyun prosesində uşağın edilən müraciətləri başa düşməsinə yardım edir.

Nitqi başa düşmə bacarığının inkişafı ilə yanaşı ***uşağın öz danışıq qabiliyyəti də inkişaf edir.*** Bu yaş dövründə o, anlaşıqsız sözlərdən və sadə jestlərdən istifadə edir. Daun sindromu zamanı nitqi başa düşmə bacarığının inkişafı və uşağın öz nitqinin stimulyasiyası xüsusi diqqət tələb edir. Biz onu xüsusi təlim keçmədən hamının anlaya biləcəyi sadə jestlərdən istifadə etməyə (Əlavə 4-ə baxın.) və uşağın da gerçəklikdə onları istifadə edə bilməsinə şərait yaratmağa davam edirik.

***Uşağın sosial əlaqələri genişlənir:*** o, yaşıdlarına diqqət

yetirməyə və onlarla maraqlanmağa başlayır. İndi isə uşağın onunla yaşıd olan digər uşaqlarla qarşılıqlı əlaqəyə girməsini təmin etməyə cəhd etmək çox vacibdir, ***Bu yaş dövrünə xas olan araşdırma (ətrafındakıları yoxlama) fəaliyyəti böyük motorika vərdişlərinin yaxşı səviyyədə inkişafını tələb edir.*** Daun sindromlu uşaqlarda hərəkət qabiliyyətinin inkişaf xüsusiyyətlərini qeyd edək. Hər şeydən əvvəl, irəliyə hərəkət etmək üçün uşaq adətən bütün bədən ağırlığını bir tərəfdən digər tərəfə salmanı tələb etməyən hərəkətlərə üstünlük verir. Yəni, simmetrik hərəkət etməyə və böyük sahəli dayağa istinad etməyə çalışır. Məsələn, uşaq sürünməyi əlini irəli atmaq, sonra isə ayaqlarını simmetrik şəkildə dartmaqla bacarır və beləliklə, bədənin bütün ağırlığını çəkməklə çətinliyin öhdəsindən gəlir.

Əşyalarla hərəkət qabiliyyətinin inkişafı sabit oturaq vəziyyət tələb edir. Ona görə də bu inkişaf mərhələsində uşağa əvvəlki kimi müvazinəti saxlamağı məşq etdirən, eləcə də bel və qarın əzələlərinin möhkəmlənməsinə yardım edən oyunlar təklif etmək və onları sərbəst oturmaq bacarığının mənimsənilməsinə yönəldilmiş xüsusi məşqlərlə əlaqələndirmək lazımdır.

Bu yaş dövründə artıq uşağa dayaqdan tutmaqla onun boyunca hərəkət etməyi öyrətmək lazımdır. Çanaq-bel və diz oynaqları daun sindromunda kifayət qədər sabit olmur. Uşaq müvazinətini saxlamaqla müəyyən vəziyyətlərdə bu oynaqları saxlamağı bacarmalıdır. Çox vaxt dayanmağa cəhd edərkən dizlərini bükür. Hətta, uşaqda əzələ tonusunun yüksək olması barədə həkim-mütəxəssislər də səhv edə bilərlər. Yadda saxlamaq vacibdir ki, Daun sindromlu uşaqlarda belə vəziyyət müvəqqəti olur. O, özünü daha inamlı hiss etdikdə və ayaqlarını çanaq-bel və diz oynaqlarında düzgün stabilləşdirməyi öyrəndikdə xüsusi tədbirlər görmədən tədricən itib gedir.

Uşağın sərbəst otura bilməsi, iməkləməsi və ayaq üstə durması və ya əksinə oturmaqdan və ya ayaq üstə durmaqdan yorulduqda uzana bilməsi üçün ona bir vəziyyətdən digərinə

keçərkən müvazinəti saxlamağı öyrətmək çox vacibdir

***Kiçik motorikanın inkişafı və uşağın fəaliyyəti*** bu mərhələdə iki əsas istiqamətlərdə gedir.

Bunlardan birincisi uşağın öz araşdırma fəaliyyətidir. Məhz buna görə də ətraf aləmi öyrənməyin əsasını təşkil etdiyi oyunlar ona maraqlı gəlir. Uşağı ayrı-ayrı hərəkətləri etməyə "səthi öyrətməmək", sınaq və səhvlərdən istifadəni dəstəkləmək və həvəsləndirmək lazımdır.

Fəaliyyətin ikinci inkişaf istiqaməti ondan ibarətdir ki, uşaq sizin köməyinizlə özü üçün əşyalardan alət kimi istifadə etmək kimi qəribə imkanlar yaratmağa başlayır. Bu proses sosiallaşma ilə sıx bağlıdır və uşağın tədricən ətrafdakı insanların təcrübəsini mənimsəməyə başlamasını nəzərdə tutur. Uşaq əvvəllər əşyaları əlində eyni cür oynadırdı: silkələyir, döyəcləyir, dişləyirdi. İndi isə o, onların hər birinin xüsusiyyətləri ilə tanış olur: maşını sürür, fincandan içir, daraqla saçını darayır. Daun sindromlu uşağa bu hərəkətlərin yerinə yetirilməsini dəfələrlə və mərhələli şəkildə nümayiş etdirmək lazımdır. Bunun üçün sizin və körpənizin ardıcıl iştirak etdiyi oyunlardan istifadə etmək yaxşıdır.  Belə oyunlar zamanı böyüyün lakonik və aydın şərhləri baş verənlərə tamamilə uyğun gəlməlidir. Eyni zamanda, oyunun şən, emosional olması və darıxdırıcı işə çevrilməməyi vacibdir.

***İdrak fəaliyyətinin inkişafı (koqnitiv inkişaf)*** bu yaş dövründə əsasən uşağın hərəkət və danışıq qabiliyyətlərinin inkişafından asılıdır. Uşağın mənimsədiyi əşyalarla hərəkətlər, onun araşdırma fəaliyyəti əyani-fəaliyyət düşünmə qabiliyyətinin əsasına çevrilir.

Bu mərhələdə ***özünəqulluq vərdişlərinin təkmilləşdirilməsinə*** son dərəcə diqqətli şəkildə yanaşırıq. Bu mərhələnin əvvəlində bərk qidanın əllə yeyilmək, sonra isə uşağın qaşıqla yemək və fincandan içmək bacarıqlarına vurğu etmək lazımdır. Mayeni borucuqla içmək dodaqların tam yumulmasına yardım edir, bu isə müəyyən səslərin tələffüzündə, yəni, uşağın danışmağı öyrənməyində mühüm rol

oynayır.

Eyni zamanda, uşaq corablarını, şərfini çəkib çıxarmağı öyrənir. O, artıq şapkasını çıxarmağı, paltar geyinərkən qola və ayaqlarını uzatmağı bacarır.

Uşağın inkişafının bu mərhələsində uşaq hələ ayaqyoluna istəmir, onu çanağa otuzdurduqda orada 5-7 dəqiqə qalır.

**Uşaqla qarşılıqlı təsir və inkişaf etdirici mühitin yaradılması**

**Ünsiyyət və nitq**

***Böyüklə ünsiyyət.*** Nəğmələr və nağıllar hələ də uşağınız xoşuna gəlir. Lakin, o, tədricən sözlərin mənasına daha çox fikir verir. Sizin vəzifəniz sözləri həmin əşyalarla, bu əşyaların keyfiyyəti ilə, onlarla edilən hərəkətlərlə əlaqələndirməkdə (onlara uyğunlaşdırmaq) ona yardım etməkdir. Uşağın sözlə (adla) ailə üzvlərini fərqləndirə bilməsi üçün onların görmə sahəsində görünməsini lakonik və dəqiq izah edin. Gizlənqaç oyunları da əvvəlki kimi deyilən sözün onun mənası ilə "əlaqələndirməyin" ən cəlbedici üsullarından biridir. Oyun zamanı aramla danışın, çox söz deməyin və dediyiniz əsas sözləri dəfələrlə təkrar edin. Məsələn: "Bax budur dovşan. Dovşan maşın sürmək istəyir. Maşınımız hardadır? Maşın ordadır. Dovşanı maşına mindir. Dovşan sürüb getdi, drrrr!" Altından xətt çəkilmiş hər iki söz əsas sözdür. Sizin növbəti oyununuz bu tematikanı davam etməkdir. Bu halda siz yeni əsas sözlər əlavə edə bilərsiniz: "sürür" və ya "gəzir". Yalnız belə olan halda uşağınız ona deyilən sözləri başa düşməyə başlayacaq. Məişət şəraitində baş verənləri mütləq uşağa danışın. Yəni, baş verənləri və gələcəkdə planlaşdırılan hərəkətləri sadə sözlərlə ona izah edin. Bu zaman çalışın uşağa baxın ki, o, sizin reaksiyanızı görsün. Reaksiyanızı emosionallıqla zənginləşdirin. Yoxsa, elə olacaq ki, siz arxanızı uşağa çevirib ev işləri ilə məşğul olarkən sadəcə

ucadan “hava”ya danışırsınız.

Uşaqla oynayarkən sadə üsul olan “oyuncaq seçmək” üsulundan istifadə etməyə adət edin. Məsələn, uşağın qabağında qaşıq və daraq tutaraq ondan “ananı yedizdirməsini” xahiş edin. Uşaq bu iki vasitə arasında seçim etməli olacaq. Başqa bir nümunə gətirək: uşaq sizin istəyinizlə dovşanı və ya ayını maşında gəzdirəcək. Əvvəlcə uşağa onun tanıdığı iki əşya, sonra isə üç əşya arasında seçim etməyi təklif edin.

Kitab oxuyarkən və albomlara baxarkən ona tanıdığı fotoşəkil və rəsmlər göstərin.

Uşağın aktiv şəkildə kəkələməsi üçün onun üz əzələlərinin lamisə stimulyasiyasından istifadə edin. Uşaqdan sonra onun tələffüz etdiyi səsləri təkrar edin və uşağın cavab verməsi üçün bir qədər gözləyin. Onun sözlərini öz nitqinizlə və jestlərlə zənginləşdirsəniz, nəinki uşağın nitqi başa düşməyini asanlaşdıracaq, həm də ona özünün də təkrar edə biləcəyi danışıq nümunələri göstərmiş olacaqsınız.

***Uşağı başqa uşaqlarla qarşılıqlı əlaqəyə öyrətmək vaxtı gəlib çatmışdır.*** Uşaq hələ ki, yaşıdları ilə birlikdə oynayır. Digər uşaqların əllərindəki oyuncaqlar və ya onların paltarlarının hissələri onu maraqlandıra bilər. Bu ilkin əlaqələrdən tədricən uşaqların bir-birinə qarşılıqlı təsiri başlanır.

**Uşağın hərəkət bacarığını inkişaf etdiririk**

***Sürünmə və ya yerimə?*** Körpəniz artıq özü hərəkət etməyi bacarır. Onun istədiyi obyektə hansı üsulla yaxınlaşması bir o qədər əhəmiyyətli deyil. Valideynlər həmişə övladlarına sərbəst gəzməyi öyrənməkdə yardım etmək istəyirlər. Axı, onun sərbəst atdığı ilk addımlar ailənin həyatında ən əlamətdar və şad günlərdən biridir! Tez-tez ana və ataya elə gəlir ki, şux və həvəslə iməkləyən, dayaqdan tutmağı bacaran və onun boyunca yeriyən uşağa mümkün qədər tezliklə yeriməyi öyrətmək lazımdır. Bu vəzifənin öhdəsindən gəlməsi üçün onun əllərindən tutub gəzdirirlər. Bu, əlbəttə, uşağın xoşuna gəlir. Lakin, belə “hərəkət vasitələrindən” sui-istifadə etməyin.

Yadda saxlayın ki, bu yolla uşaq sərbəst hərəkət etməyi öyrənməyəcək. Çünki, o, adətən sadəcə olaraq böyüyün əllərindən "asılır". Bir də ki, ananın əlindən aralanmaq digər dayaqlardan kənarlaşmaqdan çətindir. Əgər uşaq əllərinizdən tutaraq gəzərsə, onun əllərinin çiyin səviyyəsindən yuxarı qalmamağına fikir verin! Bunun üçün böyük çox əyilməli və ya dizi üstə oturmalı və sonra əlindən tutmağı uşağa təklif etməlidir.

***Xodunokdan istifadə etmək olarmı?*** Təcrübədə tez-tez rast gəldiyimiz məqamlardan biri də xodunoklardan istifadə edilməsidir. Uşaq demək olar ki, oturaq vəziyyətdə gah bir, gah da ki digər ayağı ilə itələməklə otaqda o yana, bu yana hərəkət etdiyi xodunoklardan istifadə etməyin. Bu zaman onun yeriyəndə əzələ qüvvəsindən düzgün istifadə etmək, müvazinətini saxlamaq qabiliyyətini məşq etdirmək imkanı olmur. Bu, bir sözlə, yerimə yox arabada gəzməkdir! Nəzərə alın ki, belə xodunoklar uşağınıza yardım etməyəcək, əksinə sərbəst şəkildə yerimək bacarığının formalaşmasını ləngidə bilər! Daha yaxşısı odur ki, uşaq bacardığı üsullarla mebel boyunca gəzsin. Bir gün o, mütləq dayaqdan kənarlaşacaq və ilk addımlarını özü atacaq! Bundan əlavə, əsaslı şəkildə başqa tipli xodunokları – П-şəkilli sabit dəstəyi olan arabacıqları uşağa təklif etmək olar. Belə arabacıqları seçərkən dəstəyinin yuxarı kənarlarının hündürlüyünə diqqət etmək lazımdır. O, uşağın sinəsinə çatmalıdır. Əks halda o, ya əyilməli, ya da qollarını çox yuxarı qaldırmalı olacaq. Uşaq bu arabacığı itələyərkən istənilən halda öz ayaqlarına dirənəcək və onları düzgün tutaraq lazımi dəstəyə malik olacaq. Gəzinti zamanı belə arabacıq qismində öz uşaq arabasını ona vermək olar. Lakin, bu zaman onun çox sürətlə sürməməyinə və çevrilib yıxılmamağına diqqət yetirmək lazımdır.

***Oturaq vəziyyət.*** İndi uşağınız oturmağa çox vaxt sərf edir. Onu uzun müddət kresloda və ya arxa söykənəcəyi olan uşaq stulunda qoymayın. Döşəmədə olarkən istər-istəməz bədəninin vəziyyətini dəyişməyi öyrənəcək.

***Vəziyyətlərin əvəz edilməsi.*** Uşaq onu maraqlandıran oyuncağa çatdıqda onunla oynamaq istəyir. Lakin, o, sərbəst oturmağı bacarmır. Bu zaman onu özünüz tutub otuzdurmağa çalışmayın. Ona azacıq fiziki kömək edərək olduğu vəziyyəti düzgün dəyişməyinə yardım edin. Bu, həmçinin uşağın asılmış oyuncağı götürməyə cəhd etdiyi vəziyyətə də aiddir. Bu halda ona azca kömək etmək lazımdır.

Uşaq bir vəziyyətdən başqa vəziyyətə artıq sərbəst keçə bilirsə, şərtləri olduğu vəziyyəti dəyişməyi tələb edən oyunlar fikirləşib tapın.

**Uşağın məişət şəraitində inkişafı**

Uşaq get-gedə ətraf aləmlə maraqlanmağa başlayır. ətrafda baş verən hadisələr onun diqqətini cəlb edir. O, müəyyən ardıcıllıqla baş verən hadisələrin mənasını dərk etməyə başlayır və səbəb-məqsəd əlaqəsini müəyyən etməyi öyrənir. Məsələn, anası ona üst geyimi geyindirdikdə o, artıq bilir ki, qarşıda gəzinti var, onu hündür bir stulda əyləşdirdikdə isə yemək vaxtıdır. Müvafiq hazırlıq işlərini görən uşaq sevinə və ya məsələn, dərman qəbuluna və ya burnunun təmizlənməsinə etiraz edə bilər. Bütün bunlar onu deyir ki, o, nəinki baş verən hadisələri başa düşür, eləcə də əvvəl iştirakçısı olduğu hadisənin nə ilə davam edəcəyini qabaqcadan görə bilir.

Uşağı çimizdirən zaman süngəri sıxmağı, fincandan və ya qıfdan su tökməyi, əlini suda oynatmağı, üzən oyuncağı tutmağı göstərməyi unutmayın. Onunla şənlənin!

Uşağı ailə həyatına getdikcə daha çox daxil etməyə davam edin. O, artıq ailəvi yeməkdə iştirak edə bilər. Sizin gündəlik həyatda etdiyiniz hərəkətləri müşahidə edən uşaq onlara cəlb olunmaq istəyir. Bu isə əladır! Çalışın bu məsələdə onu rədd etməyəsiniz. Axı onun sizdən öyrənəcək çox şeyi vardır! əgər siz mətbəxdə birlikdəsiniz, lakin o, sizə baxmırsa onun adını çağırın, ona toxunun, onun üzünə baxın, bir sözlə, onun diqqətini nə baş verdiyinə və nə etdiyinizə cəlb edin. Məsələn, yemək hazırlayarkən kartofu qazana necə atdığınızı göstərin və kartof dənəsini uşağa verin. Onu əlindən salsa,

heyfsilənməyin, axı onu suda yuya bilərsiniz. Uşağın nəyisə əlində tutması və onu hiss etməsi imkanı yeni bir şeydir! Sonra isə kartofu ondan istəyib qazana ata bilərsiniz: "Şapp!" Hökmən, qısaca və dəqiq izah edin ki, kartof bişdiyini və birlikdə yemək yeyəcəksiniz. Yemək zamanı ona qaşıq, fincan verin. O, düzdür, özü səliqəli edə bilməsə də artıq yemək yeyə bilir. Ona görə də ola bilsin ki, onun özünü və ətrafındakıları təmizləyəsiniz. Lakin, axı o, sınamasa heç nə öyrənə bilməz. Ona isə hökmən sərbəst şəkildə yemək və içmək lazımdır! Bir müddət keçəcək və sizin körpəniz artıq çox şeyi sərbəst edə biləcək və sizə ev işlərində də kömək edəcək!

**Yemək və içmək.** Uşaq hökmən bərk qidanı yeməyi və maye halındakı xörəyi qaşıqla yeməyi, eləcə də fincanı iki əli ilə tutmaqla ondan içməyi öyrənməli olacaq. Siz uşağa çöplə (nazik borucuq) maye içməyi təklif edə bilərsiniz. Bunun üçün xırda bir qutu meyvə şirəsi götürüb borucuğu onun deşiyindən içəri keçirin və uşaq onu ağzına saldıqdan sonra onu yüngülcə sıxın. Bu zaman şirənin bir azı uşağın ağzına gedəcək. Beləliklə, o, tədricən çöplə içməyi öyrənəcək. Səbirli və mehriban olun, bu cəhdləri dəfələrlə təkrar edin və mayenin və ya qidanın bir hissəsini ağzından yerə tökdükdə  isə onu danlamayın. Bütün bunlar müvəqqətidir, onun sərbəst yemək və içmək bacarığı isə bütün ömrü boyu qalacaq!

**Geyinmə vərdişləri.** Uşaq inkişafın bu mərhələsində corablarını, şlyapasını soyunmağı, geyinərkən isə qollarını və ayaqlarını uzatmağı öyrənir. Əgər uşağın geyindirilməsinə və soyundurulmasına bir qədər çox vaxt sərf etsəniz gəzintiyə hazırlaşarkən paltar geyinmədə özü "şəxsən" iştirak edəcək və ya çimməyi gözləyərkən isə paltarını çıxaracaq.

**Gigiyena vərdişləri.** Uşaq çanaqda artıq 5-7 dəqiqə otura, əllərini su şırnağının altına tuta,  stolu əski ilə silə bilir.

Uşağa başa salın ki, o, sərbəst şəkildə sizə çata bilər: Əgər o, qonşu otaqdan sizi çağırarsa, dərhal onun yanına getməyə çalışmayın və yaxşısı budur ki, onu öz yanınıza çağırın. Əvvəllər uşağı uzaqdan, onun görmə sahəsindən

kənarda çağırmaq faydasızdır. Daha yaxşısı odur ki, uşağın sizi görə bilməsi üçün onu qapıdan çağırın və onda hərəkət fəallığı göstərmə duyğusu oyadın. Sonra isə o, sizə çatanda onu hökmən tərifləyin. Aranızdakı məsafəni get-gedə artırın. Əlbəttə, ən çətini uşağın sizi səsinizdən tapmasıdır. Lakin, bunun da öhdəsindən gələcək. Gizlənqaç oyunu burada onun köməyinə gələcək. Adi ev işləri ilə məşğul olarkən ətrafı elə təşkil edin ki, uşaq oturaq və ayaq üstə durduğu vəziyyətdə mümkün qədər tez-tez olsun. Yəni, onun müvazinəti inkişaf etdirmək imkanları daha çox olsun. Uşaq arabasında gəzinti zamanı təkanlar olanda qalxıb düşərkən müvazinətini saxlamağı öyrənəcək. Ona şalvar geyindirərkən bunu elə etməyə çalışın ki, o, uzanmış deyil, dayağa söykənmiş vəziyyətdə olsun. Beləliklə, siz onun ayaq üstə durmuş vəziyyətdə bədəninin bütün ağırlığını bir tərəfdən digərinə salarkən müvazinətini saxlamaq üçün şərait yaradacaqsınız.

**Uşağın oyun zamanı inkişafı**

***Oyunun keçirildiyi yer.*** Yəqin ki, uşağınızın oyun keçirmək üçün xüsusi ayrılmış yeri vardır. Döşəməyə rahat bir xalı salınıb və onun üzərində oyuncaq qutusu vardır. Lakin, uşaq artıq belə bir kiçik məkandan razı deyil. O, dəhlizdə olmaq, vanna otağına getmək və mətbəxi gözdən keçirmək istəyir. Uşağın hərəkət azadlığını məhdudlaşdırmayın! Əlbəttə, siz təhlükəli əşyaları, o cümlədən sabit durmayan mebeli ortadan götürməli olacaqsınız. Lakin, bu tədbirlər özünü tamamilə doğruldur. Axı, bunun nəticəsində uşağın təkcə hərəkət fəaliyyəti deyil, eləcə də ümumi inkişafı fəallaşacaq.

**Oyuncaqlar, ləvazimatlar və onlardan istifadə qaydaları**

Uşaq mahnıları yazılmış kasetlər və ya disklər, həmçinin vallar

Birlikdə oxumaq və sərbəst vərəqləmək üçün ən sadə şəkilli qalın karton kağızdan hazırlanmış bir neçə kitab

Fotoşəkil və ya parlaq rənglə çəkilmiş rəsm albomları. Onlara uşaqla baxmaq, orada nə təsvir edildiyi demək, müəyyən fotoşəkili və ya rəsmi göstərməsini istəmək olar.

"Bi-ba-bo" oyuncağı (əlcək kukla). Bu kuklaların gözləri, burnu və ağzının aydın görünməsi yaxşı olardı. Daha yaxşı olar ki, onları ağzı açılsın. Kuklanı uşağın və öz əlinizə keçirib onu rəqs etdirin, uşaqdan onu yedizdirməsini, ona salam verməsini və ya onunla sağollaşmasını istəyin: "salam", "sağ ol" və s.

Sadə prinsipli qurulma oyuncaqlar (yaxşı olar ki, qurma vasitəsi üst tərəfdə olsun). Siz oyuncağı qurma qaydasını ona göstərə, onunla oynamağı öyrədə, nəticə əldə olunduqda onunla birlikdə sevinə, sonra isə sərbəst oynaması üçün ona vermək lazımdır.

Asanlıqla itələmək və özünə tərəf çəkmək mümkün olan təkərli oyuncaqlar.

İçi-içə dairəvi formalı və rəngli stəkanlar. Onlar adətən matryoşka prinsipi ilə yığılır və birini digərinin içərisindən çıxarmaq və ya digərinin üstünə yığmaq çox maraqlıdır.

Millərə düzmək üçün böyük deşikləri olan halqalar.

Konus-formalı özəyi olan piramidalar. Piramidanın özəyi halqaların yığılma ardıcıllığını pozaraq onların səhv düzülməsinə imkan vermir. Uşaq hələ ki, halqanı götürə və milə yalnız bir halqanı keçirə bilir.

Poçt qutusu. Biz dairəvi formalı deşiyi olan istənilən uyğun həcmə malik əşyanı və ya silindri belə adlandırırıq. Bir deşikli poçt qutularını almaq çox çətindir. Ona görə də qapaqlı bankadan və qutudan onların üzərində deşik açmaqla özünüz də düzəldə bilərsiniz. Aldığınız üç deşikli qutudan da istifadə edə bilərsiniz. Lakin, hələlik bu deşiklərdən ikisini kartonla və ya plastırla bağlayın.

Çubuqlu təbillər. Təbil almaq əvəzinə qutu və ya qazan və qaşıqdan istifadə edə, iki qazan qapağını bir-birinə vuraraq səs çıxara bilərsiniz. Hər iki halda körpə iki əlindən də istifadə edəcək.

Oyuqlarına hissələr keçirilən lövhələr. Uşaq hələlik hissələri oyuqlardan çıxarmağı və yalnız bir hissəni oraya keçirməyi öyrənir.

Kürəcik və ya maşınlar üçün təpəcik. Bu təpəcik qismində kiçik bir taxta parçasından və ya başqa bir əşyadan istifadə etmək olar. Uşağa əşyanı (kürəcik, maşın və ya silindr) yuxarıya sərbəst şəkildə qoymağı öyrədin. Beləliklə, həmin əşya ordan aşağı yuvarlanacaq.

Orta ölçülü top. Bu mərhələdə uşaq ona tərəf diyirlənən topu tutmağı və onu diyirlətməyi öyrənə biləcək. Beləliklə, topu bir-birinizə tərəf diyirlətməklə oyun oynaya biləcəksiniz.

Süjetli oyuncaqlar. Bu, çox da kiçik olmayan oyuncaq qab-qacaq, telefon, döşəkli çarpayı, uşaq arabacığı, vanna, maşın, kiçik kukla və ya insan bildirən digər oyuncaqlar ola bilər.

Sökülüb-yığılan oyuncaqlar. Onları böyüyün köməyi ilə müvafiq şəkildə sökmək və yığmaq olar. Uşaq onları sökməyi kifayət qədər tez öyrənir. Lakin, yığmaqda böyüyün köməyinə ehtiyacı olur. Bununla belə bu oyuncaqlar çox faydalıdır.

Açılan yumurtalar, çəlləklər və ya matryoşkalar. Onları açıb içində gizlənən oyuncaqları və ya oyun suşkaları götürmək, sonra isə yerinə qoymağı öyrənmək vaxtı gəlib çatmışdır.

Kubiklər. Uşaq sizin qüllə qurmağınızı müşahidə edib onu dağıtmağı və yenidən sizi təkrar etməklə kubikləri bir-birinin üstünə yığmağı öyrənəcək. Kubik əvəzinə kitab, kaset, kağız rulonlar və uşağınızın marağını cəlb edən digər əşyalardan istifadə edə bilərsiniz.

Çimərkən istifadə olunan müxtəlif oyuncaq və əşyalar. Bu, üzən top, dairəcik, ələk, rəngli süngər ola bilər. Onları suyun içinə salmaq və sudan necə çıxdıqlarını müşahidə etmək, qabdan su tökmək, süngəri sıxmaq və ya uşaq suçiləyənlərindən istifadə etməklə “yağış yağdırmaq” olar.

Krem, şampun, üz qırxmaq üçün köpüklər. Əlinə krem və ya köpük yaxılmış vəziyyətdə gəzmək çox faydalıdır və

bu, onun marağına səbəb olur. Uşaq onları razılıqla sürtüb mənasını yoxlayır. Sizin isə öhdənizə yalnız sabun köpüyünün onun ağzına getməməyinə nəzarət etməkdir.

Əlvan karandaşlar və ya böyük diametrli əlvan tabaşirlər. Uşağın əvvəlcə rəsm prosesini müşahidə etməsi yaxşı olardı. Çalışın ki, onun diqqətini çəkilməkdə olan rəsmə cəlb edərək onunla maraqlanmasını təmin edəsiniz. Bu ilk təsvirlər mürəkkəb yox, parlaq olmalıdır! İndi isə uşağın rəsm prosesinin özü ilə maraqlanması, tabaşirin iz buraxdığını başa düşməsi vacibdir. Yaxşı və faydalı olardı ki, siz kağız və ya lövhədə karandaş və ya tabaşirlə cızma-qara etməkdə ona yardım edəsiniz. Rəsm lövhəsi kimi linoleum parçasından, kitabın üz qabığından və ya rəngli plastik qovluqdan istifadə etmək olar. Belə lövhədə karandaşla və ya rəngli məktəb tabaşirləri ilə rəsm çəkmək, sonra isə uşağın bu təsvirləri nəm süngərlə silməyinə yardım etmək olar. İstənilən nəticə - istər rəsmin çəkilməsi, istərsə də silinməsi onda maraq doğuracaq.

İçərisində manna yarması və ya şəkər tozu olan məcməyi. Belə məcməyilərin dərin olmağı arzu ediləndir, əks halda bütün yarma və ya şəkər tozu yerə tökülə bilər! Lakin, əvəzində barmaqla  burada nə qədər maraqlı forma və təsvir çəkmək olar! Sadəcə olaraq əlləri onun içərisində gəzdirmək, sıxmaq və açmaq olar. Ana isə əlbəttə, manna və ya şəkər tozunun ağıza çox getməməyinə nəzarət etməlidir!

Kiçik deşikləri olan təhlükəsiz əşyalar. Bu əşyalar uşağın işarət barmağını digər barmaqlarından fərqləndirməyi və onu deşiyə soxmağı öyrənməyi üçün istifadə edilir. Uşaq piramidasının halqaları, suşkalar da bu zaman işə yarayır.

İçərisində parça qırıntıları kolleksiyası olan qutular. Bu parçalar müxtəlif materialdan olmalıdır. Ola bilər ki, müxtəlif əşyalarla bəzədilmiş çantalar uşağınızın xoşuna gəlsin. Belə "dəstlər" sayəsində uşaq formasına, materialına görə və eləcə də bütün əşyanın araşdırmasını aparacaq. Lakin, yenə də xatırlayırıq ki, belə oyunların uşağa xətər yetirməməyi üçün onlar hökmən böyüyün nəzarəti altında keçirilməlidir.

Müxtəlif üsullarla bağlanan qutular. Qoy, körpəniz qutunun qapağını tərpətməyi, çıxartmağı, atmağı, burub açmağı öyrənsin.

Köhnə jurnallar, divar kağızları, yumşaq folqalar, kalkalar, bir sözlə, böyüyün nəzarəti altında gizlədilən oyuncağı axtaranda əzmək, bükmək, cırmaq mümkün olan bütün əşyalar.

Paltar sıxacları. Arsenalınızda belə möhtəşəm vəsait olunduqda geniş və çox sıx olmayan sıxaclardan istifadə edin. Plastmas qabların və ya qutuların tillərinə bərkidilmiş sıxacları çıxarmaq uşağın marağını oyadacaq və eyni zamanda, barmaqlarını və əzələsinin gücünü hesablamaq bacarığını məşq etdirəcək.

Böyük corablar, ayaqqabılar, şlyapalar və ya qalın panamalar. Bütün bunları gördüyünüz kimi dartmaqla geyinmək olar.

Plastmasdan hazırlanmış məişət əşyaları. Söhbət burada oyuncaq deyil, əsl qaşıq, fincan, ələk, qıf, süpürgə, xəkəndaz və s. gedir. Uşaq sizin hərəkətlərinizi təkrar edə-edə bu əşyaları təyinatı üzrə istifadə etməyi öyrənir.

Sabit arabacıq – xodunoklar. Bu, "idman alətlərindən" artıq bəhs etmişik. Ola bilsin ki, siz onlar olmadan da keçinə bilərsiniz!

## Oyun və məşğələlərin təsviri

Uşaq əlləri ilə üfüqi səthə (döşəmə, divan) dirənərək və ya dizləri üstə bir qədər oturmağı bacarırsa, bu o deməkdir ki, dayağa söykənmədən oturmaqda ona kömək etmək vaxtının gəlib çatmışdır. Bunun üçün ***oturaq vəziyyətdə müvazinəti saxlamaq bacarığının inkişafına müsbət təsir göstərən məşqləri*** davam etdirmək lazımdır. Ona görə də topla məşğələlər və dizlərinizdə oturma zamanın müvazinətin saxlanması uşağınız üçün əvvəlki kimi maraqlı və faydalıdır. Uşağınızın əllərini dayaqdan ayırması üçün əllərini onun marağını cəlb edən əşya və ya oyuncağa uzatmasına çalışmaq

lazımdır. Əvvəlcə, oyuncağı yalnız onun qarşısında sinə bərabərində qoyun.
O, dayaqdan tutmadan sabit oturmağı öyrəndikdən sonra oyuncağın yerini sinə səviyyəsindən yüksəkdə sağa və sola dəyişmək lazımdır. Belə vəziyyətdə əşyanı götürmək çətindir. Burada, müvazinəti saxlamaq və eyni zamanda əlaqələndirilmiş hərəkət etmək bacarığının daha da inkişaf etdirilməsi tələb olunur.
Yadda saxlayın ki, uşaq hələ davamlı otura bilmir. Mürəkkəb tapşırıqları isə yalnız rahat və təhlükəsiz şəraitdə yerinə yetirmək olar. Ona görə də məsələn, başlanğıc vaxtlarda dayaqdan tutmadan oturaq vəziyyətdə piramidadan halqaları çıxarmaq kimi tapşırıqlar verməyə dəyməz! Belə hallarda o, əlbəttə, hələ bir müddət əlavə dayağa və ya sizin fiziki cəhətdən köməyinizə ehtiyacı olacaq. Uşağı məşq etdirərkən hərəkətlərin əvəz edilməsini tələb edən oyunlardan istifadə edin. Məsələn deyin: “Bax, gör, ana nə edir, indi isə Vasif etsin!”

**“Çəkiclə vur” oyunu**
***Ləvazimat:*** musiqili çəkic, alçaq stol, skamya və uşağın sinəsi səviyyəsində karton qutu.
***Oyunun təsviri.*** Lazımi hündürlükdə stol tapa bilməsəniz, karton qutu götürüb yanı üstə qoyun. Elə edin ki, onun açıq hissəsi uşağa tərəf olsun. Onun ayaqlarını onun içinə keçirib improvizasiya edilmiş stol təsəvvürü yaradın. Oyuncaq musiqi alətini (indiki halda – çəkic) əlinizə alıb onun adını deyin və onun səs çıxarmağı üçün nə etmək lazım olduğunu göstərin. Çəkici qutuya vurmasını uşaqdan istəyin. O, bunu hələ özü sərbəst etməyi bacarmazsa ona kömək edin. Musiqili çəkic əvəzinə asan və uşağa maraqlı gələn musiqi alətləri və ya oyuncaqlardan istifadə edin.

**“Rəqs edən xoruz” oyunu**
***Ləvazimat:*** hərəkət edən taxta oyuncaq, məsələn dənləyən toyuqlar.

***Oyunun təsviri.*** Oyuncağı uşağa göstərib adını deyin və ona bağlanmış ipi dartdıqda onun hərəkət etdiyini nümayiş etdirin. Uşağın da oynamasını təklif edin. Əvvəllər, lazım gəldikdə, oyunu oynamaqda ona kömək edin və yaddan çıxarmayın ki, siz onun əvəzinə oynamır, yalnız kömək edirsiniz.

**"Kürəciyi diyirlət" oyunu**

***Ləvazimat:*** Plastik butulkanın ortadan bölünməsindən alınmış novça və içərisində zəngli

***Oyunun təsviri.*** Novçanın bir tərəfini azca qaldırıb topu ordan diyirlətmək qaydasını ona göstərin. Uşağın topu novçaya qoymasını və onun diyirlənməsinə diqqət yetirin. Uşaq lazımi əşyanı həmin yerə qoya bilməzsə, bu oyunun daha sadə variantından istifadə edin: Qoy, o, diyirlənən topu götürüb sizə versin, siz isə onu novçaya qoyun.

Uşağınız ayaq üstə çox da inamla durmağı hələ bacarmırsa, ***ayaq üstə dayanmış vəziyyətdə keçirilən oyunlar*** onun üçün xüsusilə çətin olacaq. Oturaq vəziyyətdə keçirilən oyunlarda olduğu kimi yadda saxlamaq lazımdır ki, başlanğıc vaxtlarda uşağa təklif etdiyiniz tapşırıqlar çox da çətin olmamalıdır. Uşağın əşya və ya oyuncaqlarla ayaq üstə dayanmış vəziyyətdə oynamağa çalışması üçün onun diqqətini cəlb etmək, onda bu əşya və oyuncaqlara qarşı maraq oyatmaq lazımdır. Bu oyuncaqların yüngülcə toxunduqda belə səs çıxarması çox yaxşı olardı. Bu, uşağın xoşuna gəlir. Onun hələ də ayaq üstə yırğalana-yırğalana yeriməklə onu maraqlandıran əşyaya çatması sizi kifayət qədər sevindirəcək.

Ayaq üstə durma vərdişləri, sonra isə yerimə tədricən, gündən-günə formalaşır. Bədənin şaquli vəziyyətlərdə keçirilən oyun və tapşırıqları da tədricən çətinləşdirmək olar.

**"Oyuncağı götür" oyunu**

***Ləvazimat:*** davamlı mebel, maraqlı oyuncaqlar və məişət əşyaları

***Oyunun təsviri.*** Uşağınız sinəsi və qarnı üstə divana sərilərək və ya alçaq stola söykənib dayanmağı bacarırsa onun bədəni ilə dayaqdan tutma tempini tədricən azaltmasına yardım edin. Dayağa yalnız əli ilə dirənməsi üçün onu arxaya çəkin.

**Oyunun çətinləşdirilməsi.** Stolun və ya divanın (dayağın yanında durmuş uşaqdan azca aralı) kənarına oyuncaq qoyun. Uşaq əlini bu oyuncağa uzadacaq. Bu oyunu oynadıqdan sonra o, yalnız bir əli ilə dayaqdan tutmağı öyrənəcək. Bundan əlavə, uşaq bədənin bütün ağırlığını bir tərəfə salmağı öyrənməlidir. Onun üçün maraqlı olan oyuncağı götürmək üçün əlini yuxarı və ya kənarlara uzatmağı təklif etsəniz o, bədəninin bütün ağırlığını bir tərəfə salacaq. Sonra isə oyuncağı o biri tərəfinə aparsanız, uşaq yenə də öz ağırlığını lazımi istiqamətə yönəldəcək.

**"Oyuncağın yanına get" oyunu**

***Oyunun təsviri.*** Oyuncağı elə qoyun ki, uşaq onu götürmək üçün irəliyə bir addım atsın.
Uşaq addım atmadan oyuncağa tərəf əyilsə, əllərimizlə onun belindən tutub astaca o tərəfə, bu tərəfə yırğalayın. Ola bilsin ki, o, bu halda addım atmağa məcbur olacaq. Oyuncağa qədər olan məsafəni tədricən artırın və addımın daha geniş olmasına çalışın.

***Oyunun çətinləşdirilməsi.*** Maraqlı oyuncaq və ya əşyalarla uşağın diqqətini cəlb edərək tədricən dayaqlar arasındakı məsafəni uzadıb onu bir dayaqdan digərinə keçməyə sövq edin. Belə ki, əlləri ilə dayaqdan tutmadan birindən digərinə keçsin.

**"Ananın yanına gəl" oyunu**

***Oyunun təsviri.*** Uşağın ilk sərbəst addımını atması üçün onun kürəyini dayağa söykəyib onunla üzbəüz vəziyyətdə döşəmədə oturun və əlinizi ona uzadaraq adını deyin. Uşaq "cəsarətlənib" sizə tərəf addım atanda onu qucaqlayıb öpün.

**"Ayaq üstə dururuq" oyunu**

***Ləvazimat:*** kifayət qədər böyük, lakin yüngül yumşaq oyuncaq, məsələn, ayı kuklası.

***Oyunun təsviri.*** Ayı kuklasını əlinizdə tutaraq uşağın onun pəncələrindən tutmasına yardım edin. Ona ayı ilə oynamağı təklif edin.

Ayı kuklasını əldən buraxıb "Ayaq üstə dururuq!" deyərək əl çalın.

Uşağın öz ***bədəninin vəziyyətini sərbəst şəkildə dəyişməyi*** öyrənməsi çox vacibdir! Bu qabiliyyət tədricən inkişaf edir. Lakin, uşağın özünü yaxşı hiss etməsi və istədiyi yerə gedə bilməsi lazımdır. Hər bir uşağın hərəkət qabiliyyətinin inkişafında həmişə bədənin keçid vəziyyəti deyilən xüsusi "istiqamət" fərqlənir. Keçid deyiləndə burada bir vəziyyətdən digərinə keçməsi nəzərdə tutulur. İlk vaxtlar uşaq bunun öhdəsindən heç də asanlıqla gəlmir. Çünki, o, bir neçə aralıq hərəkətlər edərək yeni davamlı vəziyyət aldıqda ilkin vəziyyətdə saxladığı davamlı müvazinəti pozmalı olur. Fərz edək ki, uşaq döşəmədə oturub. Sonra o, anasının və ya sevimli oyuncağının yanına getməli olur. Təbii ki, bundan ötrü o, qarnı üstə uzanmalı və sürünməlidir. (iməkləməli və ya sadəcə sürünməli) Uşaq hətta yaxşı sürünməyi bacardıqda belə oturaq vəziyyətdən uzanmaq onun üçün çətin ola bilər. Çünki, bədənin vəziyyətinin dəyişməsi müvazinəti saxlamaq bacarığı tələb edir. Bütün bunlar o deməkdir ki, davamlı vəziyyəti saxlamaq bacarığını uşağa öyrədərkən, hökmən, bu və ya digər vəziyyətə girmək və ondan çıxmaq qabiliyyətini məşq etdirmək, bunun üçün lazım olan hərəkətləri dəfələrlə təkrar etmək lazımdır.

**"Topu götür və otur" oyunu**

***Ləvazimat:*** davamlı alçaq stol, kreslo və ya divan, alçaq skamya. Uşaq əvvəlcə böyüyün dizlərində və ya alçaq skamyada oturur. Skamya əvəzinə qalın kitab, çamadan və ya başqa davamlı əşyadan istifadə etmək olar.

***Oyunun təsviri.*** Əvvəlki inkişaf mərhələsində uşağınıza dayaqdan tutaraq ayağa qalxma və oturmağı öyrətdiyiniz oyun təklif edilirdi. O, bütün bunları sizin köməyinizlə edirdi. İndi isə o, özünü daha inamlı hiss edir və buna görə də onun həmin hərəkətləri etməsi üçün sadəcə onu oyuncaqla cəlb edə bilərsiniz. Yəqin ki, o, əvvəlcə sizin köməyiniz olmadan oturmağı öyrənəcək, sonra isə dayaqdan tutaraq özü sərbəst ayağa qalxacaq. İlk vaxtlarda uşaq ayağa qalxarkən əllərini uzadacaq və eyni zamanda hər iki ayağını simmetrik şəkildə açacaqdır. Daha sonra isə bədənin bütün ağırlığını inamla bir tərəfə salıb bir dizi üstə durmaqla keçid vəziyyətindən istifadə edərək ayağa qalxmağı öyrənəcək. Uşağın bir dizi vasitəsilə ayağa qalxmağı öyrənməsi üçün onu dizləri üstə divanın qarşısında qoyub sol tərəfə yırğalayın, sağa ayağı isə pəncəsi üstə dirənmiş vəziyyətdə irəli çıxarın. Uşaq indi sol dizi üstə durub. Onu sağa və yuxarı yırğalayın. Bu zaman o, sağ ayağını düzəldəcək və ayağa qalxacaq.

***Oyunun çətinləşdirilməsi.*** Uşağın diqqətini maraqlı əşyalara yönəldərkən get-gedə köməyiniz səviyyəsini azaldın. Qoy, o, sizin dizlərindən tutmaqla yox, skamyadan, sonra isə döşəmədən tutmaqla ayağa qalxsın. Sonra, oyuncağı uşağın əlinə verməyə çalışın ki, ayağa qalxarkən dayaqdan daha az tutsun.

Elə bu üsullardan uşağa dayaqdan tutmadan qalxmağı öyrədərkən istifadə etmək olar.

**"Maşını çək" oyunu (1-ci variant)**

***Ləvazimat:*** ucunda halqa olan lent və ya iplə başlanmış maşın

***Oyunun təsviri.*** Böyük ayaqları kənarlara düz açmış vəziyyətdə döşəmədə oturur. Uşaq isə arxası böyüyə söykənmiş vəziyyətdə döşəmədə oturur.

Maşını uşağın qabağında elə vəziyyətdə qoyun ki, o, halqadan tutub onu özünə tərəf çəkə bilsin. Maşını yan tərəfdən ayağınızla uşağın arasında yerləşdirin. Uşağın maşına yaxın olan ayağın bükün və onun yarımoturaq vəziyyətə keçməsinə

yardım edin. Halqalı lent elə olmalıdır ki, uşaq bu vəziyyətdə artıq əlini ona çatdıra bilsin. Maşını özünə çəkib oturacaq. Bunu sərbəst edə bilməsə ayağınızı azca qaldırıb ona kömək edin. Növbəti mərhələdə maşın (və ya uşağın diqqətini cəlb edən başqa bir oyuncaq) elə yerləşdirilir ki, uşaq onu götürmək üçün əlini uzadanda yarımoturaq vəziyyətdən qarnı üstə uzanmış vəziyyətə keçsin. Unun oturmağına kömək etmək üçün ayağınızı azca qaldırıb eyni zamanda uşağın ayaqlarını və ombasını lazımi şəkildə istiqamətləndirib ona oturaq vəziyyət vermək lazımdır. Oyuncağı o biri tərəfə qoyub həmin hərəkətləri təkrar edin.
Yaddan çıxarmayın ki, uşağın əsas məqsədi bədəninin vəziyyətini dəyişmək deyil oyuncaqdır! Uşağın oyuncağı götürmək üçün etdiyi hər bir səyi hökmən tərifləyin, onunla birlikdə bu oyuncaqla oynayın. Oyuncaqları dəyişin, onları dəsmalın altında gizlədin, bəlkə də, gizlənqaç oyunu ona daha maraqlı görünəcək.

**"Maşını çək" oyunu (2-ci variant)**
Bundan əvvəlki oyunun ikinci variantı uşaq artıq iməkləyə bildiyi halda istifadə edilir. Uşağın arxasında döşəmədə oturun və onun çanağını diaqonal üzrə elə çəkin ki, o, əvvəlcə ombası üstə, sonra isə çanağı üstə otursun. Uşaq oturanda bədənin bu vəziyyətinin onun üçün cəlbedici olması üçün ona maraqlı bir şey verin.

***Məqsəd çatmağa yönəldilmiş oyunlarda*** uşağın bütün hərəkət imkanlarından istifadə edilir. Belə oyunların təşkil olunma prinsipi belədir: Uşaq sizə və ya onu maraqlandıran əşyaya çatmaq üçün bir neçə ardıcıl hərəkəti yerinə yetirməlidir. Belə oyun variantlarından birini nümunə gətiririk. Ümid edirik ki, sizin fantaziyanız və uşağın maraqlarını bilməyiniz bu oyunları daha da zənginləşdirəcək.

**“Ananı tap” oyunu**

***Oyunun təsviri***

• Uşağı döşəmədə otuzdurun və onunla gizlənqaç oynayın. Məsələn, divanın arxasında gizlənin. Müxtəlif üsullardan istifadə edən uşaq sizi tapacaqdır. Onu sığallayıb öpün, göyə atıb-tutun və ya onun xoşuna gələn hərəkətlər edin.

• Uşaqla xalça üstündə oynayarkən xalçanı onun üstünə atın və şənlənməyi üçün onu qıdıqlayın, sonra isə yenidən divanın arxasında gizlənin. Başınızı çıxarıb baxın və əlbəttə, o, sizi gördükdə onun adını çağırın. İndi isə onun sizə çatması üçün əvvəlcə oturmalı və dizi üstə durmalıdır (hərəkət imkanlarından asılı olaraq).

• Hərəkətlər zəncirini get-gedə artırın. Məsələn, oyuncağı götürüb onu yüksək bir yerə qoyun. Uşaq onu götürmək üçün dayağa çatmalı və ondan tutub qalxmalı olacaq. Ona yalnız ilk vaxtlarda, bu oyunu hələ mənimsəmədiyi vaxtlarda kömək edin. Yadda saxlayın: uşağı sərbəst hərəkət etməyə öyrətmək vacibdir!

***Oyunun çətinləşdirilməsi.*** Artıq təsvir edilmiş hərəkətlər zəncirinə əlavə edilən növbəti həlqə yüksək yerə çıxmaq bacarığıdır.

Uşaq dayaqdan, məsələn, divandan tutub qalxdıqda oyuncağı daha da kənara itələyin və onu götürə bilməməyinə çalışın. Uşağı yırğalayaraq ağırlığını bir ayağına salıb digər ayağını isə dizdən büküb divana qoyun. Sonra isə uşağın ağırlığını divandakı ayağına keçirməsinə kömək etsəniz onda o, ikinci ayağını da oraya aparacaq.

Yaddan çıxarmayın ki, uşağı divandan həm də düşürmək lazımdır! Hökmən, yıxılmamaq üçün nə etmək lazım olduğunu ona öyrədin! Fiziki səylər və hərəkət aktivliyi baxımından bu tapşırıq elə də çətin deyil. Əsas çətinlik ondan ibarətdir ki, uşaq qarnı üstə çevrilməli, sonra isə sürünüb ayaqları ilə aşağıya döşəməyə düşməlidir. Bu zaman o, cəlbedici əşyanı gözdən itirir. Bir qayda olaraq, uşaqlar gözlərini oyuncaqdan çəkmədən divandan başıaşağı düşməyə çalışırlar ki, bu da təhlükəlidir.

Uşağa düzgün düşməyi öyrətmək üçün səbirli olmalısınız. Uşağı qarnı üstə çevirərək hərəkətlərin düzgün yerinə yetirilmə ardıcıllığını dəfələrlə təkrar edin. Bu zaman deyin: “Çevril və aşağı düş!” Bir müddət keçdikdən sonra sizin yalnız xatırlatmağınız kifayət edəcək. Sonra isə o, bütün hərəkətləri özü, sizin nəzarətiniz altında olmadan yerinə yetirə biləcək. Uşaqda ***ünsiyyət vərdişlərinin inkişafına*** yönəldilmiş oyunlara hərəkətli oyun-nağıllar, bütün növ gizlənqaç oyunları, güzgü qarşısında oyunlar aiddir. Uşağınızla birlikdə kitab oxumağınız, şəkilli albomlara baxmağınız yəqin ki, onun xoşuna gələcək. Hərəkətli oyun kimi bizim hamımıza məlum olan “Çatdım-çatdım” oyunundan istifadə etmək olar.

Qutu, siyirmə və ya çantaların ***içindəkiləri yoxlamaq*** uşağın xoşuna gəlir. O, oradan tanış bir əşya çıxarsa, yəqin ki, onu oynadacaq: qaşıq olsa ağzına, telefon olsa qulağına tərəf aparacaq. Bu oyunun növbəti mərhələsi onun içindən çıxardıqlarının geri qaytarılmasıdır. Uşağın bildiyi bütün vərdişlərdən istifadə etməklə ətraf aləmi öyrənməsinə imkan verin. Əşyaları elə yığışdırın ki, o, stolun siyirməsini və ya dolabını açıb maraqla oranı qarışdıra bilsin. Əlbəttə, onun üçün təhlükə törədən əşyaları onu əli çatmayan yerə qoymaq lazımdır.

***Oyuncağı hissələrinə ayırmaq bacarığı tələb edən oyunlar*** da uşağın marağına səbəb olur. Halqalarla oyunlar da bu oyunlara misal ola bilər. Uşağa əvvəlcə halqaları qoldan çıxarmağı, sonra isə mildən çıxarmağı öyrətmək olar. O, halqaları özü çıxarmağı öyrəndikdə halqaları milə keçirməyi öyrənməkdə ona kömək edin. İlk vaxtlarda deşiyi böyük olan halqalarla və kiçik diametrli millərlə oynamaq yaxşıdır. Çünki, belə etsəniz uşaq bu bacarığı asanlıqla mənimsəyəcək. Ən yaxşısı odur ki, ilk vaxtlarda böyük suşkalardan və adi karandaşdan istifadə edilsin.

***Əşyanı müəyyən yerə qoymaq bacarığı tələb edən oyunlar*** uşağın inkişafında mühüm əhəmiyyətə malikdir. Quruculuq (tikinti) oyunlarını buna misal göstərmək olar.

Kubiklərdən, kağız rulonlarından, videokassetlərdən və ya rahat və yüngül digər əşyalardan istifadə edərək quruculuq oyunları təşkil etmək olar. Uşaq əvvəlcə sizin tərəfinizdən qurulanları dağıtmaqla məşğul olacaq, sonra isə tədricən bir əşyanı digərinin üstünə qoymağı öyrənəcək. Uşağın ilk evini tikməsi üçün iki kubik seçin onlardan biri digərindən böyük olacaq. Onda, kiçik kubiki böyük olan "özülün" üstünə qoymaq mümkün olacaq. Uşağın kiçik kubiki əlində saxlaya bilməsi çox vacibdir.

***Çeşidləmə oyunları.*** Uşağa əşyaları iki qrupa bölməyi öyrədin. Oyunun mənasının nədən ibarət olduğunu başa düşməsi üçün müxtəlif əşya qrupu seçin. Nəzərə almaq lazımdır ki, ilk vaxtlarda bu qruplar arasındakı fərq gözəçarpan olmalıdır. Məsələn, bunlar şabalıd və paltar sıxacları ola bilər. Şabalıdları deşikdən qutuya atacaq, sıxacları isə uşağın şalvarına bərkidəcəksiniz. Bir az oynadıqdan sonra şabalıdı haraya atmalı olduğunu uşaqdan soruşun, sonra isə həmin şeyləri paltar sıxacları üçün də edin. Uşaq səhv edərsə bu tapşırığı düzgün etməkdə ona kömək edin. Bu zaman nə baş verdiyini qısaca izah edin: "Şabalıdları buraya at!" Uşaq bu tipli çeşidləmənin mənasını dərk etsə forma üzrə çeşidləməyə keçin. Məsələn, siz kubik və kürəciklərdən istifadə edə bilərsiniz. Kubikləri maşına yükləyin, kürəcikləri isə təpəcikdən aşağı diyirlədin. Hadisələri qabaqlamayın: Ölçüyə görə çeşidləmə (böyük və kiçik) və rəngə görə çeşidləmə uşaq üçün hələ çox çətindir!

***Süjetli oyuncaqlar və məişət əşyaları*** (maşın, qab-qacaq, telefon, daraq) ***ilə oyunlar.*** Yaxşı olar ki, uşaq bu oyuncaqlardan istifadə etməyi təkcə sizin bunu israrla öyrətdiyiniz üçün öyrənməsin. Daha yaxşı olar ki, o, gündəlik həyatda sizin hərəkətlərinizi müşahidə edərək sizi təqlid etsin. Uşaq sizin telefonla danışdığınızı görəndə söhbətdə iştirak etmək istəsə onunla birlikdə döşəmədə oturub telefon dəstəyindən gələn səsə qulaq asmağına icazə verin, eləcə də "danışan saatın" nömrələrini yığın. Əlbəttə, o, bunu dəfələrlə

etmək istəyəcək və son nəticədə telefonun kim iləsə danışmaq üçün olduğu və onunla necə rəftar edilməsini biləcək. Yalnız uşağın əşya ilə hərəkətin mənasını dərk etməsi, ondan istifadə etmək təcrübəsi yaranması və məişət əşyasından istifadə etməsi ilə oyuncaq dərk edilmiş hesab edilir. Belə oyunlar "Ana-qız" tipli süjetli oyun üçün əsas rolunu oynayır. Bu isə razılaşın ki, həyat təlimidir!

**İnkişafın beşinci mərhələsinin sonuna yaxın uşaq nəyi bacarır?**

Danışıq zamanı anlaşılmaz sözlərdən istifadə edir. Məsələn itə a "ham-ham" deyir.

Böyüyün istəyinə görə iki hərəkətdən birini edir və ya iki uyğun süjetli şəkildən birini tapır. (ayı yatır, ayı maşın sürür)

İstənilən bütün vasitələrlə səth üzərində sərbəst hərəkət edir.
Dayaqdan tutaraq, hərdən isə ondan əlini çəkərək yeriyir.
Böyüyün istəyinə görə onu hərəkətlərini təkrar edərək, sonra isə sərbəst şəkildə özü məişət əşyaları davranır.
Sərbəst şəkildə oturaq vəziyyətini saxlayaraq uzun müddət oynayır.
Əşyaları müəyyən yerlərə qoymağı (piramidaya – ölçüsü nəzərə alınmadan, poçt qutusuna dairəvi əşyaları) öyrənir.
İki yerdən birində oyuncağı axtarır.

## KÖRPƏLİYİN BİTMƏSİ BÖHRANI

Psixoloqların fikrincə bu böhran uşağın artan fiziki və psixi imkanları və mövcud ünsiyyət formaları arasındakı uyğunsuzluq səbəbindən yaranır.

Bu mərhələni müşayiət edən şəraiti ətraflı nəzərdən keçirək. Uşaq artıq sərbəst gəzməyi və hətta anası otaqdan çıxdıqda belə onun yanına getməyi öyrənib. O, artıq qorxunun da öhdəsindən gələ bilir. Ona görə də vaxtının bir hissəsini sərbəst şəkildə ətraf aləmdəki əşyaların öyrənilməsinə həsr etməyə üstünlük verir. Fiziki müstəqillik böyükdən emosional

cəhətdən də ayrılma ilə müşayiət olunur; yaxın adamları ilə indiyə qədər davam edən şəxsi ünsiyyət onu daha razı sala bilmir, belə qarşılıqlı əlaqə artıq kifayət etmir. Uşağın insana marağı onun əşyalar aləminə aktiv marağı ilə tamamlanır və o, böyüklərin qadağasına baxmayaraq israrla bütün şkafların, dolabların, qutuların, zibil vedrələrinin içindəkiləri araşdırır. Təhlükə hissi azalır və uşaq hətta anasına baxmadan sakitcə onu maraqlandıran əşyaya doğru yönəlir. Valideynlər belə davranışı adətən uşaqla yaxınlığın itməsi kimi qəbul edirlər: yaxın vaxtlara kimi israrla və sevinclə onunla ünsiyyət axtaran, günəbaxanın günə baxdığı kimi ona can atan uşaq birdən onun istəklərini yerinə yetirməkdən imtina edir, ərköyün və hətta aqressiv olurlar. Bir çox hallarda özünəqulluq vərdişləri sahəsində geriləmə də müşahidə olunur: uşaq durduğu yerdə çanaqda oturmaqdan imtina edir, sıyığı bulayır, mayeni içdiyi vaxt onu ağzına alıb tüpürür və ya fincandan yerə tökür. Bu zaman sindən çoxlu səbir tələb olunur. Çünki, bu cür davranışlar sizi həyəcanlandıra bilər. Əllər yana düşür və tamamilə anlamaq olmur ki, nə etmək lazımdır? Yadda saxlayın ki, bu mərhələ çox təbiidir, çünki, uşaq birinci dəfədir ki, öz sərbəstlik hüquqlarını bəyan edir! İndiyə qədər siz bütöv bir tam idiniz, indi isə uşağın öz üstünlük verdiyi şeylər olacaq. O, uzun müddət və həvəslə siz olmadan da keçinəcək. Bu da öz növbəsində yaxşı haldır. Çünki, bu, uşağınızın bir sıra vərdiş və bacarıqlara yiyələndiyini, psixoloji cəhətdən inkişaf etdiyini göstərir. İndi onun qarşısında çoxlu sayda uşaq və böyüyün olduğu böyük dünyanı daha fəal öyrənmək vəzifəsi durur.

Bu mürəkkəb dövr də qəbul etmək çox vacibdir ki, uşağınız daha bacarıqlı olmuşdur. O, həqiqətən də ətraf mühiti sərbəst araşdırmaq qabiliyyətinə malikdir. Əlbəttə, bu, nisbi sərbəstlikdir. Onun sizə marağı heç də sönməmişdir. O, sizin nə etdiyinizlə maraqlanmağa transformasiya etmişdir. Siz bunun vasitəsilə onun diqqətini cəlb edə bilərsiniz. Siz hansısa məşğələni uşağa təklif etmək istəsəniz, onun görmə sahəsində olarkən bu və ya digər hərəkəti həvəslə etməniz kifayət edir. O,

sizi bir qədər müşahidə etdikdən sonra sizin məşğul olduğunuz işə qoşulacaq. Başqa variant da mümkündür: Uşaq sizə dərhal yaxınlaşmayacaq, siz əşyanı göz qabağında tərk edib getdikdən sonra onunla məşğul olmağa başlayacaq.

Əlbəttə, bütün bu dəyişikliklər həftə və hətta ay ərzində baş vermir. Lakin, yaxşısı budur ki, uşağınızın dəyişmiş davranışına uyğunlaşmağa və onunla yeni müsbət əməkdaşlıq münasibətləri qurmağa çalışaraq onun şəxsiyyətinə diqqətlə və hörmətlə yanaşasınız. Söhbət əlbəttə, uşağın istənilən etirazına göz yumasınız, onun qışqırmamağı və ya ağlamamağı üçün hər nə oldu edəsiniz! Bu yol dalana aparıb çıxarır. Çünki, uşaqlar bizim "zəif yerlərimizi" kifayət qədər tez hiss etməyə başlayır və onlara lazım olan məqsədlər çatmaq üçün çox məharətlə istifadə edirlər. Uşaq sizin danlaqlarınıza mənfi reaksiya göstərir, siz isə onu arzu etmədiyiniz məşğələdən uzaqlaşdırmaq istəyirsinizsə, ən yaxşı yolu qadağan deyil, onun diqqətini öz hərəkətlərinizə və ya başqa hərəkətlərə cəlb etmək kimi universal üsuldan istifadə etməkdir. Başqa sözlə, diqqətin cəlb edilməsi birbaşa qadağanlardan daha yaxşı təsir göstərir.

Bir daha qeyd edək ki, söhbət iki bərabər hüquqlu tərəfin iştirak etdiyi ƏMƏKDAŞLIQDAN gedir. Tərəflərdən hər biri DİGƏRİ İLƏ QARŞILIQLI TƏSİRİ, RAZILIĞA GƏLMƏYİ VƏ BİR-BİRİNİ ANLAMAĞI öyrənməlidir.

# FƏSİL 3

# BİRDƏN ÜÇ YAŞINA QƏDƏR

## Uşaqların inkişaf xüsusiyyətləri

Birdən üç yaşa qədər olan yaş dövrünü bəzən "gəzən uşaqlıq" adlandırırlar və o, təqribən birdən üç ilə qədər davam edir. Onun xarakterik xüsusiyyətlərini qısaca sadalayaq.
Hər şeydən əvvəl bu yaş dövründə uşaqda fəal şəkildə əşyalarla

hərəkət formalaşır. ***Motivasiya*** inkişaf edir. Onu sual şəklində formulə edək: "Bununla nə edirlər?" Uşaq fəal surətdə ətraf mühiti araşdırır. (Əlavə 1-ə baxın)
Eyni zamanda uşağın böyüyə marağında şəkildəyişməsi baş verir: ətrafdakıların hərəkətini müşahidə etmək uşağa maraqlı gəlir və ***böyüklə birgə fəaliyyət*** xüsusi əhəmiyyət kəsb etməyə başlayır.
Uşaq və böyüyün ünsiyyəti əsasən konkret situasiyalarda baş verir və daha çox onların birgə fəaliyyəti ilə müşayiət olunur. Ona görə də o, "situativ-işgüzar ünsiyyət" adlandırılmışdır. Ünsiyyət situasiyaları müxtəlif ola bilər – gündəlik həyatda baş verən hadisələr, birgə oyun, kitab qiraəti. Uşaq böyüklə oyun oynayarkən və ya onun hərəkətlərini müşahidə edərkən təkcə əşyanın özünə deyil, həm də onunla edilən hərəkətlər üsullarına get-gedə maraq göstərir. O, böyüyün nəyi necə etməsini son dərəcə diqqətlə izləyir. Eyni zamanda böyüyün onun öz hərəkətlərinə nə cür reaksiya verəcəyi də həyəcanlandırır. Xatırladaq ki, bütün bu istiqamətlər beşinci mərhələdə yaranmağa başlamış və indi daha da inkişaf etmək yolunu tutmuşdur.



Uşağın öz ***yaşıdları ilə qarşılıqlı əlaqələri*** formalaşmağa başlayır. İndiyə qədər başqa uşaqlarla oynayan uşaq böyüyün təşkil etdiyi ümumi oyunlarda daha da fəal iştirak etməyə başlayır. Bu mərhələnin sonuna yaxın uşaq qəti şəkildə yaşıdları ilə birgə oyun dövrünə keçir.

# ALTINCI MƏRHƏLƏ
## Ünsiyyət və nitq

Uşağın nitqinin formalaşması digər inkişaf sferaları ilə sıx bağlıdır və əsasən onun böyüdüyü nitq mühitindən asılıdır. Bir yaşından sonra uşaqda danışığı başa düşmə ***(impressiv nitq)*** qabiliyyəti sürətlə inkişaf edir və uşağın özü tərəfindən deyilən sözlərin ***(ekspressiv nitq)*** sayı artır.

Daun sindromlu uşaqların nitq qabiliyyətinin inkişafı ətrafdakıların danışığının yaxşı başa düşülməsi və özünün nitq qabiliyyətinin geri qalması arasındakı uyğunsuzluqla xarakterizə edilir. Bu uyğunsuzluğun aradan qaldırılması üçün müvəqqəti əvəzedici vərdiş kimi ünsiyyətin qeyri-nitq vasitələrindən (əsasən jestlərdən) istifadə edilir. Bu jestlər bütün ətrafdakılar üçün sadə və anlaşıqlı olmalıdır. (Əlavə 4) Biz təcrübədə adətən ümumişlək sosial jestlərdən istifadə edirik. Məsələn, "bura gəl, ver, olmaz". Təsviri jestlər və hərəkətlər – "dovşan" ya hoppanmaqla göstərilir, ya da onun qulaqlarını təsvir edən jestlərdən istifadə edilir. Bundan əlavə, fəaliyyət inkişaf etdikcə əşyavi fəaliyyəti imitasiya edən jestlər qrupu yaranmağa başlayır. D. B. Yelkəninin fikrincə əşyavi fəaliyyətin inkişafı prosesi onun ünsiyyət zamanı istifadə edilən özünəməxsus jestlərə çevrilməsi ilə sona çatır. Bu, hər bir uşağa sadiq olan müşahidədir ki, Daun sindromlu uşaqlarla iş zamanı xüsusi məna kəsb edir. Burada jestlərdən istifadə dəqiq və ardıcıl olmalıdır. Ekspressiv nitqin geri qalmasının kompensasiyasına kifayət qədər uzun müddət tələb olunur.

Nitqin inkişafı üzrə işlərin əsas istiqamətlərini sadalayaq.

Birgə fəaliyyət prosesində ***böyüyün uşaqla dialoqu*** inkişaf edir: Böyük öz danışığını söz və jestlərlə bəzəyir, uşaq isə bildiyi siqnallardan istifadə edir. Uşaqda müəyyən məzmunlu öz jest və səs təqlidləri meydana gəldikdə böyük də ondan istifadə edir.

***Nitqi başa düşmə bacarığının*** inkişafı üzrə işlər davam edir: hər şeydən əvvəl iki-üç əşyanın seçilməsi zamanı

onların adlarının və onlarla edilə hərəkətlərin fərqləndirilməsi. Bundan ötrü əvvəlcə gerçək əşyalar, sonra isə əşyavi və sadə süjetli şəkillərdən istifadə etməklə isim və fellərin fərqi yadda saxlanılır.

***Eşitmə zamanı diqqət və qavrayışın inkişafı*** üçün ayrıca işlər aparılır: musiqi alətlərinin səslərinin, məişət fəaliyyəti zamanı yaranan küy, səs təqlidi və sözlərin fərqləndirilməsi.

Valideyn ***uşağın fəaliyyətinin təşkili*** üçün nitqdən fəal istifadə edir, ətrafda baş verənləri şərh edir, qarşıda duran fəaliyyəti planlaşdırır. Uşağın öz hərəkətlərinin, istəklərinin və baş verənlərə reaksiyasının müsbət şərh edilməsindən istifadə etmək vacibdir.

Bu barədə daha ətraflı danışaq.

Siz və körpəniz birlikdə oynamağı xoşlayır, bir-birinizin əhval-ruhiyyəsini yaxşı hiss edir və oyun zamanı ünsiyyət qurmağı bacarırsınız. İndi isə bütün bunlar nitq dialoqunun əsasını təşkil edəcək. Gözlə əlaqə, təbəssüm, diqqətini həmsöhbətə cəmləmə, ardıcıllığa riayət edilməsi – bütün bunlar itmir, əksinə ünsiyyətinizin tərkib hissəsinə çevrilir. Uşağın inkişafının bu mərhələsinin əsas vəzifəsi dialoqunuzun nitq məzmunu ilə tamamlanmasıdır. Bu, bir tərəfdən uşağın başa düşdüyü sözlərin (impressiv nitq) əhatə dairəsinin genişlənməsi, digər tərəfdən isə onun öz nitqinin (ekspressiv və ya aktiv lüğət) stimulyasiyasıdır. Bu mərhələdə uşağın bildiyi bütün işarələr – jestlər, baxışlar, hərəkət, səs təqlidi və sözlər təşviq edilir. Məsələn, siz uşaqdan onun nə oynamaq istədiyini soruşduqda o, gedib top gətirir və ya sadəcə telefona baxır. Vacib odur ki, uşağın hər iki halda sizə cavab verdiyini, bununla isə dialoqun baş tutduğunu biləsiniz.

### Nitqi başa düşmə qabiliyyətinin inkişafı

Sözlərlə tanışlıq aşağıdakı ardıcıllıqla baş verir.

İsim.

1. Əşya elə təqdim edilir ki, uşaq onu yaxşı görə bilir və

adını aydın eşidir.

2. Əşyanın istifadə edildiyi oyunlar təşkil edilir və onları adlarını dəfələrlə təkrar edilir. Məsələn, “Bu topdur. Top hoppanır! Top diyirlənir. Top yoxdur. Top bəs hardadır? Top burdadır!” Nəzərə alın ki, ucadan deyilən mətn uşağın gözünün qarşısında baş verənlərə edilən şərhidir. Burada əsas söz olan “top” dəfələrlə təkrar edilir.

3. Uşaq iki əşyadan birini seçərkən sizin adını çəkdiyiniz əşyanı tapır. Məsələn, uşağa ayı və maşın göstərin. Sizin istəyiniz bu zaman belə səslənir: “Ayı hardadır?” uşaq səhvən əlini maşına uzadarsa, onun səhv etməsinin qarşısını alın. Ayını azacıq irəliyə itələyərək sualı yenidən təkrar edin. Uşağın hərəkəti düzgün yerinə yetirməsinə şadlanmağı və onun səylərini dəstəkləməyi unutmayın.

4. Uşaq çoxsaylı əşya içərisindən böyüyün istədiyi əşyanı tapır.

5. Anlayışın formalaşdırılması üçün uşağa analoji, lakin rənginə, ölçüsünə, teksturasına və təsvirinə görə fərqlənən əşyaların göstərilir.

6. Əşyanın adı oyuna, nəğməyə daxil edilir. Yeni sözlərin uşağın aktiv lüğətinə əlavə edilməsi üzərində iş aparılmasına başlanılır.

Fel.

1-ci variant. Süjetli oyun.

Böyük və uşaq kukla ilə oynayırlar: onu yedizdirir və saçını darayırlar. Bu zaman “yedizdir” və “saçını dara” sözlərindən dəfələrlə istifadə edilir. Sonra böyük qaşıq və darağı uşağa uzadıb deyir: “Kuklanı yedizdir.” Uşaq səhv edərək əlini darağa uzadarsa, böyük sakitcə onu kənara itələyib qaşığı qabağa uzadır və xahişi təkrar edir. Bundan əlavə müvafiq jestlərdən də istifadə etmək olar.

2-ci variant. Oyun və məşğələnin birləşdirilməsi.

Bu halda uşaq gerçək hərəkətlər və bu hərəkətləri təsvir edən şəkillərlə tanış olur. Fərz edək ki, biz uşağı “yatır” feli ilə

tanış edirik.

1. Bu hərəkətin dəfələrlə oynanıldığı və izah edildiyi oyunlar təşkil edilir: ayı yatır, pişik yatır, it yatır.

2. Uşağa lakonik və dəqiq təsvir edilmiş iki süjetli şəkil təqdim. Məsələn, ona iki şəkil təklif edə bilərik. Onlardan birində itin yemək yeməyi, digərində isə yatması təsvir edilmişdir. “İt harada yatır?” sualını verin və uşağın reaksiyasına diqqətlə izləyin. O, barmağını lazım olmayan şəklə vura yaxud da ona sadəcə baxa bilər. Uşaq səhv göstərərsə, çox uzun danışmayın və şəkli azacıq qabağa gətirərək sualınızı təkrar edin. Yadda saxlayın ki, bu, nəzarət deyil, sadəcə təlimdir.

3. Fellərin mənimsənilməsindən asılı olaraq çoxsaylı variantlar arasından seçim etmək təklif edilir.

4. Mənimsənilmiş sözlər valideynlər tərəfindən oyun və gündəlik həyatda ünsiyyət zamanı istifadə olunur.

Digər nitq hissələri ilə tanışlıq analoji metodla baş verir. Yadda saxlamaq vacibdir ki, isim və fellərlə tanışlıq eyni zamanda baş verməlidir. Çünki, felin olmamağı uşağın nitqinin inkişafını kəskin şəkildə məhdudlaşdırır, bitkin fikri ifadə edən danışıq qabiliyyətinin formalaşmasını dayandırır.

Öyrənilməsi tövsiyə olunan lüğət, eləcə də söz seçimi metodu əlavə 3-də verilir.

Cümlə.

Sadə cümlənin növləri

1. Təlimat: Ayını mənə ver.

2. Təsvir bildirən cümlələr: Böyük ayını mənə ver.

3. Sual: Ayını istəyirsənmi?

4. Mənfi və ya müsbət cavab verilməsi güman edilən cümlə: Bu ayıdır? (ayını, sonra isə dovşanı göstərin)

Bir neçə nümunəyə baxaq.

Məişətdə və oyunda istifadə edilən danışıq təlimatları

• İsimlərin fərqləndirilməsi

Ləvazimat: ayı və dovşancıq

Danışıq tapşırıqları: “Dovşancığı ver!”, “Ayını ver!”
• Fellərin fərqləndirilməsi
Ləvazimat: ayı, daraq, qaşıq.
Danışıq tapşırıqları: “Ayını dara!”, “Ayını yedizdir!”

Bu hallarda hər bir istəkdə yalnız bir əsas söz olur. Yəni, uşaq “ayı” və “dovşan” sözlərini, ikinci halda isə “dara” və “yedizdir” sözlərini fərqləndirməlidir.

Oyunun çətinləşdirilməsi
Nəzərə almalısınız ki, növbəti mərhələdə belə tapşırıqların çətinləşdirilmiş variantlarından istifadə edilir. Burada çətinləşdirmə nümunəsi veririk ki, nitqi başa düşmə bacarığının inkişafındakı ardıcıllığı sizə aydın olsun. Cümlədəki hər iki sözün əsas olduğu tapşırığı nümunə gətiririk.
Ləvazimat: dovşan, ayı, daraq, qaşıq.
Danışıq tapşırıqları: “Dovşanı dara!”, “Ayını dara!”, “Dovşanı yedizdir!”, “Ayını yedizdir!” Hər iki halda cümlələrin hər iki sözü əsasdır. Bu da uşağın vəzifəsini çətinləşdirir.
Tapşırığı yalnız uşaq əvvəlki çətinlik səviyyəsindəki tapşırıqların öhdəsindən asanlıqla gələrsə çətinləşdirmək olar.
Yeni səviyyənin tapşırıqları xüsusi məşğələlərdə təklif olunur.
Əvvəlki səviyyədə mənimsənilmiş material isə gündəlik həyatda hökmən istifadə olunur.
İndi və gələcəkdə baş verəcək hadisələri lakonik və emosional şərh edin. “Bax, indi biz arabacığa oturub gəzməyə gedəcəyik!” və ya “Çörək götürək və ördəkləri yemləyək!”
Böyüyün verə biləcəyi sual nümunələri
..........istəyirsən?
Sən nə istəyirsən? (iki oyuncaqdan birini seçmək – məsələn, ayı və ya maşın)
...... hardadır?
.......hansıdır? (məsələn, böyük və ya balaca ayı)
Unutmayın ki, istənilən cavab üsulları qəbul edilir: baxış, hərəkət, jest, səs təqlidi və s. Sizin hansısa məqamda

uşağın baxmaq və ya jestlə cavab vermək səylərinə diqqət yetirmədiyiniz halda bu, vacibdir. O, marağını itirə bilər. Bu isə səylərin sonu olardı.
Rəsm və ya fotoşəkillərlə də analoji işlər aparılır. Bu zaman uşaq hərəkətin yerinə yetirilməsi əvəzinə təklif edilən iki təsvirdən birini seçir.

• İsimlərin fərqləndirilməsi

Ləvazimat: rəsmlər “Oğlan yemək yeyir”, “Qız yemək yeyir.”

Danışıq tapşırıqları: “Göstər görüm oğlan harada yemək yeyir”

• Fellərin fərqləndirilməsi

Ləvazimat: rəsmlər “Oğlan yemək yeyir”, “Oğlan saçını darayır”

Danışıq tapşırıqları: “Göstər görüm oğlan harada yemək yeyir”

Növbəti inkişaf mərhələsində bu tipli tapşırıqlar daha da çətin olacaq. Uşaq üç şəkillə işləməli olacaq. Bu zaman cümlələrdəki sözlərin hamısı əsas olacaq.

Ləvazimat: rəsmlər “Oğlan yemək yeyir”, “Qız yemək yeyir”, “Oğlan saçını darayır”

Danışıq tapşırığı elə qurulur ki, uşaq təklif edilən üç rəsmdən lazım olan birini seçir.

Tapşırıqların çətinləşdirilməsinin başqa bir növü cümlələrin təyinlər daxil edilməsi yolu ilə genişləndirilməsidir. Məsələn, “Böyük dovşan kök yeyir.” və ya “kiçik dovşan kök yeyir.”

Buradakı hər bir cümlədə yalnız bir əsas söz vardır. Çünki, uşaq əvvəlcə əşyaların keyfiyyətinin və ya xüsusiyyətinin şifahi göstərilməsinə diqqət yetirməlidir.

***Uşağın aktiv nitqinin inkişafı***

Biz artıq uşağın öz nitqinin inkişafı üçün şəraitin yaradılması barədə danışmışıq: düzgün yemək vərdişlərinin

formalaşması, nitq üzvlərinin masajı, kəkələmənin stimulyasiyası və sadə sözlərin tələffüz edilməsi barədə. Bundan əlavə, yaddan çıxarmayın ki, siz jestlərdən istifadə etsəniz onları hökmən şifahi nitqlə birləşdirməlisiniz. Hər hansı bir ifadəni jestlərlə göstərərkən birincisi, müvafiq tam ümumişlək sözü, ikincisi isə ayrı-ayrı səsləri, hecaları ucadan deməlisiniz. Məsələn, "Qatar gedir. Çax-çax-çax! O, fit çalır: U-u-u". Bu, uşağın böyüyü təkrar etməklə öz imkanlarından asılı olaraq şifahi nitqdən istifadə etməsinə icazə verəcək.

Bəlkə də uşağınız öz dilində, heç kəsin başa düşmədiyi dildə danışır. Bundan əlavə, onun "nitqi" uzun olur. Uşaq onları müxtəlif intonasiyalarda tələffüz edir. Lakin, onun nə barədə danışdığını başa düşmək mümkün deyil. Belə "monoloqlar" "uşaq jarqonu" adını almışdır. Bu, uşağın dil hissinin formalaşmağa başlanmasının əlamətidir. Uşaq jarqonu səs təqlidi və sadə sözlər kimi nitqin qanunauyğun inkişaf mərhələsidir. Uşaq öz dilində mümkün qədər söz deməyi öyrənməli və yalnız bundan sonra ümumişlək sözlərin mənimsənilməsinə keçməlidir.

Aktiv nitqin inkişaf ardıcıllığı

Uşaq əvvəlcə qeyri-nitq ünsiyyət vasitələrindən – baxış, hərəkət, sonralar isə jestlərdən istifadə edir. Bütün bu işarələr tez-tez səslərlə müşayiət olunur. Lakin, həmin səslər hələ ki, hər hansı konkret əşya və ya hərəkətə aid olmur. Böyük uşağın hər bir işarəsini həvəsləndirməlidir.

Sonra uşaq səslərlə müşayiət olunan jestlərdən istifadə etməyə başlayır. Onların hər biri bu konkret sözə aid olur. Məsələn, uşaq telefonu görəndə "a" səsini çıxarmaqla müəyyən jest edir. O, elə bu səslə də ayının yatdığını "a-a-a" bildirə bilər. Uşaq hər hansı əşya və ya hərəkətə münasibətdə daimi əlamətlərdən istifadə etdikdə onlar söz rolunu oynamağa başlayır. Böyük bu halda uşağın belə nitq əlamətlərini həvəsləndirməlidir.

Uşaqda davamlı səs təqlidi və sadə sözlər demək

bacarığı yarandıqda böyük onun yalnız nitq işarələrini həvəsləndirir. Lakin, bu zaman jest formasında cavab verməyini də qadağan etmir. Uşağın istifadə etdiyi sözlərin sayının artmağından asılı olaraq jest öz əhəmiyyətini itirir. Uşağın nitqi isə get-gedə ətrafdakılar üçün anlaşıqlı olur. Uşağın şifahi nitqinin təliminin daha ətraflı metodu növbəti mərhələnin təsviri zamanı təqdim ediləcək.

Ünsiyyət təşəbbüslərinin inkişafı

Əlbəttə, ilk vaxtlarda dialoqda aparıcı rol sizə məxsus olacaq. Lakin, sizin balaca həmsöhbətinizin də ünsiyyət təşəbbüsləri göstərməyə başlaması vacibdir. Uşağın təşəbbüslərini stimulyasiya etməyinizə yardım edəcək bəzi tövsiyələri təqdim edirik. Bu zaman onun özü dialoqun aktiv iştirakçısına çevriləcək.

1. Uşaqla müzakirə edilən məsələlər onun maraq dairəsi çərçivəsində olmalıdır. Ən yaxşısı odur ki, onunla konkret əşyalar və hadisələr barəsində söhbət edin.

2. Böyüyün danışığı aramla, dəqiq və başa düşülən olmalıdır. Uzun-uzadı danışmaqdan uzaq olun! Nitqinizi əsas sözləri izah edən sadə jestlərlə başa düşülən edin. Məsələn, “İstəyirsənmi, kitab oxuyaq?” cümləsini deyərkən yalnız “kitab” jestindən istifadə edin.

3. Uşağa sual verərək onu dialoqa girməyə sövq edin. Hər zaman onun bildiyi nitq və ifadə vasitələrindən istifadə edərək onun sizin suallarınıza cavab vermə imkanlarını təmin edərək bir qədər sorğu-suala tutun. Əgər uşaq hələ göstərici jestlərdən istifadə etməyi öyrənməyibsə, ona “Sən nə istəyirsən? sualına cavab olaraq hərəkətlərdən istifadə etmək imkanı verin. Bu halda, siz də cavab alacaqsınız. Belə ki, uşaq onu maraqlandıran əşyanı götürdükdə dialoq artıq baş tutmuş olacaq. Yaxşı olar ki, uşaq onu maraqlandıran əşyanı götürdükdən sonra onun adını ucadan deyəsiniz: “Sən topu götürdün! Gəl, top-top oynayaq!”

4. Uşağın sizin sualınıza necə cavab verməli olduğunu göstərin. Tutaq ki, siz uşağın musiqi mərkəzini yandırmağı

xoşladığını bilirsiniz. Onu özünüz yandırmağa tələsməyin. Uşağın davranışları onun bunu etməyi çox istədiyindən danışır. Əvvəlcə onun bunu etmək istəyib-istəmədiyini soruşun, sonra isə onun başını yelləməsinə yardım edib onun əvəzinə şərh edin: “Hə, hə, istəyirəm!” Daha sonra isə hökmən düyməni basmağına icazə verin. Uşaq get-gedə onun müsbət cavab verməsi onun istədiyi məqsədə çatmasına icazə verdiyini başa düşəcək.

## Uşağın hərəkət qabiliyyətinin inkişafı

Bu yaş dövründə əvəzləyici hərəkət vərdişləri get-gedə daha az istifadə edilir. Uşaq artıq sərbəst şəkildə oturur, bədəninin vəziyyətini dəyişir və sərbəst hərəkət etməyi bacarır. Lakin, ola bilsin ki, hələ də dayaqdan tutmadan gəzməyi öyrənməsin, bədəninin ağırlığını bir tərəfə salmadan sürünsün, yəni, simmetrik hərəkət sxemlərindən istifadə etsin. Ona görə də bu bölmə üzrə işlərin əsas məzmunu hərəkətin keyfiyyətinin yaxşılaşdırılmasından ibarətdir.

## Mürəkkəb hərəkətlərin inkişafı

Oturaq vəziyyətdə oyunlar

Uşaq yatanda onun kürəyi düz olmalıdır. Buna nail olmaq üçün oyuncaqları onun sinə səviyyəsindən aşağı qoyun. Oyuncağı yan tərəfdən təklif edin ki, uşaq əlini oyuncağa sağ və ya sol tərəfdən uzadarkən müvazinətini saxlamağı öyrənsin.

Ayaq üstə durmuş vəziyyətdə oyunlar

Uşağa dayaqdan tutmadan ayaq üstə durma vəziyyətini saxlamağı öyrədin. Siz onun müvazinətini saxlamağına yardım edən böyük yumşaq oyuncaq verə bilərsiniz.

Şişirdilmiş şarla oynayın. Uşaq otağın ortasında duraraq onu əlləri ilə vurub qaldıracaq. O, ilk vaxtlarda şarı əlləri ilə vurub uçurduqdan sonra arxası üstə yerə otursa eybi yoxdur. Oyun ki, maraqlı və şəndir. Sizin dəstəyiniz və tərifləriniz sayəsində o,

hökmən tədricən ayaq üstə sərbəst durmağı öyrənəcək.
Uşaq tez-tez güzgü qarşısında “bəzənməyi” xoşlayırlar. Çalışın, məsələn, uşağa şlyapa geyindirəsiniz. Bununla o, şlyapa toxunmaq və ya onu başından çıxarmaq istəyəcək və bu zaman qeyri-ixtiyari olaraq dayaqdan tutmadan duracaq.
Şən rəqs havası və sizin rəqs etmək təklifiniz də uşağın lazımi vəziyyəti saxlamağa sövq etməyə yardım edə bilər.

İməkləməyi stimulyasiya edin. Hətta, uşaq artıq yeriməyə başlayıbsa belə onu iməkləməyə həvəsləndirin Bu hərəkət üsulu hərəkətlərin mürəkkəb koordinasiyasını inkişaf etdirir və nəinki, uşağın hərəkət bacarıqlarının, həmçinin ümumi inkişafına təkan verir. Bu vərdişin formalaşması üçün uşağa ayaqlarınız üstün iməkləyib keçməyi, kreslo və ya divana dırmaşmağı, pilləkənlərlə qalxmağı təklif edə bilərsiniz.

Yeriməyə başlayırıq
Uşaq artıq bir dayaqdan digərinə bir neçə addım atmağı bacarırsa, tədricən onun keçməli olduğu məsafəni get-gedə artırın.
Uşağı arxası dayağa söykənmiş vəziyyətdə qoyub onun qarşısında çöməlmiş vəziyyətdə oturun və  onu çağırın. O, sizə tərəf gələndə onu qucaqlayıb şənlənin.
Sizə ayını, iti və ya digər böyük həcmli yumşaq oyuncağı gətirməsini xahiş edin. Onun getdiyi məsafəni tədricən artırın.
Uşağa yerimə zamanı istiqaməti dəyişməyi öyrədin. Bunun üçün onu yan tərəfdən və ya arxadan çağırın və sizə tərəf gəlməyə sövq edin.
Uşaq döşəmənin hamar səthi ilə inamla yeriməyə başladıqda onu bütün otaqda gəzməyə həvəsləndirin. Ona iplə maşını çəkməyi, qucağında yumşaq bir oyuncağı gəzdirməyi, vərdənəni və ya uşaq arabacığını irəli itələməyi təklif edin. (lakin, belə oyuncaqların dəstəyinin lazımi hündürlükdə olmasına diqqət yetirin. Əks halda uşaq “Г” şəklində əyilmiş vəziyyətdə yeriyəcək.)

Yerişin keyfiyyətinin yaxşılaşdırılması üçün landşaft təlimindən (nahamar səthdə, otluqda, qumda, qarda yerimək; maneələrin aşılması və s.) istifadə edilməsini təklif edirik.

Bədənin vəziyyətinin dəyişdirilməsi

Uşaq artıq ayaq üstə durmağı və dayaqdan tutmadan yeriməyi bacarırsa, onu başa salmaq lazımdır ki, o, dayaqdan istifadə etmədən oturaq və ya dizləri üstə duruş vəziyyətindən ayağa qalxa bilər.

Uşağınız ayağa qalmağa cəhd edərkən çanağını qaldıraraq pəncə və əlləri üstə durmaqla maraqlı vəziyyətdə "ləngiyə bilər". Bəzi uşaqlar hətta bu "ayı" vəziyyətində irəliyə cəld hərəkətlər  etməyə də cəhd göstərirlər. Burada heç bir səhv və ya zərərli bir şey yoxdur. Lakin, axı uşaq hökmən yeriməyi öyrənməlidir! Siz uşağın sinəsindən və ya paltarından tutmaqla onun bu vəziyyətdən ayağa qalxmasına yardım edirsiniz. Onun sinəsinə uyğun lent və ya yumşaq şərf dolayıb onun uclarını yüngülcə yuxarıya çəkə bilərsiniz. Bir qayda olaraq, belə kiçik yardım uşağın bədənini düzəltməsi üçün kifayət edir.

Uşağın bədənin ağırlığını düzgün istiqamətləndirməklə bizim sizinlə etdiyimiz kimi dayaqdan tutmadan bir dizi ilə ayağa qalxmağı öyrənməyi üçün növbəti üsuldan istifadə etmək olar: diz üstə üz-üzə durub oyuncağı uşağa uzadaraq ona ayağa qalxmağı təklif edin. İlk vaxtlarda, qoy, təklif edilən əşyanın üstündə tər töksün. Bu zaman onu dayaqdan tutmaqla qalxmağı öyrəndiyi vaxtlarda etdiyiniz kimi bir tərəfə yırğalasanız, o, dizi ilə ayağa qalxacaq.

Hərəkətli oyunlar

Uşağınız artıq bədənin bir vəziyyətindən başqasına keçməyi bacarır, lakin, heç də həmişə bunu etmək istəmir və ucadan sizdən onu oturtmağı və ya qaldırmağı və haraya qoymağı tələb edir. Uşağın müxtəlif vəziyyətlərdən oturması, ayağa qalxması və ya onu maraqlandıran obyektə doğru getməyi, divana dırmaşması və oradan yerə enməsi üçün onunla şən oyunlar

təşkil edin, sevimli oyuncaqları və maraqlı əşyalarla onun diqqətini cəlb edin. Uşaq öz hərəkət vərdişlərini nə qədər tez təkmilləşdirsə, bir o qədər inamlı və sərbəst olacaq! Gizlənqaç oyunu məqsədə çatmaq üçün bir neçə hərəkətdən ibarət ardıcıllığın təşkil edilməsinə yardım edir. Məsələn, siz onun sevimli qurulan oyuncağını divan yastığının arxasında gizlətsəniz və uşağı otağın ortasına qoysanız, o, bədəninin vəziyyətini dəyişməli və sevimli oyuncağını götürmək üçün ən müxtəlif vasitələrlə hərəkət etməli olacaq. Əlbəttə, siz uşağa lazımi yardımları etməli (lakin, yalnız lazımi yardımları), onu təkcə oyuncağın yanına gəlib çatdığı üçün deyil, həmçinin ona tərəf getməyə cəhd etdiyi üçün tərifləməlisiniz! Məqsədə çatdıqda uşağınızla birlikdə onun çətinliklə çatdığı bu oyuncaqla oynayın. Bu zaman sizin uşağınız get-gedə daha aktiv hərəkət edəcək və məkanı araşdırıb öyrənəcək.

**Kiçik hərəkətlərin və görmə-hərəkət əlaqələndirməsinin inkişafı**

Uşağın əşyavi fəaliyyətini təşkil edərkən kiçik motorikanın inkişafının aşağıdakı cəhətlərinə diqqət yetirmək lazımdır:

- çimdik üsulu ilə ələ götürmənin formalaşdırılması;
- maqqaş üsulu ilə ələ götürmənin formalaşdırılması;
- biləyin sabitliyinin inkişaf etdirilməsi.

Ləvazimatların düzgün seçilməsi uşağın bütün ələ götürmə üsullarından istifadə etməyi öyrənməyinə yardım edir.

Kiçik motorikanın inkişafı (əl barmaqlarının incə hərəkəti) oyun və məişət şəraitində baş verir.

Ələ götürmənin formalaşması. Uşağa forma və ölçüsünə görə müxtəlif əşyalardan istifadə etməyə imkan versəniz, onda tədricən bu əşyaları əldə düzgün tutma və oynama bacarığı inkişaf edəcək. Böyük əşyaları ələ götürərkən, uşaq bütün əlindən istifadə edir. Bu zaman baş barmağın digər barmaqlara qarşı durmağı vacibdir. Uşaq daha kiçik əşyaları baş, orta və

işarət barmaqları ilə tutur. Bu cür ələ götürmə çimdik üsulu adlanır. Uşaq üçün ən incə və mürəkkəb ələ götürmə üsulu “maqqaş” üsuludur. Bu zaman əşya baş və işarət barmaqları arasında sıxılır.

Maqqaş və çimdik üsulu ilə ələ götürmə bacarıqlarının inkişafı üçün uşağın ələ xırda əşyaların alınması imkanı olmalıdır. Bu, peçenye parçası və xırda krekerlər ola bilər. Barmaqlarla diştəmizləyən çöpü tutub ona qida parçalarını batırmağı təklif edin. Əlbəttə, diştəmizləyən çöpü uşağın yanına qoymayın. Bununla belə, uşağa barmaqların incə hərəkətlərini öyrətmək imkanı vermək vacibdir! Ucu karton qutusundan çıxan parlaq lenti dartmaq uşağın çox xoşuna gəlir. Bu zaman uşaq ən mürəkkəb ələ götürmə üsulundan – maqqaş üsulundan istifadə edir.

Biləyin sabitliyi

Biləyini çevirmək balaca uşağa çətindir. O, daha çox bütün əlini hərəkət etdirir və ya biləyini bütün bazu önünü stola qoymaqla sabitləşdirir. Lakin, hərəkətlərin dəqiq yerinə yetirilməsi üçün o, tədricən biləyini asılı saxlamaqla çevirməyi öyrənməlidir. Bu zaman ona kömək etmək üçün aşağıdakı üsullardan istifadə edin:

• Laduşki oynayın.

• Uşaqdan ovuclarını yuxarı açaraq topu tutmasını istəyin. O, bunu hələ özü edə bilmir. Ona dəfələrlə kömək edin.

• Dəstəyi çevirməklə qapını açmağı ona təklif edin.

• Uşağı kiçik bankanın qapağını burub açmağa və onun içindən oyuncağı və konfeti götürməyə sövq edin.

• Barmaqlarınızı ovcunuza toxunduraraq “sıyığı qarışdırmağı” təklif edin.

Rəsm, fiqur yapma və konstruksiya qurma da əl barmaqlarının hərəkətinin əlaqələndirilməsini inkişaf etdirir və biləyi lazımi vəziyyətdə sabitləşdirmə qabiliyyətinin əldə edilməsinə yardım edir.

## Uşağın məişət şəraitində inkişafı

Bu yaş dövründə uşaq aşağıdakı hərəkətləri sərbəst yerinə yetirməyi öyrənir.

Yaş yarıma yaxın fincan və qaşıqdan sərbəst istifadə edilməsi, əllərin su şırnağının altına tutulması, bir neçə dəqiqə çanaqda oturma, papağını, corablarını və ayağında boş duran ayaqqabının çıxarılması.

İki yaşına yaxın – əllərin paltarın qoluna salınması, ayaqların şalvara salınması, düymənin / zəncirbəndin bağlanması və açılması, çanaqda oturmağı istəmək.

Üç yaşına yaxın o, demək olar ki, bütün sadə özünəqulluq vərdişlərinə yiyələnir. Sadəcə təsadüfi hallarda böyüyün köməyinə ehtiyac duyur.

Daun sindromlu uşaqlara özünəqulluq vərdişlərinin aşılanması üzrə təlimlər zamanı xüsusi diqqət tələb edən bir sıra çətinliklər mövcuddur. Məsələn, stabil vəziyyətin yoxluğu, bədənin ağırlığının bu və ya digər tərəfə salınması. Bu çətinliklər uşağın asan vərdişləri yerinə yetirməsinə mane ola bilər. Məhz buna görə də belə uşaqla özünəqulluq vərdişləri öyrədərkən əlavə yardıma ehtiyac duyulur. Ayrı-ayrı hallarda isə ləvazimatlardan düşünülmüş şəkildə istifadə edilir.

Kiçik hərəkətlərin keyfiyyətində özünü göstərən çatışmayan çeviklik ələ götürmənin inkişafı və biləyin sabitləşdirilməsi üzrə xüsusi tapşırıqlar tələb edir. Ələ keçirmənin sadə növlərindən müvəqqəti olaraq istifadə etmək olar.

Çox vaxt mürəkkəb özünəqulluq vərdişlərinin formalaşmasına xüsusi yanaşma tələb olunur. Bu halda da vərdişlərin ayrı-ayrı hərəkətlər (əməliyyatlar) ardıcıllığına bölünməsi fəndindən istifadə edilir.

Uşaqda məişət vərdişlərinin aşılanması.

Biz artıq qeyd etmişik ki, uşağın mənimsəməli olduğu hər bir vərdiş ayrı-ayrı hərəkətlər və ya əməliyyatlar zəncirini təcəssüm etdirir. Çox vaxt onların sadəcə dəfələrlə

təkrar edilməsi onların mənimsənilməsi üçün kifayət etmir. Bu prinsipə əsaslanmaq daha yaxşıdır: Siz hər bir vərdişi bir neçə ardıcıl sadə hərəkətlərə bölüb uşağa onları tədricən mərhələli şəkildə yerinə yetirməyi öyrədirsiniz. Təlimin hansı "tərəfindən" başlanmasından asılı olaraq, mütəxəssislər birbaşa, əks və növbəli zənciri (ardıcıllığı) fərqləndirirlər.

Birbaşa zəncir (birbaşa ardıcıllıq). Bu halda, ilk hərəkəti uşağın özü, sonrakıları isə böyük edir. Uşağın etdiyi hərəkətlərin sayı bütün zəncir formalaşana qədər artırılır.

Məsələn:

1-ci mərhələ. Uşaq gödəkcənin bəndini aşağı çəkməklə yapışqan ilgəyin və ya zəncirbəndin açılması.

Ana onun gödəkcəsini çıxarır və onu asılqandan asır.

Növbəti mərhələdə uşaq yapışqan ilgəyi qoparmağı və öz gödəkcəsini açmağı öyrənir. Sonra isə sərbəst şəkildə bir qolunu paltardan çıxarmağı, daha sonra isə hər iki qolunu çıxarmağı öyrənir. Bu proseduru öyrənərək gödəkcəni asılqandan asana qədər davam edir.

Əks zəncir (əks ardıcıllıq). Böyük zəncirə daxil olan bütün hərəkətləri yerinə yetirir, uşaq isə yalnız sonuncu addımı edir. Uşağın etdiyi bütün hərəkətlərin sayı get-gedə artırılır. Qeyd etmək lazımdır ki, bu ardıcıllıq çox yaxşı nəticələr verir. Ona görə ki, uşaq zənciri tamamlayaraq nəticəyə özü çatır.

Məsələn, ana uşağına çəkməsini çıxarmağı öyrədir.

1-ci mərhələ. Uşaq ipləri açır və çəkməni dabandan dartır.

Uşaq çəkməni ayaqdan sərbəst çıxarır.

Bundan sonra necə edilməsini təsəvvür etmək çətin deyil. Ana get-gedə ayağın çəkmədə qalan hissəsini artırır, uşaq isə tədricən çəkməni sərbəst şəkildə ayağından çıxarmağı öyrənir.

Növbəli zəncir (növbəli ardıcıllıq). Böyük və uşaq hərəkətləri növbə ilə yerinə yetirirlər. Uşağın hərəkətləri

böyükdən sonra yerinə yetirməyi vacibdir. Bu ardıcıllıq təxminən belə ola bilər.

Uşaq qaşığı əlinə götürür.

Ana sıyıq dolu boşqabı ona tərəf yönəldir.

Uşaq qaşığı sıyıq dolu boşqaba batırır.

Ana qaşıqla sıyığı götürməkdə ona kömək edir.

Uşaq sərbəst şəkildə qaşığı qaldırıb ağzına aparmağa başlayır.

Ana qaşığı tutmaqda ona kömək edərək onun ağzına yönəldir.

Uşaq sıyıqla dolu qaşığı ağzına özü aparır.

Uşaq zəncirə daxil olan bütün hərəkətlər mənimsəyənə qədər sərbəst şəkildə yerinə yetirilən addımların sayı artırılır.

Uşağa əşyalarla hərəkətlər etməyi öyrədərkən, öz yardımınızı hissələr bölün. Uşaq əşyadan düzgün istifadə etməyi bacarmırsa, siz birlikdə hərəkət edə bilərsiniz. Yəni "onun əllərini" idarə edin. Nəticədə belə hərəkətlər bölünmüş hərəkətlərə çevriləcəklər. Bu zaman bütün hərəkətləri uşaq sizi nümunə götürərək edir. Sonra isə onları sərbəst şəkildə yerinə yetirməyi öyrənəcək.

## Uşağın oyun zamanı inkişafı
## Əşyavi fəaliyyət və oyun

Bu yaş dövründə uşaq əşyalardan istifadənin müxtəlif üsullarını bilir. ətrafdakı insanların hərəkətlərinin müşahidə edilməsi, böyüklə birgə iş, daha sonra isə digər uşaqların etdiklərinin təkrar edilməsi uşağın məişət əşyalarından düzgün istifadə etməyinə yardım edir. Əşyalarla məişət şəraitini əks etdirən hərəkətlər gələcək süjetli-rol oyunlarının əsasına çevrilir. Daun sindromlu uşaqların güclü cəhəti hərəkətlərin imitasiyasını yaxşı bacarmalarıdır.

***Əşyavi qavrayışın inkişafı (iki yaşdan sonra)***

Bu mərhələdə uşağın qavrayışı onun əşyavi fəaliyyəti

ilə sıx bağlıdır. Əşyavi fəaliyyət prosesində isə o, əşyaların formasını, ölçüsünü, rəngini və digər əlamətlərini dəqiqləşdirir. Erkən yaşda uşağın əşyavi qavrayışının inkişafına nəzər salaq.

1. Uşaq tapşırıqları yerinə yetirərkən ***sınaqlardan istifadə*** edir. Məsələn, fiquru dəliyə düzgün salmaq üçün uyğun dəliyi axtarır və fiquru sıra ilə dəliklərə salıb yoxlayır.

2. Uşaq **gözlə uyğunlaşdırma** üsuluna keçir. Yəni, hərəkətləri əvvəlcədən yoxlamadan yerinə yetirir. Bu halda o, kürəciyi götürüb özünün əvvəl yaranmış təcrübəsinə əsaslanaraq dairəvi deşiyə salır.

3. Daha sonra uşaq ***baxışlarını təklif edilmiş nümunəyə yönəldərək iki əşya içərisindən lazım olanını seçməlidir.*** Əşyanın formasına oriyentasiya edilməsi uşağa daha asan gəlir. Sonra isə əşyanın ölçüsü və rəngi gəlir. Məsələn, onun qarşısında kubik və prizma varsa, o, nümunəyə, tutaq ki, kubikə oriyentasiya edərək lazım olanı seçə bilər.

4. Bununla demək olar ki, eyni zamanda uşaq ***forma, ölçü və rənginə oriyentasiya etməklə əşyadan öz fəaliyyətində düzgün istifadə etməyə*** başlayır. (matryoşka, piramida, iç-içə stəkanlar) o, ***əşyaların əlamətlərini sözlə uyğunlaşdırır:*** Sizin xahişinizlə qırmızı topu verə və özü əşyanın ölçü və rəngini deyə bilər.

Didaktik inkişaf etdirici oyuncaqlar və məişət əşyalarından istifadə onların xüsusiyyətlərinin fərqləndirilməsinə və dərk edilməsinə imkan verir. Uşağın özünün müxtəlif formalı, ölçülü, rəngli, müxtəlif materialdan hazırlanmış və keyfiyyətli səthə malik əşyalarla saysız hərəkətlər təcrübəsi onun üçün çox vacibdir. Bununla yanaşı aşağı templi qavrayış çox vaxt ona gətirib çıxarır ki, böyüyün uşağa imkan yaratmağa səbri çatmır, sınaq və səhvlər mərhələsindən zərərsiz keçməyə kifayət qədər çox vaxt sərf olunur. Çox vaxt əşyaların gözlə uyğunlaşdırılması vərdişinin mənimsənilməsi bir neçə dəfə təkrardan sonra baş tutur. Bununla belə yadda saxlamaq lazımdır ki, yalnız sərbəst fəaliyyət ***əyani-hərəkət təfəkkürünün, eləcə də bütövlükdə uşağın bütün idrak***

***fəaliyyətinin inkişafı*** üçün real əsasa çevrilir.
Məqsədyönlü hərəkətin əsası olan hərəkətin planlaşdırılması əvvəlki kimi idrak fəaliyyətinin əsas istiqaməti olaraq qalır. Xüsusi qeyd etmək lazımdır ki, nitqi başa düşmə qabiliyyəti də uşağın idrak fəaliyyətinin ən vacib amillərindən biridir.

***Oyunun təşkili***

Hər şeydən əvvəl yaddan çıxarmayaq ki, uşağın və böyüyün məqsədi nadir hallarda üst-üstə düşür. Uşağın inkişaf etdirilməsi və təlimi ilə məşğul olarkən elə tapşırıq və oyunlar seçmək və ya fikirləşmək lazımdır ki, öz məqsədinə çatmağa cəhd edərkən o, məhz lazım olan hərəkətləri yerinə yetirsin. Məsələn, siz istəyirsiniz ki, uşaq divana çıxsın – bu sizin məqsədinizdir. Bu zaman onun məqsədi isə divanın söykənəcəyindəki maraqlı oyuncaqdır.

Uşağın tapşırığı nə üçün yerinə yetirdiyini, hansı məqsədə çatmağa səy göstərdiyini yaddan çıxarmayın! Siz istədiyiniz nəticəni əldə etdikdən və məqsədinizə çatdıqdan sonra hökmən onun oyuncaqla oynamasına imkan verin. Uşağın çətinliklə əldə etdiyi oyuncaqla mürəkkəb hərəkətlər yerinə yetirməsini tələb etməyin. əks halda bu stimul onun üçün cəlbediciliyini itirəcək.

Uşağın tapşırığa marağı azalıbsa, sizə isə elə gəlir ki, mənimsənilən vərdişin möhkəmləndirilməsi vacibdir, onda oyuncağı başqası ilə əvəz edib ona yeni bir maraqlı oyuncaq təklif edin.

Uşaq tapşırığı yerinə yetirməsə bunun səbəbini başa düşməyə çalışın: oyuncaq onun üçün maraqlıdırmı, bu tapşırıq onun fiziki və psixi inkişafına uyğundurmu. Onun üçün çətin olan həlqəni ayırd edib onu ayrılıqda işləmək, sonra isə onu yenidən əvvəlki hərəkətlər zəncirinə daxil etmək olar. Məsələn, uşaq oyuncağı götürmək üçün divana tərəf iməkləməli, ayağa qalxmalı, ondan tutmaqla onun üstünə çıxmalı və yalnız bundan sonra onun marağına səbəb olmuş bu əşyanı götürməlidir. Uşaq hələ divana çıxmağı bacarmırsa, onda

oyuncağı divanın kənarına yaxınlaşdırmaqla oyunu asanlaşdıra bilərsiniz. Onun yüksəyə qalxmağı öyrənməyini istəyirsinizsə, ona bu zaman fiziki cəhətdən kömək edin. Eyni zamanda uşağın sərbəst şəkildə daha alçaq əşyaların, məsələn, divan yastığının üstünə çıxmağı öyrənəcəyi oyunlar fikirləşin və istifadə edin.

**Oyuncaqlar, ləvazimatlar və onlardan istifadə qaydaları**

• Davamlı mebel, sürüşkən olmayan döşəmə və ya etibarlı şəkildə mebelə sıxılmış xovlu xalı. Nəzərə alın ki, sürüşkən parket döşəmədə ayaq üstə dayanmaq və ya dayaqdan tutub ayağa qalxmaq uşağa çətin ola bilər, o ki, qaldı sərbəst yeriməyinə!

• Davamlı uşaq stol və stulu.

• Taxta kubiklər. Kubiklər onlardan hər hansı bir formalı bina qurulması üçündür. Uşağınız hələ ki, yalnız sadə qurğular (iki-üç kubikdən ibarət qüllə) tikə bilir və ya kubikləri maşına yükləyib daşıyır.

• İki müxtəlif deşiyi olan "poçt qutusu". Biz artıq bu tipli oyuncaqlar barədə söhbət açmışıq. Bu mərhələdə uşaq fiqurları müxtəlif ölçülü deşiklərdən içəri salmağı öyrənir.

• Üç həlqədən ibarət piramida. Uşaq həlqələri yerinə otuzdurmağı və ya çıxarmağı öyrənir.

• Dairəvi formada stəkanlar (üçdən çox olmayan). Onlardan qüllə qurmaq və ya bir-birinin üstünə qoymaq olar. Eyni diametrli stəkanlardan başlamaq və bunun üçün süd məhsulları tarasından istifadə etmək lazımdır.

• Açılması, bağlanması, eləcə də içindəkiləri yoxlamaq çox maraqlı olan müxtəlif qutular, sandıqçalar, köhnə çantalar.

• Küçədə istifadə edilən böyük həcmli oyuncaqlar. Vedrə, kürək, qəliblər, kuzovlu maşınlar.

• Dartılması və ya itələnməsi mümkün olan oyuncaqlar. Burada söhbət müxtəlif maşın və arabacıqlardan gedir.

• Süjetli oyuncaqlar və məişət əşyaları. Kukla, ayıcıq,

dovşancıq, oyuncaq telefon, plastmas qab-qacaq, daraq, süngər, bir sözlə, uşağın sizin gündəlik fəaliyyətinizi təkrar edərək oynayacağı əşyalar.

• Suda oynamaq üçün əşyalar. Plastmas fincanlar, qıflar, oyuncaq su dəyirmanı, xırda üzən oyuncaqlar bu zaman yarayacaq.

• Tıqqıltı səsi çıxaran oyuncaqlar. Burada plastmas və ya taxta çəkiclər və döyəcləmək üçün əşyalar – nazik taxta parçası, kürəciklər və s. lazım olacaq.

• Qalın karton kağızından hazırlanmış kitablar. Bu kitablardakı şəkillərin dəqiq, sadə və uşaq üçün anlaşıqlı olması vacibdir.

• Musiqili oyuncaqlar və ya ən sadə musiqi alətləri. Burada müxtəlif üsullarla səs çıxaran uşaq alətləri nəzərdə tuturuq. Bunlar dəf, metallofon, tütək ola bilər.

Bütün bu oyuncaqlar və əşyalar müxtəlif oyunların təşkili zamanı sizə yardım edəcəklər. Uşaq sizi təqlid edərək ayrı-ayrı oyun hərəkətlərini yerinə yetirəcək. Lakin, bu zaman bu hərəkətləri ardıcıl zəncir şəklində edə bilməyəcək və siz onun tədricən bu vərdişi mənimsəməyi üçün oyunda iştirak edib onunla əməkdaşlıq şəraitində hadisələrin ardıcıllığını ona nümayiş etdirirsiniz. Məsələn, siz sıyıq "bişirdiniz", uşaq kuklanı "yedizdirdi", siz isə onun ağzını sildiniz.

## Oyun və tapşırıqların təsviri

Biz oyunların köməyi ilə iki inkişaf istiqaməti üzrə nümunələr gətirəcəyik. Birinci istiqamət hamıya məlum olan "qızlar-analar" adlı süjetli oyunun başlanğıcıdır. İkinci istiqamət isə uşağın idrak fəaliyyətinin və kiçik motorikasının inkişafı ilə sıx bağlı olan didaktik oyunlardır.

***Süjetli oyunlar*** uşağın ətrafında gördüyü hər bir hadisəni təkrar etməyinə imkan verir. Böyüyün etdiyi hərəkətləri təkrar etmək onun çox xoşuna gəlir. O, bu

istəklərini oyunlarda gerçəkləşdirir – kuklanı yedizdirir və saçını darayır, onu maşında gəzdirir və yatızdırır. Uşaq tez-tez belə oyun hərəkətlərini özünə münasibətdə yerinə yetirir – qaşıq və fincanı götürür və "guya" yeyir və içir. Böyüyün istifadə etdiyi hər şey uşağı cəlb edir: xəkəndaz və əski onun marağına səbəb olur, əlini telefona və digər məişət əşyalarına uzadır. Sizin vəzifəniz isə onun bu oyunlardan həzz almasına şərait yaratmaqdır. Yadda saxlayın ki, uşağın şəxsiyyəti, danışıq qabiliyyəti, yaddaşı, diqqət və təsəvvür qabiliyyəti məhz bu oyunlar zamanı inkişaf edir. Aşağıda süjetli oyunlardan biri nümunə kimi verilir.

***"Kuklanın saçını dara" oyunu***

Ləvazimat: kukla, içərisində qaşıq, daraq, parlaq rəngli saç sancağı olan çanta

Oyunun təsviri. Birlikdə kuklanı gözdən keçirin, uşaqdan kuklanın saçlarını göstərməsini istəyin.

Sonra uşağın diqqətini çantaya cəlb edin, onu açıb birlikdə onun içərisinə baxın. Hər bir əşya barəsində uşağa sual verin: "bu nədir?" Uşağı diqqətlə müşahidə etməyi yaddan çıxarmayın. Çünki, cavab hərəkətlərin nümayiş etdirilməsi, jestlər, eləcə də uşağın bacardığı nitq formalarında ola bilər. Jest və sözlərdən istifadə edərək saçları dolaşmış kuklanı daramağı, sonra isə onunla rəqs etməyi təklif edin. Seçim üçün ona qaşıq və daraq göstərin. Uşaq əlini qaşığa tərəf uzatsa, onu kənara çəkin və əksinə darağı yaxınlaşdırıb jestdən istifadə edərək istəyinizi bir daha təkrar edin: "Daraqla dar". Uşaq kuklanın saçını daradıqdan sonra onun saçına qəşəng bir sancaq vurub musiqini qoşun və kuklanı rəqs etdirin.

***Bu mərhələdə didaktik oyunlar*** inkişafı uşağın əşyanı müəyyən yerdən götürdüyü oyunlardan əşyanı lazımi yerə qoymağı öyrəndiyi oyunlara keçir. Məsələn, o, əvvəllər piramidadan həlqələri götürürdüsə, indi onları yerinə yerləşdirməyi öyrənir və ya indiyə qədər yalnız qüllələri dağıtmağa vərdiş etmişdisə də indi kubikləri bir-birinin üstünə

yığmağa başlayır. Belə oyuna nümunə göstərək.

***"Kürəciyi sal" oyunu***

Ləvazimat: plastik butulka, kürəcik və kubiklər. Bu butulkanın boğazı elə kəsilir ki, oradan təkcə kürəcik keçir, kubik isə keçə bilmir.

Oyunun təsviri. Qutudan kürəcik və kubiklər çıxarıb uşağa onlarla oynamağı təklif edin. Uşaq bir qədər oynadıqdan sonra kürəcikləri götürün və onun gözləri qarşısında butulkanın içərisinə salın. Bu zaman butulkanı maili tutun ki, uşaq kürəciyin onun divarlarından necə diyirləndiyini görə bilsin. Sonra isə növbəti kürəciyi uşağa verib tapşırın: "İndi isə (uşağın adı) atsın!" Lazım gələrsə, kürəciyi butulkanın içərisinə buraxmaqda ona kömək edin.

İndi isə kürəciyi çoxlu fiqurlar arasında axtardığınızı göstərin. Sonra isə onu götürüb dəlikdən buraxın və deyin: "İndi isə ana atdi!"

Sonra sərbəst şəkildə kürəciyi seçib dəlikdən içəri salmaq uşağa təklif edilir. O, səhv etsə, kubiki dəlikdən keçmədiyini özünün yoxlayıb əmin olmasına imkan verin və kürəciyi tapmaqda ona yardım edin.

## YEDDİNCİ MƏRHƏLƏ

### Ünsiyyət və nitqin inkişafı

Uşağınız artıq sizi yaxşı başa düşür, sizdən sonra sadə jestləri təkrar etməyi bacarır və hərdən onları səslərlə ifadə edir. İndi isə onu danışıq zamanı ümumişlək səs təqlid və sözlərdə istifadə etmək vaxtı gəlib çatmışdır. Bu, ətrafdakıların onun nə danışdığını, nə demək istədiyini başa düşməsi üçündür. Hər şeydən əvvəl, siz uşağın aktiv lüğətində məhz hansı sözlərin olduğu barədə təsəvvürə malik olmalısınız. Əlavə 3-də bu barədə ətraflı danışılır. Daha sonra siz uşağın tələffüz etdiyi sözlərin keyfiyyətinin artırılması üzrə məşğələlərə başlayırsınız.

*Aktiv lüğətin toplanması*

Uşağın aktiv nitqə öyrədilməsi zamanı "Pişik" mövzusu nümunəsində ardıcıllığı göstərək:

1. Oyuncaq və ya canlı pişiyi göstərib onun tam adını "pişik" deyir, asan sözlə "məstan" ifadə edir və müvafiq jestlər edirsiniz. Təcrübədə pişiyi ifadə etmək üçün jest kimi bir əlin üstünün digəri ilə sığallanmasından istifadə edirik. Səs təqlidindən istifadə edin: "Məstan çığırır: "myau"!" Uşaqdan pişiyi "məstan" çağırmasını istəyin. Bu səs təqlidlərindən (kis-kis, myau) və ya asan sözlərdən biri "məstandır" və o, hələlik, tələffüz etməyə çətinlik çəkdiyi "pişik" sözü əvəzinə bu sözdən istifadə edəcək.

2. Pişiklə oynayın, onu sığallayın, eyni jesti və ya səs təqlidini dəfələrlə istifadə edin və uşağı da özünüzdən sonra bu hərəkətləri etməyə sövq edin. Uşaq lazımi hərəkəti səssiz yerinə yetirdikdə siz özünüz səs təqlidi jestini edin. Pişik təsviri çəkilmiş şəkillərə baxarkən də elə bu üsullardan istifadə edin.

3. Pişiyə işarə edərək "Bu kimdir?" soruşun və bir qədər fasilə edin. Uşaq cavab vermədikdə onun sizdən sonra cavab verə biləcəyi tərzdə jest və səs təqlidindən istifadə edərək bu suala özünüz cavab verin.

4. Fasiləni get-gedə artırın. Uşaq cavab verməsə, işarət barmağınızı dodaqlarınıza toxundurub uşağın tələffüz edə biləcəyi sözü deyin və sonra barmağınızı onun dodaqlarına toxundurub "Sən də de!" deyin.

5. Uşaq "Bu kimdir?" sualının cavabında onun pişik olduğunu deməyi öyrəndikdə şəraiti və sualları genişləndirin. Məsələn, "Günün altında kim oturub?", "Biz kimə süd veririk?", "Kim gizlənib?" və s.

6. Uşaq öz sözləri ilə "pişik" deməyi öyrəndikdə onu həmin sözdən istifadə etməyə sövq edin. Lakin, bunu xüsusi təşkil edilmiş hallarda edin. Məsələn, kitaba baxarkən uşağı yalnız şifahi nitqinə görə tərifləyin. Məişət şəraitində və ya oyun zamanı onun sizinlə qurmaq istədiyi istənilən cəhdləri hökmən dəstəkləyin və qəbul edin.

*Danışmağa başlayırıq*

"Danışan albom". Uşağın tələffüz etməyi bacardığı sözlərdən ibarət albom düzəldin. Hər bir səhifəsinə sadə, dəqiq və iri rəsm və ya fotoşəkillər yerləşdirmək lazımdır. Bu tematik albom deyil və burada təsvirlərin seçilməsi meyarı yalnız birdir: siz rəsm və ya fotoşəkilləri buraya ondan ötrü yerləşdirmisiniz ki, uşaq onları şifahi şəkildə, yəni aktiv nitqin köməyi ilə onları təsvir edə bilsin. Bu, oyuncaqların, məişət əşyalarının, ailə üzvlərinin, ev heyvanlarının şəkilləri, eləcə də hadisələrin təsviri ola bilər. Uşağın adları, əşya və ya hadisələri müəyyən səslərlə daimi ifadə edirsə, onların təsvirlərini alboma daxil etmək olar. Həmin səs və ya heca burada söz rolunu oynayır. Uşaqlar adətən belə albomları sevirlər. Çünki, bütün şəkilləri uca səslə ifadə etmək onların xoşuna gəlir. Təsvirlər çox toplandıqda albomun mövzular üzrə tərtib edilməsinə keçin. Bizim təcrübəmizdə birinci mövzu bir qayda olaraq "oyuncaq" mövzusudur. Lakin, tamamilə normal haldır ki, uşağınızı onun tanıdığı və adını ucadan deyə bildiyi hansısa heyvanlar və ya elektrik cihazları daha çox cəlb etsin. Yadda saxlamaq çox vacibdir ki, sadə hərəkətləri təsvir edən şəkilləri belə albomlara daxil etmək lazımdır!

Uşağın oyun və məişətdə şifahi nitqdən istifadə etməsi. Bax budur, gündəlik həyatda uşağın aktivində olan sözlərin istifadə edildiyi vaxt gəlib çatmışdır. Sual verərkən cavabında çox da israrlı olmayın, yoxsa uşaq bu zaman inad göstərəcək. Bu istəyinizi ifadə edərkən jestlərdən istifadə etməyə çalışın. Lakin sonra onun sözü deməyi üçün şəraiti hökmən bir daha təkrar edin. Bu, onun heyrət və incikliyinin qarşısını almaqda sizə yardım edəcək. Yadda saxlayın ki, uşaq istəmədiyi üçün deyil, bunu hələ öyrənmədiyi üçün danışmır!

Kitab oxuma. Uşaqdan onun kitab oxumaq istəyib istəmədiyini soruşun. Kitabı onun seçməsinə imkan verin: əvvəlcə onun seçməyi üçün iki kitab təklif edin. Daha sonra o, istədiyi kitabı özü seçim gətirəcək. Kitab oxuyarkən onun şəkillərinə baxıb ona suallar verin, onun bildiyi bütün üsullarla

cavab verməyə sövq edin. Yaddan çıxarmayın ki, kitablardakı şəkillər sadə və dəqiq olmalıdır. Çox əşya və ya adamlar təsvir edilmiş kifayət qədər mürəkkəb şəkillər yerləşdirilmiş kitablardan istifadə hələ tezdir!

**Uşağın hərəkət qabiliyyətinin inkişafı**
**Hərəkətli oyunlar**

Uşaq xüsusi məşqləri yerinə yetirməyi xoşlayırsa, siz bu məşqləri musiqi sədaları altında gün ərzində bir neçə dəfə keçirə bilərsiniz. Şən hərəkətli oyunların keçirilməsi çox faydalıdır. Belə oyunlar uşağınıza lazım olan bütün hərəkət növlərini inkişaf etdirir.

"Voleybol".

Uşağa hava şarı atın. Qoy, o, onu əli ilə və ya boru formasında bükülmüş qəzetlə onu vursun. Əllərini açıb böyük həcmli, lakin yüngül çəkili hava şarını tutmağı öyrədin. Sizin və uşağınızın arasındakı məsafə hələlik az – təqribən 1 – 1,5 metr olmalıdır. Uşağın bu vərdişi asan mənimsəməsi üçün ilk vaxtlarda top çox da bərk olmamalıdır. Belə halda onu əllə tutmaq daha asan olur.

"Futbol"

Uşağa topa ayaqla vurmağı öyrədin. Əvvəlcə onun qarşısında ayaqlarının altında olan topla oynamağı öyrənmək vəzifəsi durur. Siz bu zaman uşağın bir qolundan tuta bilərsiniz. Daha sonra o, tədricən hərəkət edən və diyirlənən topu vurmağı öyrənir.

"Basketbol"

Topu zibil qutusuna, vedrənin içinə, vanna və ya qutuya necə atmağı nümayiş etdirin. Onunla qutu arasındakı məsafə çox az olmalıdır! O, bu oyunu mənimsədikdə yaxşı olardı ki, uşağı topu yuxarı qaldıraraq atmağa sövq etmək üçün topun atılacağı qabın azca hündürə qaldırılsın.

"Keqli" oyunu

Hamıya məlum olan keqli oyununu izah etməyə ehtiyac yoxdur. Lakin, qeyd etmək lazımdır ki, alınma keqlinin əvəzinə

boş mineral su butulkaları və ya hər hansı xırda toplardan istifadə oluna bilər.

"Körpüdən keçək" oyunu

Uşağı döşəməyə uzadılmış lövhənin üstü ilə yeriməyə sövq edin. Əvvəlcə sizə eni 25 santimetr, uşaq bu endə olan lövhənin səthində yeriməyi öyrəndikdən sonra isə daha dar (18, 13, 10 santimetr) lövhə lazım olacaq. Gəzinti zamanı o, səkinin kənarı ilə yeriyə bilər. Çox səviyyəli yerimə çox faydalıdır. Bu zaman uşaq bir ayağını alçaq səki kənarına, digərini isə yola qoyur. Lövhə ilə yeriyərkən uşağa onun üstündə sərbəst durmağı və döşəməyə düşməyi öyrədin.

"Üstündən addımlamaq"

Uşağın düzgün yeriməyi öyrənməsi çox vacibdir. Uşağın dizini bizim sizinlə etdiyimiz kimi irəli və yuxarı hərəkət etdirməsinə yardım etmək üçün söykəmə nərdivandan istifadə edilə bilər. Onu döşəməyə qoyun və uşağa onun köndələn səkilərinin üstündən addımlayaraq sizə yaxınlaşmağı təklif edin. Bundan əlavə, üstündən addım atılan maneə qismində kiçik kandarlardan və ya alçaq mütəkkələrdən və ya dar yumşaq yastıqlardan istifadə edilə bilər.

"Yırğalan"

Bu oyun üçün hamıya məlum olan yelləncək və ya silindrik dirəkdən asılan lövhədən istifadə etmək olar. Əlbəttə ki, belə yelləncəklər çox da hündür olmamalıdır. Uşağı onun mərkəzində otuzdurub onu bir tərəfdən digər tərəfə keçirərək yırğalaya bilərsiniz. Siz çox güman ki, onun dizlərinə qoyduğu əllərindən tutmalı olacaqsınız. Uşağın qollarınızdan sallanmamağına və bədənin bütün ağırlığını sərbəst şəkildə digər tərəfə keçirdiyinə hökmən diqqət yetirin.

"Dovşan kimi hoppanaq"

İstənilən yaylı səthdən istifadə edilir. Bu, şişirdilmiş döşək, divan və ya açılıb-yığılan çarpayı, eləcə də qalın porolon blok ola bilər. Uşağın əlindən tutub hoppanmağına kömək edin. Yaxşı olar ki, əllərinin çiyin səviyyəsindən yuxarıda olmamağı üçün onun qarşısında diz üstə oturasınız. O,

ola bilsin ki, əvvəlcə səthdən aralanmadan dizlərini bükə bilər. Uşağı əlindən çəkməyə tələsməyin və onun maksimum şəkildə bədəni və ayaqlarını işlətməsinə çalışın.

Pilləkəndən yerə hoppanmaq

Onu bu vərdişə öyrətməyi kiçik hündürlükdən, məsələn, lövhə və ya böyük kitabdan istifadə etməklə başlayın. Uşağı onun üstünə qoyub qarşısında diz üstə durun və uşağın barmaqlarınızdan tutmasına imkan verin. Onu çağırıb azca irəliyə çəkin və aşağı hoppanmağa sövq edin. Tədricən öz yardımınızı azaldın və uşağı önə çəkməyin. Qoy, o, yalnız müvazinətini saxlamaq üçün əllərinizdən yapışsın. Sonra artıq bu yardım da ona lazım olmayacaq.

Pilləkənlə yerimə

Uşaqla pilləkəndə bacardıqda daha çox gəzin. Pilləkənlə yerimə vərdişi əzələlərin gücünü artırır, hərəkətlərin koordinasiyasını, bədənin ağırlığının düzgün bölüşdürülməsi və aparılması bacarıqlarının möhkəmlənməsinə yaxşı təsir göstərir, yerimə zamanı ayaqların düzgün atılmasını öyrədir. Uşağa əvvəlcə pilləkənlə qalxmağı, sonra isə düşməyi öyrənin. Təbii ki, uşaq ilk vaxtlarda sürahıdan və ya əlinizdən tutacaq, sonra tədricən ondan istifadə etmədən pilləkənlə yerimə bacarığını mənimsəyəcək.

Lakin həmişə riayət edilməli çox vacib olan təhlükəsizlik qaydaları vardır: uşaq sərbəst şəkildə pilləkəndən düşdüyü və ya qalxdığı halda böyük həmişə ondan aşağıda mövqe tutmalıdır ki, yıxıldığı halda onu tuta bilsin.

## Uşağın məişət şəraitində inkişafı

Uşağın öyrəndiyi hər şey bu və ya digər şəkildə onun məişət vərdişlərinin inkişafında əks olunur. Uşağın gündəlik məişət şəraitlərində bacarıqsızlıq danlaqlarından qorxmadan bütün bacarıqlarından istifadə etməsinə imkan yaratsanız, bu, nəinki mənimsənilən vərdişlərin təkrar edilməsinə xidmət

edəcək, eləcə də onun inkişafını fəallaşdıran ən vacib təkan olacaq. Uşaq sizin etdikləriniz etmək istəyir. Bundan əlavə, o, həqiqətən də çox şeyi bacarır. Məsələn, o, stolun üstünü silə, süpürgə və xəkəndazı sizə gətirə, düyməni basaraq tozsoranı yandırıb-söndürə, paltar yuduğunuz zaman onları çeşidləməyi və bir çox başqa işləri görməyi bacarır. Belə fəaliyyət prosesində təkcə özünəqulluq vərdişləri inkişaf edir, hətta, razılaşın ki, lazımi nitq, diqqət, yaddaş, təfəkkür də inkişaf edir, hərəkət qabiliyyətinin inkişafı sürətlənir. Etiraf edin ki, sizin balaca yardımçınız ana, nənə və ya ata kimi olmaq hüququna layiqdir və siz müsbət nəticələri çox tezliklə görəcəksiniz.
Bu inkişaf dövrünün sonuna yaxın uşaq bir çox özünəqulluq vərdişinə yiyələnmiş ola bilər.
Uşağın fincandan içməyinin və içərisində istənilən maddələrin olduğu qidanı qaşıqla yeməyi öyrənməsinin artıq vaxtıdır.
Uşaq boşaldılmış paltarı çıxarmağı, əllərini paltarın qoluna, ayaqlarını isə şalvara salmağı, paltarın zəncirbəndini açıb-bağlamağı bacarmalıdır.
O, böyüyün azca yardımı ilə əl-üzünü yumağı, dişlərini təmizləməyi, ağız və burnunu silmək lazım olduğunu ona bildirəndə bunu etməyi bacarmalıdır. Elə bu vaxtlarda artıq uşaq böyükdən onu çanağa otuzdurmağını istəyir.
Uşağı mədəni-gigiyena vərdişləri aşılayarkən bizim artıq barəsində danışdığımız zəncirvari metoddan istifadə edin. Məsələn, yuyunarkən aşağıda qeyd edilmiş zəncirvari ardıcıllıqdan istifadə etmək olar.
Suyu açıb onun axınını tənzimləmək – böyük.
Əllərini su şırnağının altına tutmaq – uşaq.
Sabunu əlinə götürmək – böyük onu götürüb uşağa verir.
Əllərini sabunlamaq – uşaq.
Sabunu yerinə qoymaq – böyük.
Əllərini ovuşdurmaq – uşaq.
Əlinin sabununu yumaq – uşaq.
Kranı bağlamaq – böyük.
Məhrəbanı götürmək – böyük və ya onun istəyi ilə uşaq

götürür.
Əllərini qurulamaq – böyüyün köməyi ilə uşaq.
Məhrəbanı yerinə qoymaq – uşaq.

Uşaq tərəfindən yerinə yetirilən hərəkətlərin sayı get-gedə artırılır. Bundan əlavə, o, bu hərəkətləri böyüyün xatırlatması ilə, sonra isə sərbəst şəkildə edir. Yadda saxlayın ki, zəncirvari metoddan istifadə zamanı sonrakı hərəkətin uşaq tərəfindən yerinə yetirilməsi vacibdir.

Dişlərin təmizlənməsi – bu vacib proseduradır. Uşağı mümkün qədər erkən yaşlarından diş şotkasından istifadə etməyi öyrətmək lazımdır. Diş şotkası ilə "tanışlığa" uşağın hər şeyi ağzına saldığı vaxtlarda başlamaq daha münasibdir. Oyun zamanı diş şotkasını əldə düzgün tutmağı və onu ağıza aparmağı öyrətmək olar. İlk vaxtlarda tüklərini rezin çıxıntıların əvəz etdiyi xüsusi rezin şotkadan istifadə etmək daha yaxşıdır. Uşağın ilk diş şotkası mümkün qədər kiçik olmalıdır. Uşağa dişlərini təmizləməyi öyrətməyə başlayarkən diş məcunundan dərhal istifadə etmək lazım deyil, şotkanı sadəcə suya batırmaq kifayət edir. Uşaqla birlikdə vanna otağına keçib onun gözləri önündə dişlərinizi təmizləməyə başlayın. O, yəqin ki, sizin nə etdiyinizlə maraqlanacaq. Əgər bu, ona maraqlı gəlməsə, onun diqqətini qəsdən bu vacib və maraqlı işə cəlb edin.  Uşaq əlini şotkaya uzadan kimi şotkanı əlində tutmağına imkan yaradın və onu sizin hərəkətlərinizi təkrar edərək "dişlərini yumağa" sövq edin. Uşağın şotkasını onun özünə tanıdın. Ağzı su ilə yaxalamaq qaydasını ona göstərin. O, əlbəttə, ilk vaxtlarda ağzındakı suyu çanağa tüpürmək əvəzinə udacaq. Ona görə də, qaynadılmış və ya içməli sudan istifadə edilməsi yaxşı olardı. Təlimin növbəti mərhələsi diş məcunundan istifadədir. Ən yaxşı variant xüsusi uşaq məcunudur. Qabdan azacıq uşaq məcunu barmağa sıxıb yoxlaması üçün ona verin. Onun dadı uşağın xoşuna gəlsə diş şotkasına azacıq məcun yaxıb ona dişlərini təmizləməyi təklif edin.

## Uşağın oyun zamanı inkişafı

Bu yaş dövründə uşağı cəlb edən bir neçə oyun növünü fərqləndirmək olar:

***Araşdırıcı oyunlar***

Müxtəlif inkişaf etdirici oyuncaqlar, təhlükəsiz məişət əşyaları, mənzildə sərbəst hərəkət etmək imkanları, gəzinti zamanı uşağın oyaq olması – bütün bunlar uşağın araşdırma fəaliyyətini, onun qavrayış, diqqət, yaddaş və təfəkkürünü stimullaşdırır. Bəs, bu oyunlara nə cür oyuncaqlar yarayır?

• Müxtəlif formalı hissələrdən ibarət konstruktorlar. Bunlar kubik, kərpic, sütunlar, silindr, üçbucaqlı prizmalar ola bilər. Uşaq bir hissəni digərinin üzərinə qoyaraq onlardan qüllə, ev, bina, körpü, stol və digər qurğular qura bilər.

• "Poçt qutusu". 3-4 dörd müxtəlif formalı – kvadrat, dairəvi, üçbucaq, çoxbucaqlı dəlikləri olan kiçik qutu və ya yeşiyi ifadə edən belə oyuncaqlar barədə artıq söhbət açmışıq.

• Üç-dörd həlqədən ibarət piramidalar. Həlqələri yerinə yığmaq və ya çıxarmaq uşağın marağına səbəb olacaq. Piramidanın özəyi konus formasında hazırlanıbsa, uşaq həlqələri onların ölçüsünə əsaslanmaqla tədricən özəyə yığmağı öyrənəcək.

• Dairəvi və kvadrat formalı stəkanlar. Onları almaq, eləcə də yoqurt qablarını bir-birinin üzərinə yığmaqla qüllələr ucaltmaq olar. 2-3 stəkanla başlayıb tədricən onların sayını artırın.

• Matryoşkalar. Aydındır ki,  onları bir-birinin içərisindən çıxarmaq və bir-birinin içərisinə yığmaq olaraq. Uşağa çox-tərkibli matryoşka təklif etməyə tələsməyin. Belə oyunlara sadəcə iki-üç hissə ilə başlamaq lazımdır.

• "Seqen" lövhəsi. Belə lövhədə müxtəlif formalı oyuqlar olur və bu oyuqlara müvafiq formalı hissələr yerləşdirilir. Hissələr həndəsi fiqurlarla yanaşı tanış oyuncaqların və məişət əşyalarının, məsələn, top, pişik,

fincan təsvirlərini əks etdirə bilər. İki-üç sadə formalı hissə ilə başlamaq və əllə tutulması rahat olan hissələrdən istifadə etmək lazımdır.

• Qutular. Sizinlə birlikdə əşyaları forma və ölçülərinə görə yerinə yığmaq əvvəlki kimi uşağın marağına səbəb olur.

***Didaktik oyunlar***

• "Cütünü tap" loto oyunu. Müxtəlif cütlərdən: əşya şəkilləri və kiçik əşyalar, cüt şəkillər, cüt əşyalardan istifadə edilir. Uşağa əşyaların cütünü tapmağı öyrənin. Əlbəttə, ilk vaxtlarda uşağın qabağına dərhal çoxlu sayda oyuncaq və ya şəkil düzmək lazım deyil. İki-üç cütdən başlamaq olar. Qoy, uşaq əvvəlcə eyni oyuncaq cütlərini, sonra isə eyni şəkilləri seçməyi öyrənsin. Daha sonra isə uşağın məsələn, pişik təsvir edilmiş şəklə baxaraq pişik oyuncağını götürdüyü "Əşya və təsvir" oyunlarına növbə gəlib çatacaq.

• "Qutulara yığ" tipli çeşidləmə. Hər birində 4-5 əşya, məsələn eyni rəngli  qaşıq və sıxac olan iki əşya qrupundan istifadə edilir. Uşağın qabağına iki qutu qoyub sıxacı ona verin və istədiyi qutuya qoymağı təklif edin. Özünüz isə qaşığı digər qutuya qoyun. Sıxacın hansı qutuda, qaşığın hansı qutuda olduğunu uşaqdan soruşun. Sonra isə qaşığı və ya sıxacı ona verib lazımi qutuya qoymağına yardım edin. Oyun zamanı nitqdən istifadə etməyi yaddan çıxarmayın: "Qaşıqlar hanı?, Qaşığı qaşıqların yanına qoy."  Bu təlim sizdən çoxlu vaxt və səbir tələb edir. Ona görə də çeşidləmədən məişət şəraitində istifadə etmək daha yaxşıdır. Məsələn, paltar quruduqdan sonra onları balaca köməkçinin yardımı ilə paltarların çeşidlənməsi. Corabları bir, tumanları isə ayrıca yığın.

**Musiqili oyuncaqlar və ya sadə musiqi alətləri ilə oyunlar**

Sizin "arsenalınızda" artıq dəf, metallofon, tütək vardır. İndi isə onlara təbil, uşaq qarmonu, fit və ya dodaq qarmonu əlavə etmək olar. Sərbəst şəkildə musiqi ilə məşğul olmağından

əlavə sizin hansı musiqi alətini ifa etdiyinizi tapması uşağa çox faydalıdır. Belə musiqi "tapmacası" oynayarkən ona iki-üçdən artıq musiqi alətini təklif etmək olmaz!

### *Süjetli oyunlar*

Sizin hamınız, əlbəttə, uşaqlığınızda oynadığınız "Qızlar və analar" oyununu xatırlayırsınız. Bu oyun bir sıra imitasiya-oyunla başlanır. Bu zaman uşaq ona məlum olan yemək, yatızdırma, çimizdirmə vəziyyətlərini əks etdirir. Belə oyunlarda süjetli oyuncaqlar və məişət əşyalarından istifadə olunur: fincan, qaşıq, daraq, telefon, çanta, çarpayı, vanna, maşın və bir çox başqa əşyalar. Oyun zamanı kubikləri maşına yükləməyi, sonra isə yenidən boşaltmağı və ya özüboşaldan yük maşını olduqda isə topa ilə yerə tökməyi uşağa nümayiş etdirin. Uşaqla birlikdə dovşanı, ayını maşında gəzdirin. Uşağın oyun zamanı sadə süjetdən istifadə etməyinə yardım edin: dovşan maşın sürür o, yıxıldı; dovşan ağlayır; ona yazığımız gəlir; gəl, onu qucaqlayaq, ona kök verək. Başqa bir süjet uşağın səhər (ayı yuxudan durdu, yuyundu, yemək yeyir) və ya axşam (kukla çimir, yatmağa gedir) yerinə yetirdiyi hərəkətlər ardıcıllığını əks etdirə bilər. Beləliklə, uşağı ayrı-ayrı oyun hərəkətlərindən ibarət olan oyunu süjetli oyunlarda birləşməyə başlayır. Yadda saxlamaq lazımdır ki, bu tipli oyunlarda nitq və təsəvvür etmə bacarıqları aktiv inkişaf edir.

### **Əşyavi fəaliyyət və qavrayış**

Uşağınız oyun və məişət şəraitində müxtəlif əşyalardan istifadə etməyi öyrəndikdə onun öz təcrübəsi əsasında əşyanı qavrama bacarığı inkişaf edir. Bu o deməkdir ki, o, əşyanın xüsusiyyətlərini və keyfiyyətini fərqləndirməyə başlayır. Uşaq əvvəlcə əşyanın formalarını fərqləndirməyi, məsələn, o, təcrübədə kürəcik və kubiki arasındakı fərqi üzə çıxarır: kürəcik diyirlənir, kubik isə yox; lakin, kubikdən bina qurmaq olar, kürəcikdən isə yox. Uşağın üzə çıxardığı növbəti xüsusiyyət əşyanın ölçüsüdür. İç-içə stəkanlarla, matryoşka ilə,

konus formalı özəyi olan piramidalarla oynayan uşaq tədricən başa düşür ki, bu əşyalar ölçüsünə görə bir-birindən fərqlənir. Siz uşağın diqqətini qaşıqların iri və xırda olmasına, onun çəkmələrinin atasının və ya anasının çəkmələrindən balaca olmasına cəlb edə bilərsiniz. Rəngi fərqləndirmək uşaq üçün çətindir. Çünki, rəng funksional qüvvə kəsb etmir. Məsələn, dairəvi dəlikdən içəriyə kürəcik salmaq olar – bu funksionaldır. Lakin, dəlikdən həm qırmızı, həm də göy rəngli kürəcik keçir! Yalnız daimi olaraq uşağın əşyanın rənginə diqqət yetirməsi onun dünyanın rəngli olduğunu görməyinə yardım edə bilər. Uşaq əvvəlcə əşyaları rənginə görə əlaqələndirməyi öyrənir. Yəni, nümunəyə uyğun olanı tapır. Sonra "qırmızı kubiki mənə ver" xahişinə görə qırmızı kubiki tapmağı öyrənməli olacaq və yalnız bundan sonra o, əşyanın rəngini deməyi öyrənəcək.

## SƏKKİZİNCİ MƏRHƏLƏ
### Ünsiyyət və nitqin inkişafı

Uşağınız öz yaşıdları ilə oynamağa başlayır. Məsələn, başqa bir uşağın əlindəki oyuncaq onun və ya onun əlində olan oyuncaq da həmin uşağın xoşuna gəlir. Oyuncağı necə istəməyi, onları dəyişməyi uşağa öyrədin. Bu yaş dövründəki uşaqlar üçün adaptasiya qrupları təşkil etmək təcrübəmiz göstərir ki, siz, uşağın öz yaşıdları ilə ünsiyyətinə şərait yaratmaqla onu ünsiyyətə və oyun zamanı qarşılıqlı əlaqəyə öyrədirsiniz. Bu kitabda uşaq üçün ünsiyyət sahəsi yaratmağınıza kömək edə biləcək şəraitlərin bəzi variantlarını nümunə gətirmək qərarına gəlmişik.

### Ünsiyyət və nitqin gündəlik baş verən vəziyyətlərdə inkişafı

#### *Qonaq qəbul edirik*

Başqa uşaqları qonaq çağırın. Bütün uşaqların iştirak etdiyi birgə oyunlar təşkil edin. Bu, top, oyuncağın tapılması, kubiklərdən ev tikilməsi oyunları ola bilər. Musiqini qoşmaq və onlarla birlikdə oxumaq və ya yallı getmək olar. Stol arxasında

birgə yemək ünsiyyət üçün ən maraqlı vəziyyətlərdən biri ola bilər. Siz xörəkləri daşımağı və balaca qonaqlara təklif etməyi uşağınıza tapşıra bilərsiniz.

### *Gəzintiyə çıxma*

Digər uşaqların valideynləri ilə birlikdə zooparka, kafeyə, kukla teatrına, və ya sadəcə parkda gəzməyə getməyi planlaşdırın. Birgə gəzinti və ya səfərlər zamanı uşaqları bir yerə toplamağa və onları birgə hərəkətlərə sövq etməyə çalışın. Məsələn, kafedə uşağınızdan onun öz dostuna və ya rəfiqəsinə salfet verməsini və s. istəyin.

### *Dərnəklər və uşaq yaradıcılıq studiyalarına getmə*

Uşağını aparacağınız yeri seçərkən əsas dəliliniz dərnəyin rəhbərinin anlayışı və onun uşaqla əlaqəsi olmalıdır. Uşağınız həvəslə rəqs edəcək, rəsm çəkəcək, danışacaq – əsas odur ki, özünü rahat hiss edəcək.

Xüsusi məşğələləri ziyarət

İnkişafında özəlliklərə malik olan uşaqlar üçün təşkil edilən xüsusi məşğələləri ziyarət etmək  imkanınız varsa bundan istifadə edin! Belə məşğələlər uşağın təlim və inkişafı üçün lazım olan metodlar nəzərə alınmaqla təşkil edilir. Bununla yanaşı yaxşı olar ki, uşağın ünsiyyət dairəsini belə xüsusi qrupla məhdudlaşdırmayasınız və paralel olaraq uşağın adi inkişafa malik yaşıdları ilə ünsiyyətinə imkan verən digər variantlardan da istifadə edəsiniz.

### *Nitqin inkişaf etdirilməsi üzrə məşğələlər*

Siz, yəqin ki, uşağınızın nitqi qavrama səviyyəsi və öz aktiv nitqi arasındakı fərqə artıq diqqət yetirmisiniz. Uşaq ona müraciət edilən nitqi yaxşı başa düşür, istək və təlimatları yerinə yetirir, lakin, ekspressiv nitqin inkişaf etdirilməsində əlavə yardıma ehtiyac duyur. Sizin uşağınıza bu mərhələdə çox güman ki, loqopedlə əlavə məşğələlərin keçirilməsi lazım gələcək. Bununla bərabər, əziz valideynlər, uşağınızın

nitqinin necə olacağı sizdən də asılı olacaq. Sizin sevginin, səbir və qətiyyətiniz onun danışıq ünsiyyətindəki çətinliklərin öhdəsindən gəlməkdə yardım edəcək.

## Uşağın hərəkət qabiliyyətinin inkişafı
## Böyük motorikanın inkişafı

Sizin uşağınızda əsas böyük motorika vərdişləri formalaşmışdır. İndi isə onların keyfiyyətinin yaxşılaşdırılması üçün şərait yaratmaq vacibdir. Məşğələlərinizi maraqlı və şən edəcək bir neçə tövsiyə təqdim edirik.

Landşaft təlimi

Nahamar səth üzərində yerimə hərəkətin keyfiyyətinin yaxşılaşdırılmasının ən effektiv vasitələrindən biridir. Təbii landşaftdan (nahamar torpaq, hündür otluq, qum, çınqıl, qar) istifadə etmək, eləcə də şişirmə döşəklərdən, divan yastıqlarından, mütəkkə və təhlükəsiz nahamar səth yarada bilən digər məişət əşyalarından istifadə edərək süni şərait yarada bilərsiniz.

Velosiped sürmə

Uşağın oturub ayaqlarını döşəməyə çatdıra biləcəyi maşınınız varsa, təlimə ondan başlamaq olar. Uşağa maşına minməyi və ondan enməyi, orada möhkəm oturmağı, ruldan tutub hərəkət istiqamətini tənzimləməyi öyrədin.

Velosiped seçimi. Velosiped davamlı olmalıdır. Uşağın ayaqlarını uzaq məsafədən asanlıqla pedala vura biləcəyini yoxlayın. Rul uşağın bədəninə yaxın məsafədə yerləşərsə, oturacağın söykənəcəyi varsa o, özünü inamlı hiss edəcək.

Sürmə təlimi. Uşağın ayaqlarını pedala bərkitsəniz (məsələn, yumşaq rezinlə), özünüz isə velosipedi itələsəniz bu balaca velosipedçi pedalı fırlamaq üçün hansı hərəkətləri etmək lazım olduğunu təcrübədə başa düşəcək. Uşaq velosipeddə sərbəst oturmağı bacarırsa, az meylli yolda sürmə təlimi keçə bilərsiniz. Yadda saxlayın ki, uşaq ilk vaxtlarda pedallara o dərəcədə diqqət yetirir ki, hərəkət istiqamətini tənzimləməyi yaddan çıxarır. Bu zaman siz onun əvəzinə bu hərəkətləri

yerinə yetirir. Daha sonra uşağın diqqətini rulun idarə edilməsinə cəlb edin. Ona hərəkətin istiqamətini dəyişərək rulu döndərməyi öyrədin. Başqa uşaqlarla birlikdə, eləcə də velosipedlə gəzintiyə çıxmağı onun üçün ən yaxşı motivasiya ola bilər.

## Kiçik motorikanın inkişafı

Bütün valideynləri uşağın əlinin yazıya öyrənməsi narahat edir. Hamıya aydındır ki, belə vərdişləri formalaşdırmağa əvvəldən başlamaq lazımdır. Digər tərəfdən o da bəllidir ki, bu tipli məşğələlər uşaq üçün maraqlı və cəlbedici olmalıdır. Bu mənada ən optimal məşğələ rəsmdir. Uşaqlar bu prosesdə həvəslə iştirak edirlər. Bu zaman formalaşan kiçik hərəkətlərin dəqiqliyi uşaq tərəfindən asanlıqla digər fəaliyyət növlərinə ötürülür.

Rəsm prosesində kiçik motorikanın inkişaf ardıcıllığı barədə danışaq.

Ovucda tutma. Əvvəlcə uşaq  tabaşir, flomaster və ya qalın karandaşı yumruğunda saxlayır. Baş barmaq yuxarı istiqamətlənir. Bu əldə tutma üsulu biləyin dönməsini tələb etmədiyinə görə rəsm çəkmə vərdişlərinin yiyələnməsində atılan ilk addımları bir qədər asanlaşdırır. Bu üsul daha çox üfüqi səth üzərində rəsm çəkməyə yarayır. Bu zaman uşaq rəsmi bütün qolunu hərəkət etdirərək çəkir.

Ovucda tutma vərdişinin formalaşmasının ikinci mərhələsində uşaq tabaşir, flomaster və ya karandaşı baş barmağı digər barmaqların üstünə qoyaraq tutur. Onun ucu yuxarı istiqamətlənir. Bu əldə tutma üsulundan şaquli səth üzərində rəsm çəkmə zamanı istifadə edilməsi əlverişlidir. Məsələn, molbert və ya kağız vərəqi divara bərkidilir. Üfüqi səthdə bu üsulla rəsm çəkilməsi əlverişsizdir. Çünki, bunun üçün biləyi sabit saxlamaq, eləcə də onu asılı halda fırlatmaq bacarığı tələb olunur.

Ovuc-barmaq üsulu ilə tutma. Bu ovuc üsulundan çimdik üsulu ilə əldə tutma üsuluna keçiddir. Daun sindromlu uşaqlarda bu,

2-5 yaşları arasında formalaşır. Bu halda tabaşir, flomaster və ya karandaş ovucda çəpəki durur. Onun ucu orta, işarət və baş barmağın arasında sıxılır. Rəsm zamanı uşaq bütün qolunu və ya bazu önünü hərəkət etdirir. Belə əldə tutma üsulu rəssamlar tərəfindən tez-tez istifadə edilir. O, şaquli səthdə rəsm çəkərkən əlverişli olur.

Çimdik üsulu ilə tutma dedikdə əşyanın baş, orta və işarət barmaqları ilə ələ götürülməsi və tutulması qabiliyyəti nəzərdə tutulur. Daun sindromlu uşaqlar adətən bu üsuldan rəsmdə 4-8 yaşlarında istifadə edirlər. Sadə hərəkətlər zamanı paralel olaraq üç yaşdan ovuc-barmaq üsulu ilə tutmadan da istifadə edilə bilər.

"Çimdik" üsulu ilə əldə tutma vərdişinin formalaşmasının birinci mərhələsində karandaş irəli çıxmış orta barmağa dirənən baş və işarət barmaqları arasında sıxılır. Rəsm zamanı uşaq hələ də əl və çiyinlərin böyük hərəkətlərindən istifadə edirlər. Bu zaman şaquli səth üzərində rəsm çəkmə bacarığı daha əlverişli olur.

"Çimdik" üsulu ilə əldə tutma vərdişinin formalaşmasının ikinci mərhələsi birinci mərhələdən bütün qolun hərəkət etməsi hallarının azalması ilə fərqlənir. Bu, çiyinin və dirsəyin daha da sabitliyi hesabına baş verir. Bu zaman uşaq biləyi daha yaxşı hərəkət etdirir, stolun səthinə dirənərək onu sabitləşdirə bilir. Bu mərhələdə üfüqi səth üzərində dairəvi formalı rəsmlər çəkmə imkanı yaranır.

Ovuc-barmaq üsulu ilə tutma üsulundan çimdik üsulu ilə əldə tutma üsuluna keçidin asanlaşdırılması üçün ovucda tutmaq mümkün olmayan xırda tabaşir parçalarından istifadə etmək olar.

Bu zaman uşaq pambıq dolanmış çubuq və ya fırça ilə rəsm çəkməyə başlaya bilər.

Maqqaş üsulu ilə tutma. Maqqaş üsulu ilə tutma zamanı uşaq əşyanı baş və işarət barmaqları arasında sıxaraq əlinə götürür və tutub saxlayır. Bu üsuldan rəsm zamanı nadir hallarda istifadə edilir.

Maqqaş üsulu ilə tutma vərdişinin formalaşmasının birinci mərhələsini mənimsəyən uşaq əşyaları baş və işarət barmaqlarının oturacaq hissələri ilə götürür. Bu üsul, məsələn, plastilinlə işləyərkən, kağızdan applikasiya hazırlayarkən, xırda məişət əşyaları və təbii materiallarla işləyərkən istifadə edilir. Uşaq maqqaş üsulu ilə tutma vərdişinin formalaşmasının ikinci mərhələsində əşyaları baş və işarət barmaqlarının uc hissələri ilə götürür. Bu üsul məişətdə kifayət qədər az hallarda istifadə edilir. Bununla belə xırda muncuqları götürmək, nazik sapı parçadan dartıb çıxarmaq üçün lazım olur. Belə dəqiqliklə tutma vərdişinin formalaşması ləngidikdə ondan əvvəlki mərhələni davam etdirmək və bu mərhələ üzrə işləri daha sonra lazım olduqda yenidən yerinə yetirmək olar. Bu mərhələdə biləyi sabitləşdirmək və onu havada asılı şəraitdə döndərmək bacarığı formalaşmağa başlayır. Qeyd etmək lazımdır ki, bu, uşağın kiçik motorikasını daha dəqiq və məhsuldar edir. Lazım gələrsə, uşağın biləyini öz əlinizlə tutub azacıq qaldırmaqla bu sabitləşdirmə üsulundan istifadə etməsinə yardım edə bilərsiniz.

## Uşağın məişət şəraitində inkişafı

Uşağı fəal şəkildə gündəlik həyata cəlb etməyə davam edin. Onun məşğələlər, oyunlar və ya ətrafdakıların sərbəst müşahidə edilməsi prosesində mənimsədiyi bütün vərdişlərin yerinə yetirilməsinin tələb edilməsi, bu isə o deməkdir ki, gündəlik həyata daxil edilməsi lazımdır. Əks halda, uşağınız yeni vərdişlərə yiyələnərkən köhnə vərdişlərini unutduğunu görüb məyus olacaqsınız.

Uşaq hələ də çanağa otuzdurulmasını istəməyi öyrənməyibsə, aşağıda verilən tövsiyələrdən istifadə edərək onu buna öyrədin.

**Uşağın çanağa öyrədilməsi**

Gigiyena vərdişlərinin mənimsənilməsi, o cümlədən, çanaqdan və ayaqyolundan istifadə etmək vərdişləri istənilən

uşaq üçün çox çətin olur. Çünki, bu, daxili orqanlardan daxil olan hisslərin təhlilini tələb edir. Bundan əlavə, uşaq özünü ayaqyoluna getmək və ya başqa bir sıra sərbəst hərəkətlərin edilməsi (çanağı tapmaq, şalvarını aşağı çəkmək və s.) istəyini bildirməyə çatdırması üçün hisslərini əvvəlcədən duymalı və təhlil etməlidir. Daun sindromlu uşaqlarda bu bacarıq adi yolla formalaşır. Lakin, adi inkişaf edən uşaqlara nisbətən gec də ola bilər.
Müxtəlif müəlliflərin məlumatlarına əsasən uşağın əvvəlcədən bayıra getmək ehtiyacını əvvəlcədən hiss etdiyi psixi inkişaf dövrü 15 – 18 ay arasında tərəddüd edir. Sidiyə getmək vaxtını hiss etmə isə 18-24 ay arasında formalaşır.

Bu yaş dövrünə çatmaqdan əvvəl uşaq nəyi mənimsəyə bilər? Bu hazırlıq mərhələsində uşaq çanaqdan istifadə etməyi öyrənə bilər.

1. Uşağın davranışlarını diqqətlə müşahidə edən böyük onun sifət cizgilərindən, müəyyən səslərdən başa düşə bilər ki, onu çanağa otuzdurmaq lazımdır. Onun cəhdləri uğurlu olsa, uşaq get-gedə çanağın təyinatını öyrənər və tədricən özü böyüyün diqqətini öz ehtiyaclarına yönəltməyə başlayacaq.

2. Böyüklər uşağın davranışlarından onun ehtiyaclarını müəyyən edə bilmirlərsə, uşağın bayıra və sidiyə getmə vaxtını özlərində qeyd edə bilərlər. Uşağı optimal vaxtda çanağa otuzdurmaqla onun çanağın təyinatını öyrənməsinə yardım edə bilərsiniz. Bu zaman nəzərə almaq lazımdır ki, uşaq çanaqda üç-beş dəqiqədən artıq oturmamalıdır.

3. Yedizdirmə və yatızdırma kimi "Qızlar – analar" oyunundan da istifadə edilə bilər. Bu oyuna çanaqdan istifadə də daxil edilir. Bu, təkcə uşağın vəziyyəti anlamasına deyil, eləcə də ondakı qorxunun aradan qaldırılmasına yardım edəcək. Psixoloqlar və pedaqoqlar qeyd edirlər ki, bayıra və sidiyə getmə zamanı uşaqda bədənin hansısa hissəsinin itməsi ilə bağlı qorxu hissi yaranır. Bu halda, valideynlərə müsbət nəticəyə çox da həyəcanla reaksiya verməməyi tövsiyə etmək

olar.

4. Oyun zamanı uşağa çanaq və ya ayaqyolunu bildirən jest və sözlər öyrətmək faydalıdır. Bu, öz ehtiyaclarını bildirmək imkanı verəcək.

5. Uşaq çanağın yerini bilməli, böyüyün istəyi ilə tapa bilməli və ya gətirməlidir.

6. Uşaq böyüyün onu çanağa otuzdurmasından əvvəl şalvarını aşağı çəkməyi öyrənəcək.

Düzgün təşkil edildikdə hazırlıq mərhələsində uşaqda çanağa qarşı müsbət münasibət formalaşır, uşaq onun təyinatını dərk edir və çanaqda oturmağı istəmək bacarığı üçün ilkin şərtlər yaranır.

Çanağa oturmaq istədiyini bildirmək bacarığı tədricən formalaşır.

1. Uşaq baş verənlər barədə "postfaktum" xəbər verir. Onu xəbər verdiyinə görə tərifləyin, onun yaş şalvarını əynindən çıxardın və bir neçə dəqiqə çanaqda oturmağı təklif edin. O, yəqin ki, şalvarını yaş etməkdən qorxmuş və buna görə də "öz məhsulunun" bir hissəsini özündə saxlamışdır.

2. Uşaq "proses" zamanı çanağa oturmaq istədiyini bildirir. Bu halda onu tez çanağa otuzdurmaq lazımdır. Bir çox valideynlər artıq gec olduğunu səbəb gətirərək bunu etmirlər. Uşaqda belə bir səhv təsəvvür yaranır ki, o, gecikibsə bu barədə valideynə məlumat vermək lazım deyil. Bu isə həmin vərdişin formalaşmasında bir addım geriləmək olacaq.

3. Uşaq əvvəlcədən çanağa oturmaq istəyir. Bu vərdişin inkişafında çox vacib məqamdır. Uşağın hər şeyi çanaqda etməyi çatdırmağı üçün böyük onun şalvarını tez aşağı çəkməlidir. Bu vərdişin nə dərəcədə inkişaf edəcəyindən asılı olaraq uşaq özünü daha çox saxlayacaq və şalvarını özü çıxartmağı bacaraq.

4. Uşaq çanağa artıq özü sərbəst otura bilirsə, böyük onun vəzifəsini maksimum sadələşdirməlidir: çanaq həmişə əlçatan yerdə olmalı, şalvarlar asanlıqla aşağı çəkilən və rahat olmalıdır.

5. Bu vərdişə daha sonra tualet kağızından istifadə, çanağın içindəkiləri tullayaraq onu yuma, ayaqyoluna su buraxma, şalvarını geyinmə, bayıra gedəndən sonra əllərini yuma vərdişləri əlavə olunur. Bütün bunlar bizim əvvəlki fəsillərdə təsvir etdiyimiz prinsiplər əsasında formalaşan hərəkətlərin mürəkkəb zəncirini təcəssüm etdirir.
Pampersdən imtina uşağın çanağa getmək istəməyi öyrətmək üçün vacib şərtdir. Yalnız çirkli şalvarın yaratdığı narahatçılığı hiss edən uşaq yuxarıda qeyd edilən bütün vərdiş mərhələlərini ardıcıl keçə bilər. Bəzi valideynlər uşaqları yayda şalvarsız saxlayırlar – nəticə isə pampersdən istifadə ilə eynidir. Uşağın dərisi tez quruyur və buna görə də öz hərəkətlərində nəyisə dəyişmək ehtiyacı hiss etmirlər.
Gecə quru qalmaq bacarığı isə əksinə pampersdən istifadə edilməsini tələb edir. Ola bilsin ki, ilk baxımdan burada ziddiyyətli baxış vardır. Lakin, bir daha nə əldə etmək istədiyimiz barədə düşünək: "Uşaq bütün gecəni oyanmadan və quru qalmaqla yatmalıdır." Bəzi valideynlərin etdiyi kimi uşağı hər gecə yuxudan oyadıb çanağa otuzdursaq davamlı olaraq gecəyarısı yuxudan durub çanaqda oturaraq böyüklə ünsiyyət qurmaq, hətta oyun oynamaq vərdişi riski əldə etmiş olarıq. Bu halda artıq bütün gecəni quru qalmağı bacara bilən uşaq yuxudan oyanıb valideynlərini oyadır, onlar dərhal yuxudan durmasalar hətta yataqlarını da isladırlar.
Biz pampersdən istifadə ilə yanaşı gecə yuxusu vaxtı qidalanma rejimini də dəyişməyi tövsiyə edirik. Nəzərə almaq lazımdır ki, təkcə meyvə şirəsi və süd məhsullarının deyil, eləcə də meyvə və tərəvəzin tərkibində çoxlu miqdarda maye vardır. Sonuncu yedizdirmə zamanı sıyıq və ya xəmir xörəyi vermək daha yaxşıdır.
Eyni zamanda kifayət qədər böyük adamlar da vardır ki, gecə hökmən ayaqyoluna gedirlər. Üç-dörd yaşdan yuxarı uşaqların pampersləri səhərə yaxın hələ də yaş olursa yəqin ki, bu elə həmin haldır. Beləliklə, uşaq davranış taktikasını dəyişdirməli, ayaqyoluna getmək üçün gecə yuxudan qalxmağı öyrənməlidir.

## Uşağın oyun zamanı inkişafı

Oyunun uşağın əsas fəaliyyət növü olması qəbul olunmuşdur. Uşaq oynayarkən dünyanı dərk edir, orada fəaliyyət göstərməyi öyrənir. Oyun çətin vəziyyətlərin və qorxunun öhdəsindən gəlməyə kömək edir.

**Uşaq oynamağı necə öyrənə bilər?**

Uşağın yaşından və oyunun özündən asılı olmayaraq bir neçə universal üsul mövcuddur.

1. Oyunu uşağa oyunu bacaran kimsə öyrətdi.
2. Uşaq oyunu başqalarının oyununu müşahidə edərək öyrəndi.
3. Uşaq təsadüfi hallar və ya başqa oyunların nəticəsində özü üçün maraqlı nəticə çıxardı və onu yenidən əldə etməyə çalışır.
4. Uşaq oyun zamanı onun həyatda gördüyü və yaşadığı vəziyyətləri əks etdirir.

Bax, bu da son. Əlbəttə, başqa variant da ola bilər. Lakin, onlar bu sxemə diqqətlə nəzərdən keçirildikdən sonra daxil edilə bilər. İndi isə oyunla mümkün tanışlıq üsullarına qayıdaq. Onlar sizə nəyisə xatırladırmı? Əgər xatırlamadınızsa yadınıza salmağa çalışın. İnsan biliyi necə əldə edir? Asanlıqla əmin ola bilərsiniz ki, məhz bu dörd üsul sizin və bizim üçün də universaldır. Doğrudan da biz biliyi xüsusi təşkil edilmiş təlim prosesində əldə edirik. Müəllim rolunu kitab da oynaya bilər. Bu birinci üsuldur.



Biz müşahidələr aparmaq yolu ilə insanlığın sosial təcrübəsini mənimsəyərək çox şey öyrənirik.

Üçüncü üsulu biz çox nadir hallarda istifadə edirik. Bu, alim-

tədqiqatçının və uşaqların üstünlüyüdür. Beləliklə, biz heç nə ilə fəxr edə bilmərik. Uşağın təfəkkür fəaliyyəti bizimkindən daha gərgin rejimdə baş verir. Biz artıq tanıdığımız şablonlarla hərəkət edirik.

Oyunla tanışlığın dördüncü üsulu və bu o deməkdir ki, insanın dünyanı dərk etməsi incəsənətə aiddir. Həqiqətin öz fəaliyyətində əks etdirilməsinə yaradıcılıq adlandırılır. Burada biz sizinlə uşağa nisbətən heç də yüksəkdə deyilik.

İndi, bizim sizinlə təbiətin insana yeniliyi dərk etməkdə böyük potensial əta etdiyinə, bu potensialın yaş keçdikcə tədricən itdiyinə əmin olduğumuz vaxtda fikirləşək görək uşağa yeniliklə tanış olmaqda yardım edərkən onun əl-qolunu öz strategiyamızla bağlamamaq və onu artıq kasıblamış sxemimizə daxil etməməyə çalışmaq olar.

***Oyunun mənimsənilməsinin mərhələləri***

Birinci mərhələ - tanışlıq və ya indi demək dəbdə olan təqdimat

İkinci mərhələ - oyunun müəyyən sayda təkrar edilməsi yolu ilə yaddaşda möhkəmləndirilməsi

Üçüncü mərhələ - sərbəst oyundur. Bu mərhələni "fəaliyyətdən həzz alma" da adlandırırlar.

Dördüncü mərhələ heç də bu oyunun mənimsənilməsinə aid deyil. Bu mərhələdə uşaq onun xoşuna gələn hərəkəti dəfələrlə təkrar edib onlardan həzz aldıqdan sonra ona olan marağını itirir. Bu, ona işarədir ki, o, artıq növbəti addıma hazırdır.

***Hansı oyunlar uşağınızı cəlb edir?***

Süjetli oyunlar

Biz artıq qeyd etmişik ki, uşağın iştirak etdiyi və ya kənardan müşahidə etdiyi belə oyunlar məişət şəraitini əks etdirir. Belə oyunları təşkil etməkdə uşağınıza yardım etmək üçün uşağınızın onlarla necə oynadığını müşahidə edin və onun oyununa qoşulun. Beləliklə, siz nəinki uşağa əşyaların təyinatını dəqiqləşdirməkdə və onların oyunda şərti olaraq istifadəsini başa düşməkdə yardım etməyəcək, həm də uşağın

ünsiyyət və nitqinin inkişafı üçün əla imkandan yararlana biləcəksiniz. Oyunda məişət əşyaları və oyuncaqlardan (qab-qacaq, uşaq arabacığı, çarpayı, paltar dəsti olan kukla, maşın), "Həkim", "Bərbərxana" dəstindən, köhnə baş geyimləri, şərflər, çantalar olan qutudan istifadə edin.

Quruculuq oyunları

Oyun zamanı uşaqla birlikdə yığılıb-açılan oyuncaqlardan, tərkibinə nəinki kubik, eləcə də prizma, silindr, tağlar və digər fiqurlar olan konstruktordan istifadə edin. Üç-dörd hissədən (hissələr həm üfüqi, həm də şaquli vəziyyətdə qoyulur) ibarət müxtəlif istiqamətli qurğular hazırlayın, sadə pazllardan ibarət şəkillər yığın. 4-5 hissədən ibarət piramidalar və matryoşkalarla, eləcə də 4-5 dəliyi olan poçt qutusu ilə oynamağa davam edin.

Yaş və "çirkli" oyunlar

Belə oyunlar bütün uşaqlar üçün faydalıdır. Uşaq əlavə lamisə-hərəkət hissləri əldə edir. Uşağın su və qum ilə oyunu üçün şərait yaradın. Belə məşğələlər üçün ən əlverişli vaxt uşağın həyətdə oynaya biləcəyi yay fəslidir. Elə evdə də uşağın suda çırpınmasına, özünü xüsusi boyalarla boyamasına icazə verə bilərsiniz.

Hərəkətli oyunlar

Uşağın böyüklərlə və digər uşaqlarla səs-küylü oynamaqdan, xüsusi ləvazimatlardan – döşək, yastıq, top, keqlidən istifadə edilən oyunlardan, yelləncəkdə yellənməkdən, velosiped sürməkdən, qış əyləncələri olan xizək, kirşə sürməkdən, qardan şaxta-baba, qala qurmaqdan və qartopu oynamaqdan çox xoşu gəlir.

Burada sizə fantaziyanız, uşaqlıq əyləncələri ilə bağlı xatirələr və əlbəttə ki, uşağınız istək və üstünlüklərini bilməyiniz yardım edəcək. Yaddan çıxarmayın ki, bəzi uşaqlar belə oyunlardan ehtiyat edə bilərlər.

## Məhsuldar fəaliyyət

Adından göründüyü kimi belə fəaliyyətin nəticəsi hər hansı "məhsul"dur: rəsm, plastilin fiqur, applikasiya. Uşağın əməyinin nəticəsini hər hansı formada istifadə edilməsi yaxşı olardı: şəkil və ya applikasiya divarda öz yerini tapır, plastilindən hazırlanmış "suşkalar"ı kuklanıza təklif edin. Rəngli tabaşir, boya və flomasterdən istifadə edərək uşaqla birlikdə kağız, linoleum üzərində rəsm çəkin. Uşağa plastilini bölməyi, yumrulamağı, sonra isə onları bir-birinə birləşdirməyi öyrədin. Təbii materiallardan istifadə edərək maraqlı fiqurlar və fantastik konstruksiyalar qurun. Uşağa formaların köməyi ilə xəmirdən müxtəlif fiqurlar kəsib çıxarmağı öyrədin.

## İzahlı rəsm

Bu uşağın inkişafına kompleks təsir göstərilməsi məqsədilə onunla aparılan xüsusi növ məşğələdir. İlk vaxtlarda bu metodiki üsuldan uşağa rəsmin necə çəkildiyini izah etmək, onun marağını rəsm prosesinin özünə cəlb etmək üçün istifadə edirdilər. Valideyn uşağın gözünün qabağında rəsm çəkərək bu hərəkətləri şərh edirdi. Hərdən uşağın çəkilən rəsm əsərinə öz detallarını əlavə etməsi təklif olunan birgə rəsm çəkmə metodundan da istifadə edilirdi. Məsələn, uşaq dovşan şəkli çəkir, uşaq isə ot. Təcrübə göstərdi ki, bu metoddan müntəzəm istifadə olunması nitqin inkişafına töhfə verir. Axı, sizin nə çəkdiyiniz sizin nə şərh etdiyinizə uyğun gəlir. Bundan əlavə, izahlı rəsm çəkmə təsəvvürün inkişafına yardım edir, bu zaman uşağın diqqətini baş verənlər üzərində cəmləyir, hadisələrin ardıcıllığını nümayiş etdirir, kağız vərəqində oriyentasiyanı öyrədir. Rəsm çəkildikdən sonra onun müzakirəsi orada uşağın başına gələn gerçək hadisələr təsvir edildiyi halda xüsusilə yaddaşın inkişafına müsbət təsir göstərir. Əlavə etmək lazımdır ki, bu metoddan istifadə böyükdən hər hansı təsviri fəaliyyət qabiliyyəti tələb etmir: Uşağın söhbətin nədən getdiyini başa düşməsi üçün çox sadə sxematik şəkillərin çəkilməsi kifayət edir.

## İdrak fəaliyyətinin inkişafı
## (koqnitiv inkişaf)

Uşağın fiziki cəhətdən fəallığı, ətraf məkanı öyrənmək üçün şəraitin yaradılması, nitqi başa düşmə bacarığının inkişafı, böyük və uşaqlarla ünsiyyət və əməkdaşlıq uşağın idrak fəaliyyətinin inkişafı üçün vacib amillərdir. Uşağınızın koqnitiv inkişafının stimulyasiyasına yönəldilmiş bir neçə xüsusi məşğələ və oyun nümunəsini diqqətinizə təqdim edirik.
Çeşidləmə və cütlərin tapılması – idrak fəaliyyətinin inkişaf etdirilməsi üzrə bütün məşğələ növlərində istifadə edilən universal oyunlardır.

### Çeşidləmə

Yalnız bir əlamətinə görə fərqlənən iki əşya qrupundan məsələn, eyni rəngli kubik və kərpiclər və ya ölçüsünə görə eyni, rənginə görə isə fərqli kubiklərdən istifadə edilir. Bu əşyalar uşağa istənilən ardıcıllıqla təqdim edilir və eyni olanları bir yerə yığmaq tapşırılır. Bu zaman "eyni", "həmin" sözlərindən, eləcə də onların fərqləndiyi əlamətləri bildirən sözlərdən istifadə edin. Məsələn: "Bu sarı sıxacdır. Harada daha sarı sıxac var? Onları bir yerə yığ. Onlar eynidir."

### Cütlərin tapılması

Cütlərin tapılmasının müxtəlif variantlarından istifadə edilir: cüt oyuncaqlar, cüt şəkillər, eyni oyuncağın təsvir edildiyi oyuncaq və şəkil. Bu tapşırıq uşağa çox çətin ola bilər. Onda, hansı məqsədə nail olmaq istədiyinizi ona izah etmək lazımdır. Belə təlimə nümunə gətirək.
Uşağa əvvəlcə seçim etmədən eyni oyuncaq və ya şəkilləri bir yerə qoymağı öyrədirlər. Məsələn, ayı təsvir edilmiş şəkli uşağa verin. Sonra isə ona yenə də belə bir şəkil göstərin. Uşaqdan əvvəl bir, sonra isə digər ayını göstərməyi xahiş edin və onları bir yerə qoyaraq deyin: "Ayını ayının yanına qoyaq". Sonra siz digər şəkillərdən istifadə edərək uşağa onları bir-birinin üstünə

qoymağı öyrədə bilərsiniz.
Növbəti mərhələdə artıq seçim etmək bacarığı nəzərdə tutulur. Məsələn, uşağın qarşısında iki şəkil vardır: dovşan və top. Siz top şəklini göstərib deyirsiniz: "Topu topun yanına qoy" və ya "Topları bir yerə qoy"
Daha sonra siz şəkli şəklin üstünə yığmağı öyrədirsiniz və bu, artıq loto oyunun başlanğıcıdır.
İrəlidə təqdim ediləcək oyunların gedişində uşaq əşyaların xüsusiyyətlərini və keyfiyyətini fərqləndirməyi öyrənəcək.

## Formanın fərqləndirilməsi

• Uşağa əşyaları (kubiklər və kürəciklər) formasından asılı olaraq iki qrupa ayrılmasını təklif edin.

• Uşağı oyuğa uyğun gələn fiquru seçməyə sövq edilməsi ("Poçt qutusu", "Seqen lövhəsi"). Oyuqların sayı uşağın tapşırığı yerinə yetirmə üsulunu mənimsəməsindən asılı olaraq tədricən artırılır. Böyük düzgün oyuğu tapmaqda uşağa yardım edir. Bu zaman yoxlama və səhv metodundan istifadə edilir. Uşaq tədricən özü baxmaqla uyğunlaşdırma metoduna keçir.

• Quruculuq. Uşağa əvvəlcə iki-üç müxtəlif hissədən, məsələn, kubik, kərpic və üçbucaq prizmadan ibarət sadə şaquli konstruksiya (ev) qurmaqda yardım edin. İki eybi kubik dəsti götürün və aramla hərəkətlər ardıcıllığını uşağa nümayiş etdirin və bu hərəkətləri sizdən sonra etməsini istəyin. Uşaq şaquli quruculuğun öhdəsindən gəlməyi öyrəndikdən sonra ona qatar qurmağı təklif edin. Bu zaman bir neçə kərpic üfüqi vəziyyətdə (vaqonlar) yerləşdirilir, birinci kərpicdə isə kubik (lokomotiv) qoyulur. Sonra isə müxtəlif istiqamətli qurğuların (stol, stul, çarpayı) növbəsidir. Əşyaların formasını ifadə edən sözlərdən istifadə edin.

## Ölçünün fərqləndirilməsi

Bundan ötrü aşağıdakılardan istifadə edilir: sadə fiqurların ölçülərinə görə fərqləndiyi iç-içə stəkanlar,

matryoşka, piramida, müxtəlif pazllar. Bunları siz özünüz də hazırlaya bilərsiniz. Bunun üçün müxtəlif ölçüdə bir neçə dairəvi dəmir qapaq götürün və karton kağızda uyğun dəliklər açın. Əşyanın ölçüsünü ifadə edən sözlərdən istifadə edin. Konstruksiya qurarkən müxtəlif ölçülü detallardan istifadə edin.

**Rəngin fərqləndirilməsi**

Uşağa rənglərə görə müxtəlif növ çeşidləmə və cütlərin tapılması tapşırıqları verin. Məsələn, siz uşaqla birlikdə corab cütlərini seçə bilərsiniz. Konstruksiya qurarkən müxtəlif rəngli detallardan istifadə edin. Məişətdə əşyaların rəngini ifadə edən sözlərdən istifadə edin.

**Əşyaların digər xüsusiyyət və keyfiyyətlərinin fərqləndirilməs**i

Uşağın diqqətini əşyanın materialına və keyfiyyətinə yönəldin. Bu zaman "hamar", "xovlu", "yumşaq", "bərk", "tikanlı" sözlərindən istifadə edin. Uşağın diqqətini əşyaların dad xüsusiyyətlərinə cəlb edərək "şirin", "turş" və s. kimi ümumişlək sözlərlə ifadə edin.

Əlamət kimi kəmiyyətin fərqləndirilməsi

Uşaq hələ saymağı bacarmır, lakin, əşyaların harada bir, harada çox olduğunu fərqləndirir. Uşağın diqqətini əşyanın sayına cəlb edin. Məsələn, peçenyenin harada bir dənə, harada isə çox olduğunu soruşun.

**İlkin hesablama vərdişləri**

Uşağın saya biləcəyi, qruplaşdıra və cütlərini tapa biləcəyi xırda oyuncaq və əşyalar götürün.

Saydan istifadə etməyə başlayın. Uşağa eyni bir neçə əşya təklif edin və onlardan birini götürməsini istəyin. Onun sizin istəyinizi düzgün yerinə yetirməsinə yardım edin. Bir əşyanı bir barmaqla göstərin. Uşağın bir barmağı ilə seçilmiş əşyaya toxundurmağına kömək edin.

Uşaq bir əşyanı fərqləndirdikdə iki əşyanın fərqləndirilməsinə keçin.

• İki əşyanı bir-bir götürməyi təklif edin və deyin ki, bu, iki dənədir. Əşyaların sayını barmaqların sayı ilə göstərin.

• Əşyaların sayını fərqləndirməkdə uşağa kömək edin. Məsələn, bir boşqaba iki suşka, digərinə isə bir suşka qoyub uşaqdan onları göstərməyi istəyin.

• Oyunda və məişətdə sayları bildirən xahişlərdən istifadə edin. Məsələn, "mənə iki alma gətir."

• Uşağın diqqətini onun iki əli, iki ayağı olduğuna cəlb edin. Çəkmənin də iki əşya olduğunu göstərin.

• Kuklanın gözlərini, qulaqlarını, yanaqlarını, burnunu və ağzını göstərməyi xahiş edin. Bu zaman saylardan istifadə edin. (burun bir dənə, qulaqlar isə iki dənədir.)

## NƏTİCƏ

Hər bir uşaq ailədə, sevdikləri insanların əhatəsində yaşamalıdır. Bu, onun inkişafı üçün ən əsas şərtdir. İkinci şərt o qədər aşkar olmasa da uşağın inkişafına şərait yaradılması qədər vacibdir. Daun sindromlu uşaq üçün də, digər hər hansı uşaq üçün də inkişaf etdirici mühiti yalnız onun yaxınları yarada bilər. Bu o demək deyil ki, biz mütəxəssislərin əhəmiyyətini azaltmaq istəmirik. Valideynlərə dəstək və məsləhətlər verilməsində əsas rol onlara verilir. Erkən yaşlı uşaqların xüsusiyyətləri elədir ki, uşağa pedaqoq və psixoloqlar deyil, mütəxəssislərin tövsiyələrinə söykənən, onları sevən və söz inkişaf potensialını maksimum göstərməyə kömək edən valideynləri lazımdır.

Ümid edirik ki, bu kitab məhdud inkişaf imkanlarına malik uşaqların ehtiyaclarını daha yaxşı başa düşmək imkanı yaradacaq, mütəxəssis və valideynlərin uşaqların dünyada ilk addımlarını atmalarına yardım edən vahid komanda olmağına icazə verəcək.

Sizə bu yolda uğurlar arzulayırıq!

## VALİDEYNLƏR ÜÇÜN ƏLAVƏ ƏDƏBİYYAT

Erkən yaşlı uşaqlarla işləyərkən əlavə ədəbiyyatlardan istifadə edilməsi bu fəsildə göstərilmiş məsləhətləri genişləndirəcək və artıracaq.

Razenkova Y.A. Uşaq evləri şəraitində uşaqların inkişafındakı erkən pozğunluqların korreksiyası. “Defektologiya” jurnalı. 1998-ci il. № 2, 3

Razenkova Y.A. Körpə yaşlı uşaqlarla oyunlar. M.: Şkolnaya nəşriyyatı, 2000-ci il

Pilyuqina E. Q. Uşağın hissiyyat qabiliyyətləri. Bütün inkişaf sahələri “Doğuluram, böyüyürəm, inkişaf edirəm” üzrə kitablar seriyası. Sankt Peterburq: “Paritet”, 2003-cü il

Akimova Q. Y. “Doğuluram, böyüyürəm, inkişaf edirəm” Doğumdan altı yaşına qədər uşaqlarla məşğələlər. Yekaterinburq: U-Faktoriya, 2004-cü il

Doğumdan üç yaşına qədər uşaqlarla inkişaf etdirici oyun-məşğələlər. Tərbiyəçilər və valideynlər üçün vəsait. M.: “Mozaika-Sintez”, 2003-cü il

Yurtaykin V. V.Jiyanova P. L. Sizin uşağınız oyuncaqları. Həyatın birinci ili. M.: “Arkti”, 2001-ci il

Lauteslaqer P. Y. M. Erkən yaşlarında Daun sindromlu uşaqların hərəkət qabiliyyətinin inkişafı. Problemlər və onların həlli. M.: “Monolit” Humanitar mərkəzi, 2003-cü il

## ƏLAVƏ

### Əlavə 1

### Evdə inkişaf etdirici mühitin təşkili*
### (bir yaşdan üç yaşa qədər uşaqlar üçün)

Aşağıda verilmiş məsləhətlər sizin öz evinizdə inkişaf etdirici mühitin təşkil etməyinizə, uşağınızın isə ətraf aləmin aktiv və hər şeylə maraqlanan tədqiqatçısına çevrilməsinə yardım edəcək. Bundan ötrü nə etmək lazımdır? Ən vacibi odur ki, öz evini uşaq üçün təhlükəsiz, lakin maraqlı edin. Dünyaya onun baxışları ilə baxın və nəyin ona maraqlı və faydalı

olduğuna qərar verin.

**Mətbəx**

Beləliklə, mətbəxdə olanlardan uşağa nəyi vermək olar? Hər şeydən əvvəl – qırılmayan və yüngül mətbəx əşyalarını və ləvazimatlarını: tava, qazan və onların qapaqlarını, süzgəc, ələk, sac, çörək bişirmə üçün formalar.

Bu əşyalarla oynamaq qaydalarını uşağa göstərin: xırda əşyaları böyüklərin içində gizlədin, qapaqları bir-birinə və ya qaşığı qazanın dibinə vurduqda necə maraqlı səs çıxdığını göstərin. Uşağın diqqətini qazanların ölçüsünə görə müxtəlif olduğuna cəlb edin və onların qapaqlarını düzgün seçməyinə yardım edin.

***Parlaq qırılmayan qab-qacaq***

Onlar plastik və ya taxtadan ola bilər. Yaxşı olar ki, naxışlı taxta qab-qacaqdan istifadə edilsin.

Uşaq bir kasanı digərinin içərisinə qoya və yenidən onu çıxara bilər. Bu, onun təcrübədə belə ölçülü əşyalarla tanış olmasına yardım edəcək. Uşağınız yaş olmağı sizi qorxutmursa ləyənə su doldurun, ona fincan və ələk verərək onların arasındakı fərqi ona göstərin. Su ilə oyunlar sizin ürəyinizcə deyilsə, onları dənli ərzaq məhsulları ilə oyunlarla əvəz edə bilərsiniz. Lobya ilə ehtiyatlı olun. Lakin, qarabaşaq, düyü və buğda oyun zamanı təhlükəsizdir.

***Parlaq tənəkə çay və ya konfet qutusu***

Əksər uşaqlar müxtəlif əşyaları sandıqça və qutularda gizlətməyi xoşlayırlar.

Uşağın gözü qarşısında peçenyeni qutulardan birində gizlədin və onu tapmağını istəyin. Bu, uşağın yaddaş və müşahidə etmək qabiliyyətinin inkişafına yardım edəcək. Uşaq sizin şirniyyatı hansı qutuya qoyduğunuzu görməsə, bu, onun axtarış vərdişlərinin inkişafına xidmət edəcək. Artıq yoxlanılmış qutuları kənara qoymaqla ardıcıllıqla onların içərisini axtarmağı öyrədin.

***Meyvə şirəsi və ya süd məhsulları paketi***

Oyuncaqları onların içərisində də gizlətmək olar.

Əvvəlcə uşaq iki qutudan biri yoxlasın, sonra isə onların sayını artırın. Qutuların rəngi müxtəlif olduqda uşaq rəngləri, ölçüləri müxtəlif olduqda isə ölçüləri yadda saxlayacaq. Onlar formalarına görə müxtəlif olarsa uşağın diqqəti onun formasına yönələcək. Bütün bunlar onun diqqət, yaddaş və müşahidə vərdişlərini inkişaf etdirəcək.

---

* V. V. Yurtaykin və P. L. Jiyanovanın "Sizin körpənizin oyuncaqları" kitabındakı materiallardan istifadə edilmişdir.

Uşağa suşka və ya peçenye çubuqlarını paketə yığmağı təklif edin.
Bir neçə qutunu bir-birinə iplə bağlayıb oyuncaq qatar düzəldin. Onlara müxtəlif heyvan oyuncaqları mindirmək olar.

**Televizor və ya başqa məişət cihazları üçün böyük qutular**

Onlardan evciklər qurmaq olar. Onların içində sərbəst oturmaq, eyni zamanda sizin yaxın bir yerdə olduğunuzu eşitmək ona maraqlı gəlir. Mətbəxdə kifayət qədər yer olarsa evciyi bir küncdə yerləşdirin, mətbəx balaca olduqda isə onu otağa aparın.
Kartof, soğan və ya meyvə torbaları
Torbanı parça qırıntıları ilə doldurub onun ağzını bağlamaqla yumşaq top düzəldin. Sizin və uşağınızın artıq oynamaqdan bezdiyi çax-çaxı onun içinə yerləşdirin. Belə şəkil dəyişmiş görünüş uşaqda yenidən maraq oyadacaq.

**Yeyilən zərvərəq borucuğu**

Onlarla tütək çalmaq və qatar kimi fit vermək olar. Xırda maşın və ya kürəciyi onun içərisində gizlədin. Bu zaman uşağın qarşısında çətin bir praktik məsələ duracaq: Əşyanı borucuqdan necə götürməli? Bəlkə, borucuğu döşəməyə çırpmaq və ya qaşığın arxası ilə çıxarmaq. Borucuğu köndələninə üzük formasında kəsib bölsək onları sapa düzmək olar. bu zaman əla muncuq alınacaq.

**Zərvərəq**

Zərvərəqlə köhnə səs çıxaran oyuncaqları bükmək (dolamaq) olar. Bu zaman səsli və əla bir top alınacaq. Yəqin ki, uşaq zərvərəqi açıb içindəki əşyaya baxmaq istəyəcək. Onu dayandırmayın. Qoy, maraqlarını həyata keçirsin. Onun araşdırma həvəsini söndürməmək üçün zərvərəqdə hər dəfə fərqli oyuncaq gizlədin.

**Soyuducu**

Soyuducudan ərzaq məhsullarını çıxardıqda uşağın onlara toxunmasına icazə verin və bu zaman deyin: “Soyuqdur!”

Boşqabın içinə buz parçaları qoyub uşağın onlara toxunmasına icazə verin və onunla birlikdə bu parçaların əriməyini müşahidə edin.

***İsti və qaynar əşyalar***

Siz uşağıq soyuq əşyalarla tanış etdiniz. İndi isə onu içərisində isti su olan butulkaya toxunmasına icazə verin. Və suyun isti olduğunu izah edin. Bəzi pedaqoq və psixoloqlar uşağı “qaynar” əşyalarla tanış etməyi və onun bu əşyalarla ehtiyatsız davranışının səbəb olduğu acı nəticələri gözləməməyi məsləhət görürlər. Fincan kifayət qədər qaynar olduqda uşağınızın ona toxunmasına icazə verin. Lakin, o tərzdə ki, bu yanığa səbəb olmasın. Bu toxunuş uşağın xoşuna gəlməyəcək. O, hətta ağlaya bilər. Bu anda ona deyin: “Qaynardır! Ağrıdır!” Gələcəkdə o, yəqin ki, daha ehtiyatlı olacaq.

**Otaq**

Otaq da əsrarəngiz əşyalarla doludur. Şkafda toxunulmamalı tikiş ləvazimatları qutusu vardır, kündə televizor qoyulub, onun yanında maqnitofon və ya digər musiqi cihazı yerləşir. Uşağa nə vermək olar ki, onun inkişafı üçün istifadə edilsin?

***Müxtəlif materialdan (ipək, xəz, məxmər, xovlu parça) hazırlanmış parça kəsikləri***

Müxtəlif kəsikləri ayrı-ayrı qutulara və ya çantalara

yığın. Qoy, uşağınız onları açsın, içindəkiləri çıxarsın, baxsın və yoxlasın. Oyunun sonunda onları yerinə yığmasına yardım edin.

***Sap çarxları***

Bizim məqsədimizə ən uyğun gələn əşya əgər atmamısınızsa, taxta çarxlardır. Onları sapa düzərək muncuq düzəltmək olar. Belə çarxlar olmazsa, karton və ya plastmas çarxlar da yarayar. Onlar müxtəlif rəngdə rənglənir. Uşağınız bu əşyaları ipə düzməkdə çətinlik çəkərsə, yumşaq ipin əvəzinə naqildən də istifadə etmək olar.

***Kitab və jurnallar***

Uşaqlar təkcə öz kitablarını deyil, eləcə də böyüklər üçün kitab və jurnallarını gözdən keçirməyi xoşlayırlar. Onlarla birlikdə jurnallardakı şəkillərə baxın. Uşağın tanıdığı obyektləri – it, maşın, ata, ana, uşaq, ev və s. ayırın və onların adlarını deyin. Onlar barəsində uşaqla söhbət edin. Uşağınız əlinə keçən şeyləri ağzına aparmaq vərdişindən əl çəkibsə, əngli şəkilləri olan jurnalları sərbəst oynaması üçün ona vermək olar.

***Akvarium***

Evinizdə akvarium varsa, uşağınızın diqqətini parlaq rəngli balıqlara və onların necə üzdüyünə yönəldin. Akvariumun yaxınlığında balaca stul qoyun. Bu, onun stulda oturub balıqları müşahidə etməsinə təkan verəcək.

***Telefon***

Bütün uşaqlar telefona böyük diqqət ayırırlar. Onlara oyuncaq telefon və ya hətta əsl, lakin nasaz telefon aparatı təklif etdikdə onlar bununla qane olmurlar. Uşağınızın əsl telefon danışığına və ya uğultuya qulaq asmağına imkan yaradın. Bunun üçün onunla yanaşı döşəmədə, xalça və ya ədyal üzərində oturub aparatı yanınıza qoyun və nənəyə zəng edərək uşaqdan onunla danışmasını istəyin və ya sadəcə olaraq telefon nömrəsini yığın.

***Stol altında evcik***

Ən yaxşısı yazı stolunun altıdır, lakin digər stollar

da yarayar. Qapı qismində divanın yastıqlarından da istifadə etmək olar. Bəlkə, siz onun ev deyil, qaraj və köşk etmək istəyəcəksiniz. Bu, sizin təxəyyülünüzdən və uşağın istəyindən asılıdır.

***Şkaf və dolabçalar***

Şkaf və ya dolabçada uşağınız üçün də yer ayırın. Buraya oyuncaq yığın. O, buradan onları götürə bilər. Uşaq təhlükəsiz əşyalar, məsələn, paltar yığılmış bir neçə başqa gözü də araşdıra bilər. Davamlı olaraq "olmaz" deməklə özünüzün və uşağınızın əhvalını korlamamaq üçün digər gözləri bağlayın.

***Radio***

Radioqəbuledicini yalnız hərdən bir istifadə edin. Radio bütün gün fasiləsiz işləsə uşaq ona qulaq asmağı dayandıracaq.

***Maqnitofon***

Satışda uşaqlar üçün işlənmiş uşaq nəğmələri, klassik melodiyalar yazılmış lentlər, xalq mahnıları və bir çox başqa əsərlər vardır. Təkcə məzmununa görə sadə yazıları axtarmayın. Ola bilsin ki, böyüklər üçün mahnılar da onun xoşuna gələcək. Müxtəlif təbiət səsləri çıxaran musiqi yazılar da vardır. Siz öz səsinizi də lentə köçürə bilərsiniz. Ailənizin yaşlı, ən kiçik üzvlərinin səslərini yazın və uşaqdan bu səsin kimə məxsus olduğunu soruşun. Ətraf aləmdə baş verən hadisələr zamanı yaranan səsləri də lentə yazın. Uşaqdan həmin səslərin məzmununu soruşun və bu zaman ona yardım edin. Mütəxəssislər uşaqlara qulaq asmaq üçün anlaşıqsız uşaq danışığı, gülüş, ilk deyilən sözlərin təklif edilməsini məsləhət görürlər. Bu səslər uşaqların xoşuna gəlir. Onlar bu səslərə çox vaxt cavab verirlər və bu zaman dialoq yaranır.

Musiqinin xüsusiyyətlərindən asılı olaraq musiqi sədaları altında müxtəlif hərəkətlər edin – rəqs edin, marşla yeriyin, kuklanı yırğalayıb yatırın. Uşağın hələ yeriyə bilmirsə, onu əllərinizlə tutaraq çoxlu hərəkətlər edə bilərsiniz.

***Şəkil albomu***

Uşağın öz şəkillərindən, onun yaxınlarının, ev heyvanlarının şəkillərindən istifadə edin. Onun sevimli

oyuncaqlarının və məişət əşyalarının şəklini çəkin. Alboma onunla birlikdə baxın və qısa hekayələr quraraq fotoşəkilləri şərh edin. Uşaqdan sizin nə və kim barəsində danışdığınızı barmağı ilə göstərməsini istəyin. Uşaq bacardıqda təsvirlər barədə qoy, özü danışsın. Müəyyən vaxtdan sonra bu, onun sevimli məşğuliyyətinə çevriləcək. Uşaq yatmazdan əvvəl çətinliklə sakitləşərsə, bu, birgə oyun-söhbət onun yuxuya hazırlaşmağına yardım edəcək.

***Fənər***

Otağın işığını söndürüb fənəri yandıraraq onun işıq şüalarının divarda və tavandakı hərəkətini ona nümayiş etdirə bilərsiniz. İşıq ləkəsini müxtəlif əşyaların üzərinə gətirib onların adlarını deyin. Uşağa fənərdən özünün istifadə etməsini təklif edin. Qoy, o özü sizin istəyinizlə televizoru, öz çarpayısını və ona məlum olan digər əşyaları işıqlandırsın.

**Vanna otağı**

***Saç qurutmaq üçün fen***

Uşaq işləyən fenin səsindən qorxmursa, onu yandırıb hava axınını əvvəlcə saçına, sonra isə ehtiyatla əllərinə tutun. Axını onun bədənin müxtəlif yerlərinə yönəldib adını desəniz, o, tezliklə öz bədən üzvlərini tapmağa başlayacaq.

Hava axınının önünə rəngli şar, nazik parçadan hazırlanmış şərf və rəngli kağız parçaları tutun: uşaq onların necə uçuşduğunu görüb şənlənəcək.

***Paltaryuyan maşın***

Uşaq paltarı onun içərisinə yığmaqda sizə kömək edə bilər. Bu, əlbəttə, çox vaxt aparacaq, lakin, sizə ünsiyyət həzzi verəcək. Uşaqdan əşyaların arasından şalvarları, maykaları tapmağı istəyin. O, çoxlu əşyalar içərisindən ayırmaqda çətinlik çəkdikdə ona seçim üçün ölçüsünə görə bir-birindən kəskin fərqlənən iki əşya təqdim edib soruşun: “Sənin köynəyin hanı?” Onun diqqətini maşın səsinə və titrəyişinə yönəldin.

***Suda oyunlar***

Hər şeydən əvvəl uşağın isti və soyuq suya toxunmasına icazə

verin. O, vannada olarkən suya müxtəlif əşyalar buraxıb onlarla oynamaq üsullarını nümayiş etdirin: süngəri sıxmaq, su qabı ilə su tökmək, probka və tennis topunu tutub vedrəyə atmaq lazımdır. İstənilən əşyanı suya batırmaq və onun suyun səthinə çıxmasını gözləmək olar. bu, uşaq üçün ən sevimli əyləncə olacaq və ona hadisələri əvvəlcədən görməyi öyrədəcək. Çimmə zamanı üz qırxma kreminin damcılarını suda üzdürün. Qoy, uşaq əlini ona vurub özünə bulaşdırsın. Vannadakı kremi barmaqlamağına icazə verin. (lakin, kremi ağzına vurmasına və ya özünə sürtməsinə imkan verməyin)

***Tərləmiş güzgü üzərində rəsm***

Burada məzəli üz təsvirləri çəkin və uşağa barmaqlarını güzgüdə hərəkət etdirməyi təklif edin. Onun diqqətini barmaqlarının izinə yönəldin. Şaquli izləri yağış, üfüqi izləri isə yol adlandırın.

***Paltar sıxacları***

Möhkəm olmayan parlaq rəngli plastmas sıxaclar almağa çalışın. Sıxacları plastmas boşqablara bərkidib uşağa onları çıxarmağı təklif edin. Onları vedrəyə və ya qutuya yığmasını xahiş edin. Sıxacı uşağın paltarına yapışdırıb onu çıxarmağını istəyin. Əvvəlcə onu uşağın gözünün qabağında, sonra isə hiss edilmədən edin. Onu sıxacı tapıb çıxarmağa sövq edin.

***Diş şotkası***

Bütün diş şotkalarını uşağa göstərib onları stəkanlara qoyun. Yalnız onun şotkasını saxlayın. Ona yaxşı göz gəzdirdikdən və toxunduqdan sonra ikisinin, sonra isə stəkanın içərisindəki bütün şotkaların arasından onu tapmağı təklif edin.

**Dəhliz**

***Ayaqqabı.***

Uşağın ayaqqabı ilə oynamasına nə qədər qarşı çıxsanız da onun belə oyunlar oynamağı ə elə ilk imkandan ayaqqabını əlinə götürməyi ilə barışmalı olacaqsınız. Hətta, siz nə qədər sayıq olsanız belə zaman-zaman uşağınızın dəhlizin döşəməsində oturub çəkmə və ayaqqabılarla oynadığını aşkar

edəcəksiniz. Sizin alternativləriniz yenə də əvvəlkilərdir: uşağın araşdırma obyektlərini seçmək hüququnu tanımaq və ya qadağan etmək. Birinci halda həmin mühiti yaratmaq və onunla birlikdə oynamalı olacaqsınız.
ayaqqabı ilə necə oynamaq olar:
çıxarmaq və iplərini salmaq;
çəkmələrin zəncirbəndlərini bağlamaq və açmaq;
bütün ayaqqabıları bir cərgəyə düzmək və uşaqla birlikdə onun ayaqqabı və çəkmələrini axtarmaq (siz onları özünüzə çəkmə görünüşü yaratsanız bu, balaca oyun iştirakçısını güldürəcək);
balaca kukla və ya maşını ayaqqabının içərisində gizlətmək;
uşağın böyüyün ayaqqabısını öz ayağına keçirməsinə yardım etmək (yeri gəlmişkən, bunu etmək balaca çəkmənizi öz ayağınıza keçirməkdən asan olacaq. Lakin, böyük çəkmələr onun özünəqulluq vərdişlərinin formalaşmasında ilk addımları olacaq);
ayaqqabını ələ keçirib şən musiqi sədaları altında məzəli rəqs etmək;
Oyunu bitirdikdən sonra ayaqqabını uşaqla birlikdə yerinə qoyun.

***Baş geyimləri***

Baş geyimləri ilə oyunlar üçün sizə güzgü lazım olacaq. Bu zaman siz aşağıdakıları edə bilərsiniz:
Şlyapanı güzgünün qabağında uşağa geyindirib soyundurmaq;
Onu geyinib uşağın isə onu çıxartmasını təklif etmək;
Şlyapanı uşağın əlinə verib onu sizin başınıza qoymasını təklif etmək;
Şapkanı uşağın başına elə keçirə bilərsiniz ki, onun gözlərini örtsün. Sonra isə soruşun: “(Onun adı) haradadır?”
Şlyapa ilə üzünüzü örtüb “ku-ku!” deyin və uşağı şlyapanı kənara çəkməyə sövq edin.

***Üst geyimləri***

Gəzməyə getməzdən əvvəl uşağa gödəkcəsinin yerini soruşun. Çalışın ki, geyinmə prosesində o da iştirak etsin. Paltarın qolunu ona uzadıb əlini içəri salmasını istəyin. Əli

paltarın qolunda olduqda ondan soruşun: “Sənin əllərin hanı, onu görmürəm” əlləri paltarın qolundan çıxdıqda isə buna sevindiyinizi göstərin. Digər paltarlarla da beləcə oynamaq olar. Gəzintidən qayıtdıqdan sonra palto və ya gödəkcəni uşağın əynindən demək olar ki, bütünlüklə çıxarıb təkcə bir qolunu saxlayın. Uşaq sizin başladığınız hərəkəti sona çatdırıb paltarı əynindən çıxardıqda onu tərifləyin.
Asılqanın divara alçaqdan bərkidilməsi daha yaxşı olardı. Uşaq tədricən öz paltarını buraya asmağı öyrənə bilər.

***Gəzinti oyuncaqları***

Sizin yəqin ki, gəzinti zamanı istifadə olunması nəzərdə tutulmuş oyuncaqlarınız vardır. Uşağın gəzintiyə özü ilə hansı oyuncağı aparmaq seçimini özünə həvalə edin. Bu, heç də o demək deyil ki, yalnız onun seçdiyini götürmək olar. Axı, onun zövqü sizə bəllidir. Evə qayıtmamaq üçün başqa oyuncaq da götürün. Lakin, yadda saxlamaq çox vacibdir ki, uşağa seçim hüququ verməklə, onu qərar qəbul etməyi öyrədirsiniz.



***Zəng***

Bir çox uşaqlar zəngin səsindən qorxurlar. Bu hal onun səsi kəskin və uca olduqda daha xarakterikdir. Uşağın zənglə oyun zamanı tanış olmasına imkan yaradın. Uşaqla birlikdə qapıya çıxın və onun zəngin düyməsini basmağına kömək edin. əgər evdə sizdən başqa adam da varsa, qoy, qapını açsın, uşağı gördüyünə sevinsin və uşağıq qucaqlasın. Adətən belə oyunlardan sonra qorxu yox olur.

## Əlavə 2
## Sifət və artikulyasiya orqanlarının masajı

### Sifət əzələlərinin masajı

Sifət əzələlərinin masajı üçün işarət barmağının "kəsmə" və ya sürüşmə hərəkətlərindən (üz qırxmanın imitasiyası), sığallama, ovucla və barmaqların ucu ilə şappıldatma hərəkətlərindən istifadə edilir. Həm saat əqrəbi, həm də onun əksi istiqamətində eyni sayda hərəkətlərin yerinə yetirilməsi vacibdir.

**Məşq 1**. Sifət əzələlərinin aktivləşdirməsi. Saçaqlı parçadan tikilmiş əlcəklə onun yanaqlarını dairəvi şəkildə silin. Hərəkətlər bərabər və enerjili olmalıdır. Burunun pərlərindən başlayıb gicgahlara qədər, gicgahlardan isə aşağıya hərəkət edin.

**Məşq 2.** Barmaqlarla uşağın üzünə şappıldatmaq – "barmaqlar qaçdılar". Barmaqlarınızı tez və coşqun hərəkətlərlə onun yanaqları və dodaqları boyunca gəzdirin.

**Məşq 3.** Əlinin içi ilə uşağın yanaqlarını şappıldatmaq. Böyüyün əllərinin oturacaqları uşağın çənəsinin altında birləşir, ovucları isə onun yanaqlarını örtür. Coşqu ilə, lakin zəif şappıldadın.

**Məşq 4.** İşarət və orta barmaqlarla uşağın dodaqlarına şappıldatma. Bu zaman "M-m-m-m" demək lazımdır.

**Məşq 5.** "Zəng" oyunu

Ahənglə tələffüz edin:

"divar, divar" (bu zaman 3-cü məşqdəki kimi yanaqları şappıldatmaq lazımdır;

"Tavan" (alına toxunmaq);

"İki pillə" (işarət və orta barmaqla çənəni və üst dodağı şappıldatmaq lazımdır);

"Və zəng çalır: "Dziin!" (işarət barmağını ucu ilə uşağın burnuna basmaq).

**Məşq 6.** İşarət barmağının yanı ilə uşağın gicgahından ağzına qədər sürüşkən (qırxma) hərəkət.

**Məşq 7.** İşarət barmağının qalın hissəsi ilə gicgahdan ağıza qədər kəsmə hərəkətlər.

**Uşağın ağız və dil əzələlərinin masajı**

(Masaj üçün diş şotkası və ya böyüyün barmağına bint dolamaq üsulundan istifadə etmək olar.)

1. Barmaqların uclarını saat əqrəbi və onun əksi istiqamətində ağız ətrafında şappıldatmaq
2. Eyni hərəkəti aramla etmək və hər toxunuşda dayanaraq sanki "daha da dərinə burmaq"
3. Uşağın üst dodaq əzələlərinin masaj edilməsi: işarət barmağının ucu və ya orta hissəsi ilə burundan üst dodağa doğru şappıldatmaq
4. Burundan üst dodağa doğru uşağın əzələlərini sığallamaq. Hərəkət işarət barmağının qalın hissəsi ilə edilir.
5. Baş və işarət barmaqlarını elastik hərəkətlərlə ağızın kənarlarındakı nöqtələrə bir neçə dəfə basmaq. Sonra isə dodaqları yığıb "u" səsi çıxarma vəziyyətini imitasiya etmək lazımdır. Bu zaman hökmən "u-u-u" deməli.
6. İşarət barmağını alt dodağın altına gətirib onu üst dodağa çatana qədər yuxarı vurmaq və bu zaman "ba-ba-ba" demək lazımdır.
7. "Düşbərə": baş və işarət barmağının hərəkəti ilə uşağın dodaqlarını yummaq. Bu hərəkətlər kökə və düşbərə bişirilən zaman edilən hərəkətləri xatırlatmalıdır. Bu zaman deyin: "m-m-m"
8. Xüsusi masaj şotkası və ya bint dolanmış barmağı yanağın içəri tərəfindən ağzına salın. Əzələləri yuxarı qaldıraraq fırlanma hərəkətləri yerinə yetirmək lazımdır.
9. Hər iki yanağı içəri tərəfdən "sürtələmək". İşarət barmağını şotka və ya bintlə uşağın ağzına salın və baş barmağı çöldə saxlayın.
10. Uşağın dilinin ucunu barmaqla alveollara (yuxarı dişlərin arxasındakı əzələlər) doğru qaldırın. Bu zaman deyilir: "da-da-da", "ta-ta-ta"

***Dilin masajını*** xüsusi masaj və ya diş şotkası ilə dilin ortası ilə ucundan kökünə qədər və ya əksinə sığallamaq və ya şappıldatmaqla yerinə yetirmək olar.

***Masajın bitməsi.*** Dil ağızdadır və işarət barmağı ilə uşağa ağızı bağlı saxlamaqda yardım etmək lazımdır.

## Əlavə 3
## Birinci lüğət

Uşağın nitqinin inkişafının stimulyasiyası üçün lüğəti yoxlama vərəqlərindən istifadə etməyi məsləhət görürük: siz onu müntəzəm olaraq doldursanız, uşağınızın aktiv və passiv lüğətinin həcmi barədə təsəvvür əldə edə bilərsiniz. Bu, onun artıq hansı sözləri sərbəst, hansıları isə sizi təkrarlamaqla dediyini aşkarlamaqda sizə yardım edə bilər. Siz həmçinin uşağınızda hansı kateqoriyalı sözlərin çatışmadığını müəyyən edə bilərsiniz. Bu və digər məlumatlar nitqin inkişafı üzrə işlərini düzgün planlaşdırmağa və inkişaf dinamikasına nəzarət etməyə imkan verəcək.

### Yoxlama vərəqlərindən istifadə

***1. Yoxlama vərəqlərini doldurun***

Uşağın sözü başa düşdüyünə əmin olduğunuz halda birinci sütunda yoxlanılan bu sözün qarşısında işarə qoyun və tarixi qeyd edin. Əgər buna şübhə etsəniz, uşağın sözü əşyanın, hərəkət və ya onların təsvirlərinə uyğunlaşdırma bacarığını dəqiqləşdirmək üçün ona iki əşya və ya hərəkətdən birini seçməyi təklif edin.

Uşağın sözü başa düşdüyü və sərbəst və ya sizi təkrar edərək onu jestlə ifadə etmək bacarığına əmin olduğunuz halda ikinci sütunda işarə qoyun və tarixi qeyd edin.

Uşağın sözü başa düşdüyü və onu təkrar edə bildiyi halda üçüncü sütunda işarə qoyun və tarixi qeyd edin.

Dördüncü sütunda işarə qoyub tarixi qeyd edin və uşağın sözü sərbəst şəkildə necə tələffüz etdiyini yazın. Yəni,

sizi təkrar etmədən onu necə tələffüz edir.

Uşağın sözü başqaları üçün anlaşıqlı və aydın şəkildə tələffüz edə bildiyi halda beşinci, sonuncu sütunda tələffüz nümunəsini yazın, işarə qoyub tarixi qeyd edin.

***2. Nitqi inkişafı üzrə iş üçün sözlər seçin***

Nitqi başa düşmə (impressiv nitq), eləcə də uşağın özünün aktiv nitqi üzərində işləmək çox vacibdir. Ona görə də siz iki müxtəlif siyahı tərtib etməli olacaqsınız. Sizin fikrinizcə uşağa maraqlı olan və gündəlik həyata daxil edə biləcəyiniz sözləri seçin. Hər bir işçi siyahıya müxtəlif kateqoriyalara aid beş söz, məsələn, iki isim, iki fel, bir sifət daxil edilə bilər.

Uşağın mənimsədiyi sözləri məişətdə və oyunda aktiv istifadə edin, işçi siyahını isə yeni sözlərlə doldurun.

Uşağın aktiv nitqində 50-dən çox söz olduqda onları cümlədə birləşdirməyə sövq edin. Məsələn: "Lyalya – bax".

***3. Tərəqqini qeyd edin***

Həftədə bir dəfədən az olmayaraq müntəzəm şəkildə vərəqlərdən uşağınızda yaranmış yeni sözlərin müvafiq sütunlara qeyd edilməsi üçün istifadə edin.

Uşaqlar bir çox sözləri irəlicədən hər hansı xüsusi iş aparılmadan istifadə etməyə başlayır.

Adətən yeni jestlərin və / və ya sözlərin yaranması üçün kifayət qədər çox vaxt tələb olunur. Lakin, sonra bir qayda olaraq uşağın onun ətrafındakı hər şeyin öz adının olduğunu başa düşməsi ilə nitqin inkişaf tempi artır.

| **İsim** | **Başa düşür (tarix)** | **Jestlə göstərir (tarix)** | **Sözü təkrar edir (tarix və tələffüz nümunəsi)** | **Özü sözdən istifadə edir (tarix və tələffüz nümunəsi)** | **Kənar adamlar üçün aydın danışır (tarix və tələffüz nümunəsi)** |
|---|---|---|---|---|---|
| **Heyvanlar** | | | | | |
| Dovşan<br>Pişik<br>Toyuq<br>At<br>Ayı<br>Xoruz<br>Quş<br>Balıq<br>Donuz<br>İt<br>Ördək<br>Cücə | | | | | |
| **Paltar, ayaqqabı** | | | | | |
| Çəkmə<br>Corab<br>Palto<br>Tuman<br>Şapka<br>Şalvar | | | | | |
| **Məişət əşyası** | | | | | |
| Qaşıq<br>İşıq<br>Boşqab<br>Telefon<br>Saat<br>Fincan | | | | | |
| **İnsanlar Xüsusi adlar** | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Baba<br>Nənə<br>Qız<br>Dayı<br>Oğlan<br>Ana<br>Ata<br>Xala | | | | | |
| **Ev** | | | | | |
| Vanna<br>Çarpayı<br>Stol<br>Stul<br>Televizor | | | | | |
| **Ərzaq** | | | | | |
| Banan<br>Sıyıq<br>Süd<br>Peçenye<br>Meyvə şirəsi<br>Çörək<br>Alma | | | | | |
| **Evdən kənarda** | | | | | |
| Yağış<br>Ev<br>Yol<br>Ağac<br>Yelləncək<br>Qar<br>Ot<br>Gül | | | | | |
| **Oyuncaqlar** | | | | | |
| Kitab<br>Kubik<br>Kukla<br>Top<br>Piramida | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Bədən üzvləri** | | | | | |
| Saç<br>Göz<br>Qarın<br>Diş<br>Burun<br>Ağız<br>Əl<br>Qulaq<br>Dil | | | | | |
| **Nəqliyyat** | | | | | |
| Avtobus<br>Avtomobil<br>Təyyarə | | | | | |
| **Fel** | **Başa düşür (tarix)** | **Jestlə göstərir (tarix)** | **Sözü təkrar edir (tarix və tələffüz nümunəsi)** | **Özü sözdən istifadə edir (tarix və tələffüz nümunəsi)** | **Kənar adamlar üçün aydın danışır (tarix və tələffüz nümunəsi)** |
| Atmaq<br>Ayağa qalx-<br>maq<br>Vermək<br>Zəng etmək<br>Oynamaq<br>Yemək<br>Əllərini<br>yellətmək<br>Rəsm<br>çəkmək<br>İçmək<br>Ağlamaq<br>Qoymaq<br>Öpmək<br>Daramaq<br>Oturmaq<br>Yüyürmək | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Qulaq asmaq<br>Baxmaq<br>Yatmaq<br>Rəqs etmək<br>Ayaqlarını yerə vurmaq<br>Çıxıb getmək<br>Yıxılmaq<br>Yerimək<br>İstəmək<br>Dişlərini təmizləmək | | | | | |
| **Sifət (təsvir)** | **Başa düşür (tarix)** | **Jestlə göstərir (tarix)** | **Sözü təkrar edir (tarix və tələffüz nümunəsi)** | **Özü sözdən istifadə edir (tarix və tələffüz nümunəsi)** | **Kənar adamlar üçün aydın danışır (tarix və tələffüz nümunəsi)** |
| Böyük<br>Çirkli<br>İsti<br>Kiçik<br>Qəşəng<br>Soyuq<br>Təmiz<br>Yaxşı | | | | | |
| **Digər nitq hissələri** | **Başa düşür (tarix)** | **Jestlə göstərir (tarix)** | **Sözü təkrar edir (tarix və tələffüz nümunəsi)** | **Özü sözdən istifadə edir (tarix və tələffüz nümunəsi)** | **Kənar adamlar üçün aydın danışır (tarix və tələffüz nümunəsi)** |
| **Məkan bildirən sözlər** | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Aşağı<br>Burada<br>Orada<br>Yuxarı<br>-dan/ -dən<br>-da/ -də | | | | | |
| **Mənsubluq bildirən sözlər** | | | | | |
| Anamın<br>Atamın<br>Mənim | | | | | |
| **“Sosial” sözlər** | | | | | |
| Bəli<br>Hələlik<br>Salam<br>Sağ ol Xeyr | | | | | |
| **Suallar** | | | | | |
| Harada?<br>Kim?<br>Nə?<br>Necə? | | | | | |

## Əlavə 4
## Qeyri-verbal ünsiyyət vasitələri. Jestlər

Ünsiyyət prosesində hər birimiz sözlərdən əlavə jestlərdən, mimika və bədən hərəkətlərindən istifadə edirik. Psixoloqlar təsdiq edirlər ki, informasiyanın 60%-dən 80%-ə qədəri qeyri-verbal (qeyri-nitq) vasitələrlə ötürülür.
Şifahi nitqin formalaşmasında çətinliklər yarandığı zaman bir sıra hallarda ünsiyyət qurmaq məqsədilə sözləri, mimika və jestləri, hərəkətləri, şəkilləri, simvolları və söz cədvəllərini birləşdirən ümumi məfhum qlobal kommunikasiya sistemlərindən uğurla istifadə edilir. Ünsiyyət problemini yaradan səbəblərdən asılı olaraq bu vasitələrin nisbəti müxtəlifdir.
Bizim təcrübəmizdə şifahi nitqin müvəqqəti əvəzedicisi qismində ümumi qəbul olunmuş və ətrafdakıların xüsusi təlim keçmədən başa düşdüyü qeyri-verbal vasitələrdən istifadə olunur. Bu, çox vacibdir. Belə ki, Daun sindromlu uşaqlar öz fikirlərini həm uşaq bağçasında, həm oyun meydançasında və ona tanış olmayan adamlar olan digər istənilən vəziyyətdə jestlərlə ifadə etmək imkanlarına malik olmalıdırlar.
Uşağın ayaqyoluna getmək istəyini bildirən qeyri-verbal işarələrin istifadəsi müəyyən çətinlik yaradır. Bəzi dillərdə bu məqsədlə rəmzi sosial jestlərdən istifadə edilir. Lakin, təəssüf ki, rus dilində bu yoxdur. Biz öz təcrübəmizdə işarət barmağını aşağı yönəltməklə şərti jestdən istifadə edirik. Bu, uşağın valideynlərinin uşağı müvəqqəti olaraq başqa böyüklərin yanında qoyub getdikdə onlara bildirməli olduğu yeganə jestdir. Uşağın ayaqyoluna getmək istədiyini bildirməsinin digər mümkün üsulu çanağa istiqamətlənmiş işarəedici jest və ya sadə hərəkət, məsələn böyüyün əlindən tutub ayaqyoluna aparmaqdır.
Bizim Daun sindromlu uşaqlarla ünsiyyət zamanı istifadə etdiyimiz jest və hərəkətləri şərti olaraq bir neçə qrupa bölmək olar.

**Rəmzi sosial jestlər və hərəkətlər**
İşarəedici jest.
Bəli.
Xeyr (razı olmama).
Yox (olmama).
Olmaz.
Ver.
Al.
Bura gəl.
Qucağıma gəl.
Əlini ver.
Get.
Ayağa dur, qalx.
Salam.
Hələlik.
Sağ ol.
Mənim.
Sənin.
Onun.
Yaxşı.
**Əlavə sosial jestlər**
Bax (işarət barmağı gözə doğru uzadılır).
Qulaq as (işarət barmağı gözə doğru uzadılır).
De (işarət barmağı ağıza doğru uzadılır).
İşarəedici jestdən istifadənin digər variantları

Uşaq bütün bu jestləri situativ-işgüzar ünsiyyəti prosesində tədricən mənimsəyir.

***Növbəti jestlər qrupu əsasən əşyalarla sadə hərəkətlərin imitasiyasıdır.***

Uşaq əşyalarla hərəkət vərdişlərinin formalaşma dərəcəsindən asılı olaraq onlarla tədricən tanış olur və istifadə edir.

Müvafiq jestləri ifadə edən sözlərin siyahısını təqdim edək.

Qaşıq, yemək.
Sıyıq, sıyıq bişirmək.
Fincan, içmək.
Telefon, zəng etmək.
Daraq, daranmaq.
Diş şotkası, dişləri təmizləmək.
Yuyunmaq.
Əlləri yumaq.
Daranmaq.
Telefon, telefonla zəng etmək.
Maşın, maşınla səyahət etmək.
Təbil, təbil çalmaq.
Qarmon, qarmon çalmaq.
Tütək, tütək çalmaq.
Zəng, zəng çalmaq.
Yatmaq.
Ağlamaq.
Öpmək.
Yıxılmaq.
Getmək.
Soyuqdur, donmaq.
Müvafiq subyekt və ya obyektin cizgilərini və ya özəlliklərini təsvir və ya izah edən jestlər.
Dovşan – dovşanın hoppanmasını göstərmək və ya "qulaqlar"ı təsvir etmək.
Pişik – bir əli ilə digər əlinin üstünü sığallamaq və ya bığ təsvir etmək.
Toyuq – "qaqqıldama" jesti
At – "at sürmə" hərəkətlərini təsvir etmək.
Ayı – ayının yerişini göstərmək.
Xoruz – pipik təsvir etmək.
Quş – "uçmaq" jesti
At – əlləri yumruq formasında sıxaraq sinə səviyyəsinə gətirib "sıçrayış" təsvir edin.
Siçan – əlləri yumruq formasında sıxıb siçanın qaçışını

göstərin.
Donuz – “Donuz burnu” jesti – yumruq və ya əlin içi ilə burnu ovuşdurmaq.
İt – “hürmə” jesti – baş barmağı digərlərindən aralı saxlayın bir qədər büküb-açmaq
İnək – “buynuz” jesti, buynuz vurmaq.
Ev – barmaqların ucunu birləşdirməklə əlləri şaquli tutmaq.
Kitab, oxumaq – əllərini içini birləşdirib kitabın açıldığını göstərmək.
Təyyarə – “qanad” jesti – qolları kənara açmaq.
Böyük – hər iki qolu yuxarı qaldırmaq.
Balaca – əlləri birləşdirmək və ya bir əlin içini aşağı endirmək.
Saat –işarət barmağı ilə digər biləyinin üst hissəsinə işarə etmək.
Uşaqlar bu qrupa daxil olan jestlərin əksəriyyəti ilə emosional ünsiyyət mərhələsində, uşaq nəğmələri və nağıllarına qulaq asarkən tanış olur. Gələcəkdə bu jestlər böyüyün onları gerçək əşyalarla, hərəkətlərlə, onların təsvirləri ilə və əlbəttə ki, sözlərlə dəfələrlə əlaqələndirməyi ilə dəqiqləşir. Bundan sonra jestlərlə tanışlıq və onların yadda saxlanılmasına yardım edə biləcək nəğmə, şer, layla nümunələri təqdim edirik. Jestlə müşayiət edilən sözlər kursivlə verilir.

BİZİM AYI

Adaptasiya “Ayının evi böyükdür”

Bizim ayı çox böyük
Dovşansa balacadır.
Ayımız getdi evə
Sonra dovşan hoppandı.

GÖR KİM BİZƏ QONAQ GƏLİB?

Tap-tap,
Tap-tap –

Hər yana səs yayılır.
Güclu tappıltı ilə
Meşədən Ayi gəlir.
Dum-bolo-bom,
Dum-bolo-bom
Tap qörüm kimdir qəlir?
Meşədən hoppanaraq
Uzunqulaq dovşan gəiir.

PİŞİK
Adaptasiya edilmiş rus oyunu

Bu, pişik Məndülümdır – “ks – ks - ks”,
Ala-bula rəngi var – “ks – ks - ks”.
Süd yalamağı sevər –
“Nəm-nəm-nəm”.
Süd yedikdən sonra yatar –
“myau- myau- myau”

ALABAŞ
Sözləri S. Fyodorenkonun, musiqisi Q. Lobaçevindir

Bax budur, Alabaşdır.
Quyruğunu bulayır (işarəedici jest)
Ala-bula rəngdədir
Dişləri çox itidir (işarəedici jest)
Hav! Hav! –səs-küy salır.

DONUZ
Bu, bizim donuzum
Kürəyi çəhrayıdır (işarəedici jest)
Quyruğunu düzəldib (işarəedici jest)
Burnu isə böyüyüb.

## XORUZ

Sözləri Abdulla Şaiqindir, musiqisi Oqtay Zülfüqarovundur.

-Ay pipiyi qan xoruz,
Gözləri mərcan xoruz.
-Quk-qulu-qu,
Quk-qulu-qu,
-Səhər tezdən durursan
Qışqırıb banlayırsan
-Quk-qulu-qu,
-Quk-qulu-qu.
Qoymayırsan yatmağa
Ay canı məstan xoruz
-Quk-qulu-qu,
-Quk-qulu-qu.

## TOYUQ İSƏ DƏN YESİN

Nənəcan, nənəcan toyuq al! – 2 dəfə
Toyuqsa dən yeyir: kudax-tax-tax-tax-tax! – 2 dəfə

Nənəcan, nənəcan pişik al! – 2 dəfə
Pişik isə miyovlayır: myau-myau-myau – 2 dəfə

Nənəcan, nənəcan it al! – 2 dəfə
İtciyəz hürür: hav-hav-hav

Nənəcan, nənəcan donuz al! – 2 dəfə
Donuz xortuldayır: xryu-xryu-xryu – 2 dəfə

Nənəcan, nənəcan inək al! – 2 dəfə
İnək isə movuldayır: mmu-mmu-mmu – 2 dəfə

## MƏN GEDİRƏM, GEDİRƏM
Rus xalq nəğməsi

Gedirəm nənəmin yanına babamgilə
Atla gedirəm, qırmızı papaqla
Təpələri aşıram
Çalaya yıxılıram – bux!

## ÇƏMƏNLİYƏ GETMİŞDİK
A.Filipenko

Çəmənliyə getmişik, yallı oynayırıq biz.
Bax belə, bax belə yallı oynayırıq biz.
Görürük: çəmənlikdə bir tüklü dovşan yatır
Bax belə, bax belə - bu tüklü dovşan yatır.
Oyatmaq istədik, tütəyi çaldıq
Tütəyi bax belə, bax belə çaldıq
Təbili döydük biz dovşan oyandı
Təbili bax belə, bax belə döydük
Dovşan tez ol oyan, haydı qalx sən ayağa
Bax belə, bax belə - dovşan qalx sən ayağa

## BİZ TÜTƏKDƏ ÇALIRIQ
Biz tütəkdə çalırıq – du-du-du-du-du-du
Dovşanlar çəmənlikdə oynayır - du-du-du-du-du-du
Biz qarmonda çalırıq – lya-lya-lya-lya-lya-lya
Dovşanlar çəmənlikdə oynayır – lya-lya-lya-lya-lya-lya
İndi isə təbildə - bam-bam-bam- bam-bam-bam
Bu dovşanlar qorxdular (gözləri əllərlə örtmək)
Kolluqlara qaçdılar (əlləri açmaq)

## DOVŞAN, ƏL ÇAL
(V. L. Strakovskinin toplusundan adaptasiya edilmişdir)

Dovşan, əl çal, əl çal
Bax-belə, bax belə - əl çal
Bax-belə, bax belə - əl çal
Dovşan, dara saçını, dara
Bax-belə, bax belə - saçını dara
Bax-belə, bax belə - saçını dara
Dovşan əllərini yu
Bax-belə, bax belə - əllərini yu
Bax-belə, bax belə - əllərini yu

Sonra sıyıq ye, kompot iç, dişlərini təmizlə, rəqs elə, başını əy kimi əsas sözlərdən ibarət kupletlərdən istifadə etmək olar.

AD GÜNÜNDƏ

Maşa balaca idi, indi isə böyüyüb
Görünür, anası susəpənlə sulayır. (real hərəkətlər)

BİZ YÜKSƏKDƏN UÇURUQ

Biz yüksəkdən  uçuruq, biz alçaqdan uçuruq
Biz uzağa gedirik, biz yaxına gəlirik

Böyük sözlərə uyğun olaraq uşağı yuxarı qaldırır və endirir, sonra isə qollarını açaraq onu özündən uzaqlaşdırır və özünə yaxınlaşdırır.

ƏVVƏLCƏ BALACA OLACAĞAM

V. Seliverstovun toplusundan

Əvvəl balaca olacağam mən
Dizlərimi bükəcəyəm
Sonra böyüyəcəyəm
Anama çatacağam.

## BAŞ YELLƏNİR

İngilis xalq oyunu

İşarəedici jestdən, eləcə də oyunun sözlərinə uyğun hərəkətlərdən istifadə edilir.

Baş yellənir: da-da-da-da.
Gözlər sayrışır: bir, iki
Burun iyləyir: a (burunla nəfəs alma)
Ağız yeyir: am-am-am
Çənə atılır: tullanır
Boz siçan isə yuvacığa “əkildi! (uşağın boğazını qıdıqlamaq).

## Əl çalaq

Adaptasiya edilmiş rus xalq oyunu

Gəlin əl çalaq: şap-şap-şap
Ayaqlarımızı yerə vuraq: tap-tap-tap
Qolumuzu qaldıraq, qolumuzu endirək
Gəlin quş kimi uçaq.

Gəlin əl çalaq: şap-şap-şap
Ayaqlarımızı yerə vuraq: tap-tap-tap
Dizlərimizə çırpaq:
Bir, iki, üç
Çəkmələri göstərək – bax! (ayağı irəli çıxarmaq)

# BAKIDA YERLƏŞƏN DAUN SİNDROMLU ŞƏXSLƏRİN ASSOSİASİYASI HAQQINDA:



2002-ci ilin əvvəlində Bakıda Zaqafqaziyada yeganə olan "Daun Sindromlu Şəxslərin Assosiasiyası" yaradılmışdır. Assosiasiyanın əsas məqsədi Daun sindromlu şəxslərin, eləcə də onların ailə üzvlərinin sosial-mədəni reabilitasiyası və cəmiyyətə inteqrasiyasından ibarətdir. Assosiasiyada uzun müddət müxtəlif səbəblər üzündən cəmiyyətimizdən kənar düşmüş 96 uşaq və yeniyetmə cəmləşib.

Assosiasiya Ədliyyə Nazirliyində 1103-Q1- 1475 saylı qeydiyyatdan keçərək 2003-cü ilin 24 sentyabr tarixindən tam hüquqi əsaslarla fəaliyyət göstərir. Assosiasiya bir qrup valideynin təşəbbüsü ilə yaradılmış və onun bütün işçiləri, həmçini rəhbəri 11 ilə yaxındır ki, xeyriyyə məqsədilə təmənnasız xidmət göstərirlər.

Assosiasiyamızın nəzdində dünyanın bir çox ölkələrində tanınmış, 2003-cü ildə Vyanada keçirilmiş Beynəlxalq festivalda "Avropada analoqu olmayan teatr" kimi təsdiq edilmiş, artistləri I və II qrup əlil uşaq və yeniyetmələr olan "Dəcəllər" teatrı yaradılmışdır.

2007-ci ildə teatrın üzvləri Türkiyənin İstanbul şəhərində keçirilmiş festivala dəvət edilmiş və orada uğurla çıxış etmişlər. 2004, 2007 və 2010-cu illərdə teatrın kollektivi Moskva şəhərində "Proteatr" II, III və IV Ümumrusiya Festivallarının iştirakçısı olmuş və nəticədə Ümumrusiya teatrlarının reyestri toplusuna daxil edilmişdir. 2009, 2010 və 2011-ci ilin may, 2012-ci ilin dekabr aylarında bir neçə yeniyetmədən ibarət



kollektivimiz Türkiyənin Adana şəhərində keçirilən 5-ci, 6-ci, 7-ci və 8-ci Beynəlxalq Əlil Gənclər Festivallarında uğurla çıxış etmişlər. 2011-ci ilin sonunda Assosiasiya kollektivi Fransanın paytaxtı Parisdə keçirilən Beynəlxalq Festivalda iştirak etmiş və uğurla qarşılanmışdır.

2012-ci ilin sentyabr ayında " Dəcəllər" teatrın bir qrup üzvləri Bolqarıstanın Devin şəhərində 7-ci Ümumdünya Festivalında uğurla çıxış etmişlər. Teatrın kollektivi dəfələrlə Dövlət Uşaq Filarmoniyası, Müslim Maqomayev adına Filarmoniya, Rəşid Behbudov adına Mahnı Teatrı, Aktyorlar Evi, Şəhriyar adına Mədəniyyət Sarayı, Dövlət Gənc Tamaşaçılar Teatrının, Xəzər Universitetinin səhnəsində öz konsertləri ilə uğurla çıxış etmişdir.

Bütün bu tədbirlər Assosiasiyanın rəhbəri tərəfindən Heydər Əliyev Fondu, Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Dövlət Ailə, Qadın və Uşaq Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi və digər dövlət və özəl təşkilatların köməyi ilə təmənnasız olaraq təşkil olunmuşdur.

Teatrla yanaşı Assosiasiyanin nəzdində rəqs, əl işləri, rəsm dərnəkləri də fəaliyyət göstərir, 2006-cı ildən isə "Özümə qəlyanaltı hazırlayıram" aşpazlıq məktəbi yaradılmışdır. Bu dərslər zamanı uşaqlar özlərinə müxtəlif yeməklər hazırlamağı öyrənirlər. 2009-cu ildə I qrup əlil olan bir qrup uşağa fotoşəkil çəkmək, fotoşop və videokliplər yaratmaq bacarığı təlim edilmişdir.

Daun sindromlu uşaqların əl işlərinin və rəsm əsərlərinin sərgisi dəfələrlə Dövlət Qalereyalarında, 2007-ci ildə Türkiyənin İstanbul, 2009, 2010-ci illərdə isə Adana şəhərində keçirilmişdir.

2011-ci ilin dekabr ayında assosiasiyasının yeniyetmələri beş ölkə ərazisində keçirilən "Sərhədsiz yaradıcılıq" adlı beynəlxalq lahiyədə iştirak etmişlər. 1-ci və 2-ci qrup əlil olan yeniyetmənin 30-a yaxın rəsm və əl işləri Russiya, Ukrayna, Qırğızıstan, Misir və Azərbaycanın rəsm salonlarında nümayiş etdirilmişdir. Qeyd edilən bütün Festival və konsertlərdə Assosiasiyanın üzvləri diplom və sertifikatlarla, habelə 2006-cı ildə Uşaqların Əl İşlərinin Ümumrespublika Baxışı, 2009-cu ildə İdman və Gənclər Nazirliyi tərəfindən il ərzində uğurlara görə, 2010-cu ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Əlillərin 5-ci Ümumrespublika Bədii Yaradıcılıq Baxış-müsabiqəsində fəal iştiraklarına görə xüsusi diplomlarla mükafatlandırılmışlar. 2011-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci il dönümü və Beynəlxalq Gənclər İli ilə əlaqədar keçirilən Əlil Yeniyetmə və Gənclərin Respublika Yaradıcılıq Festivalında fərqləndiyinə görə Assosiasiya və 16 yeniyetmə diplomla təltif edilmişlər.

Bunlarla yanaşı, Daun sindromu ilə doğulmuş uşaqların valideynlərinə kömək məqsədilə Assosiasiyamız tərəfindən



hələ 2003-cü ildən hazırlanan kitabçanın 2009-cu ildə nəşri həyata keçirilmiş, eləcə də 2010-cu ildə Rusiyanın “Daunsayd Ap” ilk yardım Mərkəzinin “Daun Sindromu Faktlar”, 2011-ci ildə “Daun sindromlu uşaqlar üçün loqoritmika”, 2012-ci ildə “Daun sindromlu uşaqlarda idrak fəaliyyətinin inkişafı” və 2010-cu ilin axırında “Daun sindromlu uşağın doğulması” doğuşa yardımçı və uşaq müalicə müəssisələrində tibbi heyətə kömək məqsədilə vəsaitlər Azərbaycan dilinə tərcümə edilib çap olunmuşdur. Kitabçalar doğum və uşaq evlərinə, internatlara və valideynlərə pulsuz paylanılmaq üçün nəzərdə tutulub.

Məqsədimiz Daun sindromlu uşaqları olan ailələrə mənəvi dayaq göstərmək, 7-8 yaşına qədər Daun sindromu ilə doğulmuş körpələrlə düzgün davranmağı başa salmaq, cavan ailələrə yardım etmək və maarifləndirmə işi aparmaqdır.

Hal-hazırda, Assosiasiyada iki bölmə yaradılmış və fəaliyyət göstərir. Bu bölmələrdə uşaqların əqli inkişafı üçün, idrak fəaliyyətinin artırılması və onların uşaqlarının koordinasiya bacarıqlarının, ünsiyyət və danışıq qabiliyyətinin

artırılması sahəsində valideynlərlə məşğələlər keçirilir. Bu istiqamətdə praktik dərsliklərin tərcüməsi və çapa buraxılmasına hazırlıq işləri gedir. Həmçinin 2011-ci ildən 5-8 yaşlı uşaqlar üçün rəsm və rəqs qrupları yaradılmışdır.

Bakıda inkişafında özəlliklər olan uşaqlar üçün yardımçı məktəblərlə yanaşı, həmçinin inkluziv təhsilli bir neçə məktəb də var. Daun sindromlu uşaqlar artıq bu təhsil ocaqlarına, hətta, digər uşaqlarla bərabər adi uşaq bağçalarına və məktəblərə də gedirlər.

## Mündəricat

GİRİŞ ........................................................................................4
FƏSİL 1.
ERKƏN YAŞLI UŞAQLARIN ÖZƏLLİKLƏRİ .......................7
Erkən yaşlarında uşaqlar necə inkişaf edir.................................7
Erkən yaşlarında Daun sindromlu uşaqların
inkişaf xüsusiyyətləri ..............................................................8
Körpə ilə məşğələləri necə təşkil etməli ..................................19
FƏSİL 2.
ERKƏN YAŞLI DAUN SİNDROMLU
UŞAQLARIN İNKİŞAFI ÜZRƏ TÖVSİYƏLƏR ..................22
Birinci mərhələ ........................................................................22
İkinci mərhələ ..........................................................................29
Üçüncü mərhələ .......................................................................42
Dördüncü mərhələ ...................................................................60
Beşinci mərhələ .......................................................................85
Körpəliyin bitməsi böhranı ....................................................108
FƏSİL 3
BİRDƏN ÜÇ YAŞINA QƏDƏR.............................................110
Uşaqların inkişaf xüsusiyyətləri.............................................110
Altıncı mərhələ .......................................................................111
Yeddinci mərhələ ....................................................................133
Səkkizinci mərhələ ..................................................................144
NƏTİCƏ...................................................................................160
VALİDEYNLƏR ÜÇÜN
ƏLAVƏ ƏDƏBİYYAT.............................................................160
ƏLAVƏLƏR
Əlavə 1.....................................................................................161
Əlavə 2.....................................................................................170
Əlavə 3.....................................................................................117
Əlavə 4 ....................................................................................180
Bakida yerləşən Daun Sindromlu Şəxslərin Assosiasiyasi
haqqinda...................................................................................189

“Daun sindromlu uşaqlar və onların inkişaf xüsusiyyətləri”
silsiləsindən

P.L. Jiyanova

Daun sindromlu körpələr

Valideynlər üçün kitab

Cildin dizaynı:
M.İ. Birlyand

Cildin rəsmi:
N.Q. Volovatova

Səhifələmə
O.R. Safonova

Uşağın anadan olması ilə ailə həyatında həmişə yeni sevinc, ümidlər və körpənin sağlamlığı, güzəranı və inkişafı ilə bağlı yeni qayğılar meydana gəlir. Sizin ailənizdə Daun sindromlu körpə anadan olmuşdursa, cavabını çox vaxt əvvəlki təcrübələr və ya yaxınlarınızın təcrübələrində tapa bilmədiyiniz suallar ortaya çıxa bilər. Bu kitab nəinki bir çox suallara cavab tapmağınıza, eləcə də diqqətinizi Daun sindromlu uşaqların inkişafındakı problemlər üzərində daha yaxşı cəmləməyinizə və konkret tövsiyələr almağınıza yardım edəcək.

"Daunsayd Ap" Erkən yardım mərkəzinin pedaqoq və psixoloqları artıq neçə ildir ki, Daun sindromlu uşaqlar böyüyən ailələrə tövsiyələrini verir. Bu illər ərzində valideyn və mütəxəssislərin geniş və uğurlu qarşılıqlı təsir təcrübəsi toplanmışdır. Bizə elə gəlir ki, bu təcrübəni ümumiləşdirib müntəzəm şəkildə erkən yardım xidmətlərini ziyarət etmək və bizim mütəxəssislərimizin keçirdiklərinə bənzər konsultasiyalar almaq imkanı olmayanlar üçün əlçatan etmək faydalı olardı.

Hazırda, qəti şəkildə sübut olunmuşdur ki, körpənin hərtərəfli inkişafının stimullaşdırılmasına onun erkən yaşında başlanması əla nəticələr əldə etməyə yardım edir. Bir çox alimlər uşaqdakı inkişaf potensialının tamamilə aşkarlanmasına yardım edən digər iki vacib amili də göstərirlər:

Birinci, həyati vacib amil artıq vardır – sizin körpəniz ailədə, onu sevənlərin əhatəsində böyüyür.

İkinci amil – onun inkişafı üçün lazımi şəraitin olmasıdır və biz bu şəraiti qurmaqda sizə yardım etməyə ümid edirik. Bu məqsədlə, hazırkı vəsaiti diqqətinizi təqdim edirik.

Kitabda Daun sindromlu uşaqların inkişafı barədə ümumi informasiya, uşaqların inkişafının əsas sahələri və mərhələləri

barədə məlumatlar, ev şəraitidə körpələrlə məşğələlərin təşkili barədə ətraflı məsləhətlər verilir, bu məşğələlərin metodikası təsvir edilir. Burada, hətta pedaqoji elmlərdən çox uzaq olan valideynlərin tamamilə yerinə yetirə biləcəyi konkret tövsiyələr vardır.

Ümid edirik ki, bu kitab uşaqların erkən yaşlarında inkişafı sahəsində çalışan geniş mütəxəssis dairəsi üçün də faydalı olacaq.